**SEVDA SƏFƏRLİ**

# VƏTƏN SİZƏ OĞUL DEDİ

## (ŞUŞA ŞƏHİDLƏRİ VƏ QAZİLƏRİNİN ŞƏRƏFLİ DÖYÜŞ YOLUNDAN BƏHS OLUNUR)

**"Şuşa" nəşriyyatı**
**Bakı – 2021**

**S 035 (2022)**

**Redaktor: VASİF QULİYEV,**
**tədqiqatçı-jurnalist, nasir, publisist**
**Ön söz müəllifi: Aqil Abbas, yazıçı, millət vəkili**

***Qarabağımızın azadlığını görmək arzusu ilə yaşayan, Azərbaycanın və Qarabağın tarixindən bəhs edən elmi və metodiki məqalələr müəllifi, Azərbaycan milli istiqlal hərəkatının banisi M.Ə.Rəsulzadə ideyalarının təbliğatçısı, Azərbaycan təhsilinin inkişafında xüsusi xidmətləri olan, təhsil əlaqələrini inkişaf etdirmək məqsədi ilə keçirilən beynəlxalq seminarlarda xüsusi diplomlara layiq görülmüş tarixçi-pedaqoq, həyat yoldaşım Məhərrəm Əliyevin əziz xatirəsinə ithaf edirəm.***

**SEVDA SƏFƏRLİ.** "Vətən sizə oğul dedi", Bakı, "Şuşa" nəşriyyatı, 2021, 272 səhifə.

**S** $\frac{\text{051-(L-041)}}{\text{051-035 (017)}}$ **Sifarişlə**

**"Şuşa" nəşriyyatı**
**Bakı – 2021**

## MÜƏLLİFDƏN

Anam Azərbaycanım! Qədim diyarım, doğma yurdum. Hamıya doğma yurdu əzizdi... Sən yurdlar içində yurdsan. Bir ovuc torpağını övladların öz canından qiymətli biliblər. Ta qədimdən bu günə kimi qat-qat qalanmış keşmişini, üst-üstə yığılmış, qalaqlanmış, silinməz tarixini, övladlarının – oğul və qızlarının keşməkeşli həyatını oxuculara çatdırmaq üçün qalaq-qalaq kitablar yazılmışdır. Azərbaycan xalqının ulu keçmişinə işıq salıb baxdıqca, tarixi keçmişini səhifələdikcə qəhrəmanlıqlarla dolu, əzəmətli tarixi gözümüz önündə canlanır.

Savaş meydanlarında övladların adını ucaldanda qəhər bizi boğur. Qürurlanırıq! Ulu diyarımız naminə qürurlanırıq! ***VÜQARIMIZ ADIN GƏLƏNDƏ ÇEŞMƏLƏRƏ DÖNÜR! O ÇEŞMƏLƏR SAL QAYALARIN DAŞLARINI YARARAQ AXIR!***

Bəli! Qədim tarixə malik olan keçmişinə işıq salmaq və neçə-neçə yüzillikləri arxada qoyub, keçdiyin yollara nəzər salanda bir daha qürurlandım ki, qəhrəmanlıqlar dolu tarixin var Azərbaycanım mənim!

Gördüm ki, sənin nəinki qərinələrdən bəri süzülüb-gələn tarixin qəhrəmanlıq nümunələri ilə doludur, həm də son illərin Qarabağ hadisələri tarixinin qanlı səhifəsi, qan yaddaşıdır. Bu gün yazılan hər bir misra da, şer də, hər kiçik məqalə də, hər bir bədii əsər də Qarabağdan bəhs etməli, Qarabağı yaşatmalı, Qarabağ yaralarına məlhəm olmalıdır. Ürəyimizin başına vurulan Qarabağ yarasından neçə illərdir ki, qan süzülürdü. İnləyən torpaqlarımız, yağı caynağında qalmış ulularımızın əsir düşmüş ruhları, təhqir olunmuş tarixi abidələrimiz, qəriblikdə qalmış şəhid məzarları otuz ilə yaxındır

ki, bizi gözlədilər. Özünü Azərbaycan xalqının övladı hesab edən hər bir ziyalı bu ağrılı, həssas mövzuya biganə qala bilməz. Mən də bir ziyalı kimi bu mövzuya biganə qala bilmədim. Qarabağ mövzusu bu günün olduğu kimi, gələcəyin də mövzusudur. Zaman keçdikcə yaddaşlar kütləşəcək, hadisələr unudulacaq. Lakin bu gün yazılanlar öz aktivliyini itirməyəcək. Qarabağ hadisələri bu günün reallığına söykənərək yazılmalıdır. Müharibənin acı xatirələrini canlı şahidlərin gözü ilə qələmə almaq daha təsirlidir. Dünyanın abadlığını və gözəlliyini bərbad edən müharibələr olmasaydı, bəşəriyyət sülh və əmin-amanlıqla yaşayardı. Müharibələr heç də bir gündə baş verib, bir gündə qurtarmır. Müharibə özündən sonra uzun illər törətdiyi fəsadların acılarını yaşadır. Bu acıları yaşamağımızın səbəbi Qarabağı itirməyimizin təməlini qoyan genetik nöqsanlarımızdır. Xalqımızın humanistliyindən, qəlbiyumşaqlığından başımıza gələn bu bəlalar əsrlərdir ki, bizi faciələrə düçar etmişdir. Qarabağı itirməyimizin kökləri elə dünənimizdən, keçmişimizdəki nöqsanlardan qaynaqlanmışdır. Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı kitabında haray çəkmiş, xalqını ayıltmaq istəmişdi: ***"Mən XX əsrin əvvəllərində yazdığım bu kitabımla yaddaşları silkələdim, başımıza gələnləri gələcək nəsillərə çatdırdım. Heyhat, irsi xəstəliyimiz-yaddaşsızlığımız düşmənə yenidən fürsət verdi".***

Təəssüflər olsun ki, dövrünün böyük şəxsiyyəti M.M.Nəvvabın harayına məhəl qoymadıq, düşmənə yenə də fürsət verdik. Zaman-zaman erməni qəddarlığına məruz qalan xalqımızın unutqanlığı və dəhşətli hadisələrə biganəliyi başımıza çox bəlalar gətirdi. Soyqırımlara, deportasiyalara, repressiyalara məruz qalan xalqımız öz doğma torpaqlarında rahat yaşaya bilmədi. Bu dəhşətlər gələcək nəsillərə yaxşı çatdırılmadı. Əgər yaxşı çatdırılsaydı, 1918-ci il soyqırım qurbanlarının dəfn olunduğu yerdə parklar salınmazdı. Amma nə yaxşı ki, 20 Yanvar şəhidləri park saldığımız həmin

yerdə dəfn olundu və əsrin əvvəllərindəki qırğın qurbanlarının ruhu ilə indiki şəhidlərimizin ruhu bir-birinə qovuşdu. ***SANKİ TARİX BİZİM SƏHVİMİZİ DÜZƏLTDİ.*** Bir zamanlar o parkda deyib-gülən gənclər nə biləydi ki, ayaq basdığı torpağın altında günahsız soyqırım qurbanları yatır. Nə yaxşı ki, həmin gənclər ahıl yaşlarında öz nəvələri ilə bərabər şəhidləri yad etməyə gedə bildilər. Təəssüflər olsun ki, bir zamanlar saxtalaşdırılmış tariximizə inanaraq soyqırım qurbanlarının bu parkda uyuduğunu bilmədən, mən də həmin parka gedərdim. Bu gün isə ziyarətgaha, müqəddəs məkana çevrilmiş Şəhidlər xiyabanına gedəndə həm soyqırım qurbanlarını, həm 20 Yanvar şəhidlərini, həm də Qarabağ uğrunda şəhid olan övladlarımızı hörmətlə ana bilirik. Yoxsa, gələcək nəsillər qarşısında başımızı dik tuta bilməzdik. ***BU XƏCALƏTİ, BU QINAĞI TARİX BİZƏ BAĞIŞLAMAZDI.*** Nə yaxşı ki, ulularımızın narahat ruhları dolaşan torpaqlarımızı azad etdik. Nə yaxşı ki, neçə illərdir bizim əvəzimizə sinələrini düşmən güllələrinə tuş edən ruhların qınağından, ağır ittihamından qurtula bildik. Nə yaxşı ki, Pənah xanın, İbrahimxəlil xanın, Mir Möhsün Nəvvabın, Ağabəyim ağanın, Gövhər ağanın, Xan qızı Natəvanın Vətən dərdi ilə alışıb-yanan sinələrinə məlhəm qoya bildik. Nə yaxşı ki, Vaqifin dağılmış məzarını, dahi Üzeyirin, Bülbülün, Natəvanın təhqir olunmuş abidələrini əsirlikdən qurtara bildik. Cabbarın, Seyidin, Zülfünün yanıqlı səsi "vəfasız övladlarım!" – deyib, bizi qınamayacaq. Nə yaxşı ki, tapdaq altında qalan boynubükük ***XARI BÜLBÜLLƏRİ*** sevindirə bildik. Beləliklə, bir millətin düşmənə qalib gəlməsi üçün onun milli ruhunun, Vətən məhəbbətinin düşməndən qat-qat güclü olması yetərli oldu. Nəhayət, sübut edə bildik ki, biz türklər həmişə tarixə hakim, onlarla imperatorluqlar qurmuş, fateh millət kimi tanınmış, cahanı öz qüvvəsi qarşısında diz çökdürmüş bir millətik. Qarabağ məsələsi milli qürur məsələsi idi. Bizi o torpaqlara qaytaran ən böyük qüvvə isə ***MİLLİ RUHUMUZ***

və ***VƏTƏN SEVGİMİZ*** oldu. Vətən hamıya əzizdir. Allah Vətən sevgisini bizlərdən və övladlarımızdan əskik eləməsin. Vətən anadan olduğumuz kiçik məhəlləmizdən, balaca damımızdan, daşımızdan başlayır. Kiçik məhəlləmizdən başlayan Vətən sevgisi get-gedə böyüyərək böyük Vətən sevgisinə – ***AZƏRBAYCAN SEVGİSİNƏ ç***evrilir. Əgər balaca məhəlləmizi, damımızı-daşımızı sevməsək, böyük Vətənimiz olan Azərbaycanı da sevə bilmərik.

Bəli! ***YURDUN HƏR DAŞINI SEVMƏLİYİK. HƏR BİR DAŞDA XALQIMIZIN YADDAŞI VAR, TARİXİ VAR.*** Bəzən Şuşamın ağappaq, daşlı yolları üçün çox qəribsəyirdim. Qışda da, yayda da təmiz görünən, par-par parıldayan balaca Vətənimin – Şuşamın yolları! Ağappaq daş döşənmiş yollarını tez-tez yuxularımda görürdüm. Qəribsəyirdim, yağış yağanda yuyularaq daha da təmizlənən ağ büllur kimi parıldayan daş yolları üçün... Qəribsəyirdim, heç vaxt palçıq olmayan, sökülüb təzədən salınmağa ehtiyacı olmayan sal daşlı, ağappaq yollarımız üçün...

**Vətən dik tut başını,**
**Qoy öpüm hər daşını,**
**Bizsiz axan bulaqlar,**
**Tökməsin göz yaşını.**

deyərək, bu 28 ildə bir gün də olsa, yaddaşımdan, hafizəmdən çıxmadın, Vətənim mənim!

Bütünlükdə şerlərimin mənbəyi, özəyi olan Şuşa sevgisi bu illər ərzində tükənmək bilmədi. Bax, elə bu kiçik məhəlləmdən, anadan olduğum Şuşa şəhərimdən başlayan yurd sevgisi böyük Azərbaycan sevgisinə çevrilərək gözlərimə nur, beynimə düşüncə verib. Bu illər ərzində şerlərimin mayası, tükənməz ilham mənbəyim sən oldun, Vətən! Sənsizlikdən yaranan bayatılarım həsrətli anlarımın, iztirablı günlərimin poetik məhsulu oldu:

**Həsrətliyəm, Qarabağ,
Dağlarında qara bax.
Sənsiz sağala bilməz
Qəlbimdəki qara dağ.**

**Qarabağ talan oldu,
Xoş günü yalan oldu.
Əsdi xəzan yelləri
Xarı bülbülü soldu.**

**Bağrımda od qalandı,
Qədim qalam talandı.
Gözləri yaşlı qalan
Sevda kimi balandı.**

**Uçub evim, tavanım,
Sönüb ruhi-rəvanım,
Əsarətdə qalıbdı
Xan qızı Natəvanım.**

**Əzizinəm, bu dağa,
Bülbül qonmaz budağa,
Düşməni əzmək üçün
Xalqım qalxsın ayağa.**

Amma bu bayatılar yalnız göz yaşlarından ibarət deyil, sabaha inam, mübarizlik, qələbə əzmi ilə yoğruldu. Çünki inanırdım ki, qəlbində Vətən eşqi olan xalq məğlub ola bilməz. ***BİR OVUC TORPAĞIN, BİR QIRIQ DAŞIN ÜÇÜN YANAN HƏR BİR ÖVLADINA DOĞMASAN, VƏTƏNİM MƏNİM!*** Bu illər ərzində hər bir qarabağlı sanki ***"CANLI DƏRD ABİDƏSİNƏ"*** çevrildi. Dərdlər içimizdə pöhrələndi. ***QƏLBİMİZDƏ CÜCƏRƏN KƏDƏR HƏR GÜN BOY ATDI.*** Hər gün üzümüzü bağlı yollara tutub, bu yolları gedə bil-

məsək də, dərd-sərimizi poetik düşüncələrə çevirib, hər gün qarabağsızlıq dərdimizə güzgü tutduq. Nənələr, analar səni bayatılarda oxşadı, babalar, atalar vətənsizlik dərdindən göz yaşlarını qəlblərinə axıtdı. Axı bilirdik ki, Qarabağımız və onun incisi olan Şuşamızın ağlar gözləri bağlı yollara zillənib bizləri gözləyir. Boş qalan yurdlar sahiblərini geri qayıtmağa haraylayırlar. Necə dözə bilərdik axı!.. Şuşamıza – Cıdır düzünə gedən yolları ot basmışdı, cığırlarımız itmişdi, yollarımız cadar-cadar olmuşdu. Gedə bilməsək də, poetik düşüncələrimizlə Vətənə gedən yollara hər gün üz tutur, dərd-sərimizi Vətənlə bölüşürdük. Hər bir qarabağlı hər gün "Vətənə getməyim gəlir"-dedi. On beş il əvvəl ürək çırpıntıları ilə qələmə aldığım "Şuşaya getməyim gəlir" şerimdə dediyim kimi, bu gün də, əziz Vətən, sənin azad olunduğunu bilsəm də, yenə həmin kövrək duyğularla "Şuşaya getməyim gəlir" – deyirəm:

**Ömrümün bahar çağıdır,**
**Amma qəlbim qəm tağıdır.**
**Qəm tağım – Vətən dağıdır,**
**Vətənə yetməyim gəlir,**
**Şuşaya getməyim gəlir.**

**Xarı bülbüllər açanda,**
**Kəkotu ətir saçanda,**
**Qartal qıy vurub uçanda**
**Gülünü dərməyim gəlir,**
**Şuşanı görməyim gəlir.**

**Dağında duman görünür,**
**Cıdır düzündə sürünür,**
**Şuşam ağ tülə bürünür,**
**Dumana batmağım gəlir,**
**Şuşaya çatmağım gəlir.**

**Kirs dağı uzaqdan baxır,**
**Daşaltı çayı lal axır,**
**Göy gurlayır, şimşək çaxır,**
**Şimşək tək çaxmağım gəlir,**
**Şuşaya yağmağım gəlir.**

**Gözlərimi nəm yıxanda,**
**Qürbət el məni sıxanda,**
**Xəzəllər çaya axanda**
**Qarqara axmağım gəlir,**
**Şuşaya baxmağım gəlir.**

**Qəlbimi həsrətin yeyib,**
**Məmməd Araz yaxşı deyib:**
**Əl boyda bir mamır olub,**
**Daşında bitməyim gəlir,**
**Şuşaya getməyim gəlir.**

**Həyatın çərxi əyrimi?**
**Vüsalın üzü bərimi?**
**Otuz illik dərd-sərimi?**
**Vətənlə bölməyim gəlir,**
**Şuşada ölməyim gəlir.**

İgid ərənlərin isə ***"Vətənə getməyim gəlir",*** – deyərək sinəsin sipər edib, nəhayət, səni yağı caynağından qoparmaq üçün düşməni əllə parçalamağa, dişlə didməyə gəldilər. ***ŞUŞA QALASININ UÇAN DAŞLARINA HÖRÜLMƏYƏ GƏLDİLƏR.*** Şuşanın sıldırımlı dağlarına, qayalarına dırmaşan oğlanlar nifrətləriylə, Vətənə sevgisiylə gəldilər. Öz cüssələrində Vətən daşıyan oğullar, o boyda Vətəni özünüzlə necə daşıdınız? Şuşanı yağı caynağından xilas etmək üçün dağlara dırmaşan ərənlərimiz sanki Pənahəli xanın qəzəbli səsini eşidirdilər. Sanki əcdadlarımız, ulularımız yaxamızdan

tutub deyirdi, bizdən tələb edirdi: ***"Niyə əmanətə xəyanət etdiniz? Mən ki bu torpağı sizə əmanət vermişdim!"*** Dağlardan, daşlardan gələn əks-səda get-gedə çoxalır və ətrafı vahiməli səslər bürüyürdü. İbrahimxəlil xanın, M.P.Vaqifin, M.M.Nəvvabın, Gövhər ağanın, Ağabəyim ağanın incik səsləri bu səslərə qarışırdı. ***BU SƏSLƏR NARAHAT RUHLARIN FƏRYADI İDİ! BU SƏSLƏR ULU BABALARIMIZIN RUHUNUN QİYAMI İDİ.*** Uluların səsini eşidən igidlərə dağlar da həyan olurdular. Vətən övladlarını bu dağlar maqnit kimi özünə çəkirdi. Yıxılmağa, qopmağa qoymurdu. Bu əllər o dağlardan qopa bilməzdi, qopmurdu. Onların qollarına qüvvət, ürəklərinə təpər gəlirdi. Elə bil ki, Şuşanın hər bir dağından, daşından "***qaytarın mənim əmanətimi!"***– hayqırtısı dağlara səs salır, igidlərə qüvvət verirdi. Öz qəzəbi və nifrəti ilə silahlanan igidlərimiz Şuşanın dağlarına dırmaşanda, hətta şəhidlərini, yaralılarını çiyinlərində daşımağa güc tapırdılar.

Sanki Vətənin dağı, daşı dil olub dillənirdi. ***DANIŞAN DAŞLARDAN, DAĞLARDAN VƏTƏNİN SƏSİ GƏLİRDİ!*** Şəhidlərin qanı ilə boyanan daşlardan, qanlı axan çaylardan Vətənin iniltisi gəlirdi. Daşaltı çayı pıçıldayırdı. Nə qədər igidin qanına boyandın, Daşaltı çayı?! Qana boyanan suların, daşların sanki dil olub danışırdı. O dağlarla, o qayalarla dırmaşan igidlər öz yaralarını unudub, Vətən yarasına məlhəm olur, dağların ah-naləsini ovudur, sığal çəkə-çəkə üzü yuxarı qalxırdılar. ***ÖZ YARASINDAN SIZAN QANI SİLMƏYİ UNUDUB, VƏTƏN DAĞLARINDAN, DAŞLARINDAN SIZAN QANI SİLƏ-SİLƏ ÜZÜ YUXARI DIRMAŞIRDI İGİDLƏRİMİZ.*** Çünki onlar bu dağların, bu yurdun oğulları idi. Dağlar, daşlar danışırdı igidlərlə! Bu dağlardan gələn Xanın şikəstəsi, "Şuşanın dağları" mahnısının əks-sədası, Natəvan harayının iniltisiydi. Uca Tanrı sevgisinə tapınan igidlər. ***VƏTƏN SEVGİSİ IŞIĞI*** ilə yol gedən igidlərimiz. Qəlbinizdəki Vətən sevgisi işığı Vətənə gedən yollarınıza

ışıq saçdı. Gözlərinizə nur verən, ürəyinizə təpər verən, qollarınıza qüvvət verən yurd sevgisi, Vətən məhəbbəti oldu. ***DAMARLARINIZDA AXAN QANIN MAYASI VƏTƏN OLDU.*** Bir qəlpə daşın, bir ovuc torpağın üçün yanan övladların sənin harayına çatdılar. Uçmuş, dağılmış evinin sökük divarlarını görəndə hönkür-hönkür ağlayan oğulların "bura Vətəndir" – dedilər. Sanki bu yerlərdə Günəş də şəfəqlidir, bizə mehribanlıqla baxır. Burda qar da soyuq deyil. Sanki bizi dondurmur, bizi isidir. Burda üzümüz gülür. Çünki bu yer Vətəndir, bizim qoyub-getdiyimiz Vətənin bir parçasıdır. Ana yurdun parçalarını birləşdirdikcə kiçik yurd sevgisi böyüyərək böyük Azərbaycan, ***BÜTÖV AZƏRBAYCAN*** sevgisinə çevrilirdi. Ana yurdun hər parçasını birləşdirdikcə uca dağlar qoynunda yerləşən Laçının, buz bulaqlı Kəlbəcərin suları coşub-çağladı, Qubadlının, Zəngilanın meşələri, ağacları, çayları bizi qürurla salamladı, daş üstə daş qalmayan ruhlar şəhərinə çevrilən əzəmətli Ağdamımızın üzü güldü, torpağında yatan şəhidlərin ruhu sevindi, torpaq da canlandı. Hər daşına, qalasına muğam hopmuş Ağdamın daşları, qalaları sevindi. Musiqimizin beşiyi, məbədi olan Şuşamızın, Azərbaycana mənəvi ab-hava olan, müqəddəs qoruq, şairlər beşiyi, mahnılar çeşməsi olmuş Cıdır düzümüz yenidən canlandı. Burda üzümüz gülür, dilimiz uzun, başımız uca, əlimiz hər yana çatır sanki... Bu yerdə torpaq da canlıdır, canı var, qanı var, dili var torpağın! Bu yerin rəngi al rəngdədir, bu yerdə şəhid qanı var. Müqəddəsdir bu torpaq! Bu yerin altı da Vətəndir, üstü də. Burda duamız dərgaha, əlimiz Qurana, səsimiz Allaha çatır. Dağ yuxarı şəhidi çiynində, döyüşə-döyüşə, qan-tər içində qalxırdı Azərbaycan əsgəri! Nə yaralını, nə şəhidini əldən buraxmırdılar. Bütün dünya bizim igid oğullarımızın qəhrəmanlarından heyranlıqla danışırdı.

İgidlərimizin hər biri ***YÜKSƏK MƏNƏVİYYATA*** sahib olması ilə nümunə idilər. Hər bir döyüşçü Qarabağ döyüşlərində vətənini, xalqını, ailəsini və bütün insanları necə sev-

məyi və qorumağı öyrətdilər. Elinə, obasına sədaqət, silahdaşlarına diqqət, etibar göstərmək və savaş meydanlarında xalqımızın təfəkkürünü, mənəvi keyfiyyətlərini nümayiş etdirən igidlərimizə bu dəyərlər ulularımızdan miras qalmışdır. ***TÜRK SAVAŞ ƏXLAQINI*** nümayiş etdirən igidlərimiz ulularımızdan qalan bu yüksək mənəvi dəyərləri əmanət kimi qoruyub-saxladılar. Yüksək savaş əxlaqına yiyələnən igidlərimiz bir çox ağır sınaqlardan keçsələr də, bu yüksək mənəvi dəyərləri itirmədilər. Babalarımızın canları və qanları bahasına sahib olduğu bu dəyərlər savaş meydanlarında igidlərimizin mənəvi köklərə sıx bağlı olduğunun sübutudur. Misilsiz mənəvi dəyərlər bizə qəhrəmanlıq dastanlarımızdan, nağıllarımızdan, şifahi xalq ədəbiyyatı nümunələri ilə qanımıza hopmuşdur. Bəli, igidlərimizin qanına hopmuş vətəni, torpağı, ananı qorumaq hissləri mənəvi dəyərlərimizə sadiqliyin bəhrəsidir. 44 günlük Vətən müharibəsində mənəvi köklərimizə qayıdış, yüksək mənəvi dəyərləri yaşatmaq kimi ali məqsədə xidmət etdilər və bu dəyərli əmanəti mənəvi sərvət kimi yaşadaraq gələcək nəsillərə ötürə bildilər.

***ZAMAN-ZAMAN PARÇALANMIŞ, TALANMIŞ, ÖVLADLARI ÖZ ATA-BABA YURDUNDAN PERİK DÜŞMÜŞ, ƏCDADLARININ RUHU İNCİDİLMİŞ VƏTƏNİM!*** Hər əzası bir tərəfdə qalmış Vətən! Qarabağı sənə göz dağı etmək istəyirdilər. Ürəyimizin başına elə bir Qarabağ yarası vurmuşdular ki... Bu yara sağalmaq bilmədi, sızladı, göyüm-göyüm göynədi, qaysaq bağlamadı. Qarabağı da sənə göz dağı etmək istəyirdilər. ***QƏLBİ GÖYÇƏDƏN, ZƏNGƏZURDAN, TƏBRİZDƏN, DƏRBƏNDDƏN YARALI VƏTƏN!*** Parçalanmış əzalarını birləşdirib, səni bütövləşdirmək istəyən övladların sanki bir qığılcıma bənd idilər. Otuz il əvvəl analarının qucağında doğma yurdundan didərgin düşmüş körpələr artıq böyüdü və üzünü görmədiyi Qarabağı geri qaytarmağa axışdılar. Övladların öz ocağından pərən-pərən düşmüş, yad ocaqlara səpələnmiş, öz yurdunda qərib olmuşdu,

Vətən! Ana yurdumun parçalanmış əzalarını birləşdirən, otuz illik həsrətə son qoyan oğullar! ***TARİXLƏŞƏN, VƏTƏNLƏŞƏN*** torpağa dönüb ***TORPAQLAŞAN oğullar! BİRLƏŞƏN, BÜTÖVLƏŞƏN VƏTƏN! VƏTƏNİ BÜTÖVLƏŞDİRƏN OĞULLAR.*** Canını fəda edən igidlərin səni bütöv görmək istədi. "Qılınc qınından çıxdı" -demiş ata-babalarımız. Qılınc qınından çıxdısa, düşmənin şah damarı kəsilməlidir. Elə zərbə vurulmalıdır ki, qəddin düzəldə bilməsin. İgid oğulların yenə ayağa qalxdı.

Əgər bu gün gənclərimizdə Vətənə məhəbbət hissi olmasaydı, onun uğrunda mübarizə aparmaq ruhu da olmazdı! Böyüyən gənc nəslə, Qarabağı-Şuşanı görməyən gələcək nəslə, bir sözlə övladlarımıza Vətən məhəbbətini düzgün aşılamasaydıq, Qarabağımızı geri qaytara bilməzdik. İllər əvvəl "Şuşa" qəzetində çap olunmuş məqalələrimin birində ürək ağrısı ilə qeyd etmişdim ki, deyəsən, biz gənclərimizə Vətənimizi – Qarabağı bir o qədər də sevdirə bilməmişik. Çox arzulamışdım ki, gənclərimiz özlərini dahi Üzeyirin, M.M.Nəvvabın, Ə.Haqverdiyevin, Natəvanın, S.S.Axundovun, N.B.Vəzirovun, Xanın nəvələri kimi hiss etsinlər. Arzulamışdım ki, gənclərimiz dahilərin davamçıları olmağa layiq olsunlar. Yeni nəsil bizim qürur mənbəyimiz, fəxrimiz olmalıdır. Otuz illik pedaqoji fəaliyyətim ərzində qarşımda duran ən ümdə vəzifə formalaşan gənc nəsildə Vətən sevgisi yaratmaq, Azərbaycanın, Qarabağın, Şuşanın keçmişini, mədəniyyətini öyrənməkdə yardımçı olmaq idi. İndi çox sevinirəm ki, bu şərəfli işin öhdəsindən gələ bilmişik. Özümüzdə olan Vətən sevgisini övladlarımıza, şagirdlərimizə ötürə bilmişik.

Ürəyimə yazmışdım bu arzuları. Ürəyimin nisgillli bir guşəsinə... Bir az inamsız, bir az ümidsiz yazmışdım. Arzulamışdım ki, muğama həsrət qalan Şuşamızda, Cıdır düzündə muğam səsi ucalsın. Muğamın beşiyi olan Qarabağda – Şuşada, Ağdamda Cabbarın, Xanın, Seyidin ruhları sevinsin. Cadar-cadar olmuş torpağımızın sinəsində partlayan mərmi sə-

sini muğam səsi əvəz etsin. “Xarı bülbül” festivalları, mahnı bayramları yenə hər il Şuşamda ənənə olsun. Şükürlər olsun ki, Ulu Tanrı haqq səsimizi eşitdi. Bu arzular ürəyimizdə nisgil olub qalmadı. Bu arzular daşa dönüb ürəyimizdən asılmadı. Nə yaxşı ki, mədəniyyətimiz Şuşasız qalmadı. Nə yaxşı, Təbrizsiz, Dərbəndsiz, Göyçəsiz, Zəngəzursuz qalan Vətən Şuşasız qalmadı. Üçrəngli bayrağımız Qala qapısından asıldı.

**Təbrizsiz, Göyçəsiz Vətən,**
**Zəngəzur, Dərbəndsiz Vətən,**
**Yaxşı, Şuşasız qalmadı...**

## ŞUŞA ŞƏHİDLƏRİ RAMİZ QƏMBƏROVUN ÇİYNİNƏ QALXARAQ YÜKSƏLDİLƏR

### *ÖN SÖZ*

Şəhidlərin şərəfli döyüş yolundan bəhs edən kitaba ön söz yazmaq mənim üçün çox çətindir. Çünki belə bir yazı yazanda qucağımda gözlərimin içinə mənə söyərək bu dünyadan köçən şəhidlər gözümün önündən keçir. Və elə bilmişəm ki, onların şəhid olmasında günahkar mənəm və bəlkə də, əslində, belədir.

Qarşımda Şuşa şəhidlərinin və qazilərinin döyüş yolundan bəhs edən bir kitab var. Ön söz yazmalıyam. Kitabın müəllifi Sevda Səfərlinin qələmə aldığı hər cümləsindən, hər sətrindən sanki şəhidlər mənə boylanırlar. Müəllifin yazdığı təsirli cümlələr məni çox duyğulandırdı: ***"Şəhidlər uyuyan yerdən Vətən qoxusu gələr. Vətən bayrağına bükülən şəhiddən Vətən nəfəsi, Vətən səsi gələr. Məzarları bayraq kölgəsində, özləri Vətən olan şəhidlər! Ömrünüzü Vətənin ömrünə caladınız. Vətənin əlindən tutdunuz. Yaranızdan qan verdiniz Vətənə. Vətən damarında qanınız oldu. Şəhid yarasından qan axanda, Vətən ürəyindən qan sızar. Vətən yarasına məlhəm olan igidlərin yarasını Vətən özü sığallayar, Vətən özü öpər."***

Belə təsirli, ürək dağlayan cümlələri oxuduqca müəllifin keçirdiyi ağır hissləri mən də yaşadım. Əgər ön söz yazmaq mənə belə çətin gəlirsə, deməli, müəllif üçün belə şərəfli bir kitab üzərində işləmək ikiqat çətin olmuşdur.

***"Bizə qürur verən ünvanımızsan,***
***Ey şəhid! Sən Azərbaycanımızsan.*** – deyən müəllifin kitabının hər sətrində ürək çırpıntılarını görmək olar.

Müəllif eyni zamanda 30-dan çox Şuşa qazisinin şərəfli döyüş yolu haqqında ətraflı məlumat verir. Qazilərin hər birinin verdiyi müsahibələr, iştirak etdiyi döyüşlərdəki yaşadıqları gərgin anlar olduğu kimi qələmə alınıb. Ağır döyüş yolu keçmiş, bədənində düşmən qəlpəsi gəzdirən, ayağını, qolunu, gözünü itirən qazilər də elə canlı şəhidlərdir.

Bir sözlə, "Vətən sizə oğul dedi" kitabının ərsəyə gəlməsi müəllifin gərgin əməyinin məhsuludur, Sevda xanımın vətənpərvərliyinin

təcəssümüdür. Vətən, torpaq məhəbbəti, yurd həsrəti ilə yoğrulmuş şeirlərindən bəhrələnən müəllif kitabı bədii dildə yazmışdır. Şeirlərdəki Vətən həsrəti nə qədər təsirli olsa da, gələcəyə inam, qələbə əzmi bir o qədər güclüdür. Müəllif bu günə qədər öz qələmini şeir sahəsində sınamışdır. "Xarı bülbül həsrəti" adlı ilk şeirlər kitabında Şuşa nisgilli şeirləri toplanmışdı. Vətən müharibəsində igidlərimizin qələbəsindən ruhlanan Sevda xanım öz qələmini nəsr sahəsində sınasa da, şeirsiz ötüşə bilməmişdi. Bu da kitabın təsir gücünü daha da artırır.

"Dağıdılmış abidənin fəryadı" adlı bir pərdəli dram əsəri də olduqca təsirlidir. Əsər M.P.Vaqifin Cıdır düzündəki abidəsinin dağıdılmasına həsr edilmişdir. Əsər çox dramatikdir, düşündürücüdür, ibrətlidir. Bu bir pərdəlik dram əsərində bütöv bir mənzum faciənin təsirini duymaq olar. Müəllifin digər əsərlərində olduğu kimi "Dağıdılmış abidənin fəryadı" əsərinin sonunda da nikbinlik, qələbə əzmi, inam ön planda verilmişdir.

İlk dəfədir ki, ön söz yazmaq mənə çətin gəlir. İgidlərimizin şəhid olmasında özümü günahkar bildiyim üçün. Nədənsə onların şəhid olmasında özümü günahkar bilirəm. Amma onu da bilirəm ki, onlar bu gün Tanrının yanında bayram edirlər.

Şuşa mənim üçün həmişə alınmaz qala idi. Şuşanın vurğunu olmuşam. Mənim fikrimcə Ramiz Qəmbərov ölməsəydi, Şuşa getməzdi. Allahverdi Bağırov ölməsəydi, Ağdam getməzdi. Şuşada olarkən istədim ki, Ramiz Qəmbərovun məzarını ziyarət edim. Amma məzarı tapa bilmədim. Çünki düşmənlər qəbirstanlığı məhv etmişdilər.

Amma nə qədər məhv edirsən et, "şəhidlərin çiyninə qalxaraq yüksəliyoruz, vaxtımız yox onları dəfn etməyə." Bunu Nazim Hikmət yazıb.

Şuşanı azad edənlər Ramiz Qəmbərovun, ramiz qəmbərovların çiyninə qalxaraq yüksəldilər və Şuşanı azad etdilər.

Şuşa şəhidləri haqqında yazılan kitaba fikir bildirmək istəyirimsə, deyərdim ki, Ağdamı, Zəngilanı, Cəbrayılı, Füzulini, Qubadlını, Laçını, Kəlbəcəri azad edənlərlə Şuşanı azad edənlərin fərqi bircə ondadır ki, onlar Azərbaycanın Məkkəsini, Mədinəsini, Kərbalasını - Şuşanı azad ediblər. Bu gün şəhidlər Tanrının yanında bayram edirlər. Şəhidlər müxtəlif bölgələrdə, kəndlərdə doğulurlar, amma şəhid olanda onlar bir yüksəklikdə olurlar - Tanrının yanında.

**Aqil ABBAS,**
**yazıçı, millət vəkili**

# ŞUŞA

## BİZ 9 QARDAŞ SİZDƏN ÖTƏRİ ŞƏHİD OLDUQ Kİ, ŞUŞADA AZAD YAŞAYASINIZ.

## *ŞUŞALI ŞƏHİDLƏR*


Nurlan Həsənov


Əzəmi Hüseynov


İsrafil İbrahimov


Bəxtiyar Aslanov


Azər Əliyev


Dünyamin Tağızadə


Pərviz Məmmədov


Allahverdi Allahverdiyev


Samir Ələkbərli

## ŞƏHİDLƏR

**VƏTƏN ürəyində nəbzi vuranlar,**
**Tanrının ən uca taxtın quranlar,**
**Uca Yaradana səcdə duranlar,**
**Sizlər VƏTƏN dağlarından qopdunuz,**
**Ey ŞƏHİDLƏR, yaddaşlara hopdunuz.**

**VƏTƏN damarında qanınız oldu,**
**VƏTƏN boyda ad-sanınız oldu,**
**Elimizdə şöhrət-şanınız oldu,**
**Poladların qanı damarınızda,**
**Əzəməti, gücü vüqarınızda.**

**VƏTƏNİN əlindən tutdu əliniz,**
**Ucaltdı Vətəni hər qələbəniz,**
**Sevgidən alışdı saf ürəyiniz,**
**Vətəndən güc alıb VƏTƏN oldunuz,**
**Yandırdı düşməni VƏTƏN odunuz.**

**Yaranızdan qan verdiniz Vətənə,**
**Ucaltdınız, şan verdiniz Vətənə,**
**Şərəfli ad-san verdiniz Vətənə,**
**VƏTƏN yarasına məlhəm oldunuz,**
**Vətən çiçəklənsin deyə, soldunuz.**

**Qarabağımıza qəm səpələndi,**
**Göylərdən Yerlərə qüssə ələndi,**
**Sanki Araz coşdu, Yer silkələndi,**
**Vətənin qəmini boğdu ŞƏHİDLƏR,**
**Günəş tək yenidən doğdu ŞƏHİDLƏR!**

**Tarixə yazıldı bu haqq savaşı,**
**Sellərə dönmüşdü elin göz yaşı,**
**Qanla yuduq Qarabağda hər daşı,**
**Dərdimizə sevinc qatdı ŞƏHİDLƏR,**
**Bayraq kölgəsində yatdı ŞƏHİDLƏR!**

**Torpağı sevdiniz torpaqlaşdınız,**
**Bayrağı sevdiniz bayraqlaşdınız,**
**Vətəni sevdiniz qardaşlaşdınız,**
**Vətənləşən, torpaqlaşan ŞƏHİDLƏR,**
**Qardaşlaşan, bayraqlaşan ŞƏHİDLƏR!**

**Ürəyi Vətənlə döyünən ŞƏHİD,**
**Vətənlə sevinən, öyünən ŞƏHİD,**
**Tək bayraq önündə əyilən ŞƏHİD,**
**Bizə qürur verən ünvanımızsan,**
**Ey ŞƏHİD! Sən Azərbaycanımızsan.**

**27 sentyabr 2021-ci il**

## Nurlan Nadir oğlu Həsənov

**ŞƏHİDLƏR TORPAĞI VƏTƏNLƏŞDİRDİ,
ŞƏHİDLƏR VƏTƏNİ BÜTÖVLƏŞDİRDİ,
VƏTƏNLƏŞƏN, TORPAQLAŞAN ŞƏHİDLƏR,
EY PAKLAŞAN, EY SAFLAŞAN ŞƏHİDLƏR!**



***ŞƏHİDLİK*** ucalıq, şərəf, qeyrət zirvəsidir. ***ŞƏHİDLİK*** Vətənə məhəbbətin ən yüksək təcəssümüdür. ***ŞƏHİDLİK*** əbədiyyət zirvəsidir. Bu uca zirvəyə çatmaq üçün çox tələsirdin, Nurlan! Bu yüksəlişə can atmaq sənin təbiətində idi, Nurlan!

***ŞƏHİDLƏR*** dünənimizin qəhrəmanlıq simvolu, bu günümüzün salnaməsi, sabahımızın isə əbədi örnək təmsilçiləridir. Nurlan da əbədiyaşar olmaq üçün tələsirdi, and yerimiz olmaq üçün tələsirdi. Ucalığa çatmaq üçün, xalqının qəlbində azadlıq işığı yandırmaq üçün tələsirdi. Ailəsi ilə, iki körpə balası ilə vidalaşmadan müharibəyə yola düşmüşdü Nurlan. Vətən məhəbbəti ana məhəbbətindən də, bala məhəbbətindən də güclü imiş... Darda olan Vətənin harayına çatmaq üçün çox tələsirdi Nurlan. Tələsirdi ona görə ki, insan həyatının hər gününün yaddaqalan olmadığını bilirdi. Bilirdi ki, elə günlər var ki, unudulub gedir, elə günlər də var

ki, heç vaxt unudulmur. Bilirdi ki, azadlığı qanı ilə qazananlar heç vaxt unudulmayacaq. Ömür yolunu müəyyən müddətdən sonra hər kəs başa vuracaq. Həyata ən gözəl şəkildə əlvida deməyin adı ***ŞƏHİDLİK*** olduğu üçün, o əlçatmaz zirvəyə çox tələsirdi Nurlan. Bilirdi ki, qəlblərdə azadlıq işığı yandıran, elin-obanın qeyrətli oğulları Vətəni xilas etmək üçün irəli atılmalıdır. Bilirdi ki, Qarabağ yaramız gündən-günə təzələnir, sağalmaq bilmir, əksinə, göyüm-göyüm göynəyir. Vətən niskilli anasının qəmli gözlərini sevindirmək üçün tələsirdi. Yurd həsrətli atasının Vətən həsrətinə son qoymaq üçün tələsirdi. İki körpə balasının xoşbəxt gələcəyi üçün tələsirdi.

Zaman keçəcək, illər, əsrlər dəyişəcək, şəhidlərin qəhrəmanlığı tarixə dönəcək.

**Tarix yazdı qanıyla Vətənin hər daşına,**
**Şərəf tacını qoydu yurdun qan yaddaşına,**
**Qisas qana qarışdı, sevinc də göz yaşına,**
**Deməyin şəhidlər nə tez soldular,**
**Şəhidlər döndülər Vətən oldular.**

Şəhidi olmayan xalq torpaq məhəbbətindən, yurd sevgisindən məhrumdur. Şəhidi olmayan xalqın kimliyi, mənliyi bilinməz. Azadlığı qanı ilə, canı ilə qazanmayan xalq həmişə kölə kimi yaşayar. Həyatda yaşamaq nə qədər şirin olsa da, ölüm insanın qaça bilməyəcəyi tale yazısıdır. Amma Tanrı tərəfindən seçilmiş elə insanlar var ki, onlar cismən bu dünyanı tərk edib, ruhən Ulu Yaradana – əbədiyyətə qovuşurlar. Nurlan da xalqının belə dəyərli oğulları sırasında olmaq üçün tələsirdi.

Doğma yurd-yuvamıza o zaman Vətən deyə bilərik ki, onun sahibi olaq. Əgər Vətəni qoruya bilmiriksə, ona sahib çıxa bilmiriksə, o müqəddəs torpaqlara Vətən deməyə haqqımız da çatmaz. Yurd yerlərimizi azad etdikdən sonra ona Və-

tən deməyə haqqımız çatar. Vətənə sahib çıxmasaydıq, Vətən olmazdı axı...Vətən sevgisi pakdır. Oğullarımız Vətənə sahib çıxdılar ki, Vətən yaşasın. Şəhidlər Vətəni Vətən etmək üçün, Vətənə sahib çıxmaq üçün ona doğru can atırdılar. Yüksəlişə can atmaq insanın təbiətindədir. Şəhidlər yüksəlişə can atanlar, Vətəni candan artıq sevənlərdir.

Onlar torpaq uğrunda şəhid oldular. O torpaq ki orda ata-babalarımızın, əcdadlarımızın ruhu dolaşır. O torpaq ki mənəvi xəzinəmiz düşmən tapdağı altında tar-mar edilmişdi. O torpaq ki qayalarından daha "Qarabağ şikəstəsi" pərvazlanmırdı. O torpaq ki Cıdır düzündən xarı bülbüllər, Gülablıdan, İstisudan, Laçının gül bitirən oylaqlarından gül-çiçəklər boylanmırdı daha! Onlar şəhid oldular ki, körpələrin gülüşləri dodaqlarında donmasın. Onlar şəhid oldular ki, bir daha güllərin ləçəklərindən qan süzülməsin. Onlar şəhid oldular ki, Ramiz Qəmbərov, Ələsgər Novruzov, Canpolad Rzayev, Tofiq Oğuz, Təbriz Xəlilbəyli, Əlabbas İsgəndərov kimi mərd oğulların ruhu inciməsin. Bu cəsur oğullar haqqında hələ çox yazılacaq. Hər biri bir dastan olan oğullar!...

Nurlan Nadir oğlu Həsənov 1991-ci il mayın 19-da Şuşa şəhərində anadan olub. 1992-ci il ildə Şuşa şəhəri işğal edildikdən sonra Həsənovlar ailəsi Bakının Binəqədi rayonunda məskunlaşıb. 1997-2008-ci illərdə Bakıda yerləşən Şuşa şəhər 3 nömrəli tam orta məktəbində təhsil alıb. Məktəbi əla qiymətlərlə başa vurub. 2008-2012-ci illərdə isə Azərbaycan Texnologiya Universitetində "İnzibati idarəetmə" ixtisası üzrə ali təhsil alıb. 2015-ci ildə Gülnarə xanım ilə ailə həyatı qurub. Bir oğlu və bir qızı yadigar qalıb.

Nurlan Həsənov 2012-2013-cü illərdə Naxçıvan şəhərində yerləşən "N" nömrəli hərbi hissədə həqiqi hərbi xidmətdə olub. Daha sonra müddətli leytenant kimi Gəncə "N" nömrəli hərbi hissədə xidmət edib və 2014-cü ildə ehtiyatda olan zabit kimi ehtiyata buraxılıb.

2020-ci il sentyabrın 21-də könüllü olaraq təlimlərə qoşulub. Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Həsənov 2020-ci il oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Ayın 2-də Bakıda Biləcəri qəbiristanlığında torpağa tapşırılıb.

Nurlanın anası Həqiqət Həsənova oğlu ilə bağlı xatirələrini iftixar hissi ilə danışmaq istəsə də, kövrək hisslərinə hakim ola bilmədi: ***“Mənim balam Qarabağın, Şuşanın azad olunmasını hələ uşaqlıqdan səbirsizliklə gözləyirdi. Bizim ana-bala söhbətimiz çox zaman Şuşa haqqında olardı. Özümdən asılı olmayaraq tez-tez sual verirdim ki, görəsən, Şuşa nə vaxt azad olunacaq? Görəsən, biz o günü görəcəyikmi? Amma kaş, belə olmayaydı. Heç olmasa, Şuşanın azad olunduğu günü öz gözləri ilə görəydi... Sonuncu dəfə bizimlə vidalaşıb evdən çıxdığı gün gözlərimin qarşısındadır. İşdən evə tələsik gəlmişdi. Həmin gün mən işdə idim. Nurlan mənə zəng etdi ki, hazırlaş, gəlirəm səni işdən gətirməyə. Az keçmədi ki, artıq o, maşını ilə dayanacaqda məni gözləyirdi. Biz birlikdə evə gəldik. Yolda mənə dedi ki, ana, mən hərbi təlimlərə qatılmaq üçün bu gün yola düşməliyəm. Mən heç bu qədər təsəvvür edə bilməzdim ki, Nurlan düşməndən intiqam alacağımız günü belə səbirsizliklə gözləyirmiş. Elə həvəslə hazırlaşırdı ki, sanki onunçün toy-bayram idi. Deyərdim ki, heç zaman, hətta toya belə həvəslə hazırlaşıb getdiyini görməmişdim. İşdən evə qaça-qaça gəldiyini və sənədini götürərək evdən çıxdığı həmin günü heç vaxt unutmaram. Yalnız bir söz deyə bildim ki, axı ailən, uşaqların rayondadır. O isə maşının açarını mənə verib, bir anlığa “salamat qal, ana!” – deyərək evdən çıxdı...***

***Nurlan dünyaya göz açandan atəş səsi eşitmişdi. Düşmənin Topxanadan atdığı atəş səslərini eşidəndə körpə Nurlan ağlayırdı. Mən deyərdim ki, düşmənə olan bu nifrət onda körpəliyindən yaranmışdı.***

***Bütün şəhid anaları kimi mən də çox istərdim ki, oğullarımızın bu fədakarlıqları heç zaman unudulmasın. Şəhidlərimiz, qazilərimiz hər zaman xatırlansın. Biz şəhid anaları bununla təsəlli tapırıq. Nurlan sosial şəbəkədə təəssüflə yazmışdı: "Bağışla bizi, Şuşa!" Bəli, o, Vətən torpağının işğalda olması ilə barışa bilmirdi. Şuşanın azad olunacağı günə inanırdı və bunu həvəslə gözləyirdi. Şükürlər olsun ki, indi Nurlan arzusuna çatıb. Daha azad Şuşamıza gedə bilərik. Amma mən Nurlansız Şuşaya necə gedəcəyəm?"***

Ana təəssüf hissi ilə danışırdı ki, o, cəbhəyə yola düşəndə balalarını görə bilmədi. O, balaları ilə nəfəs alırdı. Onları çox istəyirdi. Amma Vətən sevgisi daha üstün oldu. Vətən yanğısı daha güclü ilahi hiss imiş...

Nurlanın atası Nadir Həsənov oğlunun şərəfli ömür yolu haqqında fəxrlə danışdı: ***"Nurlan 29 il yaşasa da, şərəfli ömür yaşadı. Düzdür, mən oğul itirmişəm, tək oğul övladımı. Amma düşünəndə ki, onu Vətən yolunda, el yolunda itirmişəm, qürurlanıram. Nurlan qərarını həmişə özü verirdi. Elə sentyabrın 21-də hərbi təlimlərə qoşulmaq qərarında da qətiyyətli idi. Hərbçi kimi Vətənə xidmət etməyi qarşısına məqsəd qoymuşdu. Mən oğul itirmişəm deyə bilmərəm. Çünki Nurlan indi mənim yox, Azərbaycanın oğludur. Allah bizə ömür versin, Nurlanın iki övladını onun adına layiq böyüdək. Ən böyük təsəllimiz odur ki, biz bu gün Nurlanla fəxr etdiyimiz kimi övladları da gələcəkdə ataları ilə fəxr etsinlər."***

Həyat yoldaşı Gülnarə xanım Nurlanın yoxluğu ilə barışa bilmir. O, hələ də onun məzarı üstünə gedə bilmir. Onun nə vaxtsa sağ-salamat qayıdacağı günü gözləyir.

Döyüşçü yoldaşları tez-tez Nurlanın ailəsini yada salır, Nurlanla bağlı xatirələrini bölüşürlər. Onlar Nurlanı qorxmaz, cəsur zabit kimi xatırlayırlar. Döyüşçü yoldaşlarının dediklərinə görə, Nurlan döyüşlərdə qorxmadan öndə gedirdi və ***"Qorxmayın, irəli atılın! Qoy düşmən bizdən qorxsun!***

***Biz öz torpağımızdayıq! Düşməni birdəfəlik torpaqlarımızdan qovmalıyıq!"*** – deyərək tabeliyindəki əsgərləri ruhlandırırdı.

Nurlan tabeliyində olan əsgərləri ona görə ruhlandırırdı ki, artıq düşmənə cavab verməyin vaxtı çatmışdı. O bilirdi ki, bu müharibə xalqımızı zəfərə aparan bir müharibədir. Öz mərdliyi ilə ruh yüksəkliyi vermək, öz mərdliyi ilə qarşısındakını utandırmaq, təəccübləndirmək və inam vermək canında Vətən sevgisi olan qəhrəmanlara məxsusdur. Axı qəhrəmanlıq planlaşdırılmır. Qəhrəmanlıq bir anın içində yaranır, bir anın içində doğulur. Nurlan da sinəsini düşmən gülləsinə sipər edərək öz adını şəhid adı ilə qoşa yazdırdı Vətən daşına. Adı kimi işıqlı, nurlu, parlaq gələcək uğrunda bir ananın oğulluğundan çıxıb, Azərbaycanın oğlu oldu.

Nurlan Həsənovun xatirəsini əbədiləşdirmək üçün yaşadığı evin qarşısında xatirə lövhəsi vurulmuşdur. Xatirə lövhəsinin açılışında şəhidin valideynləri, döyüşçü yoldaşları Nurlan haqqında xatirələrini danışdılar. Şəhidimizin qızı Nurgülün təsirli çıxışı hamını kövrəltdi: ***"Mən atamla fəxr edirəm. Bu gün atamın ad günüdür. Mən onu görmək istəyirəm. Mən onu öpmək istəyirəm. Amma görə bilmirəm. Axı mənim atam şəhid olub. Elə ona görə də onunla fəxr edirəm!"***

Xatirə lövhəsinin açılışında Nurlanın qızı Nurgülün fəxrlə atasını "cənab leytenant!" sözləri ilə xatırlaması şəhid övladının ürək çırpıntıları idi.

**Barıt qoxulu o yollar, o yollar,**<br>
**Səni bəs nə vaxt qaytarar, qaytarar.**<br>
**Səndən təsəlli bir zabit mundiri,**<br>
**Bir cüt ulduzlu, aylı paqonlar.**

**Hay ver mənə, cənab leytenant,**<br>
**Hay ver mənə, leytenant.**<br>
**Xoş müjdəli bir savaşdan**<br>
**Pay ver mənə, leytenant.**

Balaca Nurgül ***“Hay ver mənə, cənab leytenant!”*** – deyə atasını səsləyir. Atası isə Vətənin harayına səs verdi. Vətənlə bütövləşdi, Vətən oldu.

Nurgülün dediyi bu sözlər necə əzəmətlə səsləndi: ***“Gözün aydın olsun, ata! Şuşa alındı!”***

Bu qürurlu sözlərdən sonra Nurgül kövrək hisslərini saxlaya bilmədi: ***“Ata, axı sən demişdin ki, bütün yazılarını yaz qurtar, sizi Şuşaya aparacağam. Mən yazılarımı yazıb qurtarmışam. Bəs nə üçün bizi Şuşaya aparmadın?”***

2020-ci il sentyabrın 21-də Vətən harayına çatmaq üçün, Vətən yarasına məlhəm olmaq üçün baş leytenant Nurlan Həsənov döyüşlərə yola düşmüşdü. 2021-ci il sentyabrın 21-də isə Vətən müharibəsi şəhidi Nurlan Həsənovun adına inşa edilən bulağın açılışı oldu. Bulaq vaxtilə Nurlanın yaşadığı evin qarşısında inşa edilmişdi. Bir il əvvəl Nurlan bax, elə həmin yerdən tələsə-tələsə Vətən harayına çatmaq üçün cəbhəyə yola düşmüşdü. İndi həmin yerdən “Nurlan bulağı” adlı bulaq daim axacaq. Bulağın açılışında Şuşanın doqquz şəhidinin hər birinin valideynləri, doğmaları iştirak edirdilər. Mingəçevirdə, Bərdədə, Beyləqanda, Ağcəbədidə, Naftalanda məskunlaşmış şəhid doğmaları Bakıya Nurlanın adına tikilən bulağın açılışına toplaşmışdılar.

Vətən müharibəsinin doqquz şuşalı şəhidi bir amal uğrunda vuruşduqları kimi, onların doğmaları da bir amal uğrunda birləşmişdilər. Bir-birinə həmdəm olmaq, bir-birinə həyan olmaq, bir-birinə təsəlli vermək, şəhid oğulları qürur hissi ilə yada salmaq... Çıxış edən şəhid anaları, şəhid ataları Nurlanı öz oğullarından seçmədiklərini bildirdilər. Bu bir ilə yaxın müddətdə onlar bir-birinə o qədər doğma olublar ki... Doqquz Şuşa şəhidi, doqquz qardaş. Valideynlər Şuşa şəhidlərini belə adlandırırdılar. Doqquz ailə, doqquz şəhid atası, doqquz şəhid anası, şəhid bacı -qardaşları və doğmaları hər bir Şuşa şəhidinin ad günlərində, anım günlərində, xatirə lövhəsinin açılışında, adlarını əbədiləşdirmək üçün inşa edi-

lən bulaqların açılışında, bir sözlə, bütün tədbirlərdə bir yerdədirlər.

Rahat uyu, Nurlan! Bu gün Şuşan azaddır. Sən Şuşaya gedə bilməsən də, oğlun Məhəmməd, qızın Nurgül azad Şuşamıza gedə biləcəklər. Bəli, biz daha azad Şuşamıza gedə biləcəyik. Daha Şuşa həsrətimizə son qoyulacaq. Sanki Həcc və Kərbala ziyarətinə gedənlər kimi Şuşaya gedəcəyik. Daha Şuşa bizim müqəddəs ziyarətgahımıza çevriləcək. Torpağının hər qarışına şəhid qanı hopmuş ziyarətgahımız Şuşam! Zəfər çalan oğulların açdığı ***ZƏFƏR YOLU*** ilə gələcəyik. Oğulların səni azad edəndə dağlarına-daşlarına dırmana-dırmana keçdiyi o yollardan biz indi rahat keçib-gələ biləcəyik sənin qoynuna, Şuşam... O keçilməz yolları asan edən oğullar, ruhunuz şad olsun! Ruhun şad olsun, Nurlan!

Nurlan Nadir oğlu Həsənov Azərbaycanın ərazi bütövlüyü uğrunda şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad edilməsinə görə”, “Füzulinin azad edilməsinə görə” medalları ilə təltif edilmişdir.

## Əzəmi Əli oğlu Hüseynov

**Vətənin əlindən tutdu əliniz,**
**Ucaltdı Vətəni hər qələbəniz,**
**Sevgidən alışdı saf ürəyiniz,**
**Bizə qürur verən ünvanımızsan,**
**Ey şəhid, sən Azərbaycanımızsan!**



***ŞƏHİDLİK*** Ulu Yaradanın, Vətənin, millətin yolunda canlarını fəda etməkdir. Hər bir şəhid qeyrət güzgüsüdür. Niskilimiz, kədərimiz olsa da, ölməzliyimizdir ***ŞƏHİDLƏR,*** örnəyimizdir ***ŞƏHİDLƏR!*** Bitib-tükənmək bilməyən qəhrəmanlıq salnamələri qoyub-gedən ***ŞƏHİDLƏR!*** Bu Vətən savaşı xalqın ruhu idi. Qeyrət tacımız isə oğullar idi. İndi ən müqəddəs yerimiz bayraq kölgəsində şəhid məzarlarıdır. Daşa, torpağa can verən ***ŞƏHİDLƏR!*** Sizin Vətəniniz ürəklər oldu. Vətənlə döyünən ürəyiniz Vətənə qovuşdu. Qanınız tökülən torpaqlarda ruhunuz əbədi yaşayacaq. ***ŞƏHİD YARASINDAN QAN SIZANDA VƏTƏNİN ÜRƏYİNDƏN QAN SIZAR.***

Vətəndən güc alıb, Vətən olan şəhidlər! ***ŞƏHİDLİK*** bir zirvədir, ünvanı əbədiyyətdir.

Əsrlər keçməsinə baxmayaraq, əsla unudulmayan insanlardır şəhidlər. Tarix boyu xalqları zəfərdən-zəfərə aparan səbəb də, Vətənə xidmət və şəhid olmaq arzusu olmuşdur. ***QEYRƏT QALASI*** olan Vətəni qoruyanlar həmişə qeyrətli oğullar olub. Bu Qalanın hər daşı uğrunda mübarizə aparıb oğullar. ***ŞƏHİDLİK*** əbədi diyara səfərdir. Şəhidlik ürəklərdə əbədi yaşamaqdır. Yaddaşlara, qəlblərə hopan şəhidlər! Vətən sizdən başlayır, ***ŞƏHİDLƏR!***

**Vətənçün candan keçən,**
**Şəhidlik yolu seçən,**
**Torpağına and içən,**
**Şəhid özü Vətəndir!**

***VƏTƏN BAYRAĞINA BÜKÜLƏN ŞƏHİDDƏN VƏTƏNİN SƏSİ GƏLƏR, VƏTƏN NƏFƏSİ GƏLƏR, VƏTƏN QOXUSU GƏLƏR.*** Şəhidlər uyuyan yer özü Vətəndir. Şəhidlər uyuyan yerdə nur saçılar, cənnət gülləri açılar. Anaların göz yaşlarında daşa dönən ***ŞƏHİDLƏR.*** Vətən sevgili, Vətən sevdalı şəhidlər.

Şəhidlik insanı Allaha, Vətənə, xalqına olan sevgisinin həyat və ölüm astanasında qeyri-şərtsiz şəhadət tapdığı ali məqamdır. Şəhidlər Vətən-Allah, xalq-haqq savaşından məğrurluqla çıxıb, bir anın içində milyonların əzizinə, Vətən oğluna çevrilib, ölümü ilə də bu torpağı şərəfləndirənlərdir.

Ey Vətən sevdalıları, qürur mənbəyimiz ***ŞƏHİDLƏR!*** Siz göz qırpmadan, ölümün üzünə dik baxa-baxa şüurlu surətdə qələbə naminə ölümün ağuşuna atıldınız. Öz vətənpərvərliyinizi bütün dünyaya bəyan etdiniz. Göylərə ucaltdığınız bayrağımızla özünüz də göylərə ucaldınız. Sanki o zirvədən azad etdiyiniz Qarabağımıza baxıb sevinirsiniz. Cəsarətinizlə sübut etdiniz ki, Vətən torpağının hər qarışı sizin üçün qiymətlidir. Əzəmi Hüseynov qəhrəmanlığı ilə şəhidlik adlanan uca bir zirvəyə adını öz qanı ilə yazdıran oğullar sırasındadır.

Əzəmi Əli oğlu Hüseynov 1992-ci il avqustun 29-da Mingəçevir şəhərində şuşalı ailəsində anadan olub. 1999-2010-cu

illərdə Mingəçevir şəhərindəki 14 nömrəli tam orta məktəbdə təhsil alıb. 2010-2014-cü illərdə isə Mingəçevir Dövlət Universitetində ali təhsil alıb. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildən isə Zaqatalada müddətdən artıq hərbi xidmət qulluqçusu, xüsusi təyinatlı kimi xidmətə başlayır. Daha sonra üçillik hərbi xidmətini baş çavuş kimi başa vurub. Müharibə başlayan günü cəbhəyə yollanıb. Əzəmi Hüseynov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ə.Hüseynov oktyabrın 8-də Suqovuşan döyüşləri zamanı snayper gülləsinə tuş gəlib və şəhid olub.

Əzəminin ən böyük arzusu Şuşadakı evlərinin önünə Azərbaycan bayrağı sancmaq idi. Lakin ölümündən bir ay sonra noyabrın 8-də Şuşa azad edildi. Əzəmi canı qədər sevdiyi Şuşasının azadlığını görə bilmədi. Qələbəmizdən sonra Şuşada – Əzəminin ata yurdunda onun xatirə lövhəsi vurulub. Əzəminin arzuları həyata keçib. Üçrəngli bayraq Əzəmi Hüseynovun evlərinin qarşısında əzəmətlə dalğalanır. "Zəfərin memarı" yazılmış lövhədə məğrur duruşlu şəkildə gülümsəyərək azad Şuşasına baxır. Ruhu çox sevinir. Axı açılan sabahlarını azad Şuşasında açır. Başının üzərində də üçrəngli bayrağımız. Elə özünün arzuladığı kimi...

Özündən geriyə heç bir nişanə qoymadan şəhidlik zirvəsinə ucaldı Əzəmi! Atasızlıq niskili var idi Əzəminin ürəyində... Təəssüf ki, üç il ailəli olmasına baxmayaraq, özü də ata ola bilmədi. Ata olmaq həsrəti ilə bu dünyadan köçdü. O, bir nəslin yeganə davamçısı, üç bacının bir qardaşı idi. Ailənin, böyük bir nəslin tək oğul övladı idi Əzəmi. Sanki ailədə torpaq sevgisi, Şuşa sevgisi uşaqlıqdan qanına, canına hopdurulmuşdu. Elə bu sevgi də onu hərbçi olmağa sövq etmişdi. O, sevdiyi peşəsini şərəflə yerinə yetirmişdir. Əzəmi yaralı olsa da, dörd əsgər yoldaşına qan verib və onların döyüş meydanından çıxarılmasına köməklik göstərib. Əsgər yoldaşları tez-

tez Əzəminin məzarı üstünə gəlib, ondan halallıq alırlar. Əzəmi onları həyata qaytarmışdır. Özü isə sanki ***ŞƏHİDLİK ZİRVƏSİNƏ*** ucalmağa tələsirdi. Düşmənin hücum etdiyini görən döyüş yoldaşları ondan yerə uzanmağı xahiş etdilər. Lakin o, ***"mən düşmən qarşısında uzanmaram!"*** – deyərək şəhid olur. Bəli, Şuşa həsrəti ilə doğuldu, Şuşa həsrəti ilə vuruşdu, Şuşa həsrəti ilə şəhid oldu Əzəmi. Vətən sevgisinin ən gözəl sübutudur şəhidlik... Qürur yeri, and yeridir şəhidlik! Əlçatmaz zirvədir şəhidlik.

Xatirələri həmişə xalqın qəlbində yaşayan, yaddaşlara əbədi hopan şəhidlər unudulmazdır.

Mingəçevir şəhərində şəhid Əzəmi Hüseynovun adını əbədiləşdirmək üçün bulaq kompleksi inşa olunub. Bulağın açılışında Əzəminin anası Sayad Hüseynova, bacısı Elnarə Hüseynova, həyat yoldaşı Minayə Hüseynova, hərbçi yoldaşları və təhsil aldığı universitetin müəllimləri şəhidimiz haqqında öz xatirələrini bölüşdülər. Sayad xanım bulağın açılışındakı çıxışında oğlu haqqında fəxrlə belə dedi: ***"Əzəmi kimi oğul itirsəm də, görün nə qədər cəsur, mərd oğullarımız var. Hər biri ilə qürur duyuram. Ana üçün oğul itkisi nə qədər çətin olsa da, xalqın ona olan sevgisini görəndə təskinlik tapıram."***

Həyat yoldaşı Minayə Hüseynova hələ uşaqlıqdan tanıdığı ömür-gün yoldaşı Əzəminin nümunəvi ailə başçısı olduğunu dedi: ***"Həyat yoldaşımla birinci sinifdən on birinci sinfə qədər bir yerdə oxumuşuq. Əzəmi yeddi yaşımdan bu günə qədər mənim həyatımdadır. Tale elə gətirdi ki, biz eyni universitetdə də təhsil aldıq. Bir il hərbi xidmətini layiqli başa vurduqdan sonra yenidən hərb yolunu seçdi. Həyat sanki onu hərbə bağlamışdı".***

Mingəçevir Dövlət Universitetinin müəllimləri Vətən müharibəsində şəhid olan məzunları Əzəmi Hüseynovun ailəsini tez-tez ziyarət edirlər. Eyni zamanda Şəhidlər xiyabanında uyuyan şəhidlərin, o cümlədən, Əzəminin məzarını ziyarət edirlər.

Təhsil aldığı universitet müəllimləri də Əzəmi haqqında xatirələrini bölüşdülər.

Suqovuşan uğrunda döyüşlərdə çiyin-çiyinə vuruşduğu döyüşçü yoldaşları da tədbirin iştirakçıları idilər. Əzəmi ilə çiyin-çiyinə vuruşan Mürsəl Hacıyev şəhidimizin yaralı döyüşçü yoldaşlarını dəfələrlə döyüş meydanından çıxararaq həyatlarını xilas etdiyini dedi. Digər silahdaşları da Əzəminin mərd, fədakar, dostcanlı olduğunu, Vətən uğrunda canından keçdiyini ürək ağrısı ilə dilə gətirdi və Vətən uğrunda qəhrəmanlıqla vuruşduğunu, igidlik nümunəsi göstərdiyini söylədilər.

Şəhid Əzəminin bacısı Elnarə xanım qardaşı haqqında həm vüqarla, həm nisgillə danışır: ***"Əzəmi evimizin sonbeşiyi olmasına baxmayaraq, biz ona böyük kimi hörmət edirdik. Ailəmizin ağsaqqalı idi. Qardaşım həm ailədə, həm də nəsildə tək oğul olduğu üçün o bizə həm qardaş, həm ata, həm dayı, həm əmi idi. Biz and içəndə onun canına and içirdik. Həyat yoldaşı hal-hazırda bizimlə yaşayır. Qardaşım uşaqlıqdan namaz qılırdı. Dəfn olunan zaman azan səsi ilə torpağa tapşırıldı.***

***Biz şəhidlərin hər birini ayrı-ayrılıqda anmalıyıq. Hər biri mənim doğmam, mənim qardaşımdır. Mən onları Əzəmidən seçmirəm. Onların hər biri bizi qarabağlı etdi, bizi şuşalı etdi. Mən bir şəhid bacısı kimi xahiş edirəm ki, şəhidləri seçməyin. Hər birini öz doğmanız, öz qardaşınız kimi əziz tutun. Şəhidlərin müqəddəs ruhlarının şad olması üçün bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm. Mən istəyirəm ki, hər bir şəhidin xatirə lövhəsi olsun, hər bir şəhidin evinin qarşısında bulaq qoyulsun, hər bir şəhidin ad günü məzarı önündə təntənəli şəkildə qeyd olunsun. Şəhidlərin hər birinin yaşadığı küçəyə, oxuduğu məktəbə adı verilsin. Xalqımız sağ olsun. Şəhidləri uca tuturlar. Amma şəhid ata-anaları, bacı və qardaşları çox həssas olurlar. Bir kiçik laqeydlik onların qəlbini əzir. Biz şəhid doğmaları bizə olan diqqətdən təskinlik tapırıq. Həyatımı şəhid ruhlarının uca***

***tutulması yolunda görülən işlərə həsr edəcəyəm. Bu, mənim təsəllimdir. Mən qürur duyuram ki, Əzəminin bacısıyam. Şəhidlərimiz "Qarabağ Azərbaycandır!" sözlərini öz qanları ilə yazdılar. Mən təkcə Əzəminin yox, üç mindən çox şəhidin bacısıyam. Fəxr edirəm qardaşlarımla. Mən hər gün şəhid ailələrinin yanındayam. Öz dərdimi də götürüb, onların yanına gedirəm. Bununla təsəlli tapıram. Bir də onunla təsəlli tapıram ki, şəhidlərimizin qanı yerdə qalmadı."***

Elnarə xanım özünün dediyi kimi qalan ömrünü yeganə qardaşının yaddaşlarda yaşaması, xalq arasında yaxından tanınması üçün görüləcək işlərə həsr edəcək. Qardaşı ilə bağlı, eyni zamanda doqquz şuşalı şəhidin hər birinə həsr olunmuş tədbirlərin təşkil olunmasında şəxsən özü yaxından iştirak edir. Mingəçevir şəhidlərinə də xüsusi diqqət göstərir. Həm Şuşa şəhidlərinin, həm də Mingəçevir şəhidlərinin xatirə lövhələrinin hazırlanmasına yaxından kömək edib.

Qardaşı haqqında danışmaqdan yorulmayan Elnarə xanımın ürəyi doludur: ***"Qardaşımın arzusu Şuşadakı evimizə bayrağımızı sancmaq idi. Mən onun şəhid olmasına pis olmamışam. Mən deyərdim ki, o, arzusuna çatıb. Şuşadakı evimizin qarşısında ucaltmaq istədiyi bayraqla birlikdə öz şəkli də asılıb. O bizdən əvvəl Şuşadakı evimizə gedib. Onun ruhu elə şəhid olan gündən Şuşada dolaşır."***

Bəli, Əzəminin ruhu indi Şuşada dolaşır. Çünki qəhrəmanlar ölən gün təzədən doğulurlar. O gündən onların yeni həyatı başlayır. Əbədi həyatı, əbədiyyət yolu. Vətən uğrunda ölüm həyatın davamıdır. Qəhrəmanlıq torpağa gömülmür. Onun əbədi həyat vəsiqəsi var. Bu Vətən oğullarının məsləki də, əqidəsi də, amalı da Vətəndir!

Əzəmi Əli oğlu Hüseynov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## QAYIT, EVİNƏ GƏL, ŞƏHİD QARDAŞIM!

***Əzəmi Əli oğlu Hüseynovun bacısı***
***Elnarə xanımın dilindən:***

**Gözlərim axtarır səni hər yerdə,**
**Ürək tab gətirmir bu qədər dərdə,**
**Kaş ki, bu dünyaya gələydin bir də,**
**Ay ata əvəzim, könül sirdaşım,**
**Qayıt, evinə gəl, şəhid qardaşım!**

**Səni yeganə bir varlığı sanan,**
**Özü tək böyüdən, halına yanan,**
**Yoxluğunu qəbul etməyən anan,**
**Dayanıb yanında soyuq baş daşın,**
**Qayıt, evinə gəl, şəhid qardaşım!**

**Atasız böyüdün, üzün gülmədi,**
**Heç özün də ata ola bilmədin,**
**Ömür yoldaşınla ömür sürmədin,**
**Vəfalı yoldaşın, ömür sirdaşın**
**Yolunu gözləyir, şəhid qardaşım!**

**Yadigarın da yox, iyini alam,**
**Mehrimi bir əziz balana salam,**
**Deyərdim bir ömür onunla qalam,**
**Dörd divar, bir anan, bir də yoldaşın,**
**Qayıt, evinə gəl, şəhid qardaşım!**

**Bu həyatda sənsiz üzüm heç gülməz,**
**Nələr çəkdiyimi bir kimsə bilməz,**
**Ölmüsən deməyə heç dilim gəlməz,**
**ƏZƏMİ qardaşım, əziz sirdaşım,**
**Qayıt, evinə gəl, şəhid qardaşım!**

## İsrafil Zülfüqar oğlu İbrahimov

**Ömrün baharında qalan ŞƏHİDLƏR!**
**Vətən nəğməsini çalan ŞƏHİDLƏR!**
**Zirvədən baxırsız nurlu cahana,**
**Nurunuz ələnib Azərbaycana.**



Siz insanlığın ən yüksək zirvəsi, ***QEYRƏT ZİRVƏSİ, ŞƏRƏF ZİRVƏSİ*** oldunuz. Vətənin hər dağına, hər daşına qanınız ilə tarix yazdınız. Siz şərəfli yol seçdiniz. Siz zəfərlərdən keçdiniz. ***VƏTƏN SİZİ SEÇDİ, SİZ DƏ VƏTƏNİ!*** Vətən də göylərə ucaltdı sizi. Vətənə öz qanınızdan qan verdiniz. Öz adınıza şöhrət, şan verdiniz.

Hər bir xalqın özünü sübut etməsi üçün ərazisi, dili, dini, adət-ənənəsi ilə yanaşı, bu dəyərləri qoruyacaq və uğrunda döyüşə biləcək igid övladlarının olması əsas amillərdəndir. Xalqımız tarix boyu müstəqillik üçün mücadilə etmişdir. İstiqlaliyyəti, hürriyyəti qanı ilə qazanmış oğulları ilə qürur duymuşdur. Elin-obanın dar günündə sal qayalar kimi düşmən qarşısını kəsən oğullar olur. Vətən üçün can əsirgəməyən, şəhadəti ilə ***ÖLÜMÜ UCALDIB, ÖLÜMSÜZ OLAN ŞƏHİDLƏR!*** Gənc ömrünü doğma torpaq uğrunda fəda edən şəhidlər!

**Şəhidlər gül açarlar,**
**Sevilərlər həmişə.**

**Şəhidlər nur saçarlar,**
**Dönərlər bir Günəşə.**

Şəhidlər yatan torpaq bir ziyarətə dönər. Çünki ***ŞƏHİDLƏR*** uca Yaradanın, Vətənin, millətin yolunda şüurlu surətdə canlarını fəda edənlərdir. Belə insanlar qəlblərində Allaha, Vətənə, millətə sonsuz sevgisi olduğu üçün Tanrı dərgahında əbədiyyət qazanaraq şəhadət mərtəbəsinə ucalırlar. Səməndər quşu kimi öz alovuna bürünüb, qəflətən yox olsalar da, şəhadəti ilə ölümü ucaldıb ölümsüzlüyə qovuşdular. Vətən və millət yolunda öz istəyi ilə canından keçməyə hazır olan ən yüksək zirvədir şəhidlik. Canlarından keçməklə xalqın qəhrəmanlıq dastanını, azadlığını canı ilə qazanıb, qanı ilə yazanlardır ***ŞƏHİDLƏR.*** Özlərindən sonra bitib-tükənməyən qəhrəmanlıq salnamələri qoyub-gedən, gələcək nəsillərə örnək olan şəhidlik vətənpərvərliyin ən ali məqamıdır. ***ŞƏHİDLİK*** ölümlərin ən şərəflisidir. Şəhidi olmayan xalq yurd sevgisindən, torpaq məhəbbətindən məhrumdur. Şəhidlər bizim həm nisgilimiz, həm qürurumuz, həm kədərimiz, həm vüqarımız, fəxrimiz, ölməzliyimiz və örnəyimizdir.

**Ocağa, pirə dönər şəhidlər yatan torpaq,**
**Öz qanıyla boyanar əllərindəki bayraq.**

Şəhidliyə gedən yol elə bir yoldur ki, onu tufanlar bağlaya bilməz. Şəhidlər sanki qəfil çaxan şimşəkdir. Buludlar saxlaya bilməz. Bəli! ***ŞƏHİDLİK ANAMIZA ANA OLAN VƏTƏNİ,*** ata-babalarımızdan miras qalan torpağı qorumaq və onun başının üstünü qara buludlar alanda ölümünü göz önünə alıb döyüşə atılmaqdır. Bax, İsrafil də beləcə döyüşə atıldı. Anasını kiçik qardaşına tapşırıdı, **“anam sənə əmanətdir”** – deyib, ölümün gözünə dik baxaraq döyüşlərə atıldı.

İsrafil Zülfüqar oğlu İbrahimov 1997-ci il oktyabrın 16-da Bakıda anadan olub. 2004-2013-cü illərdə Bakı şəhər 202 nöm-

rəli məktəbdə təhsil alıb. Orta məktəb təhsilini Ağdam 2 nömrəli məktəbində əla qiymətlərlə başa vurub. 2015-2017-ci illərdə sərhəd qoşunlarında həqiqi hərbi xidmət keçib. Hərbi xidmətini başa vurduqdan bir müddət sonra sülhməramlı qüvvələrdə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirib. Bir il altı ay idi ki, hərbçi kimi fəaliyyət göstərirdi. Azərbaycan ordusunun giziri idi. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayan ilk gündən xüsusi təyinatlıların tərkibində cəbhənin ən gərgin döyüşlər gedən hissəsində qəhrəmancasına vuruşub.

İsrafil vətənpərvər bir ailədə böyüyüb. İbrahimovlar ailəsinin beş üzvü Birinci Qarabağ müharibəsində iştirak ediblər. Atası və əmiləri Qarabağ müharibəsi qazisidir. İsrafil gözünü açandan atası və əmilərinin Qarabağ mövzusu ilə bağlı söhbətlərini çox eşitmişdi. İsrafil torpağa, doğma Qarabağına bağlı övlad idi. O, uşaqlıqdan hərbçi olmaq, Vətənin keşiyində dayanmaq arzusu ilə yaşayırdı. Onun ürəyi düşməndən intiqam almaq hissi ilə çırpınırdı.

Şəhidimizin atası, Birinci Qarabağ müharibəsi döyüşçüsü Zülfüqar İbrahimov oğlu haqqında fikirlərini belə bölüşdü: ***"Mən özüm Birinci Qarabağ müharibəsi qazisiyəm. Müharibə həyatının çətinliklərini yaşadığımdan hər xəbərə – oğlumun şəhid və ya qazi olması xəbərinə hazır idim. Oğlum il yarım idi ki, hərbçi kimi fəaliyyət göstərirdi. Xüsusi təyinatlıların sırasında xidmət edirdi. Mərd, ürəkli oğlan idi. Dostları da onun qorxmazlığından, cəsurluğundan fəxrlə danışırdılar... Sentyabrın 26-da gecə Bakıdan cəbhəyə yola düşdü. Oğlum Vətən müharibəsi başlayandan şəhidlik zirvəsinə ucaldığı günə qədər demək olar ki, rayonlarımızın alınması uğrunda bütün döyüşlərdə iştirak edib. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və Laçın uğrunda ən gərgin döyüşlərdə düşmənlə üz-üzə döyüşüb. Hər dəfə mənimlə telefonla danışanda fəxrlə deyirdi ki, bizim dəstəmiz öndə gedir. Cəbrayıla qədər texnikadan istifadə edərək döyüşmüşdülər. Qubadlı və***

*Zəngilanda isə dağlarda piyada yol qət edərək döyüşürmüşlər. Hətta Həkəri çayını piyada keçmişdilər. Oğlum kəşfiyyat bölüyündə idi. İsrafilin olduğu hərbi bölük Laçın dəhlizi uğrunda gedən döyüşlərdə iştirak edib. Oğlum oktyabr ayının 26-da Laçın rayonunun Səfiyan kəndində şəhid olub. Ağdam rayonu Quzanlı qəsəbəsində Şəhidlər xiyabanında dəfn edilib. Sonuncu dəfə danışanda dedi ki, ata, hər gün yanımda dostlarım şəhid olur, yaralananlar var. Mən də hər an hazıram, şəhid ola bilərəm, halallıq ver. Həmin gün hamıdan halallıq istəyirmiş... Bir il yarım idi hərbi hissədə qulluq edirdi. Mehriban, düşüncəli, ürəkli oğlan idi. Dostları deyirlər ki, qorxmurdu. Onlar olan yeri düşmən minomyotla vurmuş. Döyüş yoldaşları İsrafilə deyiblər ki, səngərə gəl. Az sonra minomyot düşüb... Bu da bir qismətdi, Allahın yazısıdı, görünür, həmin gün şəhid olmalıydı. Oktyabrın 16-da 23 yaşı tamam oldu, oktyabrın 26-da isə şəhidlik xəbəri gəldi. Allahın təqdiridir, ən yüksək, uca məqama yüksəldi. Şəhidlərin yeri behiştdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Şuşa rayon İcra Hakimiyyəti oğlumun şəhid xəbərini mənə çatdıranda hər şeyə hazırmış kimi dedim ki, Vətənimiz, dövlətimiz var olsun! Ancaq xəbəri həyat yoldaşıma deyə bilmədim. Əvvəlcə qardaşım Mənsum İbrahimova zəng etdim. Sonra isə bu xəbəri qardaşım Mahirə çatdırdım. Dediyim kimi, oğlum Laçında şəhid oldu. Birinci Qarabağ müharibəsində mən də həmin yerləri keçmişdim. Füzuli, Qubadlı, Laçın, Güləbird... Amma onlar bizdən də önə gedib-çıxmışdılar, Laçın dəhlizinə yaxınlaşmışdılar. Hərbçilərimiz düşmənin 50-dən çox əsgərini məhv edib. Onlar isə dağ-daş arasında gizlənib, minomyotla bizimkilərə ziyan vurublar. İsrafil də o döyüşdə şəhid olub. Mən keçən yolları keçib-getdi, şəhid oldu. Allahın qisməti belədir. Bu günə şükür. Bu gün qələbə qazanmışıq, bu, bizə təsəlli verir. Mən İsrafillə danışanda həmişə deyirdim ki, hansı gün Şuşaya, Laçına bayraq sancdınsa, o gün mənə xəbər elə. Mənim üçün ən əziz gün o*

***gün olacaq. O da gülərək deyirdi ki, yaxşı, ata, elə- belə də olacaq. Laçına və Şuşaya çatmağımıza lap az qalıb. Laçına qədər gedə bildi. Dostlarına deyirmiş ki, əsas odur Laçına, Şuşaya çata bilim, mənə nə olarsa, ondan sonra olsun. Qismət elə gətirdi ki, Laçın torpağında şəhidliyə qovuşdu. Keçmiş döyüşçü kimi deyim ki, 30 il keçməsinə baxmayaraq, qələbəmizə inamım var idi, Allahın nəzəri üstümüzdə oldu. Çünki biz haqq-ədalət, Vətənimiz uğrunda döyüşürdük. Birinci Qarabağ savaşında beş qardaş Qarabağ uğrunda döyüşmüşük. Mənsum İbrahimov tanınmış muğam ustası kimi xarici ölkələrdə Azərbaycanımızı təmsil etməklə yanaşı, həm də Qarabağ təbliğatı aparıb. Biz qardaşlara şəhidlik qismət olmadı. Bu gün isə mən şəhid atasıyam... Düzdür, oğul itirdim. Amma qazandıqlarımız daha çox oldu. 30 illik Qarabağ həsrətinə son qoyuldu. Qanımız-canımız bahasına torpaqlarımızı azad etdik. Bu günə şükürlər olsun..."***

Ağdamda Şəhidlər xiyabanında İsrafil İbrahimovun dəfni zamanı atasının qürurlu çıxışını olduğu kimi oxuculara çatdırmaq istəyirəm: ***"MƏNƏ NƏSİB OLMAYAN ŞƏHİDLİK ZİRVƏSİ OĞLUMA NƏSİB OLDU. ŞƏHİD OLA BİLMƏDİM, AMMA ŞƏHİD ATASI OLDUM!"*** Qazi atanın məğrurcasına etdiyi çıxış hamını kövrəltsə də, ata İsrafil üçün ağlamamağı xahiş etdi. Axı İsrafil özü də "mənimçün ağlamayın" – demişdi.

Anası Səbinə xanım İbrahimova şəhid oğlu İsrafil haqqında fəxrlə danışırdı: ***"Mən oğlumla fəxr edirəm. Mehriban, deyib-gülən, böyük-kiçik yeri bilən idi. Hamıya hörmətlə yanaşardı. Heç vaxt qəlbimə dəyməyib. O, atası və əmiləri ilə fəxr edirdi və onlar kimi olmağa çalışırdı. İndi isə biz onunla fəxr edirik. İsrafil həmişə atasına və əmilərinə Qarabağ müharibəsi haqqında suallar verirdi. Elə uşaq vaxtından deyirdi ki, müharibə olsa, mən də sizin kimi düşmənə qarşı vuruşacağam. Elə uşaqlıqdan düşməndən qisas almaq onun arzusu olub. Çox qeyrətli, dəyanətli oğul idi. Həmişə deyir-***

***dim ki, İsrafil, istəmərəm sənə nəsə olsun. O isə deyirdi ki, qorxma, ana, mənə heç nə olmaz. Çox düşüncəli idi. Qardaşı olmayan döyüşçü yoldaşlarını irəli getməyə qoymazdı. Dostlarına deyirdi ki, sizin evdə qardaşınız yoxdur. Amma mənim bir kiçik qardaşım var. Mən irəli gedərəm. Siz getməyin. Mənə nəsə olsa, atama, anama baxan olacaq. Hətta o, evdən gedəndə də məni qardaşına tapşırdı.. Dedi ki, atamdan, anamdan muğayat ol. Onları sənə əmanət edirəm. Deyərdim ki, Allah İsrafil kimi oğulları seçdi. Oğlum çox cəsarətli oğul idi. İsrafil mərd, yoldaşlarına qarşı diqqətcil, yardımsevər idi. Hər dəfə yüksəkliyi ələ keçirəndən sonra döyüşçülər ərzaq, su qıtlığı ilə üzləşirdilər. Belə çətin günlərdə İsrafil dağdan enərək dostlarına hardan olsa, su, yemək tapıb gətirərdi."***

Ana bu fikirlərini bölüşdükdən sonra bir az kövrək hisslərə qapıldı. ***"Bəzən hiss edirəm ki, balam bizi tək qoymur. Deyirlər ki, şəhidlərin ruhu azaddır. Mən hiss edirəm ki, o hər gün bu evdədir. Sanki bizə baxıb gedir. Mən ağlayanda yoldaşım mənə təskinlik verib və deyir ki, oğlumuz sənin ağlamağını istəməzdi. İsrafil namaz qılıb, oruc tuturdu. Bu il balam evimizdə oruc tuta bilməsə də, hiss edirdim ki, orucluq günlərində evə gəlir. Bu il biz də oruc tutmuşduq. Orucluq günlərinin birində İsrafilin otağında idim. Onu yanımda hiss edirdim. Hətta sevdiyim güllərdən qızılgül, nərgiz, yasəmən güllərinin qoxusunu duyurdum, halbuki həmin ərəfədə hələ güllər açmamışdı. Amma mən uzun müddət o güllərin qoxusunu duydum. Sanki cənnətdən bu güllərin ətri ilə evə gəlmişdi. Mənim gül sevdiyimi bilirdi. Sanki o mənə bildirmək istəyirdi ki, ana, narahat olma, ağlama, mən cənnətdəyəm. Orucluq bayramında mənim balam məni bax, belə təbrik etdi. Mən bir şəhid anası kimi başımı uca tuturam. Oğlum gedəndə mənə demişdi ki, mənimlə fəxr edəcəksiniz. Mən oğlumla fəxr edirəm. Çünki mənim oğlum yenə də deyirəm, çox qeyrətli, dəyanətli oğul idi."***

Səbinə ana oğlu İsrafil haqqında danışdıqca ***“oğlumla fəxr edirəm, oğlum çox dəyanətli oğul idi”*** kəlmələrini tez-tez təkrar etməkdən yorulmurdu.

**Sən ey dağ vüqarlı ŞƏHİD ANASI,**
**Vüqarın içində qəm gizlədirsən,**
**Qəm-kədəri ilə ELLƏR ANASI,**
**Kədərin içində oğul gəzirsən...**

Ana gününün çoxunu İsrafilin otağında keçirir. Otaqda İsrafilin gülümsər şəkilləri, boks əlcəkləri və divardan asılmış hərbi geyimləri daha çox diqqəti cəlb edir. Hərbi geyimlərdən biri onun keşməkeşli döyüş yoluna şahidlik etmiş, güllələrdən deşilmişdi. Digər tərəfdə isə hələ geyinilməmiş təzə forma vardı. Bəlkə də, Zəfər paradında geyinəcəkdi. Bu hərbi forma onun gələcək arzuları, gələcək xəyalları idi...

İsrafilin əmisi, xalq artisti, professor Mənsum İbrahimov qardaşı oğlu haqqında fikirlərini belə bölüşdü: ***“İsrafil uşaqlıqdan qeyri-adi uşaq kimi böyüyürdü. Biz ona atamızın adını qoymuşduq. Elə uşaqlıqdan çox qorxmaz və cəsur idi. Hər bir çətin işdə özünü irəli atardı. Heç vaxt arxada gizlənməzdi. Müharibəyə könüllü qatılıb. 30 gün düşmənlə üz-üzə vuruşub. Şəhid olmazdan bir gün əvvəl mənə zəng etmişdi. Biz ona İsi deyirdik. Hal-əhval tutandan sonra dedim ki, İsi, özünü qoru! O güldü və mənə belə cavab verdi: “Əmi, biz Vətəni qoruyuruq, özümüzü qorumağa vaxtımız yoxdur!” Bax, o, xarakterində belə, qeyri-adi idi. Uşaq vaxtı musiqiyə marağı var idi. Tar çalmağı sevirdi. Düşünürdüm ki, musiqi sahəsini seçər. Ona görə də tar sənətini öyrənmək üçün onu tarzən Elçin Həşimovun yanına gətirdim. Amma bu sahədə özünü tapmadı. Daha sonra idmanın güləş növü ilə də məşğul oldu. Hətta bir neçə yarışda qalib olmuş, Fəxri fərmanlara layiq görülmüşdü. Lakin musiqini, idmanı nə qədər sevsə də, onun qəlbində hərbi peşəyə bir bağlılıq vardı. Daxili***

***bir qüvvə onu bu arzuya, bu istəyə çəkib – gətirmişdi. Öz arzusu ilə hərbçi olmağa qərar vermişdi. Hərbçi olmaq arzusu onun vətənpərvərliyindən, Qarabağ sevgisindən qaynaqlanırdı. İsrafil ölməyib. O, Vətən uğrunda şəhid olub. Təki Vətən sağ olsun! Biz bir ölüb, min diriləri k. Şəhidlik məqamın mübarək, İsrafil! Allah bütün şəhidlərimizə rəhmət eləsin!"***

Bəli, İsrafilin qəhrəmanlığı, düşməndən intiqam almaq istəyi hələ uşaqlıqdan onun qəlbində planlaşmışdı. O, elə bir ailədə, elə bir mühitdə böyümüşdü ki, vətən məhəbbəti, yurd sevgisi qəlbinə hakim kəsilmişdi. Sanki hər hansı bir qüvvə onu daim intiqam almağa səsləyirdi. Onun ömür yolu məqsədyönlü idi. İsrafil gözünü açandan ətrafında qazi atasını və dörd qazi əmisini görmüşdü. Deməli, onun şanlı döyüş yolu keçməsi heç də təsadüfi olmamışdı. Döyüş yoldaşlarının dediyinə görə, dəfələrlə ölümlə üz-üzə gəlməsinə baxmayaraq, həmişə irəli getmək onun amalı olub. İsrafil həmişə şəhid olan döyüş yoldaşlarının qisasını almaq üçün düşünmədən irəli atılarmış. O, həmişə yaxınlarına deyərmiş ki, heç vaxt mənimçün ağlamayın. Mən hərbçiyəm. Deməli, ya şəhid, ya qazi ola bilərəm. Amma sən şəhid oldun! Atanın özünə arzuladığı şəhidlik sənə qismət oldu.

**Elə bir zirvədə dayandın ki, sən,**
**O zirvə İSRAFİL ZİRVƏSİ oldu.**
**Elə bir sabahda oyandın ki, sən,**
**O sabah xalqınla son bahar oldu.**

İsrafil Zülfüqar oğlu İbrahimov döyüş əməliyyatlarına rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin məhv edilməsində göstərdiyi rəşadətə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə ölümündən sonra "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

## Bəxtiyar İlqar oğlu Aslanov

**Uca bayraq Vətəndir,**
**Zirvəli dağ Vətəndir,**
**Şəhidlərin yatdığı,**
**Qanlı torpaq Vətəndir.**



***ƏYİLMƏYƏN VÜQARIMIZ, ŞƏHİDLƏR!*** Torpağı Vətən edən ***ŞƏHİDLƏR!*** Tariximizi və qələbəmizi yazan Vətən oğulları! Zaman keçdikcə əfsanəyə çevrilən şəhidlər. Torpaqlarımız neçə yüz illərdir ki, şəhid qanı ilə suvarılır. Vətən torpağımızın hər qarışından qan qoxusu gəlir. şəhid qanı ilə suvarılan o torpaqlarda necə gəzəcəyik, İlahi? O müqəddəs torpaqlara tökülən qanınız hələ qurumayıb axı... O torpaqlara tökülən, o torpaqlarda cücərən qanınız o torpaqlara can verdi, torpağı dirçəltdi. Siz torpağı Vətən etdiniz, şəhidlər! Cadar-cadar olmuş torpaqları qanları ilə suvaran şəhidlər. Qəlblərdə, könüllərdə yuva salan şəhidlər! O torpaqlara necə ayaq basacağıq? Ayaqlarımız od tutub yanmayacaqmı? Siz qanınızla Azərbaycan tarixinə yeni qələbə yazdınız. Gələcək nəsillərə belə ağır yükü qoyub-getmədiniz.

**Vətən yarasına məlhəm oldunuz,**
**Öpüb gözünüzün üstə qoydunuz,**

**Xətayilərsiniz, türk soyusunuz,**
**Övladlarım deyib Vətən sevindi,**
**Şadlandı, öyündü, göz yaşın sildi.**

Savaşlardan alnıaçıq çıxan igidlərimiz yağı caynağında cadar-cadar olan torpaqlarımızı azad etdilər. ***OĞULLARINI VƏTƏNƏ QURBAN VERƏN ANALARIN VƏTƏNİDİR BU VƏTƏN!*** Oğlum şəhid olsa da, "Vətən sağ olsun!" – deyən analar! Şəhid libasını əyninə geyinib, düşmən önünə çıxan oğullar. Vətənin var olması üçün ölümün gözünə dik baxanlar! Hər birinizin ömür yolu, şücaəti gələcək nəsillərə örnək şəhidlər! Şəhid qanı axmayan torpaqdan Vətən olmaz! Azərbaycan torpağında neçə illərdi ki, şəhid qanı axırdı. Dara düşən Vətənin harayına çatan şəhidlər. Həyatları yarımçıq, arzuları ürəklərdə qalan şəhidlər. Sizin nakam həyatınız ürəkləri dağlasa da, ucalığınıza, zirvənizə çatmaq çoxlarının arzusu oldu. Sizi odun-alovun içinə çəkən qüvvə Vətən sevgisi oldu. Vətənə olan övladlıq borcunu yerinə yetirmək istəyi oldu. Təki Vətən yaşasın. Vətən övladlarına güvənir axı... Torpağı işğalda olan xalq bir yanıqlı bayatıya dönər. Bu yanıqlı bayatılar köz-köz olan sinələrinə yazılar. Mübariz olmayan xalqın sinəsi dağlı qalar. Ocaq yerlərini ot basar. Od ürəkli, od nəfəsli igidləri olan xalq torpaqlarını işğaldan azad edər, savaşlardan alnıaçıq çıxar. Vətənin yanan közünə öz nifrət közünüzü qarışdırıb düşməni yandırdınız. Qəlbinizin Vətən sevgisindən alışıb-yanan közü Vətəni nurlandırdı. Vətən əsgəri adını şərəflə daşımaq hər əsgərin ülvi arzusudur. Bəxtiyarın da ən ülvi arzusu Qarabağın azadlığı və Şuşaya qovuşmaq idi. Anası ilə söhbətlərində həmişə deyərmiş: ***"Ana, biz mütləq ana-bacılarımızın qisasını almalıyıq. Bu qisas məni yandırır."*** Bəli, Bəxtiyar qisas gününü çoxdan gözləyirdi.

Bəxtiyar İlqar oğlu Aslanov 1998-ci il dekabrın 28-də şuşalı ailəsində anadan olub. 1992-ci il mayın 8-də Şuşa işğal edildikdən sonra ailəsi Naftalanda məskunlaşmışdı. Bəxtiyar

2005-2016-cı illərdə Naftalan şəhər S.Vurğun adına 2 nömrəli tam orta məktəbdə təhsil alıb. Orta məktəbi bitirdikdən sonra elə həmin il Tbilisi Açıq Universitetinə qəbul olunub. Universitetdə 2 il təhsil aldıqdan sonra öz arzusu ilə təhsilini dondurub və hərbi xidmətə yola düşməyi qərara alıb. 2019-cu il yanvarın 22-də həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətini Daşkəsən rayonunda keçib. 2020-ci il iyulun 23-də hərbi xidmətini başa vurub.

Hərbi xidmətdə olduğu müddətdə Tovuz hadisələri baş vermişdi. Anası Tünzalə xanımla müsahibə zamanı o, oğlunun hərbi xidməti başa vurub evə qayıtmasına baxmayaraq, yenidən hərbi xidməti davam etdirmək qərarında olduğunu dedi: ***"Oğlum hərbi xidmətdən gələndən sonra çox narahat idi. General Polad Həşimovun şəhid olması onu çox sarsıtmışdı. Elə tez-tez deyirdi ki, ana, necə dəyərli oğullarımız şəhid oldu. Mən hərbçi olmağı qərara almışam. Biz düşməndən qisasımızı almalıyıq. Axı nə vaxta qədər düşmən öz torpaqlarımızda bizə namərdcəsinə zərbə vuracaq?! Bir neçə gündən sonra oğlum sənədlərini hazırlayıb, Şəmkirdəki hərbi hissələrdən birinə təqdim etdi. Daha sonra milli ordumuzun hərbi təlimlərinə qatıldı."***

Beləliklə, Bəxtiyar yenidən ordu sıralarına qayıdır və müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi xidmətini davam etdirir. Bölgü zamanı Göygöl ərazisinə düşsə də, o öz arzusu ilə hərbçi kimi fəaliyyətini davam etdirməyi qərara aldı. Daşkəsən rayonu ərazisində yerləşən "N" nömrəli hərbi hissədə xidmətini davam etdirdi. Azərbaycan ordusunun əsgəri olan Bəxtiyar Aslanov 2020-ci il sentyabrın 27-də Vətən müharibəsində iştirak etmişdir. Murovdağın azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Ağbaba yüksəkliyinin azad edilməsində iştirak edən zabit-əsgər heyətinin tərkibində olmuşdur. Bundan sonra Bəxtiyar yeddi nəfər hərbçi yoldaşı ilə birlikdə düşmənlə əlbəyaxa döyüşdən qalib ayrılır. Ailəsi ilə sonuncu dəfə 2020-ci il sentyabrın 27-də əlaqə

saxlamışdır. Ayın 30-da döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Uzun müddət itkin sayılan Bəxtiyarın nəşi axtarıldıqdan 137 gün sonra Murovdağın Ağbaba yüksəkliyində tapılmış və 2021-ci il fevralın 13-də ailəsinin istəyi ilə Goranboy rayonunun Balakürd kəndində torpağa tapşırılmışdır.

Ana oğlunun müharibə yolu haqqında müsahibəyə belə davam etdi: ***"Sentyabrın 22-də Bəxtiyar yazdı ki, ana, tezliklə müharibə olacaq və biz itirdiyimiz torpaqları geri alacağıq. Və o qeyd etdi ki, ana bu müharibə dönüşü olmayan bir müharibə olacaq. Biz ana-bacılarımızın qisasını mütləq alacağıq. Bizim bu söhbətimizdən beş gün sonra, elə müharibə başlayan gün Bəxtiyar mənə zəng etdi və Murovdağda çətin döyüşlərə qatılacağı barədə məlumat verdi. O mənimlə sonuncu telefon danışığında qətiyyətlə dedi ki, ana, məni gözləməyin, mən şəhid olacağam və mənimlə fəxr edəcəksiniz. Mən bu dəfə evə şəhid kimi qayıdacağam. Sonralar mən döyüşçü yoldaşlarından öyrəndim ki, Bəxtiyar altı yoldaşı ilə birlikdə Ağbaba zirvəsində ağır döyüşlərdə iştirak edib və uğurlu əməliyyat nəticəsində zirvəni ələ keçiriblər. Sonra isə Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak etmək əmri alıblar. Təəssüflər olsun ki, Bəxtiyarla birlikdə həmin altı nəfər əsgər yoldaşı da şəhid olub. Bəxtiyar tək qalıb. O, son gülləsinə kimi vuruşub, əlbəyaxa döyüşüb. Mənim oğlum idmançı idi. Elə bu döyüş meydanında da şəhid olub. Lakin onun şəhidlik xəbərini fevralın 12-də aldım. Bu müddət ərzində oğlumu itkin kimi ümidlə gözləyirdim."***

Bu sözlərdən sonra ana bir müddət danışmadı və sonra özünü toplayaraq dedi: ***"Mənim balam dəyərli bala idi. Ailəcanlı, ailəsi üçün məsuliyyət hiss edən bir bala idi. Hələ uşaq vaxtlarından mənim Vətən dərdi, Şuşa dərdi çəkdiyimi görür və deyirdi ki, ana, darıxma, böyüyəndə sənin Şuşanı düşməndən alıb sənə qaytaracağam. Son günlər isə deyirdi ki, Şuşanın azad olunması xəbərini sənə özüm verəcəyəm.Heç kim onun yoxluğunu qəbul edə bilmir. Ailəmizin çətin gün-***

***lərində bütün məsuliyyəti öz üzərinə götürərdi. O böyüklərlə də, uşaqlarla da dost kimi davranırdı. Qonşumuzdakı ağsaqqal Kərim kişi ilə söhbətində deyib ki, vaxt olacaq ki, bir qonşu kimi mənimlə fəxr edəcəksiniz. Bəxtiyar futbolu çox sevirdi və həyətdəki futbol oynayan uşaqlarla birlikdə bəzən futbol da oynayardı. Hətta onu özünə dərd edirdi ki, axı nə üçün uşaqların futbol meydançası yoxdur. Kaş, imkanım olaydı, onlara sponsorluq edəydim. Bax, mənim balam belə bala idi. Böyüklə böyük, kiçiklə kiçik!..”***

Futbol məşqçisi Sənan Axundovun dediyinə görə, kiçik yaşlarından futbol məşqlərinə gəlirdi. Yeddi-səkkiz yaşlarında isə dünya futbol klublarını və futbol ulduzlarını tanıyırdı. Bəxtiyarın idmana, futbola olan marağı çox böyük idi. O, yaddaşlarda futbol komandasını irəli aparan kapitan kimi qalıb. Həmişə bir lider kimi seçilib. Təşkilati işləri həmişə üzərinə götürüb.

Tünzalə xanım oğlunun sonuncu dəfə telefonla ona yazdıqlarını həyəcanla mənə göstərir. Bəxtiyarın ömrünün son anlarında yazdığı sətirləri həyəcansız oxumaq mümkün deyildi. Bu sətirlər döyüşdən əvvəl intiqam hissi ilə çırpınan, qorxmaz, cəsarətli bir igidin ürək çırpıntıları idi. Bu igid həm də ölümün gözünə dik baxan, Vətən yolunda qurban getməyə hazır olan Azərbaycan oğlunun Vətəninə, anasına son sözləri idi. Bəxtiyarın döyüşdən qabaq anasına yazdıqlarını olduğu kimi oxucularla bölüşmək istəyirəm: ***“Ana. Allaha əmanət qalın. Mən Kəlbəcərdəyəm, Murovdağa qalxıram. Şəhid olsam, fəxr edəcəksən. Bilirəm ki, əlbəyaxa döyüşlər də olacaq. Bu döyüşdən geri dönüş yoxdur. Məni tabutda gətirəcəklər. Möhkəm olun. Amma ağlama. Özündən, qardaşımdan muğayat ol. Elə bil ki, mən yoxam, bir oğlun varmış.”*** Ananın oğlu ilə gecə saat dördə qalmış yazışmasını, oğlunun ürək dağlayan məktubuna yazdığı cavabları da ürək ağrısı ilə oxuyuram: ***“Allah amanında, oğul! Sağ-salamat gedin! Anan qurban, dağa qalxırsınız? Allah qoysa, sağ-salamat***

***geri dönərsən. Vəziyyət çox pisdir, qadan alım? Elə demə. Mən sənsiz yaşaya bilmərəm, ölərəm, oğul! Allah açan qapını heç nə aça bilməz!"***

Bəxtiyarın anası ilə tədbirlərin birində görüşdük. Təkbaşına saxladığı oğlunu itirmək qorxusu ilə yaşayan ana o qədər cəsarətlənmiş, mətinləşmişdi ki... Tədbirdəki cəsarətli çıxışını bu cümlələrlə bitirdi: ***"21 yaşlı oğul itirsəm də, ağlamıram. Fəxr edirəm ki, belə qeyrətli oğul böyütmüşəm!"***

Axı Bəxtiyar anasına ***"Ağlama, ana!"*** sözlərini dönə-dönə yazmışdı. Ana hər cümləsində ***"mənim oğlum dəyərli oğul idi"*** kəlmələrini işlətməkdən yorulmurdu. Atasız böyüyən Bəxtiyarın gələcək arzuları sonsuz idi. Ali məktəbə qəbul olunan gün anasını, bacı və qardaşını nə qədər sevindirmişdi. Lakin Bəxtiyar təhsilini yarımçıq qoymağa məcbur oldu. Bir hərbçi kimi Vətənə qulluq etmək istədi. Vətən borcunu əsl vətən oğlu kimi yerinə yetirdi Bəxtiyar. Ürəyində Şuşa yanğısı olan Bəxtiyar Ağbaba zirvəsində uğurlu əməliyyatın iştirakçısı olmuş, düşmənlə əlbəyaxa döyüşdən də qalib çıxmışdı.

Vətən torpağını bağrına basaraq şəhid kimi qar altında qaldın, Bəxtiyar. Sən Vətəni qoruduğun kimi, Vətən də səni qorudu. Torpaq üzərinə tökülən qanını da, özünü də ağ qarı ilə gizlətdi Vətən. Səni düşməndən qorudu Vətən.

**Qanı sızan yarasını,**
**Can verən mərd balasını,**
**Sığalladı, çox qəm yedi,**
**Vətən sənə oğul dedi.**

Anana qovuşa bilməsən də, Ağbaba zirvəsində Vətənə qovuşdun, Ağbaba zirvəsində ucaldın. Həmin zirvədə siz yeddi oğul döyüşdünüz. Həmlə qrupunun yeddi cəsur Vətən oğlu. Təəssüflər olsun ki, altı oğul meydanda şəhid oldu, sən tək qaldın. Bəlkə də, tək qalmasaydın, bu döyüşdən də qalib çıxardın. Axı sən idmançı idin. Bu zəfərdə sənin də öz payın

oldu, Bəxtiyar. Doğma Şuşana getmək arzun ürəyində qalsa da, uğrunda can verdiyin Qarabağ torpağı indi azaddır. Ömrünün 22-ci baharı qar altında keçsə də, sən yaddaşlarda bahar yaşında qaldın, Bəxtiyar!

Bəxtiyar İlqar oğlu Aslanov şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## Azər Dilafət oğlu Əliyev

**Vətən ürəyində nəbzi vuranlar,**
**Tanrının önündə səcdə duranlar**
**Yaranızdan qan verdiniz Vətənə,**
**Ucaltdınız, şan verdiniz Vətənə.**

**Vətən damarında qanınız vardı,**
**Elimizdə şöhrət, şanınız vardı,**
**Yandırdı düşməni VƏTƏN ODUNUZ,**
**Vətəndən güc alıb, VƏTƏN OLDUNUZ.**



İstiqlal türbəsi, ucalıq zirvəsi ***ŞƏHİDLƏR!*** Qanı ilə torpağı boyayıb, zirvələrə bayrağı qaldıranlar! ***ŞƏHİDLİK*** anamıza ana olan Vətənin başı üstünü dumanlar alanda ölümü düşünmədən düşmən qarşısına mərdliklə çıxmaqdır. Şəhidlik haqqın səsidir! Yaddaşlara hopan, daşlara dönən şəhidlər!

Ömür payını qürurla yaşayan, ***ŞƏHİDLƏR!*** Hünər yolunuz əbədiyyət yoludur. ***ƏN PAK YOLDUR ŞƏHİDLİK YOLU!*** Ürəyinizdəki Vətən sevgisini heç bir sevgi əvəz edə bilmədi. Ən ülvi sevginiz Vətən oldu. Ən həssas duyğunuz Vətən oldu. Siz Vətən nisgili ilə yük bağlamışdınız. Azad etdiyiniz torpaqlara olan 30 illik həsrəti titrəyən ürəklərinizdə gerçəkləşdirdiniz. Vətən sinəsinə tuşlanan güllələrin qarşısında sal qayalar kimi dayandınız. Vətən adlı sevginizə qo-

vuşmaq üçün illərlə bu günləri gözləyirdiniz. Amma qismət istəyinizi sormadan şəhidlik libasınızı əyninizə biçdi. Lap körpəlikdən həsrətində olduğunuz torpaqlarda şəhidlik libasını geyindiniz.

Tarix millətin taleyində dönə-dönə qara səhifələrdə təkrarlananda bəzən xalqın içində bir üsyan baş qaldırır. Azərbaycan xalqının tarixi belə qara səhifələrlə doludur. Tarixin böyük amansızlıqlarına düçar olan xalqımız işğalçı dövlətlər arasındakı müharibələr nəticəsində ikiyə bölünmüşdür. Lakin bu parçalanma Azərbaycan xalqının nə dilinə, nə dininə, nə də mədəniyyətinə təsir edə bilməmişdir. ***TARİX DƏ VƏTƏN KİMİ, ANA KİMİ ALIN YAZISIDIR.*** Tarix boyu xalqları zəfərdən-zəfərə aparan səbəb də, Vətənə xidmət və şəhid olmaq arzusu olmuşdur. Xalqın qəhrəmanlıq dastanını canlarından keçməklə yazanlardır ***ŞƏHİDLƏR!*** Şəhidlərin canı və qanı bahasına qazanılan azadlıq xalq tərəfindən heç zaman unudulmur. Şəhidlər xalqın kimliyini qoruyanlardır. Zülmətləri yararaq ölümləri ilə ölməzlik qazananlar, xalqı işıqlı sabaha aparanlardır. Bəlkə də, şəhidlər yenidən dünyaya qayıtsalar, bir daha şəhid olmağı arzulayarlar. Ömür paylarını ləyaqətlə, qürurla başa vuran ***ŞƏHİDLƏR*** xalqın qan yaddaşı, Vətən daşıdırlar. Ulularımızın tarix boyu ucaltdığı abidələr də bizimdir, yaratdıqları mədəniyyət də, qazandıqları məğlubiyyətlər də, qələbələr də... Bu qələbələri qazanmaq, Vətəni geri qaytarmaq üçün canlarını fəda edən ***ŞƏHİDLƏR*** də... Vətən naminə özlərini şüurlu sürətdə qurban verən ***ŞƏHİDLƏR!*** Şəhidlik adi ölüm deyil, böyük amallar uğrunda mübarizədə canından keçməkdir. ***ŞƏHİDLİK*** verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır. Müqəddəs Quranda buyurulur ki, şəhidlik və qazilik peyğəmbərlikdən sonra gələn adlardır. "Şəhidlərə öldü" deməyin. Onlar diridirlər."-buyurur uca Rəbbimiz. Bu kəlamlar "Qurani-Kərim"də şəhidliyə verilən ən yüksək qiymətdir.

Vətən oğullarının qəlbində közərən nifrət illərin nifrəti idi. Hələ uşaqlıqdan qəlblərində közərən nifrətin odu axır ki, düşmənə od qoydu. Qəlblərinin odu düşməni yandırdı, Azərbaycanı işıqlandırdı. Azərbaycan oğullarının nifrətindən közərən odun işığı Qarabağımıza nur çilədi.

Azər də elə uşaqlıqdan düşmənə nifrət hissi ilə böyümüşdü. Valideynlərinin Vətən həsrətinə, Şuşa yanğısına son qoyulacağı günü həmişə arzulayırdı. Elə bu istəklə əsgəri xidmətini bitirməsinə baxmayaraq, Vətən keşiyində dayanmağı qarşısına məqsəd qoymuşdu.

Azər Dilafət oğlu Əliyev 1999-cu il yanvarın 6-da Ağcəbədi rayonunun Yuxarı Qiyaməddinli kəndində şuşalı ailəsində anadan olub. Ailəsi əslən Şuşa rayonunun Çaykənd kəndindəndir. Orta məktəbi bitirdikdən sonra ordu sıralarına yollanan Azər Əliyev əsgərlik müddəti bitdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət edib. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günündən döyüşlərdə iştirak edib. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Azər top komandiri idi və döyüşlərdə fəal iştirak edirdi. Oktyabrın 15-də Xocavənd istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən başından ağır yaralanan Azər xəstəxanaya yerləşdirilmişdi. Uzun müddət huşsuz vəziyyətdə olan döyüşçü 2021-ci yanvarın 28-də müalicə aldığı xəstəxanada rəhmətə getmişdir. 110 gün huşsuz vəziyyətdə qalan Vətən müharibəsi qazisi şəhidlik zirvəsinə ucalmış və doğulduğu kənddə dəfn edilmişdir.

Ata yolu gözləyən iki körpə övladı yadigar qaldı Azərin. Üzünü belə, görmədiyin körpə Əlinin heç sənə "ata" deməyə macalı olmadı. Üç yaşlı Nəzrini ovutmaq isə ağırdır, çox ağır. Yeganə oğlunu itirən Şükufə anaya, Dilafət ataya təsəlli verəcək qədər ağır...

Tədbirlərin birində Dilafət atadan oğlu Azərlə bağlı nə isə soruşmaq istəsəm də, onun üzündəki kədər, gözlərindən ya-

ğan qəm bütün suallarıma cavab verirdi. Heç nə soruşmağa ürək eləmədim. Sanki dolmuş bulud birdən-birə yağacaqdı.

Azərin anası Şükufə xanım oğlu haqqında heç nə danışmaq istəmir. Oğlunun şəhid xəbərini eşidən gündən ana susqundur. Bu susqunluq təmkindirmi, yoxsa, məğrurluq? Bu susqunluq, yoxsa, böyük dərdə təslim olmaqdırmı? Yox, bu susqunluq böyük səbrdir. Azərbaycan analarının səbri böyükdür. Ana oğul dərdini, nisgilli dərdini gizli çəkir. Şükufə ana şəhid analarından çox fərqlidir. Sanki oğlu haqqında xatirələri ürəyində saxlamaq istəyir. O şirin xatirələrlə özü danışır, öz balası ilə gizlincə dərdləşir. Ana Azərin lap körpəliyindən qəhrəman olduğu günə qədər həyatı boyu yığdığı xatirələrlə danışır. Azərli xatirələrlə. Bu şirin xatirələri qəlbinin dərinliklərində gizlədən Şükufə ana onu heç kimlə bölüşmək istəmir. Oğlu haqqında çoxlu danışıb, ürəyini də boşaltmaq istəmir. Ürəyində boğub – saxladığı kədərini heç kimə büruzə vermir. İlk baxışda düşünürsən ki, ana çox dözümlüdür. Amma dərdlə, nisgillə dolu ürəyini boşaltmaq üçün hönkürtü ilə ağlamağa başlayanda kiritmək olmur bu susqun ananı. Bu hönkürtü, bu nalə insanın ürəyini parçalayır. Ananın ahı dağları yandırır, İlahi... Müsahibə aldığım digər şəhid anaları oğulları haqqında fəxrlə, qürurla danışmaqdan yorulmurlar, bəzən də kövrək hisslərə qapılırlar. Şəhid oğullarının şərəfli həyat yollarından qürurla danışan şəhid analarından fərqli olaraq Şükufə ana ürəyini bax, belə boşaldır. Oğul itkisi ilə barışmaq ona çox çətin gəlir.

Bəli, belə səbrli analar yanar ağlar! Belə səbrli analar övladlarının gözünə işıq, qoluna qüvvət, dizinə təpər vermiş, Vətən torpağının müqəddəslik duyğusunu balalarının qanına hopdurmuşdur.

Azərin həyat yoldaşı Jalə Əliyeva ilə həmsöhbət ola bildim. Həyat sınaqları ilə üz-üzə qalmış 22 yaşlı gənc bir xanımın iki körpə ilə gələcək həyat yolunu təsvir etmək də, elə balaca Nəzrini ovutmaq qədər ağır oldu. Yuxarı Qiyaməddin-

li kəndində məskunlaşmış Jalə xanımın yaşadığı şərait də heç ürəkaçan deyil. Bu ailədə Azərdən yadigar qalan balaca qızcığaz və şəhidin ölümündən sonra dünyaya gələn oğul övladı böyüyür. Bəli, biz bir ölər, min dirilərik. Azərin istəyi ilə oğlunun adını Əli qoyublar.

**Ölümündən sonra dünyaya gələn,**
**Qəlbləri dağlayan, qəmə bələyən**
**Doğma balasına, əziz oğluna,**
**Əli adını Azər özü qoymuşdu,**
**Şəhid olacağını sanki duymuşdu.**

**Deməyin yolunu tufanlar aldı,**
**Bir ömür əlləri uzalı qaldı,**
**Qarabağın, Şuşan zəfərlər çaldı.**
**Ucaldacaq adını yadigar oğlun,**
**Parlayacaq yenə amalın, yolun.**

Ailə və məişət qayğılarından danışan Jalə xanım özünü ələ alaraq Azər barədə verdiyim suala konkret cavab verdi: ***"Azər çox qayğıkeş və mehriban, ailəsinə qarşı diqqətli idi. Ürəyi çox təmiz, səmimi və ailəcanlı idi. O, yaralı olanda kiçikdən-böyüyə bütün kənd onun sağalması üçün dualar edirdi. Saf, təmiz qəlbli olduğu üçün kəndin uşaqları onu daha çox sevirdi.***

***Azər haqqında o qədər şirin xatirələr danışaram ki... Amma onun yoxluğundan danışmaq çox ağrılıdır. Yaxşı əməllərini hər dəfə düşündükcə danışa bilmirəm, sanki boğuluram. Bu iki körpənin üzünə baxa bilmirəm. Allah heç kimə göstərməsin. Çətindir, çox çətindir...***

***Nəzrini çox istəyirdi. Bu istək qızımıza da keçmişdi. Nəzrin dil açanda ilk kəlməsi "Azər" olmuşdu. Atası işdən evə gələndə qızım "Azər, Azər" – deyə ona doğru qaçırdı. Təəssüflər olsun ki, indi Nəzrin atasının məzarı üstünə qaçır."***

**Vətən məhəbbətlə öpür alnını**
**Şəhid qəbri üstə duran uşağın,**
**Hərdən də gözünün yaşını silir**
**Atasız boynunu buran uşağın.**

“Azər hər dəfə zəng edəndə Nəzrini soruşurdu. ***“Özünüzdən muğayat olun, qızım sənə əmanətdi!””*** – deyirdi. Nəzrin əvvəllər atasının yoxluğunu başa düşmürdü. Deyirdi ki, atam mənə məktəbli çantası almağa gedib. Amma son vaxtlar deyir ki, atam daha gəlməyəcək. Nənəsi onu sakitləşdirmək üçün deyir ki, atan gələcək. Amma Nəzrin deyir ki, mən bilirəm mənim atam şəhid olub, bir daha evə gəlməyəcək. Tez-tez atasının şəkillərini öpür və ***“Atam mənim ürəyimdir!”*** – deyərək şəkli qucaqlayır. Nəzrin atasının yoxluğunu sanki şəkillərlə əvəz edir.

Jalə xanım balaca Nəzrin haqqında danışdıqca doluxsunur, kövrəlirdi. Buna görə də özünü ələ alaraq mövzunu dəyişdi və Azərlə bağlı fikirlərini davam etdirdi: ***“Azər müharibədə iştirakı ilə bağlı mənə heç nə demirdi. Hər dəfə telefonla əlaqə saxlayanda narahat olduğunu hiss edirdim. Oğlumuzun adının Əli qoymaq arzusunu da telefonda mənə demişdi. Amma mənə müharibənin ən qızğın yerlərində olduğu barədə heç nə demirdi. “Hər şey yaxşıdı, məndən narahat olmayın, tezliklə gələcəyəm!” – deyərək məni sakitləşdirirdi. Mən də onun tezliklə gələcəyinə inanırdım. Körpəmizin dünyaya gələcəyi günə qədər Azərin evə dönəcəyinə inanırdım.”***

Amma Azərin həsrəti vüsala döndü. O, tezliklə gələ bilmədi. Həsrətində olduğu, hələ dünyaya gəlməmiş oğlunun vüsalına qovuşa bilmədi. Bu vüsal əbədi, ürək dağlayan bir həsrət oldu. Bu vüsal sonu görünməyən bir vüsal oldu. Bu vüsal gənc xanımın ömrü boyu gözləyəcəyi və heç zaman qovuşa bilməyəcəyi bir vüsal oldu. Balaca Nəzrinin, körpə Əlinin nisgili bir ata həsrətinə çevrildi.

Aylar keçəcək, illər ötəcək, balaca Əli böyüyəcək, üzünü görmədiyi şəhid atasının ona verdiyi adı doğruldacaq. Damarlarında necə bir igidin qanı axdığını biləcək. Balaca Əli fəxr edəcək. Fəxr edəcəksən həm atanın adı ilə, həm də öz adınla – atanın sənə verdiyi Əli adınla. Şəhid atan sənin qürurun olacaq, Əli! Atanın adına layiq övlad olasan.

Şuşa şəhidi, baş leytenant Nurlan Həsənovun xatirəsini əbədiləşdirmək üçün adına inşa edilmiş bulağın açılış mərasimində Jalə ilə üz-üzə dayanmışdım. Balaca Nəzrin də yanında idi. Jalə Bakıya bu tədbirdə iştirak etmək üçün gəlmişdi. Bu, mənim onunla ikinci görüşüm idi. Daha heç bir sual verməyə ehtiyac yox idi. Çünki uzun müddət idi ki, telefon əlaqələrimiz var idi. Tez-tez ailə qayğıları, problemləri ilə maraqlanırdım. Ona görə də bir-birimizi yaxından tanıyan doğmalar kimi görüşdük. Balaca Nəzrinlə görüşmək, onun başını sığallamaq, Jalə ilə görüşməkdən daha ağır oldu. Sanki onun məsum baxışları deyirdi ki, mənim atam sizin xoş gələcəyinizə, nurlu sabahınıza görə canını qurban verib. Balaca Nəzrinin gözlərinə baxmağa, başını sığallamağa utandım, çox utandım...

Şəhid Azər Əliyevin xatirəsi xalqımız tərəfindən əziz tutulur. 2021-ci ildə Yuxarı Qiyaməddinli kəndinin küçələrindən birinə Azər Əliyevin adı verilib.

Vəzifə borcunu şərəflə yerinə yetirdiyinə və döyüş əməliyyatlarında şəxsi şücaət nümayiş etdirdiyinə görə Azər Dilafət oğlu Əliyev ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “Xocavəndin azad olunmasına görə” və “Ağdamın azad olunmasına görə” medalları ilə təltif edilib.

## Dünyamin Ramin oğlu Tağızadə



Tarixləşən ***ŞƏHİDLƏR!*** Qərinələr, əsrlər keçməsinə baxmayaraq, tarixin yaddaşına yazılan qəhrəmanlar! Ömür payını qeyrətlə, şərəflə yaşayanlar. Həyata ləyaqətlə əlvida deməyin adı ***ŞƏHİDLİKDİR.*** Tanrı önündə səcdə duranlar. Qanı ilə Vətənin hər daşına tarix yazanlar. Vətənin qan yaddaşına şərəf tacı qoyanlar. Yaddaşlara hopdunuz, daşlara döndünüz. Ürəklərdə məskən salan şəhidlər. Əbədiyyət adlı aşılmaz dağı keçdiniz. Adınız dillərdə Vətən türküsü oldu. Dualı dillərdə yaşayan ***ŞƏHİDLƏR!***

**Ey şəhidlər! Döndünüz bir Günəşə,**
**Qəlbimizdə yaşayırsız həmişə.**
**Düşməni yandırdı nifrət odunuz,**
**Vətənə qovuşub, Vətən oldunuz.**
**Bayraq kölgəsində yatan şəhidlər,**
**Dərdimizə sevinc qatan şəhidlər.**

Mənliyimizi, ləyaqətimizi bizə qaytaranlar. Şərəfli ömrünüzü qəhrəmanlıq toxumuna döndərib əsarətdə olan torpaqlarımıza səpildiniz. Həmin müqəddəs torpaqları qanınızla suvardınız ki, gələcəkdə Vətənimizin bağrında saysız-hesabsız igid oğullar cücərsin. Torpaqlarımıza qəhrəmanlıq toxumu, igidlik toxumu səpən ***ŞƏHİDLƏR!*** Siz öz cəsarətinizlə ***ŞƏHİD*** olmağı xalqın arzusuna çevirdiniz. Sizin cəsurluğunuzla,

mərdliyinizlə öyünən hər bir Vətən oğlu sizin yerinizə olmaq istədi. Şəhidlik Vətənə olan sevginin ən ali təcəssümüdür. Vətənə can fəda etməkdir. Zamanı gənc yaşında donan igidlər. Sizin adınız xalqımızın qəlbində yuva salıb. Torpağı qanınızla suvardınız ki, bu yerlərdə dünyanın ən gözəl gülü – xarı bülbül yenidən bitsin. Son sözü ***"Vətən sağ olsun!"*** – deyən qəhrəman şəhidlər. Azad etdiyiniz torpaqlarımızda zirvələrə qaldırdığınız bayrağı göz bəbəyiniz kimi qorudunuz. ***QANINIZ AZƏRBAYCAN BAYRAĞININ QIRMIZI RƏNGİNƏ QARIŞDI.*** Şəhid qanı hopmuş bayrağımız işğaldan azad etdiyiniz torpaqlarda dalğalandı.

**Ucaldınız ucaltdığınız bayrağımızla,**
**Vətənə şöhrət gəldi ad-sanınızla,**
**Zəfər tarixi yazdız öz qanınızla.**
**Sönən ocaqlara alov verdiniz,**
**Əsir torpaqlara səcdə etdiniz.**

Hünərləri ilə zəfər tarixi yazan, sönən ocaqlara alov verən, vətənə şöhrət gətirən, bayrağımızı ucaldan oğullar əsir torpaqlarımıza səcdə etdilər. Tanrının ən uca taxtını qurdular. Kədərimizə sevinc qatdılar. Özləri isə dönüb, Vətən oldular. Müqəddəssən, ey şəhid, Vətən sənsən, ey şəhid!

Ömrünü Vətənə fəda edən Dünyamin həsrətlə gözlədiyi qələbəni görməsə də, adını heç zaman unudulmayacaq qəhrəmanlar sırasına yazıb.

Dünyamin Ramin oğlu Tağızadə 2001-ci il yanvarın 21-də Beyləqan rayonunun Günəş qəsəbəsində şuşalı ailəsində anadan olub. XI sinfi bitirdi, Göygöl Kənd Təsərrüfatı Kollecinə daxil oldu. Dörd ay oxuduqdan sonra hərbi komissarlıqdan çağırış gəldi. 2019-cu il yanvarın 22-də Dünyamin həqiqi hərbi xidmətə yollandı. Azərbaycan ordusunun əsgəri olan Dünyamin Tağızadə 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə sa-

vaşıb. Sentyabrın 30-da Cəbrayıl döyüşləri zamanı şəhid olub. Beyləqan rayonunda dəfn olunub.

Anası Ziyafət xanım onun haqqında qürurla danışır: "***General Polad Həşimovun ölümü Dünyaminə çox ağır təsir etmişdi. O mənə dəfələrlə deyirdi: "Ana, heç bilirsən general Polad Həşimovun ölümü mənə necə təsir edib?"*** Şuşanın işğalından sonra anadan olsa da, onda qəribə bir Şuşa yanğısı var idi. Əsgəri xidmətini başa vursa da, uzun müddət idi ki, ailəsinə qayıtmamışdı. Telefon söhbəti zamanı anasının ***"Ay oğul, əsgərlik xidmətin başa çatıb. Nə üçün evə gəlmək istəmirsən?***" – sualı hər dəfə cavabsız qalırdı. Sən demə, Dünyamin hələ Vətən borcunu vermək üçün daha yüksək zirvələrə qalxmaq istəyirmiş. Ana oğlu ilə qürur duyur və fəxrlə deyir: ***"Əgər mənim oğlumu hamı tanıyırsa, deməli, o yaşayır. Oğlum mənim həm dərdim, həm də qürurumdur."*** Ana oğlu şəhid olan günü onu yuxuda dağlarda görür. O, anasına deyir: ***"Ana, torpaqlarını alıb gəlmişəm."***

Bəli, ana! Oğlun sənin qürurundur. Belə qürurlu ölüm qarşısında ağlama, ana!

**Vətən qızı, el anası, ağlama.**
**Daim uca tut başını, ağlama,**
**İçindəki fəryadı boğ, ağlama,**
**Günəş olub yenidən doğ, ağlama!**

Dünyamin ailənin böyük oğlu idi. Anası onu təkbaşına böyütmüşdü. Dünyamin uşaqlıqdan hərbçi olmağı arzulayırdı. O, üçüncü sinifdə oxuyanda tank şəkli çəkmiş və üstündə hərbçiləri təsvir etmişdir. Hal-hazırda həmin rəsm təhsil aldığı orta məktəbin şərəf lövhəsində Dünyaminin şəklinin yanında yerləşdirilib. Ali hərbi akademiyada oxumaq Dünyaminin ən böyük arzusu idi. Hələ 2016-ci ilin Aprel döyüşlərində deyirdi ki, ana, kaş, yaşım düşəydi, mən də o döyüşlərdə olaydım. 2019-cu il yanvarın 22-də Dünyamin həqiqi hərbi

xidmətə yollandı. O, Tovuz rayonunda xidmətə başlayan gündən deyirdi ki, mən həmişə postda xidmət etmək istəmişəm. Əsgər yoldaşları, komandirləri deyir ki, postda daha çox fəal idi. Tovuz təxribatı başlayanda o hərbi xidmətdə idi. General Polad Həşimov şəhid olandan sonra Dünyamin könüllü olaraq 12 gün döyüşmüşdü. Həmin vaxt yanına düşən mərminin təsirindən qulaqları tutulmuşdu. Qospitalda müalicə aldıqdan sonra yenidən döyüşlərə qayıdır. Təxris əmri verilmişdi və evə gələ bilərdi. Lakin o, döyüşməyi seçmişdi və iyulun 23-də iki Fəxri fərmanla evə gəlmişdi.

Dünyamin təxris olunub, evə döndükdən sonra yenidən hərbi xidmətə qayıdıb.

Ananın oğlu ilə bağlı arzuları o qədər çox idi ki, bitib-tükənmək bilməyən arzuları... Amma oğlu anasının deyil, ana Vətənin arzularına, səsinə, harayına hay verdi. Vətən torpaqlarının düşmən əsarətindən azad olunmasına könül verdi. Vətən borcunu bütün borclardan, ata-ana haqqından da uca tutdu şəhidimiz. Çünki şəhidlərimizin qanı ilə Vətənə çevrilən ana torpaq ulularımızın, əcdadlarımızın əmanəti idi. Elə buna görə də, Azərbaycan oğulları son nəfəslərinə qədər Vətəni, yurdu əmanət kimi qorudular. Düşündülər ki, ölsək də, qoy çürüyək qoynunda, bir ovuc torpağın artsın, Vətən. Vətənin ölümsüz şəhidləri canlarını fəda etməklə təkcə Vətənin bir parçasına, bir ovuc cənnət torpağına çevrilmədilər. Həm də əbədi olaraq Vətənin özünə çevrildilər. Vətənin ölümə qalib gələn, əbədiyaşarlıq qazanan ölməz bir oğluna çevrildilər.

Ziyafət ana çox təsirli danışırdı: ***“Oğlum deyirdi ki, yenidən hərbi xidmətə qayıtmaq istəyirəm. Müddətdən artıq xidmət edən kimi xidmətini davam etmək qərarına gəlmişdi. Oğlumun yenidən məni tək qoyub-getməsini istəmirdim. Çünki Tovuz əməliyyatlarından sağ qayıtması mənim üçün inanılmaz idi. Lakin Dünyamin öz qərarında qətiyyətli idi və gülümsəyərək dedi: “Ana, sən həmişə deyirsən ki, sizi necə əzab-əziyyətlə böyütdüyümü Allah bilir. Sizi Allaha əmanət***

***etmişəm. Ona görə də, qorxma, özünə və qardaşıma yaxşı bax.”*** Bu, onun anasına son sözləri olur. O, yenidən hərbə qayıdanda kövrəlmişdim. Amma düşündüm ki, oğlu Vətəni qorumağa gedən ana ağlamamalıdır. Oğlum müharibənin qaçılmaz olacağını bilirdi. Çünki generalımız şəhid olandan sonra düşmən öz təxribatını davam etdirirdi. Hərb sənətinin aşiqi olan Dünyamin Vətəni darda qoya bilməzdi. Tovuz hadisələri zamanı könüllü olaraq on iki gün bu döyüşlərdə iştirak etmişdi. Döyüş zamanı yanına düşən mərminin təsirindən eşitmə qabiliyyətini itirir. Bir müddət qospitalda müalicə alır və yenidən döyüşə qayıdır.

Həm ananın ağızdolusu danışmağından, həm də əsgər yoldaşlarının onun haqqında dediklərindən anladım ki, Dünyamin son dərəcə Vətənə bağlı hərbçi olub. Füzuli uğrunda gedən qızğın döyüşlərdə o, üç döyüşçü yoldaşı ilə birlikdə düşmənlə üz-üzə qalmışdı. Qəflətən mərmi onların yanına düşür. Döyüşçü yoldaşları elə ordaca şəhid olur. Dünyamin isə bu döyüşdə ağır yaralanır. Qəlpə sol tərəfdən ürəyinə dəyir. Elə buna görə də onu xilas etmək mümkün olmur. Sentyabrın 30-da ana oğlu ilə əlaqə saxlaya bilmədiyi üçün narahat olur. Ananın ürəyinə damır ki, oğluna nəsə olub. Oktyabrın 1-də Dünyaminin şəhid olması xəbəri gəlir.

Əsgər yoldaşlarından biri Dünyaminin çətin anlarda döyüşçü yoldaşlarını əsl dost kimi necə xilas etdiyindən danışdı. Döyüşçü yoldaşı deyirdi ki, mən yaralı idim. Qollarım yandığı üçün sürünə bilmirdim. Dünyamin mənim yaralı olduğumu gördü və mənə tərəf gəlməyə başladı. Hündürdən qışqıraraq dedim ki, yaxın gəlmə! Amma o, sözümə baxmadı, qaça-qaça mənə tərəf gəldi və dedi ki, səni mütləq xilas etməliyəm. Çünki yaralısan, sənə yenə güllə dəyə bilər. Şəhid olsaq da, elə birlikdə olarıq. Dünyamin cəld bel kəmərini çıxartdı və məni kürəyinə bağladı. Bu gün həyatda olduğum üçün şəhid qardaşıma borcluyam. Beləliklə, o, həyatını təhlükəyə qoyaraq məni odun-alovun içərisindən çıxartdı və atəş bölgəsin-

dən uzaqlaşdırdı.

Qeyrətinə qurban, igid oğul! Əhsən sənə, Azərbaycan əsgəri! Bir igidin saf ürəyinə, belə bir çətin anda göstərdiyi hünərə baxın, insanlığa baxın! Cəsarətinə, mərdliyinə, ərliyinə eşq olsun! Oğullarımız döyüş yoldaşlarını meydanda yaralı qoyub gedə bilməzdi. Şəhidini qucağında ehtiramla özü ilə aparan oğullarımız. Şuşada sıldırımlı qayaları qalxanda belə, şəhidini, yaralısını özü ilə üzü yuxarı qaldırmışdı. Bax, budur türk savaş əxlaqı, türk qeyrəti! Türk savaş əxlaqında namərdlik yoxdur. Qeyrətli ata-babalarımızın ənənəsini davam etdirən oğullarımız şəhid olmağa razı idilər, amma şəhidi, yaralını döyüş meydanında qoyub-getməyi ləyaqətlərinə sığışdıra bilməzdilər. Azərbaycan igidinin qeyrəti, mənliyi, qüruru buna yol verməzdi. Azərbaycan əsgəri döyüşlərdə qəhrəmanlığın, kişiliyin, mərdliyin təcəssümü oldu. Şəhidini kürəyində daşıyan əsgərimiz düşməndən qisas almağa can atırdı. Şəhidin intiqamını elə həmin döyüşdə alırdı igidlərimiz, qanını yerdə qoymurdular. Dünyamin də öz qətiyyəti, əzmi, mübarizliyi ilə qeyrət nümunəsi göstərdi.

Bəli! Böyük qələbəni bizə bəxş edən hər bir Vətən oğlu gələcək nəsillər üçün örnək oldu. İgidlərimiz hər cür fədakarlığa qadir olduqlarını dünyaya sübut etdilər.

Dünyamin Tağızadə ölümündən sonra “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

## Pərviz Şakir oğlu Məmmədov



Vətəndən güc alıb, Vətən olan ***ŞƏHİDLƏR!*** Ünvanı əbədiyyət, mənzili Vətən torpağı olan ***ŞƏHİDLƏR!*** Məzarları bayraq kölgəsində, özləri Vətən olan ***ŞƏHİD-LƏR.*** Yaddaşlara hopan, qəlblərdə yuva salan, qeyrət tacımız ***ŞƏHİDLƏR.*** Əbədi diyardasınız. Hər kəsə Vətən oğul deməz, hər kəs qəlblər-də yaşaya bilməz. Hər kəs zirvələrə ucala bilməz.

**Vətənlə öyündünüz,**
**Qəlbində döyündünüz,**
**Vətənə ürək verib,**
**Ayağını, qolunu,**
**Gözlərinin nurunu**
**Vətən edən oğullar.**
**Gözündən nur ələndi,**
**Sizə baxıb qürrələndi,**
**Axan göz yaşını sildi,**
**Vətən sizə oğul dedi.**

***ŞƏHİDLƏR!*** Onlar Vətənin polad körpüləridir! Sınma-yan, əyilməyən və Vətənin bütövlüyü qədər ağır bir yükü çi-yinlərində mərdliklə daşıyan qəhrəmanlıq körpüsü. Elə bir əyilməyən, sınmayan körpüdür ki, neçə-neçə nəsillər keçə-cək bu körpüdən. Gələcək nəsillər bu mərdliyin izi ilə gedə-cək. Bu izi itirməyəcək. Şəhidlərin ruhuna qaldırılan üçrəng-li bayrağı Vətən övladları daim qoruyacaqlar. Qəhrəmanların

sırası genişləndi. Şəhidlər şanlı tariximizə yeni səhifələr yazdı. Qanını Vətən torpağında fəda edən şəhidlərin ruhlarının hakim olduğu səmalarda bayrağımız yenə də dalğalandı. Barıt qoxulu yerlərdə xarı bülbüllər bitdi. Vətən sinəsinə tuşlanan güllə yağışının qabağına sinəsini sipər edən şəhidlər. Qələbə sizin qanınızla yazıldı, şəhidlər. Torpaq üstünə düşən qan naxışları ilə azad etdiyiniz torpaqları bəzədiniz. Torpağın hər qarışında şəhid olan igidlərin gözlərində Vətən sevdalı, Vətən həsrətli gülüşlər qaldı.

Himnimiz oxunanda gözlərimiz yaşla, ürəyimiz qürurla dolursa, bax, bu, Vətən sevgisidir. Vətənçün gözdən axan bir damla yaş Vətəndir. Övladların sənə qucaq açdı, Vətən!

Otuz ilə yaxın səni gözlədik, Vətən!.. Məhbusu olduğumuz zülmətlərin çiliklənməsini, yağmalanmış arzularımızın, qırılmış ümidlərimizdən yandırdığımız ocaqların hənirinə qısılıb, dan yerinin sökülməsini – sənin azadlığını gözlədik, Vətən! Bağrımıza daş asıb, 30 ilə yaxın gözlədik, Vətən! Zümrüd qaşlı bulaqların zümzüməsinə, xarı bülbül aşiqi bülbüllərin nəğməsinə, Cıdır düzündə qonur libaslı köhlənlərin kişnəməsinə həsrət qaldığımız Qarabağımızı 30 ilə yaxın gözlədik, Vətən! Nifrətdən alışıb – yanan igidlərinin sinəsi köz-köz oldu. Nəhayət ki, közərən nifrətin közü düşməni yandırdı.

**Qurban olub torpağına,**
**Sarıldınız bayrağına,**
**Nur verdiniz ocağına,**
**Özünə məlhəm bildi,**
**Vətən sizə oğul dedi.**

Vətən yarasına məlhəm olan igidlərin qan sızan yarasından öpdü Vətən. Vətən azad olan gün olan sevincimiz bir ömrə bəs edər. Səni xilas edən oğullarını görəndə sevindinmi, Vətən?

**Ey Vətən, sən bizi bağışladınmı?**
**Mərd oğullarını alqışladınmı?**

Əbədi ocağımız, arxa-dayağımız, ruhumuz, damarda qanımız Vətən! Övladınız səni parçalanmağa, bölünməyə qıyardımı? Hər qonşuda bir parçası olan Vətənim. Parçalanan Qarabağı, ilmə-ilmə bölünən torpaqlarını bütövləşdirən oğulların sənə dayaq oldu, Vətən. Torpağına, ocağına, bayrağına, doğma qucağına qurban gedən övladların şəhid oldu. Övladların sənə qucaq açdı, Vətən!

**Təbrizsiz, Göyçəsiz Vətən,**
**Zəngəzur, Dərbəndsiz Vətən,**
**Yaxşı Şuşasız qalmadı,**
**Xudafərin də sevindi,**
**Vətən sizə oğul dedi.**

Vətənə olan sevgi hissi, torpağa olan məhəbbət duyğusu bütün hisslərdən ülvidir. Hər kəsin qəlb evində ana kimi müqəddəs, saf bir hiss yaşayır. Bu duyğu da elə Vətən sevgisidir. İnsanın qəlbinə hakim kəsilən ümmandır Vətən eşqi. Hər kəs dünyaya göz açanda ana məhəbbətini görür, ilk qədəmlərini Vətən torpağında atır və Vətən sevgisinin, yurd eşqinin hərarətini bax, beləcə hiss edir. Vətən məhəbbəti hər bir Vətən övladının, hər bir qeyrətli yurddaşının məslək işi, həyat amalı, fəxarət dünyası, ömür andıdır. Müdrik Dədə Qorqudun gənclərə verdiyi nəsihət hər kəsə örnəkdir: Torpağı həm əkib-becərmək, həm də qorumaq lazımdır. Əgər torpağı əkib-becərməsən, onu qorumağa dəyməz, qorumasan, əkib-becərməyə dəyməz.

Qəhrəmanlar yaşamaq üçün şəhid olurlar. Vətənə olan sevgi, düşmənə olan nifrət oğullarımızı zirvəyə ucaltdı. Vətən qəhrəmanların çiynində yüksəlir.

Tarix yeniləndi. Qara hərflərlə yazılan işğal tariximiz indi doğma torpaqların azad olunması ilə qırmızı hərflərlə tarixə düşdü. Hər birimiz bu şanlı tarixin yazıldığı zaman kəsiyində yaşadığımız üçün sevinməliyik. Belə şanlı zəfərlər hər onil-

likdə, hər yüzillikdə olmur. Qəhrəmanlıq xalqımıza tariximizin dərinliklərinə uzanan qatlardan gəlir. Qəhrəmanlığın əsasını qoyan amil isə vətənpərvərlikdir. Tarixin səhifələrini vərəqlədikcə Azərbaycan xalqının keçdiyi qəhrəmanlıqla dolu şanlı yolu görərik. Bəli, xalqımızın şanlı tarixi qəhrəmanlıq səhifələri ilə zəngindir. Tarix boyu xalqımız doğma yurdunu qoruyan igidlər yetişdirib. Cəsurluq və mərdlik izi qoyan, Vətən sevgisi ilə ölməzlik qazanan oğullardan biri də Pərviz Məmmədovdur.

Pərviz Şakir oğlu Məmmədov 2001-ci il martın 25-də Bərdə rayonunda şuşalı ailəsində anadan olub. 2007-ci ildə Laçın rayon İ.Şahverdiyev adına Ağanus kənd tam orta məktəbində birinci sinfə daxil olub. Daha sonra təhsilini Bərdədə yerləşən Şuşa şəhər 18 nömrəli tam orta məktəbində davam etdirib, 2018-ci ildə orta məktəbi başa vurub. Uşaq yaşlarından idmanın kikboksinq növünə böyük maraq göstərmiş, dəfələrlə müxtəlif yarışların qalibi olmuşdur. 2019-cu il aprelin 2-də hərbi xidmətə yollanıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda könüllü olaraq döyüşlərə qatılıb. Füzulinin Qaraxanbəyli, Əbdürrəhmanlı kəndləri uğrunda gedən şiddətli döyüşlərdə fəal iştirak edib. Sentyabrın 29-da yaralanmış komandirinə kömək etmək istəyərkən Füzuli – Cəbrayıl istiqamətində "Nüzgar postu"nda qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

Bərdədə vaxtilə Pərvizin yaşadığı binanın qarşısındayam. Pərvizgilin ailəsi məcburi köçkünlər üçün salınan qəsəbədə məskunlaşıb. Qəsəbənin girəcəyində ayaq üstə dayanmış, idmançı görkəmli bir igidin gülümsər şəkli qarşılayır. Şəklin önündə səliqə ilə əkilmiş güllər diqqətimi cəlb edir. Binanın yanında xatirə lövhəsi qoyulub. Atası Şakir Məmmədov oğlunun xatirə lövhəsinin ətrafına gül-çiçəklər əkib. Şəhid atanın hər gün şəklin önündə dayanması, oğlunun Şəhidlər xiyabanındakı qəbrini ziyarət etməsi adət halını almışdır. Qəsəbə sakinləri Pərvizin şəkli önündəki güllərə qulluq edir, həmin

yerdə səliqə-sahman yaradırlar. Pərvizin başı üzərində dalğalanan bayrağı tez-tez yenisi ilə əvəz edirlər. Bir sözlə, hər kəs binanın qarşısındakı xatirə lövhəsinə diqqət və ehtiramla yanaşır, şəhidin ruhunu hər gün şad edirlər.

Pərvizin təhsil aldığı Şuşa köçkün tam orta məktəbi elə binanın yanında yerləşir. Məktəbin direktoru Coşqun Babayev, dərs hissə müdiri Hicran Əliyeva, müəllimlərdən Kəmalə Babayeva, Əminə Abdullayeva, Elman Heydərov Pərviz haqqında xatirələrini bölüşdülər.

Anası Gülnaz xanım məni mehribanlıqla qarşılayır. Biz uzun müddət idi ki, telefon vasitəsilə əlaqə saxlayırdıq. Demək olar ki, bir-birimizi qiyabi tanıyırdıq. Otağın bir küncündə Pərvizə həsr olunmuş guşə var. Bu guşədə Pərvizin uşaqlıq, məktəb illərinin şəkilləri, idmanla bağlı əşyaları, boks əlcəkləri və ən nəhayət, aldığı medallar. Bir gəncin həyat yolunu əks etdirən bu kiçik guşə nələr demir. Anası Pərviz haqqında xatirələrini belə bölüşdü: ***“Şuşanı görmək Pərvizin ən böyük arzusu idi. Çünki uşaqlıqdan ailədə Şuşa və Qarabağ haqqında söhbətləri eşidə-eşidə böyümüşdü. Müharibənin ilk günlərində biz Pərvizlə əlaqə saxlaya bilmədik. Sentyabrın 29-da özü bizə zəng etdi. Mənimlə çox nikbin əhval-ruhiyyədə danışdı. Son cümləsində “Allah qoysa, qələbə bizim olacaq! Qələbənin muştuluğunu sizə özüm verəcəyəm!” – dedi. Təəssüf ki, arzusu ürəyində qaldı. Bu telefon söhbəti Pərvizin bizimlə son danışığı oldu. Təxminən bir saatdan sonra oğlumun şəhid olması xəbəri gəldi. Pərviz, hətta şəhidlik zirvəsinə ucalmaq arzusunu da mənə bildirdi. Mən isə bir ana kimi onun inamlı sözlərindən təsirləndim və “Allah eləməsin, ay bala, mənə yazığın gəlsin!”- dedim. Amma Pərviz yenə inamla dedi ki, bizə nə olursa – olsun, bütün torpaqlarımız, Şuşamız özümüzə qayıtsın. Atamın Şuşa həsrətinə nəhayət ki, son qoyulsun. Pərviz bu arzularla söhbətini bitirdi. Sanki Allah da onun səsini eşitdi. Şükürlər olsun ki, torpaqlarımız azad olundu. Balalarımızın qanı yerdə qalmadı.***

***Torpaqlarımızın azadlığı uğrunda mübarizədə iştirak etmək Pərvizin uşaqlıq arzusu idi. Çünki uşaqlıqdan ailəmizdə gedən vətənpərvər söhbətlər sanki onun qanına, beyninə hopmuşdu.”***

Anası Gülnaz xanımın dediyi kimi, Pərvizin döyüş yoldaşları onun ailəsinə tez-tez baş çəkməyə gəlirlər. Döyüşçü yoldaşlarının dediyinə görə, Pərviz şəhid olana qədər yeddi düşmən əsgərini məhv etmişdi.

Bəli, Pərviz düşməndən qisasını almışdı. Axı o, sərrast pulemyotçu idi. Sonra isə komandirini xilas etmək istəmişdi. Oğlun igidlik göstərmişdir. Belə qəhrəman oğul böyütdüyün üçün başını uca tut, Gülnaz ana.

**Başını uca tut, şəhid anası,**
**Oğlun oldu ucaların ucası,**
**Bu gündən sən oldun ellər anası,**
**Başını uca tut, şəhid anası.**

Atası Şakir Məmmədov da Qarabağ qazisidir. Şuşa rayon Polis Şöbəsinin əməkdaşı kimi Şuşadan Tərtərədək döyüş yolu keçmişdir. Hələ də qolunda qəlpə yarası var. Pərvizin əmisi Tahir Məmmədov da Şuşa uğrunda döyüşlərdə misilsiz xidmətlər göstərmişdir.

Pərvizin atası Şakir Məmmədov ***“Şəhidlik oğluma qismət oldu!”*** – deyərək aramla danışmağa başladı: – ***“Hələ Birinci Qarabağ müharibəsi zamanı döyüşlərdə özümə şəhidlik arzulayırdım. Amma bu, mənə qismət olmadı. Bu ali məqama oğlum Pərviz yüksəldi. Oğlumla fəxr edirəm”.***

Pərvizin qardaşı Nicat ***“qardaşımla qürur duyuram!”*** – sözlərini fəxrlə dedi... Bu sözlərdən sonra anası oğlunun sözünə qüvvət olaraq dedi ki, Pərvizlə Nicat çox istəkli qardaş olublar. Tez-tez telefonla əlaqə saxlayırdılar. Pərviz qardaşına demişdi ki, tezliklə müharibə olacağı gözlənilir. Allah qoysa, Qarabağımız, Şuşamız azad olunandan sonra evə qələ-

bə ilə gələcəyəm. Nicat ona demişdi ki, əgər müharibə başlayarsa, mən də döyüşlərə qatılmaq istəyərdim. Pərviz isə ona etirazını bildirmişdi. ***"Yox, qaqa. Nə olursa-olsun, qoy mənə olsun. Sən valideynlərimizin yanında qal. Mən istəmirəm ki, sənə nəsə olsun."***

Xalqımız öz qəhrəmanlarını həmişə uca tutur. Pərvizin adı da əbədiləşib və xatirəsi əziz tutulur. Bakıda, Qəbələdə, İsmayıllıda, Bərdədə yerləşən məktəblərin siniflərinə şəhidimizin adı verilmişdir.

Pərvizin ata-baba yurdu Şuşanın dilbər guşələrindən olan Turşsu kəndidir. Hal-hazırda Pərvizin şəkli həsrətində olduğu Şuşada – Gövhər ağa məscidinin qarşısında asılıb. Başının üzərində isə üçrəngli bayrağımız dalğalanır. Pərvizin ruhu indi Şuşada dolaşır.

Pərviz Şakir oğlu Məmmədov "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

# Allahverdi Əli oğlu Allahverdiyev




Ürəyi Vətən nəbzində vuran ***ŞƏHİDLƏR!*** Ulu Tanrının müqəddəslərinə çevrilən, cənnətin qapılarını üzünə açıb əbədiyyətə qovuşan bəndələrdir ***ŞƏHİDLƏR!***

Şəhidlər zəncirləri qıra-qıra, zülmətləri yara-yara işıqlı sabaha, xoş gələcəyə yol açanlardır.. ***VƏTƏN DAMARINDA SİZİN HƏR BIRİNİZİN QANI AXIR.*** Axı siz yaranızdan qan verməklə Vətəni ucaltdınız. Qəlbinizdəki Vətən odunuz Vətənə ucalıq gətirdi, düşməni yandırdı. Ümmandır Vətən sevgisi! Bir gün də olsa, Vətən keşiyində durmaq nə qədər müqəddəs duyğudur...

Siz təkcə Vətəni azad etmədiniz, ləyaqətimizi, qürurumuzu, mənliyimizi özümüzə qaytardınız. Xalq özünə qayıdanda güclü olur. Bizi özümüzə qaytaran igidlər. Xalqımızın illərlə qeybə çəkilmiş sevincini, təbəssümünü özünə qaytardınız. Vətənə uzanan xain əlləri kəsmək üçün oda-alova döndü igidlər. Qarabağ torpaqlarına səpələndi, düşmənin başına od ələdi. Bu oğulların düşmənə sonsuz nifrəti uşaqlıqdan yığılıb qalmış nifrət idi. Bu oğulların kimisi yurdundan didərgin düşmüş, kimisinin atası, kimisinin qardaşı, kimisinin doğmaları şəhid olmuşdu. Uşaqlığın acı xatirələri illərdir ki, sinələrində yığılıb qalmışdı. Bu nifrət böyük bir xalqın nifrəti idi. Axır ki bu qəzəbin qığılcımları alova çevrildi. Bu nifrətin, bu qəzəbin

közündən yanan ocaq düşmənin başına ələndi, həsrətdən buza dönmüş Vətəni isə isindirdi bu nifrətin közü. Vətən daşından qopan, yaddaşlara hopan oğullar! Sönən ocaqlarımıza alov verdiniz, əsir torpaqlarımıza səcdə etdiniz. Bu qığılcımlar alovlanıb düşməni külə döndərdi. Torpağımızı, yurd-yuvamızı, ata-baba ocaqlarımızı viran qoyan düşmən bu nifrət alovunda yandı. Vətən ruhumuzun nisgili idi. Uzaqlardan bizə həsrətlə baxan Qarabağımızın nisgili idi. Vətənin ağlar gözlərini sevindirən, qəribsəyən Vətənə dayaq olan igidlər. İllərdi ki, o torpaqlarda yatan şəhidlərin ruhunu şad etdiniz. Axı otuz ilə yaxındır ki, o müqəddəs torpaqlarda yatan, ruhları didərgin düşməyən oğullar bu qisası gözləyirdi. Məzarları o torpaqlarda olan oğulların ruhunu sevindirdiniz. Şuşada Ramiz Qəmbərov, Ağdamda Allahverdi Bağırov, Qubadlıda Əliyar Əliyev, Laçında Oqtay Güləliyev, Kəlbəcərdə Şahlar Şükürov, Füzulidə Pəhlivan Fərzəliyev, Cəbrayılda Kazım Məmmədov, Zəngilanda Əsəd Əsədov kimi məzarı əsir torpaqlarımızda qalan igidlərin ruhunu şad edən oğullar! Torpağına, bayrağına süzülən qanınızla, əyilməyən vüqarınızla Vətən olan ***ŞƏHİDLƏR.***

**Şəhidlər qanına hopmuş,**
**Tarix dərgahından qopmuş,**
**Şuşa zirvəsinə qonmuş,**
**Bayrağımız da nur geydi,**
**Vətən sizə oğul dedi.**

Vətənin dar günündə harayına səs vermək, şəhid qanı ilə suvarılmış torpaqları düşmən əsarətindən azad etmək yanğısı ürəkdən gələn hökmdür. Vətəninə canını belə, fəda etməyə hazır olan oğullar sırasında Allahverdi də vardı.

Allahverdi Əli oğlu Allahverdiyev 2001-ci il iyulun 9-da Bakının Xəzər rayonunda şuşalı ailəsində anadan olub. 2007-2018-ci illərdə 238 nömrəli orta məktəbdə təhsil alıb. 2019-cu ildə hərbi xidmətə çağırılıb. Ordudan təxris olunmasına üç ay qalırdı. Vətən

müharibəsində baş atıcı kimi iştirak edib. Düşmənin üzərinə ilk atılanlardan olub. Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə vuruşub. Sentyabrın 27-dən 28-nə keçən gecə Talış-Suqovuşan istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman şəhid olub.

Allahverdinin Vətən sevgisi digər sevgilərlə müqayisə olunmayacaq dərəcədə yüksək idi. Şəhidlik zirvəsi daim onun can atdığı zirvə, arzusu olmuşdu. Ailədə dörd övlad idilər. Allahverdi evin sonbeşiyi idi. ***VƏTƏN MÜHARİBƏSİNDƏ ŞUŞANIN İLK ŞƏHİDİDİR.*** Allaherdigilin ailəsi Şuşadan didərgin düşəndən sonra Buzovna kəndində məskunlaşmışdı. Allahverdi burda doğulub, boya-başa çatıb. Elə buna görə də, o, elə Buzovnanın da ilk şəhidi kimi hörmətlə anılır, xatirəsi əziz tutulur.

Şəhidlər haqqında məlumat toplayarkən Şuşanın doqquz şəhidindən ikisinin Şırlan kəndindən olması diqqətimi cəlb etdi. Bu kənd mənim üçün doğmadır. Ali məktəbi bitirdikdən sonra təyinatla ilk əmək fəaliyyətimə başladığım kənddir. Burda dərs dediyim müddətdə kəndin əhalisinin zəhmətkeşliyinin, Vətənə, torpağa bağlılığının, əməksevərliyinin şahidi olmuşam. Bu kənddən olan ailədə böyümüş oğulların igidliyi, Vətən, torpaq məhəbbəti, doğma yurd sevgisi heç də təsadüfi deyil.

Allahverdiyevlər ailəsini Şuşanın Şırlan kəndində hamı zəhmətkeş ailə kimi tanıyırdı. Adını daşıdığı babası Allahverdi kişi kəndin hörmətli ağsaqqallarından olmuşdu. Allahverdi də elə bu zəhmətkeş ailədə babasının adına layiq böyümüşdü. Atası Əli Allahverdiyev oğlu haqqında fəxrlə danışır, qürur duyduğunu deyir.

Anası Elyana xanım oğul dərdini təzələmək istəmirmiş kimi fikirlərini qısa şəkildə ifadə etdi: ***"Oğlum Vətəni seçdi. Vətəni anasından çox istəyirmiş. Vətənpərvər olmağını hamımız bilirdik. Qeyri-adi Vətən sevgisi vardı balamda."***

Ana fikirlərini qısa ifadə etsə də, gözlərindəki bala nisgili, bala həsrəti hər şeyi deyirdi. Elə buna görə də Allahverdinin bacısı Nərmin bütün suallara cavab verməyi öz üzərinə götürdü: ***“Nə olar anamın yarasını təzələməyək... Anamın əvəzinə bütün suallara mən cavab verərəm. Anam nə qədər səbrli olmaq istəsə də, qardaşımın otağını bəy otağı kimi bəzətdirib.”***

Ay ana, oğlun Vətənin bir parçası, Vətənin oğlu oldu. Oğlun elə bir ucalığa yüksəlib ki, fəxr et, qürurlan, ana! Şəhidlər Allahın seçilmiş bəndələridir. Bilirəm ki, hər gün o otağa girdikcə qaysaq bağlamamış yaranız yenidən qopur. Məlhəmi olmayan bu yaranı nə qədər sağaltmaq istəsək də, anaları ovutmaq çox çətindir. Şəhidin qanının ilk damlası axan gündən o, artıq Allahın müqəddəs bəndəsi olmuşdur. Nisgilimiz, kədərimiz, ürək ağrımız olsa da, axı ölməzliyimizdir, vüqarımızdır şəhidlər.

**Başını uca tut, ŞƏHİD ANASI,**
**Vətənə pay verdin ciyər parası,**
**Düşünmə dərdinin yoxdu çarası,**
**Bu gündən sən oldun ELLƏR ANASI.**

Adını tarixin yaddaşına yazdıran oğlun örnəyimizdir. Axı Vətən də anadır. Oğlunuz ana Vətəni seçdi.

Allahverdinin böyük bacısı Rüfanə qardaşı haqqında şirin xatirələrini bölüşür: ***“Qardaşımın futbola olan marağı böyük idi. Döyüş filmlərini izləməyi xoşlayırdı. Onda olan Vətən sevgisi sanki hamıdan fərqli idi, çox fərqli idi. Həm vətən sevgisi, həm də həyata münasibəti fərqli idi. Hiss edirdik ki, ondakı Vətən sevgisi həm də Vətən yanğısı idi. Sanki hiss edirdi ki, Şuşa tezliklə azad olacaq. Kiminlə söhbət edirdisə, mövzunu dəyişər, Qarabağ dərdimizdən söhbət salardı. Şuşanın azad olunacağına çox inanırdı. Deyirdi ki, Şuşa Qarabağımızın baş tacıdır. Şuşa əsarətdə qalmamalıdır. Doğma yurdumuzu azad etmək bizim borcumuzdur.”***

Nərminin ürəyi dolu idi. Qardaşı haqqında ağızdolusu danışmaq istəyirdi: ***“Qardaşım çox ürəyiaçıq və saf idi. Kim ondan nə xahiş etsə, mütləq yerinə yetirərdi. Hamıya kömək əli uzatmaq onun təbiətində idi. Ölümündən sonra tanımadığımız insanlar bizə gələrək Allahverdinin onlara etdiyi yaxşılıqlar barədə danışır, xoş xatirələrlə onu yad edirlər. Qardaşımla bağlı o qədər xoş xatirələr danışaram ki... Çox xahiş edirəm ki, qardaşım haqqında yaddaşımda qalan bu hadisəni olduğu kimi yazasınız... Novruz bayramı idi. Allahverdi ürəkdən arzu elədi ki, kaş, gələn il Novruz bayramını Qarabağda, Şuşada qeyd edək. Ürəyimə damıb, elə bilirəm ki, bu, belə də olacaq. Qardaşım inamla deyirdi ki, gələn il Novruz bayramını mütləq Qarabağda keçirəcəyik. Yenicə əsgərlikdən məzuniyyətə gəlmiş dayım oğlu da bizdə idi. Allahverdi zarafatla anama dedi: “Ana, qardaşın oğlu torpaqları ala bilmədi. Allah qoysa, özüm əsgərliyə gedəndə qəhrəmanlıq edəcəyəm. Elə bilirəm ki, həsrətində olduğun torpaqların azad olunmasında iştirak edəcəyəm. Qəhrəman olacağam. Doğrudan da, qardaşım vətənpərvər ruhda böyümüşdü. Xarakterinə görə çox fərqli idi, çox seçilirdi. Böyük qardaşım Anar Aprel döyüşlərinin iştirakçısıdır. O, əsgərlikdə olanda Allahverdinin hələ 16 yaşı vardı. İnad edirdi ki, ana, mən də Aprel döyüşlərində iştirak etmək istəyirəm. Hərbi komissarlığa müraciət etmək istəyirəm. Anam dedi: “Ay oğul, axı sənin yaşın heç əsgərliyə düşmür. Allah qoysa 18 yaşın olanda əsgərliyə gedəcəksən və Vətən borcunu verəcəksən. Qardaşım cavabında qətiyyətlə dedi ki, ana, əgər mənim döyüşməyə gücüm, qüvvəm çatırsa, nə üçün kənarda qalım? Elə qardaşım döyüşdüyü yerlərdə mən də ona kömək ola bilmərəmmi?***

***Allahverdi əsgərlikdən məzuniyyətə gələndə də elə müharibə haqqında danışırdı. Axı mən sizə demişdim mütləq müharibə olmalıdır və biz qisasımızı almalıyıq. Elə bil ki, neçə ildi özünü müharibəyə, intiqam almağa hazırlayırdı. Anam***

***dedi: "Ay oğul, əsgərlikdəsən, özünü qoru!" Anamın bu sözlərindən sonra Allahverdi ciddi görkəm alıb dedi: "Nə danışırsan, ay ana! Hamı özünü qorusa, heç kim irəli getməsə, bəs Vətəni kim qoruyacaq? Mən getməyim, o getməsin, bəs kim getsin? Vətən hamımızın Vətənidir. Hamımız da Vətəni qorumalıyıq." Mən deyərdim ki, Allahverdi Vətən üçün böyümüşdü. Elə bil Vətəni qorumaq üçün yetişmişdi. Hündürboylu, cüssəli, idmançı görkəmli, yaraşıqlı idi qardaşım. İnana bilməzdim ki, o, ölə bilər. Üz-üzə döyüşdə kiminsə onu məğlub edəcəyinə inana bilməzdim. Şəhid bacısı olmaq çətin olsa da, çox şərəflidir, qürurvericidir. İnsan dünyadan köçəndə bilirsən ki, artıq o, dünyasını dəyişib, bir daha geri qayıtmayacaq. Amma şəhidlər haqqında belə düşünmürsən. Elə bilirsən ki, sağdırlar. Nə vaxtsa qayıdacaqlar. Qardaşımı ölü kimi təsəvvür edə bilmirəm. Elə bilirəm ki, o, gələcək."***

Nərmin doluxsunur və fikirlərini davam etdirir: ***"Şəhidlərin hamısının şəklinə baxanda, elə bilirsən ki, hamısı doğmadır, hamısı qardaşdır. Axı onlar Tanrı tərəfindən seçilmiş oğullardır. Hamısının üzündən nur tökülür. Demək olar ki, bir an belə fikrimdən çıxmır. Elə bilirəm ki, bütün günü onunla danışıram. Mənimlədir, sanki içimdədir, qəlbimdədir."***

Müharibənin ilk günü artıq o, döyüşlərdə idi. Əsgər yoldaşlarına deyib ki, Şuşa azad olan günü hamınıza qonaqlıq verəcəyəm. Ürəyimə damıb ki, bu il Şuşanı düşməndən azad edəcəyik. Əsgər yoldaşları deyir ki, Allahverdi müharibəyə gülə-gülə getdi. Sevinc içərisində idi. Sanki döyüşə, güllə qabağına getmirdi.

Axı Allahverdinin neçə illərdi ki, gözlədiyi qisas günü gəlibçatmışdı.

**Ürəyi Vətənlə döyünən oğul,**
**Vətənlə sevinən, öyünən oğul,**
**Vətənlə bir vuran Vətən ürəyin,**
**Vətənə qovuşdu oldu gərəyin.**

Ürəyi Vətənlə döyünən oğullar, Vətənlə öyünən oğullar Vətənin vuran ürəyi oldular. Şəhidliyi ilə ölümə qalib gələn, əbədiyaşarlıq qazanan ölməz oğullar!

Bəli, sən Vətən borcunu ürəyincə yerinə yetirdin, Allahverdi. Vətən sevgisi, Vətən qarşısında öz borcunu dəf etməkdir. Bu məhəbbət ana laylası ilə qanına hopmuşdu. Sonra isə həsrət qaldığın doğma yurdunun həsrəti ilə yaşadın. Bu həsrəti ananın Vətən dərdi, atanın yurd sevgisi ilə birləşdirdin. Sən böyüdükcə bu dərdlər də üst-üstə yığıldı. Ana nəsihəti, ata öyüdü ilə beyninə həkk oldu. Sən Vətən sevgisinə, Şuşa sevgisinə kökləndin. Gözünü açandan ailədə Vətən nisgilli ananı, Vətən həsrətli atanı gördün. Vətəni, doğma torpağı qorumağı, ona xidmət etməyi, onu sevməyi özünə borc bildin. Qəlbin ta uşaqlıqdan bu günə qədər yurd eşqi ilə coşub çağladı.

Vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Allahverdi Əli oğlu Allahverdiyev ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

## Samir Şamil oğlu Ələkbərli



Tarix boyunca ***ŞƏHİDLİK*** xalqımızın mənliyində yaşayan yüksək əxlaqi keyfiyyət olmuşdur. Dünənimizin qəhrəmanlıq simvolu, bu günümüzün ***QEYRƏT SALNAMƏSİ – ŞƏHİDLƏR!*** Vətən olan yerdə yaşar ***ŞƏHİDLƏR!***

Tanrı dərgahında ***ŞƏHİDLİK MƏRTƏBƏSİ*** yüksək mərtəbədir. Bu mərtəbəyə, bu yüksəkliyə qalxmaq hər kəsə nəsib olmur. İşıqlı sabaha boylanan azadlıq pöhrələri! İstiqlal çırağı yandıraraq işğalda olan Vətənin əsarət buxovlarını qıran igidlər!

Müqəddəs and yerimiz olan Şəhidlər xiyabanında uyuyan şəhidləri ziyarət edən hər kəs bu əbədiyaşar Vətən oğulları qarşısında baş əyir. Ağsaqqal da, ağbirçək də, körpə də vüqarınız, əzəmətiniz qarşısında baş əyir, ***ŞƏHİDLƏR!*** Gələcəyimiz üçün özlərini fəda edənlərin üstündə göz yaşına bələnmiş qərənfillər əskik olmur.

Ömür payını qürurla, hünərlə yaşayan ***ŞƏHİDLƏR!*** Pak yolunuz əbədiyyət yoludur. Şəhidlərin yolu nur yoludur. Şəhidlərin yolu haqq yoludur.

***Yaddaşlara hopdu şəhidlər,***
***Tufanlardan qopdu şəhidlər,***
***Dönüb soyuq daşlara,***
***Qəlblərə çökdü şəhidlər.***

Daşlara, soyuq məzarlara dönsə də, məzardan boylanan isti baxışları ilə yanan ürəkləri, qəlbləri alovlandırdı ***ŞƏHİDLƏR.*** Hər şəhid məzarı Vətən kürsüsünə çevrildi. ***ŞƏHİDLƏR UYUYAN YERDƏN VƏTƏN QOXUSU GƏLƏR. VƏTƏN ŞƏHİD VERƏ-VERƏ BÜTÖVLƏŞDİ, VƏTƏN ŞƏHİD VERƏ-VERƏ VƏTƏNLƏŞDİ.***

Xalqımızın övladları həmişə şərəfli ölümlə fəxr ediblər, düşmən qabağında əyilməyib, ölümdən qorxmayıblar. Ölümün gözünə dik baxa bildiyimiz üçün bu Vətən, bu torpaq, bu yurd nə qədər faciələr yaşasa da, yaşamaq haqqını itirməyib. Məhz bu qətiyyət, cəsarət, mübarizlik, Vətənə olan sonsuz sevgi sayəsində şəhidlik adlı zirvəni fəth edən oğulların sayı artıb. Qəhrəmanlıq heç zaman bir anın bəhrəsi ola bilməz. Vətən torpağı tam olsun deyə, hər an öz ömür paylarını bu yolda qurban verməyə hazır olub yurdun övladları.

Qəhrəmanlığı alın yazısı seçən mərd oğullarımız dünən də olub, bu gün də var, sabah da olacaq. Çünki onları imdada çağıran düşmən tapdağı altında olan torpaqlarımız var. Samir də belə mərd oğullar sırasına öz adını yazdırdı.

Samir Şamil oğlu Ələkbərli 2002-ci il iyulun 2-də Bərdə rayonunun Qazqurdalı kəndində şuşalı ailəsində anadan olub. 2008-2019-cu illərdə 8 nömrəli tam orta məktəbdə təhsil alıb. 2020-ci ildə Bərdə Dövlət İdarəetmə və Texnologiya kollecinə daxil olub. Samir eyni zamanda 2 nömrəli musiqi məktəbində tar ixtisası üzrə təhsil almışdı. Ən böyük arzusu Şuşada, Cıdır düzündə tar ifa etmək idi. 2020-ci il avqustun 7-də Füzuli rayonuna həqiqi hərbi xidmətə yola düşüb. Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi Şamil sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azad-

lığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, oktyabrın 10-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya atəşi zamanı şəhid olub.

Şəhid Samir Ələkbərlinin ömür kitabının səhifələrini onun doğmaları ilə birlikdə vərəqlədim.

Nənəsi Bəsti xanım Samir haqqında fikirlərini mərdi-mərdanə dedı: ***"Şəhidlik onun arzusu idi. Qarabağın işğalda olması ilə barışa bilmirdi. Şuşanı çox sevirdi. Samirin uşaqlıqdan musiqiyə böyük həvəsi olub. O, tar çalırdı. Mən həmişə nəvəmlə fəxr etmişəm. İfaçılığa ilk başladığı gündən tarda "Şuşanın dağları" mahnısını həvəslə ifa edirdi. "Qarabağ şikəstəsi"ni də çalmağı çox sevirdi. Mən həmişə nəvəmə deyirdim ki, Allah qoysa, Cıdır düzünə gedib, "Şuşanın dağları" mahnısını elə doğma Vətəndə ifa edərsən."***

Nənə fikirlərini o qədər cəsarətlə deyirdi ki... Nənə sonuncu cümlələrini daha məğrurcasına, qətiyyətlə dedi və fikirlərini bu sözlərlə tamamladı: ***"Hamımız Vətən uğrunda şəhid olmağa hazır olmalıyıq. Torpaq su ilə qarışanda palçıq olar, qanla qarışanda Vətən!"***

Əhsən sənə, nənə! Həcər ürəkli nənənin nəvəsi də Samir kimi igid olar. Bəsti nənə danışdıqca gözlərim önündə ərlərinin və oğullarının arxasında dayanan fədakar, mərd, qeyrətli Azərbaycan qadınının obrazı canlandı. Azərbaycan qadını tarixən mərdliyi, müdrikliyi və sədaqəti ilə seçilib. Hər zaman atalarına, ərlərinə, oğullarına dayaq olan qadınlarımız çətin anlarda özlərini itirməyiblər. Çıxış yolu tapmaqda aciz qalmayıblar. Bəsti nənəni mərdliyi ilə tariximizin müdrik qadını Sara xatuna, Qarabağın xeyirxah "Dəmir ledisi" adlandırılan cəsarətli Həmidə xanım Cavanşirə bənzətdim.

Atasının dediyinə görə Samir kəşfiyyatçı olmaq istəyirdi: ***"18 yaşı olmasına baxmayaraq, heç nədən qorxusu yox idi. Həmişə istəyirdi ki, irəli getsin, səsi yüksəklərdən gəlsin. Kəşfiyyatçı olmaq ən böyük arzusu idi. Hərbi xidmətə başla-***

***yandan iki ay sonra zəng edib kəşfiyyata yazılmasını mənə sevinclə bildirmişdi.”***

Samirin atası doqquz şuşalı şəhidin hər birini əziz tutaraq xatirə lövhəsi hazırlatdırıb. Həmin xatirə lövhəsi vaxtilə Samirin yaşadığı evin qarşısından asılıb. Samirin atası deyir ki, şəhidlərin hər biri mənim balamdır. Mən onları öz doğma balamdan seçmirəm.

Bəli, Samir özü istədiyi kimi irəli getdi. Yüksəlmək istəyirdi, elə yüksəldi də... Şəhidlik yüksəkliyinə, şərəf, qürur, hünər zirvəsinə yüksəldi. Samirin ömür yolu qısa olsa da, yüksəldiyi adla daim yaddaşlarda qalacaq. Samir hünər və qeyrətini silaha çevirib, döyüşə yollanmışdı. Əməlinin və hünərinin ucalığında dayanan Samir Vətən müharibəsində şəhid olanların içərisində ən azyaşlısı idi.

Anası Nəcibə Cabbarova oğlunu itirdikdən sonra hələ də özünə gələ bilməyib, çətinliklə danışdı: ***“Əsgərlikdən gələndən sonra yeganə oğlumu evləndirmək ən böyük arzum idi. Hələ də gözləyirəm ki, oğlum gələcək və mən ona toy edəcəyəm. Gözümün qarşısında dəfn olunanın oğlum olmasına hələ də inana bilmirəm. Bala dərdi o qədər ağır dərd oldu ki, qardaş dərdini unutdum. Ömür boyu dözülməz dərdi çəkmək nə qədər ağır olacaq. Mən onu çox qoruyurdum. Heç kimə etibar etməzdim. Bəs indi o soyuq məzarda necə yatır balam? Samirsiz yaşamaq çox çətindi. Hələ də yolunu gözləyirəm. Boynubükük qalmışam. Gözüm yollarda qalıb...”***

Müsahibə aldığım şəhid doğmaları içərisində ən kövrəyi, ən sınıq qəlblisi Samirin bacısı oldu. Samirin Samirə bacısı. Tutulmuş bulud kimi dolan, göz yaşlarını tökmək üçün bir himə bənd olan Samirə bacı. Samirə qardaşı haqqında kövrək-kövrək danışmağa başladı: ***“Yazın, məndən yazın! Yazın ki, bu həyatda bircə qardaşım vardı. Biz bir bacı, bir qardaş idik. Samir və Samirə. Mənim adımı Samirin adına yaraşdırıb qoymuşdular. Samirlə eyni kollecdə oxumuşam. Samir mənim əlimdən tutub birinci sinfə aparmışdı. O məni çox is-***

*təyirdi. Uşaq vaxtı bəzən mübahisə edərdik. Mən ağlayardım. Samir tez məni qucaqlayıb üzümdən öpərdi. "Ağlama, bacı!" – deyərdi. Dərsdən sonra əlavə məşğələlərə birlikdə gedərdik. Ali məktəbə qəbul olmağa hazırlaşırdıq... Arzu edirdim ki, yaraşıqlı qardaşıma elçi gedəcəyik, qız bəyənəciyik, gəlin gətirəcəyik. Bibi olacağam. Qardaşımın övladlarına hədiyyələr alacağam. 18 yaşını yenicə qeyd edib, qardaşımı yola salmışdıq. İl nə tez keçdi. 19 yaşını isə onsuz məzarı üstündə qeyd etdik. Lakin arzularımız ürəyimizdə qaldı. Samirsiz həyat çox çətindir."*

Ürəyi dolu bacı nə qədər danışsa da, dolu ürəyini boşalda bilmirdi. Gah kövrək hissləri, gah da qürur hissləri bir-birini əvəzləyirdi: *"Amma bilirəm ki, mən qəhrəman bacısıyam. Qardaşım öz istəyi ilə kəşfiyyata yazıldı və ön cəbhəyə getdi. 18 yaşı yenicə tamam olmuş qardaşımı əsgərliyə yola salanda düşünürdüm ki, görəsən, əsgərlik həyatı ona çətin olmaz ki... Bir bacı kimi onun ailədən kənarda çətinlik çəkəcəyini düşünürdüm. Axı biz onu çox əzizləyirdik. Elə bilirdim ki, mənim qardaşım çox balacadır. O mənim gözümdə hələ də birlikdə əl-ələ tutub məktəbə getdiyimiz Samir kimi qalmışdı. Sən demə, qardaşım qəhrəmanlıq göstərərək mənim fikirlərimi alt-üst edəcəkmiş. Mənim qəhrəman qardaşım! Gözümdə nə qədər ucasan!*

*Mənim qardaşım Vətənini, torpağını sevən mərd, cəsur qardaş idi. Həmişə tez-tez deyərdi ki, mən ucalmaq istəyirəm. İstəyirəm ki, mənimlə fəxr edəsiniz. Elə bil ürəyinə dammışdı. Yoxluğu ilə barışmasam da, qardaşımla fəxr edirəm. Başımızı uca elədi. Belə şərəfli yol seçmək Samir kimi oğullara qismət olar. Yanımızda olmasa da, onu sevənlərin qəlbindədir. Gələcəklə bağlı gözəl arzuları var idi. Amma arzularını Vətən sevgisinə qurban verdi. Arzularını unudub, qorxmazcasına düşmən üzərinə getdi."*

**Kövrəlmə, can, bacı, öyün, fəxr elə,**
**Sən qürurla yaşa bu gündən belə,**
**Qardaşın ömrünü verməyib yelə,**
**Samirin bacısı Samirə bacı,**
**Qardaşın yenə də başının tacı.**

**Deyirsən qardaşın birinci olsun,**
**O kövrək qəlbin də qürurla dolsun,**
**Qıymazdıq açılan pöhrələr solsun,**
**O, xalqın qəlbində oldu bir inci,**
**Samir qalxan zirvə – elə birinci.**

Bəli, Samir ürəklərdə birinci oldu, xalqın qəlbində birinci oldu.

Samir Bərdədə Şəhidlər xiyabanında uyuyur. Məzarını ziyarətə getmişdim nur üzlü şəhidimizin. Məzardan boylanan gülümsər üzündən, gülümsər gözlərindən həyat eşqi yağırdı. Şəklə baxdıqca düşünürdüm ki, belə gülümsər siması olan gəncin həyat hekayəsini qəmli yazmaq günahdır. Arzularını yarımçıq qalmış nakam taleli bir gəncin həyat hekayəsini... Doğmalarının sənin haqqında söylədiklərini qələmə aldım, Samir. Bir az kövrək, bir az qəmli danışan əzizlərini dinlədikcə həyat hekayəni kədərli yazdım. Bağışla, Samir! Haqqında yazdıqlarım tamamladıqdan sonra məzarını ziyarətə gəldim. Amma yazdıqlarımı dəyişmək də istəməzdim. Bu yarımçıq həyat sənin alın yazın! Bu nakam həyat sənin tale qismətin! Amma şərəfli ömür yolun sənin qürurlu gəncliyindir. Elə şəkildən də qürurla, fəxarət hissi ilə baxırsan. Yaddaşlarda da bax, beləcə qaldın. Ürəklərdə də elə əbədi yaşayacaqsan. Axı adını qanınla tarixə yazmısan. Bu əbədiyyəti qazanmaq sənin arzun idi. Yüksəlmək istəyirdin, sən yüksəldin. Sən Vətənə ömrünü caladın, bütün şəhidlər kimi. Deyirlər ki, şəhidlər ölümə gülümsəyərək gedirlər. Sənin də gülərüz siman yaddaşlarda, ürəklərdə daim qalacaq. Bahar yaşında həyatda əbədi qaldın.

**Sən bahar yaşında köçdün dünyadan,**
**Bahar yaşında da qaldın dünyada.**

Samir Şamil oğlu Ələkbərli Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda şəxsi igidlik və şücaət nümayiş etdirmiş, ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

# ŞƏHİD
# ŞAGİRDLƏRİM

## Yasən Yelmar oğlu Əhmədov

**ŞƏHİDLƏR – daşlaşan zəfərin səsi,**
**ŞƏHİDLƏR – qəlblərdə Vətən nəğməsi.**
**ŞƏHİDLƏR – alışan bir od zərrəsi.**
**Tarixlər yazan dastanımızsan,**
**Ey şəhid, sən Azərbaycanımızsan!**



Ölümü ilə ölməzlik yazan ***ŞƏHİDLƏR!*** Tarix danışacaq hünərinizdən. ***ŞƏHİDLƏR*** – Vətənin qələbə rəmzi! Qara yellər üstümüzdən əssə də, yenə zəfər nur saçdı Vətənimizə, torpağımıza. Vətənə sevinc ələdiniz, Vətən kədərinə sevinc qatdınız. Şəhidlərin hünəri bir şərafət, ömrü isə Vətənin yeni tarixi oldu. Şəhidlər torpağa qoyulsa da, könüllərdə özlərinə əbədi taxt qurdular. Haqq dünyasına körpü salanlar, mənəviyyat dünyamızı zənginləşdirən ***ŞƏHİDLİK ZİRVƏSİ!*** Bu qürurlu ölüm qarşısında başımızı dik tutduq, kədərdən, qüssədən sıyrılıb-çıxmağı bacardıq. Sizin şərafətli ölümünüz qarşısında sağ qalmağımızın xəcalətini çəksək də, hünərinizlə öyündük. Öyündük sizlərlə oğullarımız! Sizə dəyən güllə ürəyimizi dəlib-keçdi. Yara bağladı ürəyimiz. O yaranın məlhəmi sizin qələbəniz oldu, ***VƏTƏNİ YAŞADAN ŞƏHİDLƏR!*** Vətənə dəyən güllələrin qarşısına sipər oldunuz. İllərdir ki, Qarabağ dərdi daşa dönüb, sinəmizdən asılmışdı. Göylərdən yerə sanki qüssə ələnmişdi. Sinənizi ölümə pərçim edən ərənlər, dərd şələmizi yün-

güllәşdirәnlәr. Dәrd özü ağlayırdı o günlәrimizi. Düşmәn qarşısında sınmadınız, әyilmәdiniz. Ürәyimiz göyüm-göyüm göynәsә dә, qәlәmi qanınıza batırıb yazsaq da, dәrdә әyilmәdik. Bir zamanlar Allahverdi Bağırovun, Şirin Mirzәyevin qanı tökülәn torpaqlara indi sizin qanınız töküldü. Öz tökülәn qanınızla narahat ruhları sevindirdiniz. Birinci Qarabağ müharibәsi şәhidlәrinin qanı ilә Vәtәn müharibәsi şәhidlәrinin qanı bir-birinә qovuşdu.

***O Vәtәn ki yağı tapdağı altındadır, o, Vәtәn deyil! O Vәtәn ki övladlarına hәsrәtdir, o, Vәtәn deyil! O Vәtәndә ot da bitmәz, ağac da, gül-çiçәk dә. O Vәtәndә bulaqlar da axmaz, gözündәn qan tökәr, çeşmәlәr, çaylar quruyar.***

Vәtәn sәngәrini Vәtәn bilәn oğullar. Ömrünün 25 ilini Vәtәnә xidmәt edәn baş gizir Yasәn Әhmәdov da elә Vәtәn sәngәrini Vәtәn bilmişdi.

Yasәn Yelmar oğlu Әhmәdov 1974-cü il sentyabrın 16-da Ağdam rayonunun Kosalı kәndindә anadan olub. 1981-1991-ci illәrdә Ağdam rayonu Eyvazxanbәyli kәnd orta mәktәbindә tәhsil alıb. 1992-ci ildә Azәrbaycan Kәnd Tәsәrrüfatı İnstitutunun zoomühәndislik fakültәsinin qiyabi şöbәsinә qәbul olunub. Yasәn hәlә 18 yaşı tamam olmamasına baxmayaraq, könüllü olaraq atası Yelmar Әhmәdovun xidmәt etdiyi Allahverdi Bağırovun könüllülәr batalyonunda bir çox döyüşlәrdә iştirak edib. 1993-cü ilin aprelindә Ağdam rayon Hәrbi Komissarlığı tәrәfindәn hәqiqi hәrbi xidmәtә çağırılıb. Elә o vaxtdan şәhid olan günә qәdәr Azәrbaycan ordusunda müxtәlif hәrbi hissәlәrdә müxtәlif vәzifәlәrdә xidmәt edәn Yasәn Әhmәdovöz peşәkarlığı, etibarı ilә hәr kәsin sevimlisi olub, dәfәlәrlә komandanlıq tәrәfindәn medal vә Fәxri fәrmanlarla tәltif olunub. 1994-cü ilin noyabr ayından müdafiә nazirliyinin әmri ilә kiçik gizir hәrbi rütbәsi verilmәklә "N" nömrәli hәrbi hissәdә motoatıcı bölüyünün baş çavuşu vәzifәsinә tәyin edilib. Bir il sonra hәmin hәrbi hissәdә inzibati tәsәrrüfat rәisi vәzifәsinә tәyin edilib. 1997-ci il yanvarın 13-dә Yasәn Әhmәdova gizir rütbә-

si verilib. 1996-2002-ci illərdə kadrlar və nizami bölmənin məsul icraçısı vəzifəsində xidmət edib. Həmin il xidmətini başa vurduqdan sonra ehtiyata buraxılır. Sonra 2006-cı ilə qədər ədliyyə nazirliyinin 10 nömrəli Məntəqə tipli Cəzaçəkmə Müəssisəsi rəisinin kənd təsərrüfatı üzrə müavini vəzifəsində işləyib. Ancaq Vətən sevgisi, hərb sənətinə bağlılığı və uzun illərin təcrübəsi onu yenidən hərbə qayıtmağa vadar edib. 2007-ci ildə yenidən silahlı qüvvələrdə xidmət etməyə başlayıb. Müxtəlif hərbi hissələrdə şəxsi heyət bölməsinin rəis müavini vəzifəsində xidmət edib. 2016-cı il oktyabr ayının 18-də Yasən Əhmədova baş gizir rütbəsi verilib. 2017-ci il iyun ayından 2020-ci ilin oktyabr ayının 9-na qədər mühəndis istehkam bölüyünün baş texniki vəzifəsində xidmət edib. III dərəcəli "Qüsursuz xidmətə görə", II dərəcəli "Qüsursuz xidmətə görə", I dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilib. Bir çox hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edən baş gizir Yasən Əhmədov öz peşəkarlığı və etibarı ilə hər kəsin sevimlisi idi, dəfələrlə komandanlıq tərəfindən Fəxri fərmanlarla təltif olunub. Əfsanəvi "Murov qartalı" ləqəbli Raquf Orucovun yaxın dostu, silahdaşı idi. Vətən müharibəsinin ilk günündən ön xəttə yollanaraq ağır döyüşlərdə iştirak edib. Suqovuşan və Talış istiqamətində gedən şiddətli döyüşlərdə böyük şücaət və qəhrəmanlıq göstərib. Qəhrəman gizir əsgərləri ilə birgə bir neçə yaralı hərbçimizi və şəhidimizi döyüş meydanından çıxarıb. 2020-ci il oktyabr ayının 9-da Talış yüksəkliyində ağır yaralanıb. Naftalan şəhər Mərkəzi Xəstəxanasına gətirilib və orada əməliyyat olunub. Sonra Gəncə şəhər Mərkəzi Xəstəxanasına yerləşdirilib. Vəziyyəti ağırlaşdığı üçün Bakı şəhərinə "Yeni klinika"ya göndərilib. 13 gün vəziyyəti ağır olmuş, oktyabrın 22-də şəhidlik zirvəsinə ucalmışdır. Şəhidin nəşi Mingəçevir şəhərində yerləşən Şəhidlər xiyaba-

nında böyük izdihamla torpağa tapşırılır. Şəhidin Yunis və Yelmar adlı iki oğul övladı yadigar qalıb.

Həyat yoldaşı Aygün Quliyeva ömür-gün yoldaşını qürurla anır: ***"Yasən haqqında danışmaq çətindir. Ailə başçısı, ata kimi ideal insan, ən yaxın məsləhətçim idi. Yasən 25 il şərəflə Azərbaycan ordusunda xidmət edib. Hərbi savadı, peşəkarlığı və işinə sədaqəti ilə hərbçilər arasında xüsusi hörmət sahibi idi. "Hərbin arxivi" ləqəbi ilə tanınmışdır. Vətənpərvərliyi ilə hər kəsə örnək idi. Təəssüflər olsun ki, torpaqlarımızın işğaldan azad olunduğu günü görmədən şəhid oldu. Halbuki buna ən çox haqqı olanlardan biri idi. Ağdamla bağlı böyük arzuları vardı. Axı 1993-cü ildən Qarabağın, doğulub boya-başa çatdığı Ağdamın azadlığını görmək arzusu ilə yaşamışdı. Onun bu vətənpərvərliyi övladlarına, ailəsinə də təsir etmişdi. 2002-ci ildə hərbdən tərxis olunmuşdu. Amma başqa sahədə işləyə bilmədi. Deyirdi ki, mən hərbdən başqa yerdə özümü təsəvvür edə bilmirəm. Yasən çox adil, ədalətli insan idi. Haqsızlığa dözə bilmirdi. Qanundan kənar heç bir iş görməzdi... Səhər tezdən 6-da onu yola salardım və axşam qarşılayardım."***

Böyük oğlu Yunis atası haqqında xatirələrini belə bölüşdü: ***"Atam həm ailəsinə, həm öz əsgərlərinə qarşı çox qayğıkeş idi. Düzdür, işinə görə bizim yanımızda çox olmasa da, mütəmadi olaraq telefonla bizimlə əlaqə saxlayar, problemlərimizlə, xüsusən, dərslərimizlə maraqlanırdı. Deyirdi ki, mən həmişə sizin yanınızda ola bilmirəm. Bir-birinizə arxa-dayaq olun. Vətənə yararlı övlad olun. Çox vətənpərvər insan idi. Vətənini çox sevirdi. Biz Vətən, millət sevgisini ondan öyrənmişik. Bizə həmişə deyərdi ki, torpaqlarımız azad olsun, Ağdama qayıdaq. Kəndimizə bayrağı sizinlə birlikdə sancacağam. Çox təəssüf ki, atam da və şəhid olan digər Vətən övladları da bu günləri görə bilmədilər. Amma şükür ki, atamın silahdaşları şəhidlərimizin qanını yerdə qoymadılar. Torpaqlarımızı işğaldan azad etdilər. Onların hər birinin ruhu şaddır. Şəhid ailələrinə, şəhid övladlarına deyirəm ki, başlarını dik tutsunlar. Bizim də başı-***

***mız dikdir, ucadır. Şəhidlər ən yüksək zirvədədir, onlar əbədi varlıqlardır. Qazilərimizə Allahdan şəfa diləyirəm.”***

Babasının adını daşıyan şəhidimizin kiçik oğlu Yelmar atası haqqında xatirələrini belə bölüşdü:***“Atam vətənpərvər və ailəcanlı insan idi. Atamın arzusu mənim instituta daxil olmağımı görmək idi. Söz verirəm ki, ali məktəbə qəbul olacağam. Mən babamın adını daşıyıram. Bununla fəxr edirəm. Babam Birinci Qarabağ müharibəsinin iştirakçısı olub. Atam da babamla çiyin-çiyinə vuruşub. Fəxr edirəm ki, belə bir ailədə böyümüşəm. Mən də onların yolunun davamçısı olacağam.”***

Böyük bacısı Yeganə Əhmədova şəhid qardaşını qürurla xatırladı: ***“Özündən yüksək rütbəli hərbçilər qardaşımı “hərbin canlı arxivi, ensiklopediyası” adlandırırdılar. Qardaşım yüksək keyfiyyətlərini heç vaxt büruzə vermirdi. Sakit təbiətli, ciddi xarakterli idi. Orta məktəbi əla qiymətlərlə oxumuşdu. İdmana da böyük maraq göstərirdi. Şahmat dərnəyinin üzvü idi. Rayon şahmat yarışlarında iştirak edirdi. Fəxri fərmanlarla təltif olunmuşdu. Atçılıq idman məktəbində atçapma yarışlarında iştirak edirdi. Futbola böyük maraq göstərirdi. Kəndin uşaqları ilə həyətimizdə futbol oynayardılar. Bəzən nənəm hirslənərdi: “Ay bala, bu qədər uşağı niyə həyətə yığmısan?” Yasən cavab verərdi: “Nənə, axı kənddə futbol meydançası yoxdur. Uşaqlar harda oynasınlar?” Onun bir kəlməsi ilə nənəmin hirsi soyuyardı. Azərbaycan və rus dillərində nəşr olunan bütün idman qəzetlərini oxuyurdu. Beləcə, kənddə yaşayan bir uşaq intellektual səviyyəsinə görə fərqlənirdi. Onu da deyim ki, Qarabağ futbol klubunun ən böyük azarkeşi idi. O, ali məktəbə qəbul olunanda artıq müharibə başlamışdı. O zaman evin tək oğlu olan çağırışçıları cəbhə zonasına göndərmirdilər. Buna baxmayaraq, Yasən təhsilini qiyabi şöbəyə keçirərək atamızla çiyin-çiyinə döyüşlərə qatılmışdı. Hərbi xidmətini başa vurduqdan sonra həyatını həmişəlik hərbə bağladı. Əfsanəvi kəşfiyyatçı, polkovnik-leytenant Raquf Orucovun şəhadətindən sonra özünə yer tapa bilmirdi. Tez-tez imkan ta-***

***pıb Sumqayıt şəhidlər xiyabanına dostunu ziyarət etməyə gedərdi... Bayramları tabeliyində olan əsgərlərlə birlikdə qeyd edərdi. Ehtiyacı olan hər kəsə mütləq kömək edərdi. Etdiyi yaxşılıqlar barədə kimsəyə danışmazdı. Biz bunu başqalarından eşidərdik. Deyərdim ki, belə müsbət keyfiyyətləri özündə əks etdirən insanlar çox yaşamır. Amma hər ölüm də şərəfli olmur, hər insana da dövlət bayrağına bükülüb, son mənzilə yola düşmək qismət olmur"***

Bacısı Vəfa Əhmədova qardaşı haqqında həm qürurla, həm də kövrək danışdı: ***"Qardaşım həmişə istəyirdi ki, övladları yaxşı oxusun, ali təhsil alsın. Şükür ki, böyük oğlunun ali məktəbə qəbul olunduğunu gördü. Övladı üçün böyük məclis təşkil elədi. Müəllimlərini də dəvət etmişdi. Onu heç vaxtı belə sevincli görməmişdik. Bunu hamı deyirdi. Çox fəxr edirdi, qürur hissi keçirirdi. Yunis "Asan xidmət"mərkəzində könüllü işləyirdi. Tez-tez zəng edər və oğlu ilə maraqlanardı. Qardaşım işinə qarşı çox məsuliyyətli idi. İstəyirdi ki, övladları da məsuliyyətli olsun... Son döyüşü Talış-Suqovuşan kəndlərində olmuşdu. Onun yaxın dostu, silahdaşı Raquf Orucov da Talış kəndində şəhid olmuşdu. Qardaşım da ora can atırdı. Onun şəhid olduğu yerə çatmaq üçün can atırdı. R.Orucov onun komandiri olmuşdu. Ona qardaş deyirdi. Aprel döyüşləri olanda Yasən səhhəti ilə əlaqəli qospitalda idi. R.Orucovun şəhid olduğunu ona bildirməmişdilər. Xəbəri eşidəndən sonra bizə zəng vurmuşdu. Bir kəlmə dedi ki, heyf səndən, qardaş. Qardaşım şəhid olub. Bildik ki, Raquf Orucovu nəzərdə tutur.***

***Vətən müharibəsinin ilk günündən Yasən artıq ön cəbhədə idi. Oktyabrın 9-da ayağından yaralanması xəbərini aldıq. Amma yarasının ağır olduğunu bilmirdik. Daxili orqanlarında qanaxma olduğuna görə vəziyyəti pisləşib. Gəncədə yatdığı xəstəxanaya getsək də, onunla görüşə bilmədik. Ancaq yoldaşı ilə telefonla danışmışdı. Səsindəki narahatlıqdan hiss etmişdik ki, yarası çox ağırdır. Təcili Bakıya aparıldığından da xəbərsiz idik. Ancaq iki yaxın dostuna xəbər vermişdi. Əmə-***

***liyyat olunandan sonra 12 gün huşsuz vəziyyətdə olmuşdu. Oktyabrın 22-də şəhadətə ucalmışdır. Amma onun yoxluğuna hələ də inana bilmirik. Şəhidlər xiyabanına gedəndə qardaşımın həyatda yoxluğunu sanki hiss edirəm. Amma o, həmişə həm bizim, həm də xalqımızın qəlbində yaşayacaq. Dəfn mərasimi günü istəyirdim ki, övladlarına təskinlik verim. Övladlarından birinin digərinə dediyi sözləri eşitdim: "Biz ağlamayacayıq, fəxr edəcəyik. Başımız həmişə uca olacaq. Biz qürurlanmalıyıq. Ağlamamalıyıq, atamızla fəxr etməliyik." Uşaqlar arasındakı bu kiçik dialoqu eşitdikdən sonra mən də qürurlandım, təskinlik tapdım. Dəfn günü tabut Bakıdan evə gələndə başımı qaldırıb gördüm ki, Ağdamda yaşayan qonşularımız, qohumlarımız, dostları, hərbçi yoldaşları, bir sözlə, Yasəni tanıyanların hamısı gəlib. Bizim üçün gəlməmişdilər. Şəhidini dəfn etmək üçün gəlmişdilər. İnsanların yol boyu düzülməyini, böyük izdihamla şəhidini yola salmağını gördüm. Onda elə bil daha da dərindən başa düşdüm ki, şəhidlik necə yüksək məqamdır. Yasən bizə həm ata, həm qardaş idi. Biz ailə başçımızı, Azərbaycan da öz əsgərini-döyüşçüsünü itirib. Amma onun evdə iki əsgəri böyüyür. Biz Ağdamdan çıxanda bizim evdən iki kişi çıxmışdı. Atam və qardaşım. İndi də iki övladı qayıdacaq. Ağdamın Kosalı kəndindən torpaq gətirib onun məzarına tökəcəyəm."***

Bəli, Yasənin ailəsində onun şərəfli ömür yolunun davamçıları – iki oğul övladı böyüyür. Özü kimi vətənpərvər, özü kimi nizam-intizamlı... Dərs dediyim müddətdə də Yasən öz intizamı ilə seçilirdi. Elə övladları da davranışı və daxili mədəniyyəti ilə atalarına bənzəyirlər.

**Sizi yaşadacaq övladlarınız,**
**Vətənə sevginiz, etibarınız.**
**Bu şərəfli yolu birgə keçdiniz,**
**Hər ikiniz şəhidliyi seçdiniz.**
**Raquf, Yasən qeyrətdə neçə qəlb döyünəcək**
**Hər bir Vətən övladı sizinlə öyünəcək.**

Hamı Yasəni hərbçi kimi xatırlayır. Mən isə yüksək intellektual səviyyəli şagirdim kimi.

Nədənsə Yasəni xatırlayanda orta məktəbin sonuncu sinfindəki buraxılış imtahanı yadıma düşür. Məktəbin direktoru da imtahanda iştirak edirdi. Sinifdə şagirdlər arasında imtahan həyəcanı var idi. Yasən isə çəkinmədən ilk olaraq bilet çəkməyi və fikirləşmədən sualları cavablandırmaq istədiyini bildirdi. O, bütün sualları doğru və səlis cavablandırırdı. Sonuncu suala cavab vermək istəyəndə direktor üzünü mənə tutub dedi: ***"Məncə, şagirdinizin növbəti sualı cavablandırmasına daha ehtiyac yoxdu. "Əla" qiymət yazmaq olar."*** Düşündükcə mənə elə gəlir ki, Yasənin o zaman imtahandan aldığı qiymətlə həyat imtahanı və şəhidlik məqamı bir-birini tamamladı.

Yasən yaralanmamışdan bir gün əvvəl bizə zəng etmişdi. Çox sevincli danışırdı: ***"Az qalıb, qələbə bizim olacaq. Şuşanı azad etməyə, Ağdama, evimizə getməyə lap az qalıb."***

**Mərmi qoxulu yurd yerlərində,**
**Sevinə-sevinə gəzirdin o gün,**
**Ruhun sevindimi öz ellərində?**
**Qələbəni duyub sezirdin o gün.**

Əfsanəvi kəşfiyyatçı "Murov qardaşı" Raquf Orucovun həyat yoldaşı Sevinc Orucovanın Yasən haqqında yazdıqlarını olduğu kimi oxucuların nəzərinə çatdırmaq istəyirəm: ***"Sənin haqqında özüm yazmaq istədim, qəhrəman gizir! Vətən müharibəsi başlanan gündən ön xətdə olduğunu bilirdik. Sən bizə Raqufumuzun əmanəti, komandirin hərbi hissədə ən yaxın, sadiq dostu idin. Təkcə sənə güvənirdi. Sən də o etimadı həmişə doğrultdun. Raqufun şəhidliyi sənin belini bükdü. Elə bil ki, bir az da küskünləşdin həyata. Həmişə ziyarətinə gələrdin. Evimizə gələ biləcək tək-tük dostlarından idin. Tez-tez gəlib baş çəkərdin. Müharibə amansızdır. Bir də görürsən ki, əzizlərimiz sıramızdan ayrılır. Sən də bizi tərk etdin. Vətənin üçün, doğma yurdun Ağdam üçün, Raquf üçün. Raqufun uğrunda şəhid olduğu Talış kəndində ağır yaralandın. On gün***

***ölüm-dirim savaşından sonra şəhid olmağı seçdin, Yasən, qardaş! Döyüşçü atana, Raquf dostuna qovuşdun. Sənin həsrətin bitdi, qardaş! Məqamın mübarək! Raqufa xoş xəbəri çatdır. De ki, Vətən torpağı azaddır. De ki, biz onların qisasını aldıq. De ki, rahat uyuya bilər! Raqufun can dostu dünyadan adi ölümlə köçə bilməzdi. Şəhidliyin mübarək, gizir Yasən Əhmədov!"***

Qarşımda vaxtilə mayor Arif Pənahovun Yasən Əhmədov haqqında yazdığı "Özündən və sözündən dönməyən" adlı maraqlı bir oçerki var. Oçerk maraqlı bir sualla başlayır. ***"Ehtiyata buraxılan gizirin yenidən xidmətə qayıtmasına səbəb nə oldu?"*** Bu suala mayor özü cavab verir: ***"Hərbi xidmətini başa vuran zaman cəsur, vətənpərvər bir əsgərə orduda xidmətini davam etdirməyi təklif etdilər. Komandanlıqdan gələn bu təklif Yasən Əhmədovun ürəyindən xəbər verdi. Həmin hadisəni xatırlayan Yasən deyir: "Mən başa düşürdüm ki, müharibə gedən ölkədə ordu quruculuğuna diqqət ayrılmalı, Vətənini, torpağını sevən hər kəs imkan daxilində orduya kömək etməlidir. Əsgərlik dövründə də gizirlərə ehtiyac olduğunu hiss edirdim. Buna görə də komandanlığın təklifini məmnuniyyətlə qəbul etdim."***

Hələ əsgərlik dövründən hərbi vərdişlərə həvəslə yiyələnmiş təcrübəli gizir tabeliyində olan əsgərlərə də döyüş sirlərini aşılayır, onların yüksək hazırlıqlı döyüşçü kimi formalaşması üçün əlindən gələni əsirgəmirdi.

Döyüşçü yoldaşı Tofiq Şahmuradov Yasənlə bağlı xatirələrində sonsuz kədər hissi ilə dedi: ***"Yasən heç kimin xeyrindən-şərindən qalmazdı. Ağdamda, Bərdədə, Mingəçevirdə hansı xeyrə-şərə getsəydin, baş gizir Əhmədov Yasəni mütləq görə bilərdin. Elə görüşlərimiz də həmişə ya yasda, ya da toyda olurdu. Yasənlə sonuncu dəfə korpusun mühəndis xidmət rəisi Xalid Huseynovun anasının yasında görüşdük. İki-üç saat söhbət etdik Canlı arxiv idi. 1992-ci ildən orduda əsgər kimi xidmət etmişdi, daha sonra xidmətini gizir kimi davam etdir-***

***mişdi. Olduqca tərbiyəli, çox sakit təbiətə malik idi. Asta-asta, təmkinli danışığı var idi rəhmətliyin. Böyüklə böyük, kiçiklə-kiçik idi. Döyüşlər zamanı eyni istiqamətdə olsaq da, müharibə vaxtı görüşə bilmədik. Şəhid xəbərini alanda isə çox təəssüfləndim.***

***Bir anlıq öz-özümə dedim niyə onu qabağa buraxdınız axı... O, bizə komandirin yadigarı idi Sonra düşündüm ki, nə olursa olsun, o qabaqda gedəcəkdi, onu heç bir qüvvə arxada saxlaya bilməzdi. Çox heyf! Ağdamı azad görə bilmədin, şəhid qardaşım!”***

Təəssüflər olsun ki, həyatının 25 ilini Vətənə xidmətə həsr edən Vətən oğluna onun azadlığını görmək qismət olmadı. Qarabağın azadlığını görməyi, üçrəngli bayrağı Ağdama öz əllərinlə sancmağı çox istəyirdin, Yasən. Sən, doğrudan da, Vətəndən qopan Vətən daşı idin. Həyatını bütövlükdə Vətənə xidmətə həsr etmişdin və Vətən keşiyində durmaqdan zövq alırdın. Qarabağı azad görmək sənin arzun idi, sənin haqqın idi... Amma kədərimizdə bir qürur yaşadıq. Qəmdən, qüssədən yük bağlasaq da, torpaqlarımızın azadlığının sevincini yaşadıq. Sən isə bir şəhid ömrü yaşadın. Solmayan şəhid ömrü. Qürurlu, şərəfli şəhid ömrü. İndi ürəklərdir sənin Vətənin. Ruhun şad olsun! Canın qədər sevdiyin Ağdamın azaddır!

Vəzifə borcunu şərəflə yerinə yetirdiyinə və döyüş əməliyyatlarında şəxsi şücaət göstərdiyinə görə Yasən Yelmar oğlu Əhmədov ölümündən sonra "Vətən uğrunda" və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Sənə şer yazmaq istəyirəm Yasən. Amma ilk dəfədir ki, sanki söz ehtiyatım tükənib, qələm də donur, yaza bilmir.

## Mənim şəhid şagirdim

**Öz adına özün şöhrət, şan verdin,**
**Sən Vətənə öz qanından qan verdin,**
**Yolunda heç “uf” demədən can verdin,**

**Sən Vətəni seçdin, Vətən də səni,**
**Göylərə ucaltdı Vətən Yasəni.**

**Vətən qürrələndi cəsur oğluna,**
**"İgid oğlum" – deyib aldı qoynuna,**
**Fərəhləndi baxıb uca boyuna,**
**Vətən səni seçdi, sən də Vətəni,**
**Vətənin göylərə ucaltdı səni.**

**Sən qeyrətdə neçə qəlb döyünəcək,**
**Övladların səninlə öyünəcək,**
**Nəsillərdə öz yerin görünəcək,**
**Raquf Orucovla silahdaş idin,**
**Mərd Vətən oğluna bir qardaş idin.**

**Vətən-ana, ana-Vətən seçmədin,**
**Candan keçdin, sən Vətəndən keçmədin,**
**Sən ömrünün şərbətini içmədin,**
**Əlçatmaz zirvəsən – Qeyrət zirvəsi,**
**Cəsarət türbəsi, cürət türbəsi.**

**Şəhid ömrü ömürlərin bəyazı,**
**Bu, sənin alnına yazılan yazı,**
**Demə çiçəklənməz ömrümün yazı,**
**Bahar da ömrünü verir sərt qışa,**
**Şəhid ömrü layiq hər bir alqışa.**

**Sən zəfər bağının gülünü üzdün,**
**Gülüstan Vətənə əlinlə düzdün,**
**Azad səmasında qürurla süzdün,**
**Şərəfli yol seçdin, şəhid şagirdim,**
**Zəfərlərdən keçdin, şəhid şagirdim.**

## Elvin Azim oğlu İsizadə

**ŞƏHİDLƏR cəsarət ünvanımızdır,**
**ŞƏHİDLƏR bir tarix dastanımızdır.**
**ŞƏHİDLƏR sipərimiz, qalxanımızdır,**
**Şücaət, dəyanət dastanımızsan,**
**Ey şəhid, qürurlu ad-sanımızsan.**

**Şəhidlər şölə saçan Vətən çırağı,**
**Şəhidlər güllər açan behişt sorağı,**
**Şəhidlər çağlayan çeşmə bulağı,**
**Ürəkdən süzülən saf qanımızsan,**
**Ey şəhid, qürurlu ad-sanımızsan.**



Vətən qəmini, kədərini boğan, Vətənə sevinc bəxş edən ***ŞƏHİDLƏR!*** Torpağın köksünə axan qanını bizə əmanət edən şəhidlərimiz qürur yaddaşımızdır. Vətən həsrətini, Vətən nisgilini xatirələrdən yuyub təmizləyən igidlər! Yadımızdan çıxan, uzun illərdir yadırğadığımız sevinci bizə qaytaran igidlər.

Vətənin hər qarışı yenə də şəhid qanı oldu. Sizin kimi igidləri olan Vətəndə yaşamağın özü şərəfdir. Bağrımıza daş basıb 30 il gözlədiyimiz torpaqları sevindirən oğullar. İgidlərimiz səngərdə, torpağın üstündə gecələdilər. Səni qorumaq üçün, ***VƏTƏN!*** Qarda, çovğunda alınlarını sırsıra bağladı. Tətik çəkən barmaqlarınız üşüsə də, hərarətinizdən isindi Vətən torpağı.

Torpaq üstündə yatan, daşların üstünə baş qoyan oğullar. Vətən qucağını ana qucağı bildiniz. Gecələr üstünüzə yağan qar sizi dondurmadı, Vətən hərarətindən qızındınız. Vətəndə ruhları dolaşan ***ŞƏHİDLƏR!*** Ünvanınız Vətən məhəbbəti oldu. Bəzən heyifsilənirik ki, kaş ki, oğullarımız sağ qalaydılar, Vətənin azadlığını görə biləydilər. Bizlər də kədərə bürünmüş sevinc, sevincə bürünmüş kədər içərisində yaşamaq əzabından qurtarardıq. Sizsiz nə qədər qələbə sevinci yaşasaq da, kədər yükümüz sevinc yükümüzü üstələdi. Torpaqlarımıza qovuşsaq da, uzun illərin həsrəti vüsala çevrilsə də, sən demə, vüsalın içində də qan göz yaşları olurmuş. Doğma torpaqlarımıza ürəyi yaralı qovuşmaq qismətimiz imiş. Büküldünüz Vətən bayrağına, qovuşdunuz Vətən torpağına. Qan verdiniz Qarabağa. Vətən qanınızla dirçəldi. Şəhidlər yatan torpağa, göydə ucalan bayrağımıza baxıb Vətən göz yaşını sildi. Mərd balasının qan sızan yarasını sığalladı, qəm yedi Vətən. Sizə oğul dedi Vətən! Tarix yazdınız Vətən daşına, hey dolandınız başına. Bağrına basdı şəhidini Vətən. Qucaqladı hər igidi. Siz dönüb Vətən oldunuz.

***VƏTƏNLƏŞƏN, TARİXLƏŞƏN ŞƏHİDLƏR!***
***TÜRBƏLƏŞƏN, EY PİRLƏŞƏN ŞƏHİDLƏR!***

Sizin Vətən sevginiz, sizin Vətən odunuz düşməni yandırdı. Bayrağımıza süzülən şəhid qanı şöhrət gətirdi Azərbaycanımıza. Vətənin əlindən tutan əlləriniz Vətəni ucaltdı. Ömrünüzdən kəsib Vətən ömrünə calayan şəhidlər. Sönən ocaqlarımızı yandırdınız, özünüz sönməyən bir günəşə döndünüz. Nur ələdiniz Vətənimizə. Nura bürünən Vətən sevindi. Sizi bağrına basıb oğul dedi. Vətən ətirli ŞƏHİDLƏRİMİZ! Qəlblərdə yaşayacaqsınız. Vətənin bağrına basıb qucaqladığı, Vətən ətirli şəhidlərimizdən biri də 19 yaşlı şəhidimiz Elvin İsizadədir.

Elvin Azim oğlu İsizadə 2001-ci il sentyabrın 4-də Ağdamın Qaradağlı kəndində anadan olub. 2007-2018-ci illərdə Ayaz Abdullayev adına Qaradağlı kənd orta məktəbində oxuyub. Eyni zamanda kənd musiqi məktəbində tar ixtisası üzrə təhsil alıb. 2018-ci ildə Asəf Zeynallı adına musiqi kollecinə qəbul olunub. 2019-cu ildə könüllü olaraq həqiqi hərbi xidmətə yollanıb. Vətən müharibəsinin ilk günlərindən Elvin artıq cəbhədə düşmənlə üz-üzə idi. Elvin sərrast atıcı kimi Vətən müharibəsində şücaət göstərdi. Hər dəfə düşmənə sarsıdıcı zərbələr endirirdi. Elvin qısa həyat sürsə də, mənalı, şərəfli bir ömür yaşadı. Öz sevimli tarını silaha dəyişən Elvinin gələcək arzuları çox böyük idi. Kolleci bitirdikdən sonra Azərbaycan Dövlət Milli Konservatoriyasına qəbul olmaq və tanınmış tar ifaçısı kimi məşhurlaşmaq onun ən böyük arzusu idi. Gələcək arzularını Vətənə qurban verən Elvin İsizadə oktyabr ayının 26-da Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub. Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunub.

2021-ci il sentyabrın 4-də Elvin İsizadənin doğum günü uyuduğu Şəhidlər xiyabanında qeyd olundu və onun xatirəsinə inşa edilmiş bulağın önündə davam etdi. Şəhidin ailə üzvləri, yaxınları, Qarabağ müharibəsi veteranları, müəllimləri məzarı üzərinə gəlib onu ehtiramla yad etdilər.

Elvin İsizadə orta məktəbdə oxuduğu illərdə öz nizam-intizamı, tərbiyəsi ilə hamının sevimlisinə çevrilmişdi. Bəli, o, öz vətənpərvərliyi ilə yadda qalan şagirdlərdən olmuşdu. Elvini yalnız öz davranışı və yüksək mədəniyyəti ilə seçilən şagird kimi xatırlamaq olar. Hüzr yerində hamı onun təlim-tərbiyəsindən söz açırdı.

Təhsil aldığı musiqi kollecinin müəllimləri də Elvini dərin kədərlə xatırlayaraq onun istedadından, vətənə bağlılığından dönə-dönə danışırdılar. Məhz Elvin kimi oğullar Vətənə faydalı övladlar ola bilərlər.

Elvin İsizadənin ailəsini, doğmalarını yaxından tanıdığım üçün bilirəm ki, bu nəsildə tərbiyə alan övlad elə Elvin kimi Vətəninə, xalqına və ailəsinə layiqli övlad kimi yetişməli idi.

Atası oğlu haqqında xatirələrini belə bölüşdü: ***"Elvin hər dəfə evə zəng edəndə böyük ruh yüksəkliyi ilə danışırdı. Hər dəfə bizə təskinlik verirdi ki, narahat olmayın. Müharibə tezliklə qurtaracaq. Qələbəmizə az qalıb. Allah qoysa, qələbədən sonra görüşərik. Çox ürəkli danışırdı. Deyirdi ki, düşmənlər qarşımızda tab gətirmir, qaçırlar. Olduqca inamla danışırdı. Tezliklə qələbə çalacağımıza tam əmin idi. Onun cəsarətli danışığı bizi də ürəkləndirirdi. Ona görə də, çox ümid edirdik ki, tezliklə qələbə olacaq və oğlumuz sağ-salamat evə qayıdacaq."***

Bacısı Könül Quliyeva qardaşı ilə bağlı şirin xatirələrini danışdı: ***"Məktəbə bir gedib-gələrdik. Dərslərimi öyrənməkdə mənə kömək edərdi. Nə çətinliyim olsa, qardaşım yanımda olardı. Birlikdə dərdləşərdik. Şəhid olandan sonra tez-tez yuxuma girir, mənə təsəlli verir."***

Elvinin babası Ağdamda, eləcə də Kosalı kəndində çox hörmətli və sayılan ağsaqqallardan biridir. Hamımızın "Mamed dayı" – deyə müraciət etdiyimiz el ağsaqqalı Məmməd müəllim elə indi də xeyir və şərdə xalqın yanında olur. Öz xeyir-duasını əsirgəmir. Qızı Gülbənizin yeganə oğlu Elvinin nakam həyatı babaya çox ağır təsir etmişdir. Buna baxmayaraq, müdrik baba hamını səbrli, təmkinli olmağa çağırırdı. Nəvəsi ilə qürur duyan baba bu çətin anlarda da ailə üzvlərinin yanında oldu.

Elvinin anası Gülbəniz müəllim şagirdim olmuşdu. Sakit təbiətli idi. Əla qiymətlərlə oxuyurdu və məktəbdə fərqlənən şagirdlərdən idi. Elvinin hüzr yerində Gülbəniz ana ilə üz-üzə oturmuşdum. Bu sakit təbiətli ananın fəryadı dağı-daşı əridirdi. Hərdən də dərdi ilə qürur duyurdu ana: ***"Oğlum Vətən oğlu oldu. Oğlum Vətəni seçdi."***

Ana fəryadları qəlbləri dağlasa da, düşmənin qara bağrını öz şücaəti və hünərləri ilə dəldi oğullar. Amma qürurumuz, vüqarımız bizi ağlamamağa səslədi. Analar daha ağlamadı. Möhkəm oldu, vüqarlı oldu analar. Damarlarda qan donduran ana harayları qürurla əvəz olundu. Qoy şəhidləri bahar yağışı ağlasın. Ona anaların göz yaşı yetməz.

**Göyüm-göyüm ağrısan da, ağlama,**
**Oğullar intiqam aldı, ağlama!**
**Ana, dik tut sən başını, ağlama,**
**Tök gözünün son yaşını, ağlama!**

Dərd-qəm köksümüzə axsa da, dərd yükümüzü yüngülləşdirən şəhidlər. Öz şəhid ömrü ilə öyünən oğulları ağlamaq olmaz. Bu vüqarlı ölüm qarşısında başınızı dik tutun, analar! Şəhid olmamışdan əvvəl oğullar da dönə-dönə tapşırıblar ki, biz Vətən yolunda şəhid olsaq, bizi ağlamayın. Şəhid kimi ölmək şərəfli ölümdür. Axı şəhidlər ölməzdirlər, ölməzi ağlamazlar. Şəhidlər uca Yaradanın, Vətənin yolunda şüurlu surətdə canlarını fəda edənlərdirlər. Şərafətli ölümləri ilə şəhadət mərtəbəsinə ucalanlardırlar.

Hamısı bir-birinə bənzəyən şəhidlər, nur üzlü şəhidlər. Məzarları gül sərgisi, məzarları sanki bəzənmiş bir xonça. Sanki çiçək dənizidir şəhid məzarları... Hər kəsin taleyinə yazılmaz belə şərəfli tale, belə şərəfli ömür. Nəsillərin əbədi ziyarətgahına çevrilən şəhidlər. Nura bürünən, şəfəq saçan ömür yolunun əbədi yolçuları.

Elvin Azim oğlu İsizadə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə ölümündən sonra “Vətən uğrunda” və “Xocavəndin azad edilməsinə görə” medalı ilə təltif edilmişdir.

# VƏTƏN MÜHARİBƏSİNİN ŞUŞALI QAZİLƏRİ VƏ İŞTİRAKÇILARI

## Səbuhi Salam oğlu Abdullayev



Səcdəgahımız Vətən! And yerimiz, Vətən! Uğrunda qan tökülən torpağa “Vətən” deyilir. İllərdir ki, Vətən sevgisini qəlbimizdə gəzdirdik. Bu sevgi, bu məhəbbət sevgilərin zirvəsi oldu. ***BAYRAĞIMIZ ASILAN ZİRVƏ VƏTƏN OLDU.*** Səni Qarabağa sancmaq üçün nə qədər gözləmişik, şanlı bayrağım! Bayrağımız milli varlığımızdır. Milli-mənəvi dəyərlərə malik olan xalqımızın şərəfidir. Bayraq qürurumuz və iftixarımızdır. Bayraq – istiqlaliyyətimizdir. Vətənin azadlığıdır. ***BAYRAQ – XALQIN QÜDRƏTİDİR. VƏTƏN VARSA, BAYRAQ DA VAR. BAYRAQSIZ VƏTƏN OLMAZ.*** Bayraq od nəfəsli igidləri olan Vətəndir. Bayraq o zaman müqəddəs olur ki, üzərinə Vətən övladlarının qanı tökülür. ***BAYRAQ ÜSTÜNDƏKİ QAN ELƏ VƏTƏNDİR.***

**Savaşdan qalib çıxdı, bükülmədi, bayrağım,**
**Şəhid qanı nahaq yerə tökülmədi, bayrağım!**
**Dalğalanan dəniz tək al-əlvan göy qurşağım,**
**Düşmənlərə göz dağım, Azərbaycan bayrağım!**

Savaşlardan qəhrəman kimi çıxmış Azərbaycan bayrağım! İgidlərin əlləri ilə sən Qarabağa qovuşdun, üçrəngli bayrağım! Həsrətinlə çox yanmışdı, vüsalınla alışmışdı Qarabağım. İllər boyu düşmən səni əzmək istəsə də, əzablı talelər qismətin olsa da, oğulların səni yenidən Qarabağda-Şuşanın zirvəsində ucaltdı, ey müqəddəs bayrağım! ***TAMARZI***

***ELLƏRİNƏ QOVUŞAN BAYRAĞIM! SƏN ÜSYAN ETDİN, SƏN VƏTƏN GÖYLƏRİNDƏ UCALDIN.*** Bir əsrdən çox yaşı olan bayrağımız müstəqilliyimizə qovuşduqdan sonra Şuşada heç bir il də dalğalana bilməmişdi. Nə xoşbəxtik ki, əsarətdən xilas olmuş, azad Şuşamızda 28 ildən sonra üçrəngli bayrağımızı ucalda bildik. ***SƏN ŞUŞADA SANCILAN ZİRVƏ ÜRƏYİMİZİN ZİRVƏSİ OLDUN, ŞANLI BAYRAĞIM!***

**Azadlıqla yoğruldun,**
**Qatil əllə boğuldun,**
**Şuşamın zirvəsində**
**Sən yenidən doğuldun,**
**Mənim şanlı bayrağım!**

***BAYRAQ MİLLİ KİMLİYİMİZDİR.*** Elə bu ülvi hisslərlə hər birimiz bütün qəlbimizlə ata ocağımıza – Azərbaycanımıza, Odlar diyarımıza bağlıyıq. Vətənin kədəri kədərimiz, sevinci sevincimizdir. Həyatımızın ən böyük nəğməsi Vətən nəğməsidir. İnsan yaşadığı torpağa bağlıdır. Bu bağlılıq ana laylası ilə qanımıza hopub. Bu bağlılıq Nizaminin, Nəsiminin, Füzulinin, Xətayinin, Sabirin, Mirzə Cəlilin yurd sevgisi ilə qanımıza hopub, ürəyimizdə kök salıb. Vətən bizə əcdadlarımızın ərmağanıdır. Vətən göylərində əcdadlarımızın ruhu dolaşır, torpaqlarında ulularımız uyuyur. Vətən torpağı bizə ulularımızın əmanəti olduğu kimi, Vətən bayrağı isə Məmmədəmin Rəsulzadənin, Əli bəy Hüseynzadənin əmanətidir. Üçrəngli bayrağımızın Azərbaycan parlamenti üzərində dalğalanması sevincini M.Rəsulzadə belə ifadə etmişdir: "Ey gənclik! Sənin öhdəndə böyük bir vəzifə var! Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla ucaldaraq dedi ki, ***BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ BİR DAHA ENMƏZ!*** Əlbəttə sən onun ümidini qırmayacaq, azəri türklərinin yanıqlı

nəğmələrinə mövzu olmuş bu bayrağı bir daha o bina üzərinə dikəcək, bu yolda ya qazi, ya şəhid olacaqsan!”. İgid Azərbaycan oğulları da ya qazi, ya şəhid olmağı üstün tutdular. Xoşbəxtik ki, bu gün bayrağımız daim təbliğ olunur. Müqəddəs bayrağımız nəsildən-nəsilə, əsrdən-əsrə keçib, bu günümüzə qədər gəlib-çatıb. Əsgərlərimiz bayrağımızı ürəklərinin başında gəzdirdilər. Vətən uğrunda şəhid olanlar bayrağımıza büküldülər.

Şanlı keçmişimizlə, əfsanəvi qəhrəmanlığımızla həmişə fəxr etmişik. Bu gün də Vətən müharibəsi qəhrəmanları ilə fəxr edirik. Əsgərləri ilə birlikdə vuruşan Azərbaycanın Milli Qəhrəmanı, şəhid general Polad Həşimov, Azərbaycanın Milli Qəhrəmanları – şəhid polkovniklər İlqar Mirzəyev, Şükür Həmidov, polkovnik-leytenant Anar Əliyev kimi igidlərimiz ölümsüzlüyə qovuşdular, xalqın yaddaşında əbədi abidə qurdular. Vətən müharibəsində qazandığı zəfərləri ilə xalqın sevimlisinə çevrilən general-leytenant Hikmət Mirzəyev, general-mayor Mais Bərxudarov, polkovnik Tehran Mənsimov kimi igidlərimiz öz sələflərinin layiqli davamçılarıdırlar.

Bəli! Tarix boyu xalqımız Vətəni qorumağa hər an hazır olan igid oğullar yetişdirib. Hər bir azərbaycanlı öz qəhrəmanlarını tanımalı, onların keçdiyi döyüş yolunu bilməlidir. Nəsillər nəsilləri əvəzləyir, qəhrəmanlıq tariximizə yeni səhifələr yazılır.

Azərbaycan xalqının igid oğulları xalqımızın vətənpərlik, qəhrəmanlıq əzmini bir daha sübut etdilər. Qəhrəman oğullarımız Qarabağımızı ana Vətənə qovuşdurdular. İllərlə tökülən qanların qisası alındı. Axı Vətən övladlarını haraylayırdı. Vətənin səsi gəlirdi sanki... Ana Vətəndən ayrı düşən Qarabağımızı xilas etmək üçün xalqımız ayağa qalxdı. Əsarət altında qalan torpaqlarımızı xilas etdik. Bayrağımızı Qarabağda – Şuşa qalasında ucalda bildik.

**Tarix dərgahından qopmuş bayrağım,**
**Şəhidlər qanına hopmuş bayrağım,**
**Şuşa zirvəsinə qonmuş bayrağım,**
**Zirvələrdən enməyə qoymarıq səni,**
**Üstündən qovarıq dumanı, çəni.**

**İstiqlal qapısı açdı bayrağım.**
**Qaranlığa işıq saçdı bayrağım.**

Tarix dərgahından qopmuş, şəhid qanına hopmuş, azadlıqla yoğrulmuş, savaşlardan qəhrəman çıxmış bayrağımızı Şuşada dalğalandıran polkovnik-leytenant Səbuhi Abdullayev də Vətənin harayına çatan oğullardan biridir.

Səbuhi Salam oğlu Abdullayev 1978-ci il avqust ayının 28-də Şuşa şəhərində anadan olub. 1985-ci ildə şəhər 2 nömrəli orta məktəbin 1-ci sinfinə daxil olub. Yeddinci sinfə qədər həmin məktəbdə oxuyub. 1992-ci ildə C.Naxçıvanski adına Bakı İbtidai Hərbi Məktəbinin birinci kursuna daxil olub. 1995-1999-cu illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində təhsilinin davam etdirib. Leytenant hərbi rütbəsi alaraq müdafiə nazirliyinin cəbhə bölgəsində yerləşən hərbi hissəsində xidmətini davam etdirmək üçün təyinat alıb. 1999-cu ilin iyun ayından 2014-cü ilin may ayınadək cəbhə bölgəsində yerləşən hərbi hissələrdə xidmət edib və polkovnik-leytenant rütbəsinə qədər yüksəlib. 2014-cü ilin may ayından etibarən müdaiə nazirliyinin N nömrəli hərbi hissəsində xidmətini davam etdirir. 2016-c il Aprel döyüşlərində iştirak edib.

***“Hərbçi olmaq istəyi sizdə necə yarandı?”*** – sualıma polkovnik-leytenant Səbuhi Abdullayev belə cavab verdi:

– Şuşa işğal olunanda mənim 14 yaşım var idi. Ailəmizlə birlikdə Bakıda məskunlaşdıq. Vətənimdən – doğma Şuşamdan didərgin düşmək mənə çox ağır təsir etmişdi. Hərbçi olmaq istəyi elə o zamandan yarandı. Düşünürdüm ki, hərbçi

olsam, Vətənimə daha faydalı vətəndaş ola bilərəm. Bu istəyimi atama bildirdim. Bilirdim ki, Vətənini böyük məhəbbətlə sevən atam mənim hərbçi olmağıma etiraz etməz. Atam – Abdullayev Salam Əyyub oğlu Birinci Qarabağ müharibəsində döyüşmüşdür. Əlbəttə, vətənpərvər ailədə böyüdüyüm üçün Vətənə məhəbbətim sonsuz idi. Valideynlərim mənimlə razılaşdılar. Atam məni Cəmşid Naxçıvanski adına Bakı İbtidai Hərbi Məktəbinə gətirdi. İmtahanlardan uğurla keçdim. Hələ Şuşada olarkən düşmənin ağır artilleriya atəşlərindən istifadə etməsi, şəhəri gülləbarana tutması düşmənə nifrətimi daha da artırmışdı. Hərbçi kimi Vətən keşikçisi olmaq hissi qəlbimə hakim kəsilmişdi. Mənfur düşmənin xalqımıza qarşı törətdiyi cinayətləri, vəhşiliyi unuda bilmirdim. Demək olar ki, 1992-ci ildən bu günə qədər həyatımı hərbə həsr etmişəm. Vətənimə xidmət etməkdən zövq almışam. Elə buna görə də hərbi məktəbi bitirən vaxtdan – 1999-cu ildən bu günə qədər cəbhə bölgəsində düşmənlə üz-üzəyəm. 2016-cı ilin Aprel döyüşlərində fəal iştirak etmişəm və yaralanmışam. Vətən müharibəsinin elə ilk günündən döyüşlərdə iştirak etmişəm.

Düşmənlə üz-üzə olduqda qorxu hissim olmurdu. Eyni zamanda həyəcan da olmurdu. Bu günə qədər ağır döyüşlərdən keçmişəm. Asan döyüş yoxdu. Bütün döyüşlər çətindi. Düşməni zəif bilmək olmaz. Lakin Vətən torpağına qovuşanda keçirdiyim sevinc dolu həyəcanı heç vaxt yaşamamışdım.

Düşmən nə qədər müqavimət göstərsə də, heç bir faydası yox idi. Bizim əks-hücumlarımıza tab gətirə bilmirdi. Biz düşməni məhv etdiyimizi gördükcə gücümüzə, qələbəmizə inam daha da artırdı. Bizim yolumuz haqq yolu idi. Düşmən əlində olan bizim torpaqlarımız idi. Biz əzmlə döyüşürdük. Hər birimiz Vətən borcunu qaytarmağı özümüzə şərəf bilirdik. Vətən bizim Vətəndir. Biz öz Vətənimizi azad etməli idik. Bu, bizim məqsədimiz və amalımız idi.

Müsahibim Səbuhi Abdullayevin hər kəlməsi Vətən məhəbbəti, yurd sevgisi ilə dolu idi. Vətən müharibəsi iştirakçılarının döyüşlər haqqında müsahibəsini çox dinləmişəm. Lakin bu təəssüratlar tamamilə fərqli idi. Çünki bu hisslər illərlə Vətənə qovuşmaq arzusu ilə alışıb-yanan peşəkar bir hərbçinin təəssüratları idi. Düşmənə qarşı nə qədər amansız, nə qədər sərt olsa da, Şuşaya ayaq basanda yaşadığı hissləri o qədər təsirli danışdı ki, göz yaşlarım məni boğurdu. Doğrudan da, bu hissləri çatdırmaqda sözün gücü acizdir. Dözümlü, iradəsi möhkəm olan bir hərbçinin belə kövrək danışmasını gözləmirdim. Əsgərlər öz müsahibələrində sevincimizdən "torpağı öpürdük" – deyirdilər. Səbuhi Abdullayev isə azad olunmuş Şuşaya ilk ayaq basan şuşalı kimi kövrək hisslərini belə ifadə edirdi:

– Mən Şuşaya çatanda torpağı ovcuma alıb yeyirdim. Buna öpmək deyə bilmirəm. Mən Vətən torpağını yeyirdim. Elə bil ki, torpağın ətirli qoxusunu hiss edirdim. Vətənin ətrini duyurdum. Həmin anlar həyatımın ən şirin anları idi. Bu hissləri anlatmaq olmur. Həyatımda belə kövrək hisslər yaşamamışdım. Özümdən asılı olmayaraq, ovcumda torpağı tutub bərk-bərk hönkürürdüm. Müdafiə nazirliyinin Şuşa ilə bağlı təqdim etdiyi çəkilişlərdə mən şəxsən iştirak etmişəm. Çünki döyüşçülər içərisində Şuşanı qarış-qarış tanıyan yalnız mən idim. Şuşanın mənzərəli yerlərini göstərdikcə uşaqlığım gözlərim önündə canlanırdı. Lakin Şuşanın tarixi abidələrini, dahi şəxsiyyətlərinin ev-muzeylərini dağılmış vəziyyətdə görmək mənə çox pis təsir edirdi. Elə yerlər var idi ki, orda daş üstə daş qalmamışdı. Şuşanı tərk edəndə yeniyetmə idim. Uşaqlıqdan ürək ağrısı ilə tərk etdiyim Vətənimə qovuşduğuma inana bilmirdim. On dörd yaşımdan bu günə qədər qalib hərbçi kimi Şuşaya ayaq basmaq arzusu bir an məni rahat buraxmayıb. Bütün olanlar mənə bir yuxu kimi gəlirdi. Uşaqlığımın xatirəsi olan Şuşadakı evimiz uzun illərdən sonra

məndə qeyri-adi hisslər yaratdı. Hələ həyatımda belə xoşbəxt olmamışdım.

Bayrağımızı Şuşada dalğalandırmağı çox arzu etmişdim. Noyabrın 8-də Şuşa işğaldan azad olunan gün başımdan yaralandım. Yaralı olmağıma baxmayaraq, üçrəngli bayrağımızı mütləq öz əllərimlə asmağı qarşıma məqsəd qoymuşdum. Bayrağı sancanda yaralı idim. Səhər döyüşlər zamanı başımdan qəlpə yarası almışdım. Yaralı olsam da, bayrağı sancmaq üçün var gücümü toplamışdım. Şükürlər olsun ki, məqsədimə nail oldum. Bayrağı Şuşa səmasında dalğalandırdım və böyük qürur hissi ilə hərbi salam verdim. Bayrağı sancandan sonra Qala divarlarının yaxınlığında gizlənmiş düşmən əsgərləri ilə mübarizədə yenidən yaralandım. Noyabrın 9-da ilkin yardım üçün Füzuli rayonundakı diaqnostika mərkəzinə yerləşdirildim. Noyabrın 10-da isə müalicəmi davam etdirmək üçün Bakı Sağlamlıq Mərkəzinə gətirildim. Burda əməliyyat olundum və başımdakı qəlpələri çıxardılar. Lakin yaralanmağım heç də məni düşündürmürdü. Bir şuşalı kimi həmin gün keçirdiyim qürur hissi əvəzedilməz idi. Bəli, mən Azərbaycan bayrağını, zəfər bayrağını Şuşada dalğalandırdığım üçün sonsuz iftixar hissi keçirirdim.

Vətən oğlu, biz də səninlə fəxr etdik, qürur duyduq. Bir şuşalı kimi Zəfər bayrağımızı Şuşada öz əllərinlə ucaltmaqdan böyük xoşbəxtlik olarmı? Vətənə borcunu verən bir oğul kimi sevinməyə haqqın var. Axı bayraq şanlı Vətənimizin iftixarıdır. ***BAYRAQ – QANIMIZIN QIRMIZI RƏNGİNİ RƏNGİNƏ QATDIĞIMIZ QEYRƏTİMİZDİR.*** Tarixdə elə qəhrəmanlar var ki, onları kitablardan oxuyub tanıyırıq. Şuşamızın igid oğlu Səbuhi Abdullayevi də 44 günlük müharibənin yaddaqalan qəhrəmanlarından biri kimi daim xatırlayacağıq.

**Zirvəndə üçrəngli bayraq qaldıran**
**Öz doğma oğlundu, sevin, ay Vətən,**
**Azad oldu oban, evin, ay Vətən!**

Zəfər bayrağımızı Şuşada ucaldan igidlər! Nə qədər qürurlu etdiniz bizi. Xəcalətli idik, qürurlu olduq. Başıaşağı idik, başımızı dik tuta bildik. Qəddimiz əyilmişdi, düzəldi daha. Şuşasız idik, Şuşasız olduq.

***BAYRAĞIMIZ ŞUŞADA DALĞALANANDA, GÖY ÜZÜNDƏ BULUDLAR DA SEVİNCİNDƏN AĞLADI, VƏTƏN!*** Yerdə igidlərin şimşək kimi çaxanda, düşməni yandırıb yaxanda vüqarlı övladların için-için hönkürdü, Vətən!

**Məğrur-məğrur, uca dayan, bayrağım!**
**Hər səhər Şuşamda oyan, bayrağım!**

Nə yaxşı ki, bayrağımızı qədim Şuşa qalasında dalğalandıra bildik. Yoxsa, tarix bizi bağışlamazdı. Yoxsa, bu tarixi ləkəni yuya bilməzdik. Sınmış, tapdanmış qürurumuzla yaşaya bilməzdik. Qələbə sevincini bizə yaşadan igidlər, qələbəni bizə dadızdıran oğullar!

Bu bayraq altında doğulduq, bu bayraq altında böyüdük. Əgər bayrağımızı məhbus qalan Qarabağımızda ucalda bilməsəydik, azadlıqdan danışa bilməzdik. İgidlərimizin mətin əllərində bayrağımız ucalmasaydı, onun kölgəsində sevinə bilməzdik. Daim ucal, bayrağım! ***SƏNİ YALNIZ ZƏFƏR ÇALMIŞ ŞƏHİD ÖNÜNDƏ ALQIŞ ÜÇÜN ƏYİLƏN GÖRÜM, BAYRAĞIM!***

**Ey üçrəngli bayrağım,**
**Əbədiyyət növrağım,**
**Ucal, ucal, bayrağım,**
**Eldən güc al, bayrağım.**

Bayraq əyilməyən vüqarımızdır! Bayraq yurdumuzun başı üzərində daim parlayan sönməz ulduzumuzdur. ***BAYRAQ SAVAŞDAN ALNIAÇIQ ÇIXAN XALQIN QÜDRƏTİDİR. BAYRAQ AZADLIĞIN RƏMZİDİR.***

Nə yaxşı ki, ata-babalarımızın qürurunu tapdanmağa qoymadıq. Milli özümüzü qoruya bildik. Milli həmrəy ola bildik. Vətən məhəbbəti xalqımızın milli birliyini, milli həmrəyliyini sübut etdi. Əcdadlarımızın ayaq izi olan Qarabağımıza bayraq sancılması ən böyük zəfərimiz oldu. Harda əcdadlarımızın ayaq izi varsa, orda bayrağımız dalğalanarsa, o bayraq xalqı keçmişinə bağlayar. Böyük xalqın iradəsi qalib gələr. Azərbaycan xalqının milli-mənəvi şüurunun oyanışı elə tarixinə, keçmişinə bağlılıqdır. Xalq öz istiqlaliyyətinin dönməzliyini, əbədiliyini dünyaya sübut etdi. Nə yaxşı ki, istiqlaliyyətimiz uğrunda usanmaz mübarizə apara bildik. Xalqımızın polad iradəsini qırmaq mümkün olmadı. Tariximizi, keçmişimizi, soyumuzu bu xəcalətdən qurtara bildik. Nə yaxşı başımızı uca tuta bildik!

Şuşamızın fəxri, üçrəngli bayrağımızı öz əlləri ilə Şuşada dalğalandıran polkovnik-leytenant Səbuhi Abdullayev 2020-ci il sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən 44 günlük Vətən müharibəsinin son gününə qədər döyüşlərdə iştirak edib. Murovdağ istiqamətində, Cəbrayıl, Füzuli, Hadrut, Xocavənd, Şuşa rayonlarının işğaldan azad edilməsində böyük fəallıq göstərib. 2020-ci il noyabrın 8-də Şuşa şəhərində yaralanıb. Yaralanmasına baxmayaraq, 28 il 6 aydan sonra üçrəngli şanlı Azərbaycan bayrağını Şuşa şəhərinin inzibati dövlət binasının üstünə sancaraq dalğalandırıb. Yaralı olsa da, hərbi xidmətini davam etdirir.

Polkovnik-leytenant Səbuhi Salam oğlu Abdullayev müharibə meydanlarında göstərdiyi şücaətə görə “Vətən uğrunda”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı”, “Füzulinin azad edilməsinə görə”, “Cəbrayılın azad edilməsinə görə”, “Şuşanın azad edilməsinə görə” medalları ilə təltif edilmişdir.

## Hüseyn Elxan oğlu Ələkbərli ("Şuşa qartalı")




Müdrik Dədə Qorqudun ayaq basdığı Vətən torpağı! Hər qarışı övladlarına doğma, hər qarışı əziz olan yurdum. Nə yaxşı ki, xalqımızın şərəfli keçmişi, şərəfli tarixi var. Nə yaxşı ki, tariximizlə, keçmişimizlə, Azərbaycanımızla öyünə bilmişik. Hər dağı, daşı, bulağı, bir ovuc torpağı, şəlaləsi, çölü, düzü şirin Vətən! Bir ovuc torpağını Qarabağdan-Şuşadan gətirən igidlərinin gözü güldü, ürəyi sevindi. Doğma el-obasından gətirdiyi torpağını gözünün üstünə, ürəyinin üstünə qoydu Vətən oğulları.

**Qanınız tökülən Vətən torpağı,**
**Cisminiz bürünən Vətən bayrağı,**
**Qəlbinizlə yandı Vətən çırağı,**
**Oğullar tarix yazan tarix türbəsi,**
**Şimşək olub çaxan şimşək zərrəsi...**

Hər bir sətrimdən, hər bir kəlməmdən siz boylanırsınız, Vətən oğulları! Ürəyimdən süzülüb-gələn hər bir misramda siz varsınız, Vətən oğulları. Elimizin, obamızın dar günündə bir sipərə çevrildiniz, qalxanlara dönüb, özünüzü irəli atdınız, igid ərənlərimiz. Hər birinizin qanı Vətən torpağına qarışdı. Hər biriniz Vətən bayrağını ucaltdınız və özünüz də ucaldınız. Hər biriniz tarixlərdə qalan tarix türbəsi oldunuz. Zorla qoparılmış, parçalanmış Vətəni birləşdirmək üçün canınızı fəda etdiniz. Canınıza qıydınız. Kökü dərin Vətənin sınmış, qırılmış budaqlarını təzədən özünə birləşdirdiniz. Oda, alova dönüb, sanki bir şimşək zərrəsi oldunuz. Alışan

zərrənizlə düşməni yandırdınız. Vətən nə xoşbəxtdir ki, onu Sizin kimi qoruyan igidləri varmış. Vətən nə xoşbəxtdir ki, doğmalarına, əzizlərinə sarılmadan "öncə Vətən deyib", Vətənə sarılan oğulları varmış. Vətən nə xoşbəxtdir ki, sinəsində tikanlar əkilən Qarabağı yağı caynağından xilas edib, gülüstana çevirən oğulları varmış. Vətən nə xoşbəxtdir ki, mayası Vətən sevgisi ilə yoğrulan Hüseyn kimi oğulları var.

Hüseyn Elxan oğlu Ələkbərli 1995-ci il oktyabrın 25-də Bakıda şuşalı ailəsində dünyaya göz açıb. 2012-ci ildə Bakının Yasamal rayonunda yerləşən Şuşa şəhər 1 nömrəli orta məktəbi bitirib. 2013-2017-ci illərdə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini də tank ixtisası üzrə oxuyub. Təyinatla cəbhənin Ağdərə istiqamətinə göndərilib. Şərəfli vəzifəsini yerinə yetirən Hüseyn N nömrəli hərbi hissədə tank bölüyündə tağım komandiri vəzifəsində xidmətə başlayıb. Elə ilk günlərdən o öz cəsurluğu ilə seçilirdi. 2020-ci ildə Hüseyn baş leytenant rütbəsi ilə tank bölüyünün komandiri vəzifəsinə yüksəlmişdir. Tankçı olmaq arzusu Hüseyndə hələ uşaqlıq illərindən yaranmışdı. Vətənpərvərlik hissləri ailədən gəlir. Vətəni sevmək, Vətəni qorumaq kimi ülvi hissləri hələ uşaqlıqdan onun qəlbində atası cücərtmişdi. Ailədə vətənpərvər ruhda böyüyən Hüseynə atası ən gözəl nümunədir. Atası Elxan 1988-ci ildən Qarabağ cəbhəsində döyüşmüş, 1991-ci ildə Şuşanın Nəbilər kəndində başından güllə yarası almışdı. Bir zamanlar atasının döyüşdüyü torpaqlarda indi oğlu mərdliklə döyüşmüşdür. "Şuşanın yollarını Hüseyn açdı"- deyən ata oğlunun bu cəsurluğundan fərəh hissi keçirir. Hüseynin birinci sinifdə anasına yazdığı əsgər məktubu ürəyi vətənlə döyünən kiçik qəlbində böyük vətən məhəbbətinin təzahürüdür. Həmin məktubu atası fəxrlə oxuyur: ***"Mən tankçıyam. Atama deyərsən ki, mənim tankımın nömrəsi 195-dir. Burda havalar soyuqdur. İndi mən çəbhəyə gedirəm. Sağ olun!"*** Hüseynin birinci sinifdə yazdığı və guya, cəbhədən anasına ünvanladığı bu məktubun məzmu-

nundan göründüyü kimi, o, tankçı olmağa və öz tankı ilə düşmənlə döyüşməyə, onu məhv etməyə hələ birinci sinifdən hazırlaşırmış. Bəli, şanlı ordumuzun zabiti Hüseyn bu döyüşləri sanki kino lenti kimi elə uşaqlıqdan gözləri önündə canlandırırmış.

2020-ci il sentyabrın 27-də müharibə başlayanda Hüseyn uşaqlıq arzusunu həyata keçirəcəyinə bir fürsət yarandığına sevindi. Sentyabrın 27-dən ən qaynar nöqtələrdə döyüşə başlayan Hüseyn ilk döyüşdən qalib çıxmışdı. Sentyabrın 29-da Ağdərə istiqamətində növbəti döyüş əmri verildi. Hüseyn tank bölüyünün komandiri kimi tabeliyində olan bölüyə ***"İrəli qartallar!"*** şüarı ilə əmr verdi. Axı o, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru H.Aslanovun şərəfli döyüş yolunu özünə örnək etmişdi. Özü də öndə olmaqla hücuma keçir. İllərdir ürəyində böyüyən intiqam hissi alovlanır. Bir qartal kimi düşmənin üzərinə şığıyır. Axı babası ona həmişə ***"Mənim qartalım, mənim igidim"*** – deyirdi. Heç nədən çəkinmədən, qorxmadan Həzi metodundan istifadə edərək keçilməsi çətin olan erməni bunkerlərinə girir. Ağır döyüş başlayır. Hüseyn düşmənə olan sonsuz nifrətini bu döyüşdə sona qədər göstərir. O, qisas almaq hissi ilə yanırdı. Döyüş zamanı ardıcıl mərmi atəşinə tutulur. Demək olar ki, hücum əmri verilən kimi bir saniyə belə, gözləmədən özünü irəli atan Hüseynin tankı olur. Mərmi yağışları altında ağır döyüş davam edir. Düşmənə elə ilk zərbələrdən birini baş leytenat Hüseyn Ələkbərlinin başçılıq etdiyi bölük vurur. Bu ağır döyüşdə düşmənin xeyli canlı qüvvəsi və ağır texnikası məhv edilir. Tank zabiti kimi ön cəbhədə sona qədər döyüşür. Düşmənin birinci müdafiə zolağını tezliklə keçən Hüseynin komandiri olduğu tank artıq ikinci zolaqda düşmənə zərbələr endirirdi. Hücum əmri verilən zaman onun tankı o qədər tez irəli atılmışdı ki, bölüyün digər tankları ilə Hüseyn arasındakı məsafə təxminən bir kilometr olardı. O, demək olar ki, artıq təhlükəli zonaya daxil olmuşdu. Düşmənlə ya-

xın məsafədə qarşı-qarşıya dayanmışdı. Təhlükəli zonada olduğu üçün Hüseynin komandanlıq etdiyi T-72 tankına kömək məqsədilə yaxınlaşmaq mümkün deyildi. Buna görə də minomyot batalyonu komandirinin dediyi kimi, ona yeganə kömək yalnız uzaqdan düşmənə atəş açmaqla mümkün idi. Hüseyn təhlükə ilə üz-üzə qalsa da, yenə də inadından dönmürdü. Düşmənə atəş açmaqda davam edirdi.

Sentyabrın 29-də Ağdərə istiqamətindəki döyüşlərdə düşmən ağır artilleriya ilə hücuma keçmişdi. Hücum əmri verilən kimi Hüseyn komandanlıq etdiyi tankı ilə hamıdan birinci olaraq irəli atıldı. Düşmənin xeyli canlı qüvvəsini məhv edərək bir neçə saat gərgin, şiddətli döyüşləri davam etdirdi. Düşmən bunkerinə girən tankı ilə düşmənin xeyli canlı qüvvəsini məhv etdi. Sən demə, düşmən bu döyüşə ciddi hazırlaşmış, Yuxarı Ağdərə deyilən ərazidə 15 minə yaxın canlı qüvvə toplamışdı. Bizimkilər isə düşməni aldadaraq Füzuli istiqamətinə hücuma keçmişdilər. Lakin Hüseynin tankı düşmənin ağır artilleriya zərbələri ilə üz-üzə qalmışdı. Üç tərəfdən artilleriya zərbəsi endirilsə də, onun tankı irəliləyirdi. Xeyli düşmən məhv edən Hüseyn özü də ağır yaralandığı üçün daha irəli gedə bilmədi, huşunu itirənə qədər döyüşdü. Mərmi yağışı isə dayanmaq bilmirdi. Tankın içində yaralı halda qalmaq özü çox təhlükəli idi. Tankın sürücü-mexaniki və tuşlayıcısı ilə əlaqələr kəsildi. Ağır kontuziya, çoxsaylı qəlpə yaraları aldı. Hüseyn nitqini və eşitmə qabiliyyətini itirdi. Sol tərəfi iflic vəziyyətinə düşdü. Tuşlayıcısı Sədrəddin Hüseynə kömək etmək məqsədilə tankdan çıxmaq istəyəndə xeyli sayda ermənininin tanka doğru gəldiyini gördü. O özünü itirmədən yaylım atəşi açdı. Bir müddət sonra yenə də Hüseynə kömək etmək məqsədilə tuşlayıcı Sədrəddin və sürücü Razi qalxanda ermənilərin tankın üzərində olduğunu gördülər. Yenə də özlərini itirmədən yaylım atəşi açaraq bir neçə ermənini məhv etdilər. Bu zaman Razi də yaralandı. Nəhayət, Hüseynin yanına getməyə macal tapan tuşlayıcı ilk

baxışda onun həlak olduğunu düşündü. Özünü itirmədən Hüseynin nəbzini yoxladı. Gördü ki, sağdır. Ermənilərin tanka yaxınlaşmasının qarşısını almaq məqsədilə minomyot batalyonu komandiri ermənilərə tərəf 40-dan çox mərmi atdı. Çünki düşmənin məqsədi tankın heyətini əsir götürmək idi. Beləliklə, tankı təhlükəli ərazidən çıxarmaq mümkün oldu. Nə yaxşı ki, dayanmaq bilməyən mərmi yağışları altında Hüseynin həyatını xilas etmək mümkün olur. Hüseyn Sarıcalı qospitalına çatdırıldı. Xoşbəxtlikdən, orda olan vertolyot vasitəsilə birbaşa Bakıya Mərkəzi Klinik Qospitalına gətirilir. Qospitalın bütün həkim heyəti, xüsusilə, polkovnik İlham Sadıqov yaralı tankçımıza xüsusi qayğı göstərdi. İlham həkim digər ağır yaralı hərbçilərimizi də ölümün pəncəsindən xilas elədi.

Düşmənin başına od ələyən tankçımızı indi yalnız bir arzu düşündürürdü. Axı o, Şuşaya qədər döyüşə-döyüşə getməyi və qələbə bayrağını öz əlləri ilə sancmağı çox arzulayardı. Hüseyn düşmən mərmisinə tuş gəldiyi, yaralandığı və sağlamlığını itirdiyi üçün təəssüflənmirdi. O, atasının və özünün arzusunu yerinə yetirə bilmədiyi üçün təəssüflənirdi. Atası həmişə arzulayardı ki, Hüseyn bayrağımızı Şuşaya taxacaq. Hüseyn də bu arzularla yaşayırdı. Eyni tale yaşadı ata ilə oğul. Oğul indi, ata da 1992-ci ildə Ağdərə döyüşlərində iştirak etmişdi. Oğul tank bölüyünün komandiri idi. Ata da tağım komandiri olmuşdu. Oğul da başından yaralanmışdı, ata da.

Bütün bu hadisələri Hüseynin atası hərbi hissədə olarkən onun döyüşçü yoldaşlarından öyrənmişdi. Hüseynin tabeliyində olan əsgərlər və hərbi hissənin zabit heyəti Hüseyndən ağız dolusu danışırdılar. Onlar yaralı komandirlərilərinə baş çəkmək üçün dəfələrlə gəlmişdilər. Digər hərbçi yoldaşları da ona böyük hörmət bəsləyirdilər. Ata oğlunun qazandığı bu hörmətdən qürur hissi keçirirdi. Əlbəttə, vətənpərvər bir şuşalı ailəsində böyümüş Hüseyn başqa cür ola da bilməzdi.

***“Vətəninə, elinə, obasına bağlı olan Hüseyn elə uşaqlıqdan bu ruhda böyümüşdü. Bu, bizim millətimizin namus davası idi. Heç bir Azərbaycan vətəndaşı bu savaşdan kənarda qala bilməzdi. Oğlum əslinə, nəslinə layiq hərəkət etdi. Bizim ailədə Vətən, bayraq həmişə uca tutulub. Sağ olsun, başımızı uca elədi. Çəkdiyim əziyyət ona halal olsun.”*** – deyən ata oğlu yaralandığı üçün heç də təəssüf hissi keçirmir. Hüseyn özü də, atası da yalnız ona görə təəssüf hissi keçirir ki, Şuşaya qədər gedə bilmədi. Uşaqlıqdan bəri ürəyində olan bayrağımızı Şuşaya taxmaq arzusunu reallaşdıra bilmədi. Oktyabrın 25-də doğum gününü qospitalda keçirən Hüseyn noyabrda planlaşdırdığı toyunu da bu il edə bilmədi. Bizim isə sənə ən böyük arzumuz gələn il öz ad gününü və toyunu doğma Şuşanda keçirməyindir.

Hüseyn Ələkbərli göstərdiyi şücaətə görə “Cəsur döyüşçü” medalı ilə təltif olunmuşdur.

## Cümşüd Şünasi oğlu Babayev




Azərbaycan xalqı öz tarixinə, milli kökünə, keçmişinə bağlı xalqdır. Əsrlər boyu xalqımız torpaqlarımızın, yurd yerlərimizin azadlığı uğrunda mübarizə aparmışlar. Vətənin azadlığı ən əvəzsiz məlhəmdir. Vətənin azadlığı ruhun qidasıdır. Xəyallarını qurduğumuz xoşbəxtlik elə Vətənin azadlığıdır. Vətən məfhumu anadan olduğumuz kiçik damımızdan, məhəlləmizdən başlayır. Biz böyüdükcə Vətən məfhumu böyüyür, Vətən sevgisi artır və böyük Vətən sevgisinə çevrilir. Bu böyük Vətən Azərbaycandır. Vətənin o başı, bu başı yoxdur. Vətənin hər guşəsi əzizdir. Vətənin belə əziz guşələrindən biri də Qarabağımızdır. Amma neçə illərdir ki, Qarabağa gedən yollarımıza qaranlıq çökmüşdü. Bu qaranlığa nur saçan, onu işıqlandıran Vətən övladları yenə də Vətəni darda qoymadılar. Qaranlığa bürünmüş Qarabağımızı azadlığa qovuşdurdular. Xalqımızın tapdanmış qürurunu özünə qaytardılar. Qarabağımız azad olan gün sanki ***VƏTƏN SƏMASINDA HÜRRİYYƏT GÜNƏŞİ DOĞDU.*** Tarixlər şahidi yurdumuzun başı əsrlər boyu bəlalar çəksə də, həmişə öz milli kimliyini, soyunu qorumağı bacarmışdır. El bir olanda Vətən dərdinə əlac tapılar. Əbəs yerə deməyiblər ki, el bir olsa, dağ oynadar yerindən. Elə bu birlik bizə qələbə sevincini yaşatdı. Bir zamanlar ayaqlar altında qalan müqəddəs bayrağımız Şuşa qalasının başı üzərində ucaldı.

**Qala qapısına yazıldı Şuşam,**
**Sevincdən nərə çək, türk oğlu paşam,**
**Demə ki, duymadım, demə ki, daşam.**
**Sən ey əzəmətli möhtəşəm qalam,**
**Oğuz ellərindən gətirdik salam.**

**Əgər azad olmasaydı Qarabağım,**
**Qanlar ağlayardı İsa bulağım,**
**İki bölünərdi uca Kirs dağım.**
**Ruhu çatlayardı bil, Pənah xanın,**
**Ürəyi partlardı Azərbaycanın.**

Amma Siz Azərbaycanın ürəyi oldunuz. Öz qanınızla Vətən ürəyini qidalandırdınız, Vətənin ürəyini partlamağa qoymadınız.

Bayrağımız sizin mətin əllərinizdə ucaldı, ərənlərimiz! Tarix salnaməsi yazan igidlərimiz. Siz Vətən oldunuz! ***ŞƏHİD ELƏ VƏTƏN ÖZÜDÜR. QAZİ ELƏ VƏTƏN ÖZÜDÜR.***

Cümşüd Şünasi oğlu Babayev 1991-ci il dekabrın 12-də Şuşa şəhərində anadan olub. 2009-cu ildə Bakıda yerləşən Şuşa şəhər 6 nömrəli orta məktəbi və 2009-2013-cü illərdə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini leytenant rütbəsi ilə bitirib. Elə həmin il Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzinə qəbul olunub. 2014-cü ildə Təlim Tədris Mərkəzini bitirərək təyinatla N nömrəli hərbi hissəyə göndərilib. 2016-cı ildə baş leytenant rütbəsinə yüksəlib və elə həmin il ön xətdə yerləşən N nömrəli hərbi hissəyə təyinat alıb. Təyinatla cəbhənin Talış istiqamətindəki Tapqaraqoyunlu kəndində xidmət etməyə başlayıb. Vətən müharibəsi başlayana qədər baş leytenant kimi həmin hərbi hissədə xidmət edib. 2020-ci il sentyabrın 27-də, Vətən müharibəsinin ilk günlərindən artıq ön cəbhədə idi və düşmənin ön xəttinin möhkəmləndirilmiş istehkamının yarılmasında fəal iştirak etmişdi. Hər bir sualıma təmkinlə cavab verən baş leytenant

Cümşüd Babayev döyüşlərə necə qatıldığı barədə danışdı: ***“Sentyabrın 26-da hərbi hissəyə düşmənin hücuma başlaması haqqında məlumat daxil oldu. Məlumatı alan kimi ön xətdəki postlarımızda müdafiəni möhkəmləndirmək üçün yüksəkliklərə qalxdıq. Əvvəlcədən qruplara bölünmüşdük. Düşmənə birinci həmləni bu qruplar etməli idi. Mən də bu qrupların birinin tərkibində rabitəçi idim. Mövqelərimiz Tapqaraqoyunlu kəndində yerləşirdi. Demək olar ki, hücuma hazır vəziyyətdə idik və əmr gözləyirdik. Sentyabrın 27-də səhər saatlarında neçə illərdən bəri gözlədiyimiz əmr verildi. Biz dayandığımız mövqelərdən düşmənin ön xəttini yarmaq üçün hərəkətə başladıq. 2016-cı ilin aprelində ordumuz tərəfindən geri qaytarılmış postun yanından hücuma keçdik. Tanklarımız öndə gedirdi. Biz isə tankın tırtıllarının izi ilə irəliləyirdik. Çünki bilirdik ki, ərazi minalanmışdır. Təəssüflər olsun ki, iki tankımız minaya düşüb partladı. Yolumuz bağlandı. Komandirimiz keçid istiqamətini dəyişdi. Biz komandirin bu qərarına uyğun olaraq başqa istiqamətdən iriliıləməyə davam etdik. Bir təpənin aşağısına gəlib-çatdıq. Bu təpəni qalxandan sonra gördük ki, düşmən səngəri ilə üzbəüzik. Bizdən əvvəl bu istiqamətdən keçən qrup təpənin yuxarısında düşmən snayperinə tuş gəlmişdi. Həmin ərazidə şəhidlərimiz və yaralılarımız var idi. Bizim qrupa da snayperlər atəş açmağa başladı. İrəliləmək çox çətinləşmişdi. Təpəni qalxan kimi snayperin hədəfinə tuş gələ bilərdik. Buna baxmayaraq, mən həmin təpəni birinci qalxdım və təpəni aşmağı bacardım. Bizim qrup isə mənim arxamca gəldi. Beləliklə, mən öz qrupumuzu cəsarətləndirdim və hamımız təpəni aşmağa nail olduq. Bundan sonra düşmən səngərinə yaxın yerdə və birbaşa səngərlərinə gedən yolla irəliləyib, onların səngərlərinə girməli idik. Biz burda snayper və pulemyotdan atəşə tutulduq. Ona görə də həmin yerdən təcili çıxmalı olduq. Yolun ortasında kiçik torpaq təpə vardı. Həmin torpaq təpənin arxasına keçmək lazım idi. Lakin***

*snayper və pulemyot atəş açdığı üçün yerimizdən tərpənməyə imkan tapa bilmirdik. Burda çox dayanmaq isə daha çox itki vermək demək idi. Dərhal irəli keçməyi qərara aldıq. Mən və digər hərbçi yoldaşım yerimizdən qalxdıq və bir-birimizi atəşlərimizlə qoruya-qoruya bizdən əvvəl keçən qrupun yanına tərəf irəlilədik. Mən özümü yoldaşlarımın yanına çatdıra bildim. İrəliləmək çox çətin idi. Güllələr başımızın üstündən vıyıltı ilə ötürdü. Geriyə baxanda gördüm ki, mənimlə gələn yoldaşım yerə uzanıb. Bir neçə dəfə çağırsam da, cavab vermədi. Bir az keçdikdən sonra özü qalxıb yanımıza gəldi. Gördüm ki, dəbilqəsini güllə deşib. Xoşbəxtlikdən, sağ-salamat idi. Həmin təpənin yanında vaxtilə eyni taborda xidmət etdiyimiz şuşalı dostum Akif Engels oğlu Qasımovu gördüm. Bir-birimizi sağ-salamat görməyimizə sevindik.*

*Bir müddətdən sonra "Piyadanın Döyüş Maşını" adlandırılan hərbi maşınlarımız köməyə gəldi və biz maşınların arxasına keçib irəlilədik. Beləliklə, düşmən səngərinə birlikdə daxil olduq. Arxada qalmış bir neçə döyüşçü yoldaşlarımızın bəzisi şəhid oldu və yaralandı. Mənim tağımımdaki manqa komandiri, Tapqaraqoyunlu kənd sakini Hidi Bəxtiyar oğlu Vəliyev də şəhid oldu. Döyüş yoldaşlarımızı itirmək bizə nə qədər ağır olsa da, döyüş əzmimiz yüksək idi. Biz düşmən səngərinə daxil olanda onlar silahlarını atıb qaçmışdılar. Səngərin hər yeri qan idi. Beləliklə, biz birinci səngəri düşməndən tam təmizlədikdən sonra ikinci səngərə hücuma keçdik. Ələ keçirdiyimiz səngərdə mövqe tutduq və düşmənlə atışmağa başladıq. Onlar bizi minaatanlardan atəşə tutdular. Biz yerə uzanıb, atəşdən qorunmağa çalışırdıq. Təəssüflər olsun ki, mənim önümdə və arxamda olan əsgərlər şəhid oldular. Mən isə qolumdan yaralandım. Buna baxmayaraq, tutduğumuz mövqedən geri çəkilmədik. Kömək gələnə qədər atışmaya davam etdik. Mən uzun müddət yaralı halda səngərdə qaldım. Sonra döyüşçü yoldaşlarım*

***məni bu təhlükəli ərazidən uzaqlaşdırdılar. Minomyot və snayper mərmiləri ətrafımıza düşüb partlayırdı. Sonra həkimlər məni və bir neçə yaralı yoldaşımı təxliyə etdilər."***

Cümşüd Babayev bir müddət qospitalda müalicə aldıqdan sonra yenidən öz istəyi ilə ön cəbhəyə yola düşdü. Müalicədən sonra onun arxa cəbhədə fəaliyyətini davam etdirmək təklif olunsa da, Cümşüd ön cəbhəni seçdi. Hal-hazırda Laçında baş leytenant kimi öz hərbi hissəsində fəaliyyətini davam etdirir.

Qarabağ Azadlıq Təşkilatının dəyərli üzvü, Şuşa döyüşlərində qazi olan Şünasi Babayev öz oğlu haqqında ürək dolusu danışdı. Birinci Qarabağ döyüşləri mücahidi oğlunun hərbçi olması ilə fəxr edirdi. O, müsahibəsinə maraqlı və təsirli bir epizodla başladı: ***"Cümşüd dünyaya gələn gün mən Şuşanın Nəbilər kəndində postda idim. Tez-tez ermənilərin atəşinə məruz qalırdıq. Postu itirmək təhlükəsi vardı. Kömək gələnə qədər bir nəfər döyüş yoldaşımla birgə postu əldə saxlamaq üçün düşmən atəşlərinə cavab verirdik. Həmin gün oğlum dünyaya gəlmişdi. Mən üzünü belə görməmişdim. Sonradan öyrəndim ki, düşmənlər xəstəxananı da atəşə tutmuşlar. Eyni gündə həm mənim, həm də oğlumun həyatı təhlükə altında qalmışdı. Əlaqə yarada bilmədiyimiz üçün mənim şəhid olduğumu düşünmüşdülər. Bir sözlə, Cümşüdün dünyaya gələn günü Şuşanın başı üzərindən odalov yağırdı.***

***Cümşüd orta məktəb illərində də müəllimlərinin sevimlisi olmuşdu. Öz təlim-tərbiyəsi və vətənpərvərliyi ilə seçilmişdi. Tarix fənnini çox sevirdi. Azərbaycanımızın tarixini, keçmişini maraqla öyrənirdi. Onda xüsusi bayraq sevgisi vardı. Şuşa döyüşlərində iştirak etdiyimi bilirdi. Hələ orta məktəbdə oxuyarkən Şuşa və Daşaltı döyüşləri haqqında məndən danışmağımı xahiş edirdi. Düşmənə sonsuz nifrəti vardı. Qarabağın tarixini yaxşı bilirdi. İnanırdı ki, qədim, gözəl Qarabağımız düşmən tapdağında qalmayacaq. Bir***

***sözlə, oğlumun vətənpərvər kimi böyüməsi məni çox sevindirirdi. ali hərbi akademiyada təhsil alanda da müəllimləri onun haqqında yüksək fikirdə idilər. Akademiyanın məzunu kimi tədbirdə etdiyi çıxış məni çox qürurlandırmışdı."***

Cümşüd Babayevin H.Əliyev adına Ali Hərbi Akademiyanı bitirərkən məzun kimi etdiyi vətənpərvər çıxışının bir hissəsini atasının xahişi ilə olduğu kimi oxucuların nəzərinə çatdırmaq istəyirəm:

***"Hər bir insan üçün elə müqəddəs, elə əziz varlıq var ki, ona toxunanda, onu incidəndə qisas və intiqam hissi yaranır. Bu varlığın adı anadır! Mən deyərdim ki, Şuşa mənimçün anadır! Deyərdim ki, anadan da əziz və müqəddəsdir. Ermənilər Şuşanı məhv etdiyinə görə, hər daşına, hər ağacına, hər abidəsinə vurduğu yaralara görə cavab verəcəklər!"***

Bu çıxış bir vətənpərvər məzunun ürək çırpıntıları, heç vaxt görmədiyi yurduna sonsuz məhəbbətinin təzahürüdür. Bu çıxış qəlbi intiqam hissi ilə alışıb-yanan, düşmənə qan uddurmağa hazır olan bir gənc hərbçinin haray dolu qisas səsidir. Vətən daşının, Vətəndə bitən bir ağacın qədrini bilən Vətən övladları onu heç vaxt düşmən tapdağı altında qoya bilməzdi. Vətənin dağını, daşını sevən oğullar o sıldırım qayaları qucaqlaya-qucaqlaya, öpə-öpə, üzü yuxarı dırmaşa-dırmaşa sənə gəldilər, Vətən! Dağını, daşını qucaqlayan oğullar səni bağrına basdılar, Vətən! Vətənin bir gülünü sevən xalq, bir gülünü – ***XARI BÜLBÜLÜNÜ DÜNYAYA TANIDAN XALQ*** məğlub ola bilməz. Əsrlərə bərabər yaşı olan ağacları bir zamanlar o torpaqlarda yaşayan ulu babalarımız əkmişdilər. O müqəddəs torpaqlarda bitən, yüz ildən artıq yaşı olan ağaclar ulu babalarımızın ruhu ilə qidalanmışdır. Kökünə bağlı olan ağaclar da, öz soy kökünə bağlı olan Vətən övladları kimidir. Babalarımızın əli ilə əkilmiş ***KÖKÜNƏ BAĞLI OLAN O AĞACLAR ELƏ VƏTƏN ÖZÜDÜR.*** Deyirlər, şəhidlərin yatdığı torpaqlarda bitən hər ot, çiçək, ağac da onların qanı ilə bəhrələnib, o müqəddəs torpaqlardan güc

alaraq bitir. Bir zamanlar babalarımız vuruşaraq qanı töküldüyü torpaqlara Vətən müharibəsi şəhidlərinin qanı töküldü. Müqəddəs olan torpaqlarımız bir daha müqəddəsləşdi.

Atalarımız nə gözəl demişdir: ***"OT KÖKÜ ÜSTƏ BİTƏR." QAZİ ATANIN QAZİ OĞLU.*** Birinci Qarabağ müharibəsində elə 30 yaşında qazi olmuş vətənpərvər bir atanın oğlu da, Vətən müharibəsində elə 30 yaşında qazi oldu. Qarabağ Azadlıq Təşkilatının dəyərli mücahidinin oğlu Cümşüd Babayev də elə həmin təşkilatın gənc üzvü oldu.

Vətənin hər daşının, qayasının qədrini bilən Vətən övladları! Siz bizi qarabağlı etdiniz, siz bizi şuşalı etdiniz.

Cümşüd Şünasi oğlu Babayev müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəsur döyüşçü", "Laçının azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## Eldəniz Maarif oğlu Əliyev



***Vətən bizim keçmişimizin ünvanı! Vətən bizim evimizdir. Vətən bizim məhəbbət ünvanımızdır. Vətən Dədə Qorqudun ayaq basdığı yurd yerimiz, ata-babalarımızın məskəni, ruhlarının dolaşdığı yerdir. Vətən Babəkin, Cavanşirin qoruduğu torpaqdır. Vətən Nizaminin, Nəsiminin, Füzulinin beşiyidir. Şah İsmayıl Xətayinin bütövləşdirdiyi müqəddəs torpaqdır. Vətən məğlubedilməzlik simvolu, Şərqin sonuncu fatehi Nadir şahın əmanətidir. Vətən deyəndə at belində cövlan edən cəngavərlərimizin qəhrəmanlıqları yada düşür. Qarabağ adlı Vətənimizin tarixi isə ulu əcdadımız Pənah xanın adı ilə başlayır. Qarabağımızın tacı olan Şuşanın tarixi də Pənah xanın ruhunun tarixidir. Bayat qalası, Şahbulaq qalası, Şuşa qalası bizə onun əmanətidir. Vətən xalq qəhrəmanı, nərəsi ilə dağlara səs salan, adı gələndə düşmənin bağrı yarılan Sultan bəyin qoruduğu torpaqdır. Vətən Azərbaycanın böyük sərkərdəsi, çar ordusuna baş əyməyən qəhrəman Cavad xanın yurdudur. Vətən Azərbaycanı dünyada tanıdan dahi Üzeyirin Vətənidir. Vətən Şirin Mirzəyevin, Ramiz Qəmbərovun, Allahverdi Bağırovun, Asif Məhərrəmovun, Canpolad Rzayevin, Əlif Hacıyevin, Əliyar Əliyevin, Vəzir Orucovun uğrunda***

***canını fəda etdiyi torpaqlardır. Vətən 44 günlük müharibədə qanları tökülən, düşmənə dağ çəkən ərənlərimizin uyuduğu müqəddəs torpaqdır.***

**Sonsuz əbədiyyətim,**
**Təmiz ruhum, niyyətim,**
**Birliyim, ülviyyətim**
**Vətənimdir, Vətənim.**

**Həm varım, həm dövlətim,**
**Vuran qolum, qüvvətim,**
**Tükənməyən sərvətim**
**Vətənimdir, Vətənim.**

**Qədim, ulu torpağım,**
**Yenilməyən bayrağım,**
**Gücüm, arxam, dayağım**
**Vətənimdir, Vətənim.**

Şanlı tariximizi vərəqlədikcə görmüşük ki, Azərbaycan xalqı mərd və igid olub. Tarixin bütün dövrlərində ərənlərimizin adları mərdlik simvoluna çevrilib. Biz ata-babalarımızı hörmətlə xatırladığımız kimi, Vətən müharibəsi qəhrəmanları ilə də fəxr edəcəyik. Vətən müharibəsində qələbəni qanı ilə yazan Orxan Əkbərov, Anar Əliyev, Şəhriyar Quliyev, Cəbrayıl Dövlətzadə, Xudayar Yusifzadə kimi damarında axan qanın mayası Vətən olan oğullarla qürur duyacağıq. Xalqlar içərisində xalqımızın başı uca olacaq. Azərbaycan xalqı ta qədimdən bu günə qədər milli dəyərlərini, milli kökünü qorumuş, bu dəyərlər uğrunda mübarizə aparmışdır. Tarixi, kökü, keçmişi olmayan bir xalq başqa xalqlar qarşısında öyünə bilməz. Xalqımız yenə də gələcək nəsillər qarşısında ərənlərimizin igidliyi ilə öyünəcək. Bu ənənələrə sadiq qalan, öz yurduna bağlı oğullarımız torpaqlarımızı savaş

yolu ilə yağı caynağından xilas etdilər. Qarabağ savaşı onu sübut etdi ki, milli-mədəni mühitimizə yad olan təsirlərin gücləndiyi bir dövrdə xalqımız, igidlərimiz öz keçmişini unutmayıblar.

Vətən sevgisi işığı ilə savaşa atılan, elinə, obasına bağlı oğullardan biri də Eldəniz Əliyevdir.

Eldəniz Maarif oğlu Əliyev 1990-cı il yanvarın 29-da Şuşa şəhərində anadan olub. 1996-2007-ci illərdə Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsindəki Şuşa rayon 6 nömrəli tam orta məktəbdə təhsil alıb.

Eldəniz öz müsahibəsinə uşaqlıq illərini xatırlamaqla başladı: ***"1992-ci ildə Pirşağı qəsəbəsindəki Qızılqum sanatoriyasında məskunlaşdıq. Elə uşaqlıq illərindən düşmənə nifrət hissi qəlbimə hakim kəsilmişdi. Uşaqlıq illərimizdə oynadığımız oyunlar da, yalnız müharibə ilə bağlı olurdu. Taxtadan düzəltdiyim avtomatla, guya, "düşməni öldürürdüm". Böyüdükcə hiss edirdim ki, düşməndən qisas almaq hissim daha da güclənir. Bu oyunların tezliklə düşmənlə real döyüşlərə çevriləcəyinə inanırdım. Yuxarı siniflərdə oxuyanda hərbi hazırlıq dərslərinə xüsusi maraq göstərirdim. Birinci Qarabağ müharibəsi iştirakçıları ilə müharibə haqqında söhbət etməyi çox sevirdim. Atam da Daşaltı əməliyyatında iştirak etmişdi. Müharibənin acı nəticələri onun dünyasını erkən dəyişməsinə səbəb oldu.***

***Böyük həvəslə hərbi xidmətə gedəcəyim günü gözləyirdim. Demək olar ki, Vətənin keşiyində dayanmağa tam hazır idim. Lakin atam Qarabağ müharibəsi əlili, anam da xəstə olduğu üçün mənə hərbi xidmətdən azad olunmağımla bağlı bildiriş gəldi. Bu bildirişi aldığım gün hərbi komissarlığa yollandım. Valideynlərim də mənim fikrimlə razı idilər. Könüllü olaraq hərbi xidmət borcumu yerinə yetirmək istəyim barədə ərizə yazdım. Düşündüm ki, əgər Vətənini, ananı sevirsənsə, onları qorumaq borcundur. Beləliklə, 2007-ci ildə hərbi xidmət borcumu yerinə yetirmək üçün***

*yola düşdüm. Hərbi xidməti başa vurduqdan sonra Azərbaycan Respublikası Silahlı Qüvvələri Təlim-Tədris Mərkəzinə qəbul olundum. Təlim-Tədris Mərkəzini müvəffəqiyyətlə bitirdim. Lakin yenə də hərb sahəsində daha böyük uğurlar qazanmaq hissi məni düşündürürdü. Bu məqsədlə Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək üçün "Komando" adlanan ən ağır təlimlərə qatıldım. 468 nəfərdən ibarət hərbçi ilə bu kursa başladıq. Hər həftə sonunda kursun təlimçiləri sınaqdan keçirilirdi. Hər dəfə çoxlu sayda zabit, gizir, müddətdən artıq xidmət edən hərbi qulluqçular kursun tələblərinə cavab vermədikləri üçün təlimlərdən kənarlaşdırılırdılar. Bu təlimlərdə hərbi qulluqçuların iradəsinin, psixoloji möhkəmliyinin hansı səviyyədə olduğu yoxlanılırdı. Dözümlü olmayanlar sona qədər tab gətirə bilmirdi. Altı ay hər bir çətinliyə sinə gərdim. Son olaraq ən ağır sorğu yoxlamasından keçdik. Beləliklə, 468 nəfərdən cəmi 6 nəfər XTQ-nin təlim kurslarını uğurla bitirdik. XTQ komandiri, general-leytenant Hikmət Mirzəyev məni qarşıladı və "Ailəmizə xoş gəldin!"- dedi. Bu görüş məni çox qürurlandırdı. Xüsusi Təyinatlı Qüvvələrin tərkibinə qatılmağım mənə böyük şərəf verdi. Həmin günü evə tez gedərək anamla, doğmalarımla sevincimi bölüşmək istəyirdim.*

*Son aylarda da demək olar ki, xüsusi təlimlərdən keçirdik. Məqsədimiz başlayacaq müharibəyə hazır olmaq idi. Vətən müharibəsi başlayanda mən və hərbçi yoldaşlarım müharibəyə artıq hazır idik. 2020-ci il sentyabrın 27-də Füzuli rayonunun N nömrəli hərbi hissəsinin neytral ərazisinin minalanmış sahəsini tank bölüyünün zirehli texnikaları ilə keçərək döyüşlərə başladıq. Çox gərgin döyüşlər idi. Düşmən ağır artilleriya, iriçaplı pulemyotlardan mövqelərimizi atəşə tuturdu. Təhlükəli anlar yaşasaq da, qorxu hissini yaxın buraxmırdıq. Yaddaşımızda olan soyqırımlar, başımıza gətirilən fəlakətlər bizi qisasa səsləyirdi. Əsirlikdə olan soydaşlarımızın-anaların, uşaqların ah-naləsi bizi inti-*

*qam almağa çağırırdı. Torpaq bizim torpaqdır. Düşməni torpaqlarımızdan qovmalıyıq. İrəliləmək üçün hər bir çətinliyə hazır idik. İlk azad etdiyimiz kənddə 90-a yaxın düşmən əsgərini və bir çox texnikasını məhv etdik. Bizimlə birlikdə irəliləyən tanklar və digər zirehli texnikalar düşmənin ağır artilleriya atəşinə tuş gəldilər. Bu döyüşdə bizim də itkilərimiz oldu. Hər bir xüsusi təyinatlı yaralıya ilk tibbi yardım göstərməyi bacarırdıq. Şəhidlərimizi isə dərhal çiynimizə alaraq döyüş meydanından çıxarırdıq. Çətin döyüşlər, ağır sursatları özümüzlə daşımaq bizi fiziki cəhətdən taqətdən salsa da, ruhumuz taqətdən düşmürdü. Azad etdiyimiz kəndlərdə mövqe tutmaq bizə nə qədər xoş olurdu. Qarabağın saf havası ilə nəfəs aldıqca qələbəyə inamımız bir az da artırdı. Sentyabr ayının 28-də Füzulinin daha bir kəndini azad etdik. Bu kəndin azad olunmasında illər boyu bir yerdə qulluq etdiyimiz hərbçi dostlarımı itirdim. Amma yenə də "Vətən, sənə canımız fəda!" – deyərək irəli atılırdıq. Düşmənlər Xüsusi Təyinatlı Qüvvələri görəndə bir-birlərinə bizim orda olduğumuzu xəbər verirdilər və geri çəkilirdilər. Biz isə şəhidimiz çiynimizdə, yaralımızın isə qolundan tutaraq onların üstünə hücuma keçirdik. Xocalıda düşmənin törətdiyi vəhşiliklər gözlərimiz önündə canlanırdı. Üç gün ərzində düşmənin xeyli qüvvəsini məhv edə bildik.*

*Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş şuşalı Çingiz Cəfərovun övladına söz vermişdim ki, atanın qisasını alacağam. Deyərdim ki, qisasımı ala bildim. Bütün xüsusi təyinatlı döyüşçülər kimi mən də bu döyüşlərə neçə illərdir ki, hazırlaşırdım. Mən və dostlarım düşmənə qarşı çox amansız idik. Sentyabrın 29-da Füzulinin Qaraxanbəyli kəndi uğrunda ağır döyüşlər gedirdi. Qrup komandirimiz XTQ-nin kapitanı Kamil Əliş oğlu Şirinov idi. Düşmən snayperinin yeri təyin olunmuşdu. Kapitan Şirinov irəli atıldı ki, düşməni məhv etsin və irəli doğru itkisiz gedək. Mən dedim ki, məni də aparın. O, razı olmadı. "Sən gənc döyüş-*

***çülərin yanında qal"- dedi. XTQ baş giziri Camal İsmayılov da bir ani sıçrayışla özünü həmin mövqeyə çatdırdı. Mən isə onların arxasınca baxırdım və özümü bağışlamırdım. Elə bu zaman mayor Şıxəmir Qaflanov sürünərək bizə tərəf gəldi və xəbər verdi ki, Kamilgili pusquya saldılar. Mən dözə bilmədim, silahımı götürdüm və göydən yağan güllələrə baxmayaraq, K. Şirinovun yanına qaçdım. Uzanaraq mövqe almaq istəyirdim ki, snayper sağ qarın boşluğumdan vurdu. Kapitan Şirinov mənə "dayanma, sürün!" komandası versə də, ağrı mənə yerimdən tərpənməyə imkan vermədi. Elə bu an ikinci snayper gülləsi sol qarın boşluğumu dəlib-keçdi. Hər iki güllə belimdən çıxdı. Komandirin yanına çatmağıma az qalmışdı. Bu dəfə isə avtomat gülləsi ilə çiynimdən vuruldum. Amma özümü itirmədim. Sol qolumun gücü ilə birtəhər özümü Kamilin yanına çatdırdım. Mənə ilkin yardım göstərildi. Altı saatdan sonra döyüşçü yoldaşlarımın köməyi ilə döyüş meydanından çıxarıldım və təxliyə olundum. Füzulinin Əhmədbəyli qospitalına yerləşdirildim. Burda ilk əməliyyat olunduqdan sonra vertolyotla Bakı şəhərinə Topçubaşov adına xəstəxananın cərrahiyyə şöbəsinə gətirildim. Xəstəxananın bütün tibb işçiləri məni mehribanlıqla qarşıladılar. Sanki hər biri müharibədən gələn öz yaralı övladını qarşılayırdı. Arxa cəbhənin ağ xalatlı həkimləri mənim gözümdə bir qəhrəmana çevrildilər. Döyüşçü yoldaşım Baba İsrafilov da mənimlə eyni xəstəxanada idi. Həkimlər bizə "Canlı əfsanə" adı vermişdilər. Bizə xüsusi qulluq edən Tinatin həkim, tibb bacıları Ayan xanım və Şəhla xanım bizim sağalmağımız üçün əllərindən gələni edirdilər. Hər biri bizə analıq qayğısı göstərirdi. Xalqımızın birliyi hər sahədə özünü göstərirdi. Öz hərbçisinə göstərilən böyük hörmət Azərbaycan xalqının milli dəyərlərinə söykənir."***

Təəssüflər olsun ki, Xüsusi Təyinatlı Qüvvələrin giziri Eldəniz Əliyevin ən yaxın dostu, kapitan K.Şirinov elə bu döyüşdə yaralı yoldaşını döyüş bölgəsindən çıxararkən düş-

mən gülləsinə tuş gəlir və dünyasını dəyişir. Həmin anlarda ovcunun içində bərk-bərk sıxıb saxladığı Azərbaycan bayrağını döyüşçü yoldaşına uzadır və "bunu oğlum Türkaya verin!" – deməyi unutmur. Bu gün həmin üçrəngli bayraq Şirinovlar ailəsinin qürur mənbəyinə çevrilib.

Eldəniz dostu haqqında danışarkən kədərlənirdi: ***"Qrup komandirim Kamil Şirinov mənim ən dəyərli döyüş yoldaşım olub. Gecələr onu tez-tez yuxuda görürəm. Ona görə də Salyana məzarını ziyarət etməyə gedirəm. Onun itkisi mənim bir ömür boyu sağalmayan yaramdı. Belə cəsur, peşəkar hərbçilərimizi itirmək mənə çox ağır təsir etmişdi."***

Eldəniz döyüşçü yoldaşları haqqında o qədər həyəcanla danışırdı ki... Doğrudan da, onun döyüş yoldaşları Vətən uğrunda şəhid olmağı özünə şərəf bilən mərd oğullarımızdan idilər. Onlar öz qəhrəmanlıqları ilə Azərbaycanın yeni, şanlı tarix dastanını yazdılar. Eldənizin haqqında qürurla danışdığı yaxın dostu, kapitan Kamil Şirinov kimi Füzuli döyüşlərində onunla çiyin-çiyinə vuruşan digər döyüş yoldaşları – mayor Şıxəmir Qaflanov və XTQ baş giziri Camal İsmayılov da şəhidlik zirvəsinə ucaldılar. Adını xüsusi hörmətlə yad etmək istədiyim hər iki qəhrəmanımızın döyüş yolu haqqında oxuculara qısa məlumat verməyi özümə borc bildim.

Vətən müharibəsinin ilk günlərindən mayor Şıxəmir Qaflanov komandiri olduğu xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları ilə birlikdə cəbhənin müxtəlif istiqamətlərində erməni quldurlarının başına od-alov yağdırıb. O, bir çox döyüşlərdə mühasirdə olan hərbçilərimizi xilas etmiş, düşmən ordusunun canlı qüvvəsini sıradan çıxarmış və Xüsusi təyinatlılar arasında "Əfsanəvi Rembo" ləqəbini qazanmışdı. Oktyabrın 19-da isə Xocavənd döyüşləri zamanı Azərbaycan Silahlı Qüvvələri Daxili Qoşunlarının mayoru tabeliyində olan cəsur silahdaşları ilə birlikdə düşmənin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edərək mühüm strateji mövqeləri ələ keçirmişdir. Acı məğlubiyyətlə barışmaq istə-

məyən düşmən digər yüksəkliklərdən itirdikləri mövqeləri snayper atəşinə tutur. Düşmən snayperinin açdığı atəş nəticəsində başından ağır yaralanan mayor əbədi ölümsüzlüyə qovuşur. Ölümündən sonra döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə, "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülür. Oktyabrın 21-də isə Laçın dəhlizi uğrunda gedən döyüşlər zamanı Camal İsmayılov 16 nəfərlik dəstəsi ilə 500-dən çox erməniyə qarşı mərdliklə vuruşmuşdur. Həmin döyüşdə qəhrəman baş gizirimiz əbədiyyətə qovuşmuşdur. O, Hadrut döyüşü zamanı da erməni rabitə qovşağına qoşularaq güllə atmadan 1500-dək erməni əsgərini başqa istiqamətə yönəltmişdir. Bu qəhrəmanlığına görə, "Hadrut fatehi" ləqəbini qazanmışdır. Ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdür.

Hərbin sirrini bilən belə peşəkar döyüşçüləri itirmək çox ağırdır. Lakin onların hər birinin adı Azərbaycanın hərb tarixinə yazılmışdır. Vətən müharibəsinin gedişində, qələbə ilə nəticələnməsində böyük rol oynamış hərbçilərimizin hər biri xalqın qəlbində abidə qurmuşdur. Onların hər biri əbədiyyətə qovuşmuşdur. Sənin şərəfli döyüş yolu keçmiş qəhrəman dostların kimi. Ölüm sevinməsin qoy! Ölümü ilə ölümsüzlüyə qovuşmuş dostların – Camal İsmayılov, Kamil Şirinov, Şıxəmir Qaflanov Vətəni sevərək yaşadılar və onları sevənlərin qəlbində yaşayacaqlar.

Eldəniz, bu gün yaxın dostlarının, döyüşçü yoldaşlarının həyatda olmaması səni üzməsin. Onlar şərəfli ömür yaşadılar. Vətənə həsr edilmiş şərəfli bir ömür.

Döyüş əməliyyatlarında şəxsi şücaət nümayiş etdirdiyinə görə Eldəniz Maarif oğlu Əliyev "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilmişdir.

## Hüseyn Fərman oğlu Cəfərov

**Ey Vətən! Torpağın necə müqəddəs,**
**Ərənlər yandıran çırağın sönməz,**
**Sənsiz ürəyimiz döyünə bilməz,**
**Vətən son andımız, son sözümüzdür,**
**Vətən bizim həm görən gözümüzdür.**



VƏTƏN, hər qarışın qəhrəmanlıqla doludur, hər qarışın hünər türbəsidir. Hər bir igidin damarlarında axan qanın mayası Vətən oldu. Hər qarışı qeyrətdən yoğrulan VƏTƏN. Vətən məhəbbəti işığında yola çıxan igidlər. Ulu Tanrının sevgisinə tapınan oğullar qalxmağa təpə yox, zirvələr istədilər. O qədər gecələr Vətən daşlarını qucaqladınız ki, Vətən ətri sizə hopdu. Elə Vətən də sizsiz qəribsəmişdi, darıxmışdı sizsiz. Qəribsəmiş Vətəni bağrınıza basmaqdan doymadınız, igidlər. Nə qədər əziyyət çəksəniz də, Vətən qucağında gözləriniz gülürdü. Ürəksiz bədən olmadığı kimi, övladsız da Vətən olmaz axı... Amma igidlərimizin hamısı "Şuşasız Vətən olmaz" – deyirdilər. Şəhid olsaq da, Şuşanı gördükdən sonra şəhid olaq" – deyən oğullarımızdakı Vətən sevgisinə, Vətən yanğısına heyran qalırsan. Vətənsiz üzümüz gülməz, qəlbimiz açılmaz. Vətəndə başımız uca olur. Vətəndə sevincli oluruq. Vətəndə

insan daha vüqarlı, daha qürurlu olur. Vətənin dağları da, daşları da sanki üzümüzə gülür. Ürəyinizə təpər verən Vətən sevgisi oldu.

Vətənin ayaq üstə durması üçün öz ayağını qurban verən Hüseyn Cəfərov da Vətəninə bağlı igidlərdəndir.

Hüseyn Fərman oğlu Cəfərov 1990-cı il aprelin 12-də Şuşa rayonunun Aşağı Quşçular kəndində anadan olub. 1993-cü ildən Bakı şəhəri Pirşağı qəsəbəsində məcburi köçkün kimi məskunlaşıb. 1996-2007-ci illər ərzində Şuşa rayon Quşçular kənd orta məktəbində təhsil alıb. 2008-ci ildə Azərbaycan Respublikası Quru qoşunlarının № nömrəli hərbi hissəsində Murovdağ istiqamətində xidmət edib.

Atası və əmisi də Birinci Qarabağ müharibəsində savaşıb və yaralanıblar. Atasının və əmisinin vuruşduğu torpaqlarda indi Hüseyn vuruşurdu. Özünün dediyi kimi, bir zaman atasının qucağında gələn körpə indi həmin torpaqlarda düşməndən qisas almağa yola düşmüşdü.

Şərəfli döyüş yolu haqqında cəsur qazi belə danışdı: ***"Sentyabrın 29-da könüllü olaraq hərbi komissarlığa müraciət etmişəm. Oktyabrın 9-da döyüşlərə qatılmışam. Döyüşlərdə maşın komandiri olaraq Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində əməliyyat taborunun tərkibində iştirak etmişəm.***

***Biz polkovnik Tehran Mənsimovun qrupuna qoşulmuşduq. Oktyabrın 27-də müxtəlif qruplara bölünüb irəliləyirdik. Minomyot və snayper atəşinə tutulduq. Biz demək olar ki, mühasirədə idik. Əgər irəliyə getsək, düşmən hər tərəfdən bizi asanlıqla atəş altında saxlaya bilərdi. Mühasirədən çıxmaq üçün əmrə uyğun arxaya çəkilməli, cinahlardan gələn köməklə yenidən mərkəzdən irəli hücuma keçməli idik. Arxaya çəkilirdik. Bizimkilərdən bir nəfər qışqırdı ki, "yerə uzanın!" Həmin vaxt bizdən 10-12 metr aralıda tank əleyhinə idarə olunan raketin mərmisi yerə düşərək partladı. Döyüşçü yoldaşımız Samir Sarıyev şəhid oldu. Partlayışın təz-***

*yiqindən 2-3 saat ərzində mənim də qulağım tutulmuşdu, gözüm görmür, dişlərim bir-birindən aralanmırdı. Demək olar ki, bir andaca bütün hissiyyatımı itirmişdim. Yoldaşlarım məni çətinliklə həmin yerdən uzaqlaşdırıb düşmənin atəş hədəflərindən kənar yerə apardılar. Oyanandan sonra bizim qrupumuzun döyüşçülərini tapa bildim. Samirin şəhid olmaq xəbərini onlardan aldım. Bu, məni çox sarsıtdı. Amma həmin yerə gedib, şəhidimizi ordan çıxarmaq çox təhlükəli idi. Döyüş yoldaşım Sabir Əhmədovla birlikdə şəhidimizi güllə yağışı altında ərazidən çıxara bildik. Deyərdim ki, möcüzə nəticəsində xilas olduq. Hər an şəhid ola bilərdik. Amma şəhidimizi də döyüş meydanında qoyub getsəm, vicdan əzabından qurtara bilməzdim. Allah bizi qorudu. Üç gün ərzində görüb-eşitsəm də, beynim heç nəyi qavramırdı. Bu müddət ərzində Sabirin köməkliyi ilə hərəkət edirdim.*

*Oktyabrın 30-da gecə saatlarında gələn əməliyyat məlumatlarına əsasən şəhid kapitan Nəcəf Şikarovun mühasirədə olduğu barədə məlumat aldıq. Kapitanı mühasirədən çıxarmaq üçün əmr qəbul etdik və yola düşdük. Səkkiz nəfərlik qrupla səngərin içi ilə səssiz və işıqsız irəlilədik. Həmin vaxt gizir Novruz İsmayılov, ardınca isə iki əsgərimiz minaya düşdü. Böyük çətinliklə olsa da, yenə də Sabir Əhmədovla birgə bir saat ərzində döyüşçü yoldaşlarımızı həmin ərazidən çıxararaq arxaya təhvil verə bildik. Pərvin Muradovla birgə üçüncü yaralını – gizir yoldaşımı xilas etməyə gedən zaman özüm də minaya düşdüm və topuqdan aşağı sol ayağımı itirdim. Pərvin də gizir şəhid olmuş Novruz İsmayılovu çıxararkən minaya düşdü. Hər ikimizi dostum Sabir və Tural adlı döyüşçü yoldaşımız birlikdə ərazidən çıxardılar. Gözümü açanda qospitalda idim. İlk tibbi yardımı Cəbrayılda yerləşən səhra qospitalında aldım. Elə ilk əməliyyatı da orda keçirdim. Əməliyyatdan sonra həkimdən xahiş etdim ki, əməliyyat olunan ayağımı mənə göstərsin. Lakin həkim icazə vermədi. Mən gülərək həkimə dedim*

***ki, mina kəsib atan ayağımı öz əllərimlə götürmüşəm. Narahat olmayın, göstərin. Ayağımı itirdiyimə görə heç peşman deyiləm. Cəsur və zarafatcıl qazimizin gülə-gülə söhbət etməyindən peşman olmadığı hiss olunurdu. Döyüşçü yoldaşlarımdan körpə uşağı olanı irəli getməyə qoymurdum. Deyirdim ki, sizi evdə gözləyən var. Komandirim, baş leytenant Arif Niftəliyev əsgərlərə münasibətdə xüsusilə fərqlənirdi. Döyüşçü yoldaşlarımdan Samir Sarıyev, gizir Novruz İsmayılov və əsgər Elmir Umudlu ağır döyüş əməliyyatlarının birində elə yanımdaca şəhid oldular. Ön cəbhədə olduğumuz üçün bizim yemək və su ilə təmin olunmağımızda böyük çətinliklər yaranmışdı. Demək olar ki, bir neçə gün ərzində bir dəfə yemək yemişdik. Quru otla qidalanırdıq. Yatmağa vaxtımız belə, yox idi. Amma bu çətinliklər bizi heç də ruhdan salmırdı. Azad olunan torpaqlarımıza ayaq basdıqca yorğunluğumuzu, çətinlikləri unudurduq."***

Qazi atanın qazi oğlu Hüseyn çox qürurlu danışırdı. Hansı Vətənin ki, şəhid və qazi övladı varsa, o Vətən basılmaz, o Vətənin qorxusu yoxdur. Müharibə bitəndən sonra qazilər onun ağrılarını yaşayırlar. Bir ömür bu acı ilə yaşayırlar. Ayağını, qolunu, gözünün nurunu itirən qazilər ümidsizliyə, çarəsizliyə qapılmadılar.

**Qurban verdin Vətənə ayağını,**
**Ömürlük itirdin öz dayağını,**
**Amma düşündün ki, Vətən sağ olsun,**
**Vətənin ürəyi Qarabağ olsun.**

Vətən azadlığına sevinən qazilər Vətən yolunda ayağını qurban verməyə heç də peşman olmadılar. Hüseyn də peşman olmadığını tez-tez dilə gətirirdi. Müharibədə torpaqlar uğrunda savaşan, əzablar çəkən təkcə döyüşçülər deyil, həm də ayağını, qolunu Vətən uğrunda itirən qazilərin doğmalarıdır. Bu çətin məsuliyyətin altına çiyinlərini verən qazi ana-

rı, qazi xanımları elə müharibədə igidlik göstərən döyüşçü qədər qeyrətlidir.

Gənc ömrünü itirən şəhid özü Vətən olduğu kimi, gəncliyinin bahar çağında ayaqlarını Vətən yolunda qurban verən və yatağa məhkum olan ***QAZİ*** elə Vətəndir. Elə qazilər də şəhidlər kimi Vətən yolunda əzalarını qurban verən canlı şəhidlərdirlər. ***AYAĞINI, QOLUNU, GÖZÜNÜN İŞIĞINI VƏTƏN YOLUNDA İTİRƏN QAZİ ELƏ VƏTƏN ÖZÜDÜR.*** Şəhidliyi, qaziliyi özlərinə ömür payı bilən igidlərimizin şücaət dolu həyatları nəsillərə örnəkdir. Vətən eşqi ilə yanan, ürəyimizə su çiləyən igidlərimiz, haqqınız ödənilməz. İllərdir ki, bağlı qalan Qarabağımızın qara düyününü açdınız. Vətən ağır sınaq qarşısında qalanda cəngavər oğullar onun imdadına çatdılar. Sanki şəhid və qazi olmaq üçün sıraya düzüldülər oğullarımız. Gizir Hüseyn Cəfərov da sağlamlığını itirdiyi üçün heç də təəssüf hissi keçirmirdi. Qarabağımızın fatehi olan oğullarımız zəfər yolumuzu, qalibiyyət yolumuzu işıqlandırdılar. Bu işığın şöləsi heç zaman sönməyəcək.

Hüseyn Fərman oğlu Cəfərov Azərbaycanın ərazi bütövlüyü uğrunda şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## Nurani Əvəz oğlu Mikayılov
## Lətif Əvəz oğlu Mikayılov



Vətən keçmişimizdir, deməli, Vətən həm də gələcəyimizdir. Keçmişimiz Vətəndədirsə, gələcəyimiz də Vətəndə olmalıdır. Ürəyimiz Vətəndə qalıbsa, deməli, Vətən ürəyimizdə yuva salıb. ***VƏTƏN ÜRƏYİMİZDƏDİR!*** Əgər ürəyimiz Vətəndədirsə, deməli, vətənsiz yaşaya bilməzdik.

***Vətən, hər qarışın doğma, müqəddəs,***
***Ürək bədənindən ayrıla bilməz!***

***Fəxrlə, qürurla deyirəm bir də,***
***Oğullar qisası qoymadı yerdə.***

***Ucaldı göylərə üçrəngli bayraq,***
***Düşmənə qalmadı əmanət torpaq.***

Vətəndən uzaqlarda yaşayanda sanki hər gün Vətənin səsini eşidirik. Qürbətdə olanda Vətənə can atırıqsa, deməli, Vətən bizi çağırır. O səs uşaqlıqdan bu günümüzə qədər yaşadıqlarımızdır. O səs uşaqlıqdan bu günümüzə qədər bizi izləyir. Yuxularımızda da səni görürdük, səninlə olurduq, Vətən! ***HARA GEDİRDİKSƏ, HƏR TƏRƏFDƏN VƏTƏN Bİ-***

***ZƏ BOYLANIRDI.*** Hara gedirdiksə, Vətənin səsi gəlirdi. Bu ülvi hisslər bizi rahat buraxmırdı. Vətənsiz bir gözümüz gülsə də, bir gözümüz ağlayırdı. Biz Vətəndə olmasaq da, sanki Vətən bizimlə idi. Doğma el-obasını, doğma torpaqlarını görməyən oğullar hər gün Vətənə can atırdılar, hər gün Vətənə dönəcəyi günü gözləyirdilər. Nurani və Lətif Mikayılov qardaşları da bu günü çoxdan gözləyirdilər – Vətənə dönəcəkləri günü!

## SİZ VƏTƏNDƏ DEYİLDİNİZ,
## AMMA VƏTƏN SİZDƏ İDİ.

Nurani Əvəz oğlu Mikayılov 1988-ci il noyabrın 24-də Şuşada anadan olub. 1992-ci ildə Şuşanın işğalından sonra ailəsi ilə Qax rayonunda məskunlaşıb. 1995-2006-ci illərdə Qax rayon 2 nömrəli tam orta məktəbdə təhsil alıb. Elə həmin il Bakı Dövlət Rabitə və Nəqliyyat kollecinə daxil olub. 2007-ci ilin yanvar ayında Şuşa rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb və N nömrəli hərbi hissədə həqiqi hərbi xidmət keçib. 2013-cü ildən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Xüsusi Təyinatlı Dəstəsində xidmət etməyə başlayıb. Müharibə başlayan gündən xüsusi təyinatlı kimi hərbi əməliyyatlara cəlb olunacağı günü gözləyib. Qısa və şərəfli döyüş yolu haqqında gizir Nurani Mikayılov belə danışdı: ***"2020-ci il sentyabrın 27-dən xüsusi təyinatlı kimi döyüşlərə qatılacağım günü gözləyirdim. Nəhayət, noyabrın 1-dən hərbi əməliyyatlara cəlb olundum. İştirak etdiyim ilk hərbi əməliyyat Xocavənd rayonu istiqamətində oldu. Xocavəndin Edilli kəndi işğaldan azad olunduqdan sonra orda mövqe tutmuşduq. Şuşaya girişin gizli planı bizə açıqlanmışdı. Bu plana uyğun xüsusi tapşırıq almışdıq. Xocavəndin Qırmızıbazar adlanan ərazisindən Şuşaya doğru irəliləməli idik. Dağ yolları ilə gecə-gündüz piyada yol gedirdik. Qırmızıbazar yolu tam açılmadığından bu***

*ərazi uğrunda qızğın döyüşlər gedirdi. Ona görə də, cığırlar ilə Çanaqçı istiqamətində getməyə məcbur olduq. Çanaqçı kəndində mövqe tutduq. Amma bu ərazi düşmən nəzarətində idi. Bizə verilən tapşırığa əsasən 300 nəfərlik heyətlə Şuşa istiqamətində irəliləməli idik. Əsas qüvvələr Daşaltı istiqamətindən Şuşaya daxil olmalı, biz isə düşmənin arxasına keçməklə Laçın-Şuşa yolunu bağlamalı idik. İyirmi saat yol qət edərək deyilən əraziyə çatdıq. Həmin ərazidə dərənin aşağı hissəsində düşmən əsgərlərinin səsini eşidirdik. Bir gün əvvəl mövqe tutduğumuz əraziyə yaxın yerdə döyüşlər olduğunu bilirdik. Bizə xəbər gəldi ki, qarşıda döyüş olan ərazidə şəhidlərimiz və yaralılarımız var. Axşamüstü, qatı duman şəraitində həmin əraziyə çatdıq. Burda şəhidlərimiz və xeyli sayda yaralılarımız var idi. Xoşbəxtlikdən, həkim bizimlə birlikdə idi. Həkimimiz Namiq Seyfəddinli vaxt itirmədən yaralılara ilk tibbi yardım etməyə başladı. O, eyni zamanda xüsusi təyinatlı döyüşçü kimi sonadək bizimlə çiyin-çiyinə vuruşmuşdu. Yaralılara ilk tibbi yardım olunduqdan sonra onların təxliyə olunması təmin edildi. İlk tibbi yardım almış yaralıların çoxu qospitala getməkdən imtina edirdilər. Döyüşçülərimizdə döyüş əzmi o qədər yüksək idi ki, yaralı olsalar da, döyüşə davam etmək istəyirdilər. Döyüş əməliyyatları zamanı bütün həkimlərimizin xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Həm qospitalda olan həkimlərimiz, həm də bizimlə birlikdə döyüş əməliyyatlarında olan həkimlərimiz fədakarlıq nümayiş etdirirdilər. Döyüşçülərlə bərabər döyüş meydanlarında çətinlik çəksələr də, yorğun və yuxusuz olsalar da, hər bir yaralıya qayğılarını əsirgəmirdilər. Hətta döyüş meydanından yaralıları çıxarmaqda döyüşçülərə köməklik edirdilər.*

*Noyabrın 4-də Şuşaya yaxınlaşmışdıq. Ərzaq təminatımız çətinləşmişdi. Ona görə də ərzağı bizə atlar vasitəsi ilə gətirirdilər. Düşmən bizim ətrafda olduğumuzu hiss etdiyindən mövqelərimiz minomyot atəşinə tutulurdu. Qatı duman ol-*

*duğu üçün pilotsuz uçuş aparatları və digər müasir texnikalardan istifadə etmək mümkün olmurdu. Bizə yalnız uzaqdan artilleriya köməyi olurdu. Burda ancaq xususi təyinatlılardan ibarət heyətimiz var idi.*

*Artıq Laçın-Şuşa yolu bizim nəzarətimizdə idi. Heyətimiz düşmənə arxadan sarsıdıcı zərbə endirməli idi. Digər 600 nəfərlik heyət isə Daşaltı istiqamətindən Şuşaya daxil olmalı idi. Əsas məsələ Şuşaya giriş planını dəqiqləşdirmək idi. Döyüşlər zamanı komandirimiz, xüsusi təyinatlı polkovnik-leytenant Ramiz Cəfərov bizə xüsusi ruh verirdi. O, əsgərləri ilə çiyin-çiyinə vuruşurdu. Ömrünün 28 ilini Vətənə şərəflə xidmət etmişdi. 46 yaşı olmasına baxmayaraq, həmişə öndə olurdu. Fiziki gücü, bilik və bacarığı çox yüksək səviyyədə olan bir zabit idi. O, döyüşlərdə bizə nümunə olmaqla yanaşı, həm də bir ağsaqqal kimi atalıq qayğısı göstərirdi. Təəssüflər olsun ki, noyabrın 5-də Şuşa döyüşlərində qəhrəman komandirimizi itirdik. Belə peşəkar bir hərbçini itirməyimiz bizi hədsiz sarsıtsa da, qisas hissimiz daha da artdı.*

*Noyabrın 5-dən 6-na keçən gecə Şuşaya hücum planlaşdırılmışdı. Hazırlıqlar görülmüşdü. Biz 300 nəfərlik heyətlə Laçın-Şuşa yolundan şəhərə həmlə etməli idik. Düşmən Daşaltıdan hücum edəcək 600 nəfərlik heyətimizi hədəfə almışdı. Bizim burda olmağımızdan düşmənin xəbəri yox idi. Biz düşmənə arxadan zərbə endirməli idik. Bizim zərbələrimiz düşməni sarsıtmalı və Daşaltıda olan əsas qüvvələrimizi düşmən hücumundan qorumalı idi. Hamı tapşırığı alıb mövqelərinə qayıtdı. Həmin gecə döyüş əməliyyatımız baş tutdu. Şuşanın girişində qüvvələrimiz arxadan hücum edərək düşmən səngərinə girməyi bacardı. Şuşa döyüşlərində artıq artilleriya köməyi də mümkün olmadı. Ümidimiz yalnız xüsusi təyinatlıların bacarığı sayəsində uğur qazanmaq idi. Əlbəyaxa döyüşdə xüsusi təyinatlıların peşəkarlığı bizə qələbə gətirdi. Sevindirici hal o idi ki, Şuşaya ilk həmləmizdə itki vermədən uğur qazandıq."*

Lətif də qardaşı kimi döyüşlərdə şücaət göstərdi. Lətif Əvəz oğlu Mikayılov 1992-ci il aprelin 16-da anadan olmuşdur. Uşaqlığı ailəsinin məskunlaşdığı Qax rayonunda keçib.1998-2009-cı illərdə Qax rayon 2 nömrəli tam orta məktəbdə təhsil alıb. 2010-2011-ci illərdə həqiqi hərbi xidmətdə olub. O, hərbi xidmət borcunu Tovuz rayonu N nömrəli hərbi hissədə yerinə yetirib. Müharibə başladığı ilk gündən cəbhəyə getməyə can atırdı. Bir çox gənclər kimi könüllü olaraq Şuşa rayon Hərbi Komissarlığına müraciət edib. Cəbrayıl, Füzuli, Hadrut və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Noyabrın 1-dən isə Şuşa uğrunda döyüşlərdə fəallıq göstərib. Noyabrın 8-də Daşaltı istiqamətindən Şuşaya ayaq basan igidlərdən biridir.

Bu qəhrəman qardaşların atası Əvəz Mikayılov da Birinci Qarabağ müharibəsində Şuşa uğrunda döyüşlərdə iştirak etmişdir. Ailədə iki vətənpərvər oğul böyüdən ata qəhrəman oğulları ilə qürur duyur. Şuşa işğaldan azad olunandan sonra qardaşlar bir müddət Şuşada qaldılar. Səhərləri uşaqlıq illərini keçirə bilmədiyi Şuşada açmaq onlara nə qədər sevinc bəxş edirdi.

Nurani xüsusi təyinatlı kimi döyüşlərə qatılanda qardaşı Lətifin könüllü olaraq cəbhəyə yollanmasından xəbərsiz idi. Nurani təsadüfən qardaşı ilə Hadrutda görüşmüşdü. Elə Hadrutda da qardaşı ilə görüşüb, Şuşa döyüşlərinə yola düşmüşdü. Bu görüşdən sonra qardaşı ilə əlaqə saxlaya bilməmişdi. Qardaşların növbəti görüşü isə Şuşa azad olunduqdan sonra baş tutdu. Bu görüş Şuşada – öz evlərində, həyətlərində oldu. Video görüntü vasitəsilə bu sevinci hamı ilə paylaşdılar. Bundan da böyük sevinc, ülvi hisslər olardımı? Onlar Vətənə gedən yolu birlikdə addımlayırdılar. Qardaşlar öz həyətlərində gəzirdilər. Həyəti gəzə-gəzə ata ocağı ilə söhbətləşirdilər. Kol-kos basmış həyətlərinə ürək-dirək verirdilər. Sanki doğma Vətənin, doğma torpağın könlünü alırdılar. Nurani Şuşanı tərk edəndə üç yaşı vardı. O, evlərini və həyətlərini xatırlayırdı. Qardaşı Lətif isə evlərini heç görməmişdi. Nurani uşaqlıq xatirələrindəki evlərini 28 ildən sonra gördüyü üçün çox həyəcanlı idi. Uşaqlıq xatirələri yaddaşında təzələnirdi. Bu sevinc qarışıq həyəcanını qar-

daşı ilə bölüşürdü: ***“Bura Çölqala məhəlləsidir. Bu, illərdən bəri bizi gözləyən evimiz və həyətimizdir. Bax, bu daş hasarımız mənə uşaqlığımı xatırlatdı. Yadımdadır, mən hasardan boylanaraq küçəyə baxardım. Bu, bizim tut ağacımızdır. Bax, bu isə qoz ağacıdır. Hasarın yanındakı daşları isə atam o zamandan həyətə tökdürmüşdü. Neçə illərdir ki, o daşlar olduğu kimi elə həmin yerdə qalıb. Amma ən əsası odur ki, biz boş qalmış yurdumuza, ocağımıza qayıtdıq.”***

Nurani və Lətifin Şuşada çəkdirdikləri şəkillər də qürurverici təsir bağışlayırdı. Nuraninin 3 yaşında Cıdır düzündə çəkdirdiyi şəkillə 32 yaşında yenidən Cıdır düzündə çəkdirdiyi şəkillərə baxdıqca nələr düşünürsən...Üç yaşında çəkdirdiyi şəkildə sanki Vətənindən didərgin düşəcəyini hiss edən uşağın məsum baxışlarını görürük. Azad olmuş yurdunda çəkdirdiyi şəkildə isə qalib gəlmiş bir əsgərin qürurlu baxışlarını görürük. Lətifin Şuşa məscidinin qarşısında çəkdirdiyi şəkil də çox təsirlidir. Məscidin qabağında dizi üstə çökərək başını Vətən torpağına qoyub, əllərini göyə qaldıraraq Vətənin azadlığına dua edən əsgərin yurd sevgisini görürürk.

Nə yaxşı ki, 28 illik həsrət bitdi. Döyüşlərə bir-birindən xəbərsiz yollanan qardaşlar Vətən yolunda birləşdilər. Evlərinə gedən yolları birlikdə tapdılar. Əvvəl-axır doğma yurd övladlarını öz qoynuna çəkdi. Gün o gün olsun ki, su tökülmüş ocağınız yenidən alovlansın. Həyətimizdəki həmin daş tökülən yerdə yeni evlər tikilsin. Ot basmış cığırlarınız açılsın, cadar-cadar olmuş yollarınız hamar olsun. Nə yaxşı ki, iziniz itmədi, cığırlarınız açıldı.

Neçə illərdir ki, bu bağlı yollar bizi gözləyirdi. Şuşamızın ağlar gözləri bağlı yollara zillənib bizləri soraqlayırdı. Boş qalan yurdumuz sahiblərini haraylayırdı. İsti ocaqlarına su səpilsə də, onlar böyüdülər, ata ocaqlarına, doğma yurdlarına qayıtdılar. Çünki Vətən onları haraylayırdı. Öz doğmalarına həsrət qalan yollar onların geri dönəcəyi günü gözləyirdi. Uçub-dağılmış evlər, soyuq divarlar, həyətdəki qurumuş ağaclar da öz doğmaları üçün qəribsəmişdi. Daha yurd yerlərimiz həsrət dolu gözlərini biz gedən yollara dikməyəcək.

## BAĞLI YOLLARIMIZI AÇAN İGİDLƏR, QARANLIĞA İŞIQ SAÇAN İGİDLƏR.




Kaş, bütün bağlı yollarımız, bağlı qapılarımız bax, beləcə sevinclə açılaydı. Doğma yurdlarımız həmişə azad nəfəs alaydı. Vətən övladlarının həsrətini çəkməyəydi. Övladları Vətəni bax, beləcə sevinclə bağrına basaydı. Vətən də övladlarını qoynuna alıb, bağrına basardı. Şuşanı, Laçını, Kəlbəcəri, Ağdamı, Füzulini, Zəngilanı, Qubadlını, Cəbrayılı-Xudafərini bağrına basdığı kimi...

Azad etdiyiniz torpaqları Vətən sevgisi ilə işıqlandıran igidlərimiz! Vətəni düşmən tapdağı altında qoymadınız. Müqəddəs torpaqlarımız qəlbinizin hərarətindən güc aldı, isti nəfəsinizlə qızındı. Azərbaycanı sevindirdiniz. Qoy həmişə Azərbaycanımız Günəş kimi cahana nur saçsın.

Hər iki qardaşın Vətən müharibəsində göstərdikləri igidlik yüksək qiymətləndirilmişdir. Döyüş əməliyyatlarında şəxsi şücaət nümayiş etdirdiyinə görə Nurani Əvəz oğlu Mikayılov "Şuşanın azad edilməsinə görə" və "İgidləyə görə" medalları ilə təltif edilmişdir.

Lətif Əvəz oğlu Mikayılov Füzuli və Xocavənd rayonları uğrundakı döyüş əməliyyatlarında şəxsi şücaət nümayiş etdirdiyinə görə "Füzulinin azad edilməsinə görə" və "Xocavəndin azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## İsmət Siyavuş oğlu Vəliyev



VƏTƏN son sözünüz, VƏTƏN son andınız. İlk məskənimiz, özülümüz Vətən. Öz andına, sözünə sadiq qalan oğullar. ***VƏTƏN TORPAĞINA QURBAN OLDUNUZ.*** Vətənin başına dolandınız. Bayrağına sarıldınız. Ocağına nur verdiniz. Vətən də sizi dərdinə əlac, yarasına məlhəm bildi. ***VƏTƏNLƏ VURAN ÜRƏYİNİZ VƏTƏNSİZ DÖYÜNMƏDİ.*** Sevinc göz yaşları ilə Vətən torpağını öpəndə, bayrağını göylərə qaldıranda nə qədər müqəddəsləşdiniz. Nəfəsinizlə, varlığınızla əsarətdə qalan Vətən ətrini duymaq sizlərə qol-qanad verdi. Bəlkə də, yer üzü belə sevinc görməmişdi. Bu sevincin səs-sədası yurdumuzu bürüdü.

**Ürəyimin bir parçası, sözü Vətən,**
**Bulaqların çağlayan gözü Vətən,**
**Həyatımın, yaşamağın özü Vətən,**
**Ey Vətən, bil sənsiz soluxmuş gülük,**
**Ocağından dağılan bir ovuc külük**

Əsir torpaqlara səcdə edən oğullar Qarabağımıza, Şuşamıza nur ələdilər. Ad-sanınızla Vətənə şöhrət gəldi.

Budaqları qırılmış Vətənin hər budağını Vətənə birləşdirdikcə necə sevinirdiniz, necə fərəhlənirdiniz igidlərimiz!

**O budaqlar səndən qopmuşdu, Vətən,**
**Dərd, kədər qəlbinə hopmuşdu, Vətən,**
**Babaların dağ-daşını öpmüşdü, Vətən,**
**Daha ayrılmasın ürəyin candan,**
**Doğma Qarabağın Azərbaycandan.**

**Ağdamın yaraşır qədim soyuna,**
**Qubadlı, Cəbrayıl gəldi qoynuna,**
**Laçının sevinir, sarıl boynuna,**
**Daha ayrılmasın ürəyin candan,**
**Doğma Qarabağın Azərbaycandan.**

Hər budağın sənə birləşdikcə igidlərin səni bağrına basdı. Ağdam bir budağın, Cəbrayıl bir budağın, bir budağın Kəlbəcər, Laçın bir budağın, Qubadlı, Zəngilan, Füzuli sənin budaqların idi, Vətən! Səndən qopan budaqların. İllərdi sənsiz sınan, əyilən, qəddini düzəldə bilməyən budaqların. Nəhayət, şah budağın, şah damarın Şuşa sənə birləşdi, Vətən! İgidlərimizin azad etmək üçün can atdığı, Şuşada şəhid olmağı özünə şərəf bilən oğullar bu müqəddəs yurdu sənə birləşdirdi, Vətən! Şükürlər olsun ki...

**Geriyə qaytardıq o şöhrət-şanı,**
**Yağı əllərindən aldıq Şuşanı.**

İgidlərimizin hər biri Şuşanı görmək arzusu ilə alışıb-yanırdı. Şuşamızı Vətənin şah damarı sayırdı igidlər. Kəsilmiş damarlarını sənə birləşdirən ərənlərin dağ-daşını öpdü. Vətən qəmini, qüssəsini çiyinlərində daşıyan, Vətən kədərini sevincə bürüyən igidlər. Hünər salnaməsi yazan igidlərimizin qarşısında düşmən də mat qalmışdı. Düşmən üzərinə od kimi şığıyanda, şimşək kimi çaxanda göydə şimşəklər sizə mat qaldı. Vətən torpağında, hər daşında, qayasında qan izi qalan igidlər. Qəmə, qüssəyə bürünən Qarabağı siz qələbə yağışına bürüdünüz.

**Siz döndünüz elin qəhrəmanına,**
**Çevrildiniz bir hünər dastanına**

**Dayaqsınız Vətən Azərbaycana,**
**Sizlər qorudunuz bu ana yurdu**
**Qoymadınız sönsün alovu, odu.**

Düşmən üzərinə od kimi şığıyan oğullardan biri də xüsusi təyinatlı kiçik gizir İsmət Vəliyev idi.

İsmət Siyavuş oğlu Vəliyev 1998-ci il sentyabrın 22-də Bakıda şuşalı ailəsində anadan olub. 2005-2016-cı illər ərzində Bakıda yerləşən Şuşa Quşçular kənd orta məktəbində təhsil alıb. 2016-cı il oktyabrın 24-də həqiqi hərbi xidmətə çağırılıb. 2017-ci il noyabrın 1-də Xüsusi təyinatlı qüvvələr kursuna yazılıb. Bu kursu bitirmək üçün fiziki cəhətdən möhkəm olmaq, çətin sınaqlardan keçmək lazım idi. İradəsi zəif olanlar belə bir kursu bitirməyə çətinlik çəkirlər. 450 nəfərlik kursu cəmi 30 nəfər bitirib. Onlardan biri də İsmət Vəliyev olub. 2018-ci il aprelin 1-də kursu müvəffəqiyyətlə başa vurub. Xüsusi Təyinatlı Qüvvələrdə kiçik gizir kimi fəaliyyətə başlayıb. Vətən müharibəsinə necə qoşulduğu barədə İsmət özü belə danışdı:

***"2020-ci il sentyabrın 27-də döyüş yoldaşlarımla birlikdə düşmən qüvvələri tərəfə hərəkət etdik. Düşmənin postunu məhv etməyə nail olduq. İnamımız və uğurumuz bizi irəli getməyə həvəsləndirirdi. Bir addım geri çəkilmək barədə heç düşünmürdük. Buna da nail olurduq. Hücumlarımızın hər biri uğurla nəticələnirdi. Arazqırağı və Cəbrayıl istiqamətindəki hücumlarımız daha uğurlu oldu. Bu döyüşdə şəhid və yaralılarımız olsa da, ruh yüksəkliyimizi itirmirdik. Komandirimiz bizə böyük ruh verirdi. Biz xüsusi təyinatlılar kimi neçə illərdi ki, hərbin sirlərinə dərindən yiyələndik. Məqsədimiz isə yeri gələndə Vətənimizi müdafiə etmək və torpaqlarımızı geri qaytarmaq idi. Biz öz torpaqlarımızda idik. Düşməni qovmalı idik.***

***Xüsusi təyinatlılarımızın keçirdiyi bütün əməliyyatlar demək olar ki, uğurlu olmuşdu. Düşmən tərəfi də bunu etiraf edirdi. Belə bir epizodu xatırlatmaq istəyirəm. On iki nəfər qrupla Araz qırağı ilə hərəkət edirdik. Düşmənin qurduğu pusquya düşdük.***

*Hər kəs özünə mövqe tutdu. Düşməni məhv etmək üçün sarsıdıcı zərbələr endirməyə başladıq. On beş düşmən əsgərini məhv etdik. Yaralılar isə İran sərhədinə doğru qaçmağa başladılar. Başımız üzərindən dayanmadan mərmi yağışları yağsa da, yalnız bir düşüncəmiz vardı – düşməni məhv etmək. Ölüm bizi qorxutmurdu. Demək olar ki, hər bir xüsusi təyinatlının gözünü sanki od bürümüşdü. Həmin anlarda hər birimiz özümüzü Vətənin, xalqın vuran qolu hesab edirdik. Cəbrayıla çatmağımıza hələ çox qalmışdı. Gecələr səngərlərə yağış yağırdı. Bir-birimizi qardaş kimi qucaqlayıb on dəqiqə yatmağımız bizə bəs edirdi. Mərmilər də başımız üzərindən yağırdı. Döyüş kinolarında baxdığım dəhşətli səhnələr səngərdə gözümün qarşısında baş verirdi. Səngərdə yanımda olan döyüşçü yoldaşlarımın bir neçəsi elə gözlərimin önündə şəhid oldu. Kimisi anasını sayıqlayaraq, kimisi kəlmeyi-şəhadətini deyərək şəhid olurdu. Şəhid olan və heç zaman unutmayacağım döyüşçü yoldaşlarımın adlarını çəkmək istəyirəm. Kənan Qafarov, Xaspolad Qasımov, Elvin Məmmədov, Elvin Abdulrəhmanov, Saleh Ağayev, Fuad Tağıyev, Bəxtiyar İslamov, Asiman Allahverdiyev, Mirbala Rəsulov, Əli Quliyev, Şahin Qədirov, İsmayıl Səmədov, Musa Əsgərov və Sahib Əliyev. Şəhid olan döyüşçü yoldaşlarımı hər dəfə xatırladıqca böyük kədər hissi keçirməklə yanaşı, xəcalət də çəkirəm. Mən bu gün həyatda olduğum üçün, onlarla birlikdə Vətən torpağına qovuşmadığım üçün. Amma sonra düşünürəm ki, biz onların qisasını almaq üçün sağ qalmalı idik. Düşməndən şəhid dostlarımızın intiqamını aldığımız üçün özümdə təskinlik tapıram. Komandirimiz Gündüz Səfərli haqqında xüsusi danışmaq istəyirəm. Cəsur komandirimiz şəxsi heyətin qayğısına qalır, öz əsgərlərini çox sevirdi. Şuşa döyüşləri zamanı Xüsusi Təyinatlı dəstələrin komandirlərindən biri olmuşdu. Onun Vətən müharibəsi qəhrəmanı adına layiq görülməsi hər birimizi sevindirdi. Komandirimiz bu yüksək ada layiqdir.*

*Bu ağır döyüşdən sonra şəhid və yaralılarımızın çoxunu çiynimdə çıxarmışam. Heç zaman gözümün önündən getmir. Yara-*

***lılara ilk tibbi yardım göstərmişəm. Həyatımın sonuna qədər heç zaman unuda bilməyəcəyim dəhşətli səhnələr bax, bu səngərdə gözlərimin qarşısında baş verdi. Allah şahiddir ki, biz Vətənimiz üçün nələr etdik. Oktyabr ayının 5-də mən özüm də ağır yaralandım. Artıq Cəbrayılı azad etmişdik. Ona görə də, yaralanmağım mənə bir o qədər də təsir etmirdi. Sevincli idim. Məni Əhmədbəyli qospitalına yerləşdirdilər. Yaralandığım üçün illərlə arzuladığım Şuşa döyüşlərində iştirak edə bilmədim. Elə mənə təsir edən də Şuşa döyüşlərində iştirak edə bilməməyim oldu. Lakin döyüşlər bitdikdən sonra Şuşada oldum. Döyüşçü yoldaşlarımın Şuşamızı canı bahasına necə aldıqlarının, süngü və bıçaqla sıldırımlı dağlara necə qalxdıqlarının şahidi oldum. Xüsusi təyinatlıların gizlincə düşmənin yerləşdiyi yerlərə girərək onları necə məhv etməsinin şahidi oldum. Deyərdim ki, döyüşçü dostlarım Xocalı faciəsinin qisasını elə Şuşada alıblar."***

İsmətin xahişi ilə onun dediyi bu cümləni olduğu kimi yazıram: ***"052 NÖMRƏLİ XÜSUSİ TƏYİNATLI QÜVVƏLƏR TARİX YAZDI. BİZDƏN SONRAKI NƏSİLLƏR BU TARİXDƏN QÜRUR DUYACAQ."*** Sizinlə xalqımız qürur duyur, igidlərimiz! İllər keçəcək, nəsillər ötəcək, sizin yazdığınız tarix örnək olacaq.

Kiçik gizir İsmət Vəliyev bir xüsusi təyinatlı kimi özünü düşmənlə döyüşə çoxdan hazırlayırdı. İllərdi ki, özünün qisasa, intiqama hazırlayırdı. Nə yaxşı ki, arzusuna çatdı. ***"XOCALIDAKI GÜNAHSIZ KÖRPƏLƏRİN QİSASINI ALA BİLDİK"*** – deyə köks ötürdü. Neçə yerdən yağmalanan Qarabağda, ilmə-ilmə parçalanan torpaqlarımızda göylərə ucaltdığınız bayrağımızla özünüz də ucaldınız, oğullar! Sən səngərdə döyüş yoldaşlarının gözünün önündə şəhid olduğunu görəndə sən özün də şəhid olmağı artıq göz önünə almışdın, İsmət. Amma sənin alın yazına qazilik yazıldı.

İsmət Vəliyev müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəsur döyüşçü", III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" və "Cəbrayılın azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## İbrahim Məmməd oğlu Məmmədzadə



Ən şərəfli səsimiz, VƏTƏN! Qəlbimizdə təsəllimiz, VƏTƏN! Neçə illərdi səndən uzaqlarda olsaq da, ürəyimizdə səni gəzdirdik. Səni özümüzlə hər tərəfə apardıq. Şirə çəkən arı tək başına dolandıq, Vətən! Doymadıq səndən.

**Uca dağın qarı tək,**
**Yaşıl bağın barı tək,**
**Şirə çəkən arı tək,**
**Dolanarıq başına,**
**Vətən, doymarıq səndən.**

Aldığımız nəfəsimiz, VƏTƏN! Yolunda yanan şam olduq. Səndən uzaq qaldıqca ürəklərimiz sənə daha da yaxınlaşdı. Sevgindən doya bilmədik. Ən şirin payımız, dövlətimiz, varımız oldun, Vətən! Sənə qovuşanda torpağını öpməkdən doymadıq. Saf ülvi məhəbbətləri yalnız və yalnız Vətən olan igidlər. Gücümüz, arxa-dayağımız. Tükənməyən sərvətimiz, vuran qolumuz, qüvvətimiz Vətən! Sonsuz əbədiyyətə qədər tükənməyən sevgidir Vətən sevgisi. Vətənsiz keçən günləri ömürdən sanmadıq. Qarabağa səpələnən qəm-qüssəni, həsrəti boğan oğullar. Vətəni düşmən pəncəsində qoymadınız. Boynubükük qalan Vətən qəddini düzəltdi, başını uca tutdu. Əzəldən şirin payımız, yanan ocağımız olmusan, VƏTƏN! Sevincli, kədərli günlərimiz həmişə səninlə olub.

Vətən çırağını yandıran oğullar! Sönmüş, külə dönmüş ocağımızı yenidən hərarətləri ilə isidən oğullar. Uzun illər-

dir ki, hamınız qəlbinizin dərinliklərində Vətən adlı bir kədər, Vətən adlı nisgil yaşadınız. Düşmən ocağını söndürən oğullar, yenə Qarabağı bir cənnətə döndərdiniz. Vətənin şirin vüsalını bizə dadızdıran oğullar. Sinəmizdəki dağı, yurd həsrətini qiyamətə qoymadınız. Dərdlə dolu ürəyimizi açan oğullar. Vətən sevgisi ilə alışıb-yanan belə oğullardan biri də kiçik çavuş İbrahim Məmmədzadədir.

İbrahim Məmməd oğlu Məmmədzadə 2001-ci il aprelin 3-də Bakıda şuşalı ailəsində anadan olub. 2007-2016-ci illərdə Bakıda yerləşən Şuşa məktəbində təhsil alıb. Doqquzuncu sinfi bitirdikdən sonra Azərbaycan Dövlət Dəmiryol Litseyinin stansiya növbətçisi ixtisasına yiyələnib. 2019-cu il iyulun 3-də Goranboy rayon Ballıqaya N nömrəli hərbi hissəsində xidmətə başlayıb. Əsgərlik dövründə könüllü olaraq ön xətdə xidmət etmək üçün müraciət edib. 2019-cu il oktyabrın 2-də Tərtər rayon İsmayılbəyli kəndindəki hərbi hissəyə göndərilib. 2020-ci il yanvarın 1-də Tərtər rayonunun Qazyan kəndində yerləşən birinci taborun rabitə tağımının radiotelefonçu ixtisasında manqa komandiri vəzifəsində xidməti davam etdirib. 2020-ci il martın 5-də ona kiçik çavuş rütbəsi verilib.

Kiçik çavuş İbrahim Məmmədzadə öz döyüş yolu haqqında maraqla danışdı: ***"Vətən müharibəsi başlayan gün mən hərbi xidmətdə idim və manqa komandiri kimi öz vəzifəmi icra edirdim. Müharibənin ilk günündən döyüşlərə qatıldım. İlk döyüşümüz Tərtərin Şıxarx kəndindən Ağdərə istiqamətində oldu. Bu elə mənim də ilk döyüşüm idi. Biz yeddinci mövqedən hücuma keçdik və düşmən postuna daxil olduq. Düşmən səngərinə girdiyimiz zaman gördük ki, düşmən bizə pusqu qurub. Səngərlərdə mərmilərdən qorunmaq üçün hazırlanmış "tülkü yuvaları"nda gizlənən düşmən birdən-birə səngərin ortasında peyda oldu. Və yerə uzanaraq bizə atəş açmağa başladılar. Döyüşü idarə edən cənab mayor Ramid Hacıyev əl qumbaralarından istifadə etmək üçün bizə komanda verdi. F-1 əl qumbarasından istifadə edərək***

*düşmənin canlı qüvvəsini məhv etdik. Daha sonra qruplara ayrıldıq. Sağ-sol səngərlərdən döyüşü idarə etməyə başladıq. Amma irəliləmək çox çətin idi. Birinci bölüyün komandiri ağır yaralandı. Onu təxliyə qrupuna təhvil verməli idik. Neytral zonadan öz səngərimizə keçmək istəyəndə düşmənin artilleriya atəşi bizim arxa tərəfimizə düşdü. Atəşin dalğası bizi vurdu və ayağımız yerdən üzüldü. Başı üstə səngərə girdik. Əvvəlcə elə bildim ki, boynum qırılıb. Çiyni üstə düşmüşdüm. Sonra birtəhər özümə gəldim. Səngərdə şəhidlərimiz olduğu üçün hərəkət etmək çətin idi. Şəhidlərimizi səngərdən çıxararaq təxliyə qrupuna təhvil verdik. Düşməndən azad etdiyimiz bizdən sonra gələn qruplara təhvil verdik və təchizat toplamaq üçün arxaya çəkildik. Oktyabrın 15-də komandanlığın əmri ilə Tərtərin Xoruzlu meşəsində cəmləşmişdik. Birinci taborumuz Talışkənd istiqamətində yola düşdü. Şəhid mayorumuz R. Hacıyevin başçılığı altında düşməndə olan yüksəkliyi tutmalı idik. Demək olar ki, bu yüksəklik Ağdərə şəhərinin açarı idi. Komandir əmr verdi. İki hissəyə bölündük. Dağların arası ilə üzü Suqovuşan istiqamətinə yola düşdük. Suqovuşan qəsəbəsinə çatdıq. Lakin düşmən fişənglər ataraq biz tərəfi işıqlandırır və bizi artilleriya atəşinə tuturdu. Qəsəbədən keçib yenidən dağa qalxdıq. Qarşımızda bir təpə qalmışdı. Bu təpəni də aşsaq həmin yüksəkliyin səngərinə çata bilərdik. Biz önümüzdəki təpəni keçmək istəyirdik ki, düşmən yenidən bizi artilleriya atəşinə tutdu və bizim digər kolonlarla əlaqəmiz kəsildi. Şəhidlərimiz vardı, amma biz irəliləyirdik. Nəhayət, həmin yüksəkliyi ələ keçirə bildik. Mərmi yağışları isə davam edirdi. Buna baxmayaraq, irəliləməyə davam edirdik. Geri çəkilən düşmənin bir neçə canlı qüvvəsini məhv etdik. Komandir əli ilə işarə edərək digər qrupların da hücuma keçməsi üçün əmr etdi. Mənə rabitədən çağırış gəldi. Mən əlimi dəstəyə atırdım ki, birdən-birə hər tərəfə qaranlıq çökdü. Heç nə eşidə bilmirdim. Gözlərim qaralmışdı. Yaxınlığıma düşən*

***mərminin qəlpələri məni ayağımdan və belimdən ağır yaralamışdı. Mərminin dalğası məni arxaya tullamışdı. Ayaq və bel nahiyəmdə on beş ədəd qəlpə yarası vardı. Bir anlıq şəhid olacağımı düşündüm. Özümü toplayaraq ayağa qalxmaq istəsəm də, yıxıldım. Sağ ayağımın oynağından qan axırdı. Qanaxmanın qarşısını almaq üçün silahdan turnanı ( juqutu ) açaraq yaramı sıxdım. Sürünərək mənə yaxın yerdə mövqe tutmuş komandirimin və əsgər yoldaşımın yanına getməyə cəhd etdim. Onların da həlak olduğunu gördüm və çox sarsıldım. Çarəsiz qaldığımı hiss etdim. Sol tərəfdə düşmən texnikasının olduğunu gördüm. Özümü vurmaq istəyirdim. Qəflətən gizir Bəxtiyar Hüseynovu başımın üstündə gördüm. O, avtomatı əlimdən aldı və məni döyüş meydanından çıxardı. Axşama yaxın gözümü Naftalan mərkəzi xəstəxanasında açdım. Komandirimiz Ramid Hacıyevin və döyüşçü yoldaşlarımın şəhid olması mənə çox ağır təsir etmişdi. Gözümün önündən getmirdilər."***

Əsgərlərini canı bahasına xilas edən cəsur komandir mayor Ramid Hacıyev haqqında oxuculara məlumat vermək istərdim. Bu, həm də sevimli komandirinin həlak olduğunu görən və sarsılan İbrahimin arzusu idi.

Cəbrayıl rayonundan didərgin düşən Ramid Hacıyev uşaqlıqdan düşmənə nifrət hissi ilə böyümüşdü. Elə ona görə də, hərbçi olmağı və düşməndən intiqam almağı qarşısına məqsəd qoymuşdu. Elə bu arzu onu Cəmşid Naxçıvanski adına hərbi məktəbə gətirdi. Mayor rütbəsinə qədər yüksəldi. R.Hacıyev ölümündən bir neçə ay əvvəl gələcəkdə general rütbəsi almaq üçün kursa da yazılmışdı. Lakin Vətən müharibəsi başlayanda kursdan imtina etdi və birbaşa ön cəbhəyə, qızğın döyüşlər gedən ərazilərə yollandı. Şəhid olana qədər bir çox uğurlu əməliyyatlara rəhbərlik etdi. Oktyabrın 16-da Suqovuşanda şəhadətə yüksəldi. İkinci Fəxri xiyabanda dəfn olunub. R.Hacıyev həmişə deyirdi: ***"YA GENERAL OLACAĞAM, YA DA GENERALDAN DA YÜKSƏK OLAN***

***RÜTBƏYƏ – ŞƏHİDLİYƏ YÜKSƏLƏCƏYƏM."*** Kiçik çavuş İ.Məmmədzadə öz komandiri haqqında fəxrlə danışırdı: ***"Mayor həmişə deyirdi ki, əsgər mənim qardaşımdır. Şəhidi öz çiynində gətirirdi."***

Cənab mayor Cəbrayılın əsarətdən xilas olmasını çox arzulayırdı. Nə yaxşı ki, Cəbrayılın azad olunmasını görə bildi. Lakin Cəbrayılda hərbçi kimi işləmək arzusu ürəyində qaldı. Bir arzusu da Cəbrayılda məscid tikdirmək idi. Təəssüflər olsun ki, bu arzusu da gerçəkləşdirə bilmədi. Amma uşaqlıq arzusunu reallaşdıra bildi. Anasına söz vermişdi ki, Cəbrayılın azad olunmasında iştirak edəcəyəm və səni sevindirəcəyəm, ana! Sən Cəbrayılı azad görəcəksən. Cəbrayılı azad etməmiş şəhid olmayacağam. Düşmən belə mərd, yenilməz, vətənpərvər oğullarımızın qarşısında diz çökdü. Belə məğrur oğulları olan Vətən əsarətdə qala bilməz.

Xalqımız öz şəhidinin xatirəsini əziz tutur. Mayorumuzun döyüş yolunu əks etdirən sənədli film çəkilib. İbrahim də öz komandirini heç vaxt unutmur. Onun evinə gedir, ailəsinə, doğmalarına baş çəkir. Şəhidimizin dördüncü sinifdə oxuyan oğlu Əli və iki əkiz qızı yadigar qalıb.

İbrahim Məmməd oğlu Məmmədzadə müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəsur döyüşçü", "Suqovuşanın azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

# Nicat Sərdar oğlu Eyvazlı




Azərbaycanımızın tarixini səhifələdikdə, onun dünəninə nəzər saldıqda xalqımızın bu günə qədər keşməkeşli yollardan keçdiyini görürük. Tariximizin toz basmış səhifələrində neçə soyqırım, neçə ömrün tamamlanmamış səhifələri var.

Bəli! Biz tariximizi həmişə ağlaya-ağlaya vərəqləmişik. Göz yaşlarımız o tozlu səhifələrdə cığırlar açdı. Bu cığırlardan sanki o gerçəkliklərə işıq düşdü. Ana Vətənin kürəyinə dəyən oxlar övladlarının ürəyini sızlatdı. Torpağının hər qarışında qəhrəman övladlarının izi qaldı. Hər qarışında bir qəhrəman uyuyan bu müqəddəs torpaqdan qidalanan oğulların Vətənə, Vətən isə oğullarına qucaq açdı.

Vətən sevgisi heyrətamiz, döyüş əzmi yüksək Azərbaycan oğulları ulularımızın əmanəti olan müqəddəs torpaqlarımızı azad etmək üçün savaş meydanlarına atıldılar. Otuz ilə yaxın yağı caynağında inləyən yurd yerlərimizi əsirlikdən xilas etmək üçün səfərbər oldular. Elə bu il sentyabrın 27-də olduğu kimi. Bu, xalqımız üçün həqiqətən də, Vətən müharibəsi idi. Vətənin azad olunması üçün aparılan mübarizə, ədalət savaşı idi. Bütün dünyanın diqqət mərkəzində olan haqq savaşı idi.

Ulu diyarım, Odlar yurdum, qədim torpağım Azərbaycanım! Yenə başın üzərinə qara buludlar çökdü. Yağıları yandırıb-yaxan

atəş oldun. Yenə igid oğulların sənə sarıldı, övladların sənə dayaq oldu. İgid oğullarının qəlbindəki Vətən sevgisi o qədər güclü oldu ki, bu sevginin işığı Vətənə gedən yollarına nur saçdı. Damarlarında axan qanın mayası Vətən oldu. Gözlərinə nur verən, ürəklərinə təpər verən yurd sevgisi, Vətən məhəbbəti oldu. Səni yağı caynağından qurtarmaq üçün sinələrini sipər etdi cəsur oğulların. Vətənin bir parçası olan Qarabağın harayına çatmaq üçün sıraya düzüldü övladların. Qəlbi yurd həsrəti ilə döyünən övladların bu imtahandan üzüağ çıxdılar. 44 günlük müharibənin Qələbəsi miqyasagəlməz, inanılmaz oldu:

**Qoy bilsin dünya, eşitsin cahan,**
**Azərbaycan verdi böyük imtahan,**
**Bu böyük qələbə deyildir pünhan,**
**Geriyə qaytardıq o şöhrət, şanı,**
**Yağı caynağından aldıq Şuşanı.**

Qarabağımızı, onun incisi Şuşamızı bizə qaytaran igidlər! Kədər yaşlarımızı qurudub, bizə sevinc yaşları bəxş edən oğullar! Bizi qürurlu etdiniz. Əcdadlarımızın bizə yurd yerlərini əsirlikdən, girovluqdan azad etmək üçün getdiniz. Hər biriniz bir tale oldunuz. Hər biriniz bir şəhid köynəyinə bürünüb getdiniz. Hər biriniz torpaq uğrunda şüurlu olaraq ölümlə üz-üzə dayandınız. O torpaqları bizə qaytaran sizin yurd sevginiz oldu. Otuz illik həsrətimizə 44 gündə son qoyan igidlərimiz. Vətən bayrağını azad etdiyiniz Vətən torpağında zirvələrə ucalan oğullar. Vətən adını uca tutub, göylərə ucalan bayraq oğullar. ***“Vətəndən pay olmaz!”*** – deyib, torpağa kök salan oğullar. Vətənin üzünü güldürən, Vətənin göz yaşını silən oğullar! Belə oğullardan biri də Nicat Eyvazlıdır. Qarabağını, doğma Şuşasını əsirlikdən xilas etmək üçün könüllü cəbhəyə yollanan Vətən oğlu Nicat.

Nicat Sərdar oğlu Eyvazlı 1996-cı ildə Bakı şəhərində şuşalı ailəsində anadan olmuşdur. 2013-cü ildə Bakıxanov qəsəbəsindəki 94 nömrəli tam orta məktəbi bitirmiş və elə həmin il Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə fakültəsinə qəbul olunmuşdur. 2017-ci ildə ali məktəbi bitirmiş və hərbi xidmətə yollanmış-

dır. Müddətli həqiqi hərbi xidmət dövründə 2018-ci ilin may ayının 20-dən 27-nə qədər Naxçıvan MR-da Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında baş vermiş münaqişədə iştirak edərək fəallıq göstərmişdir. Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızıl qaya və Qara qayanın azad olunmasında ön sıralarda olmuşdur. Dərələyəz mahalının Arpa kəndinin azad olunmasında iştirak etmişdir. 2018-ci ilin iyul ayında həqiqi hərbi xidmətini başa vurmuşdur.

2020-ci ilin iyulundakı Tovuz hadisələri zamanı könüllü olaraq döyüşlərdə iştirak etmək istəyini lazımi qurumlara bildirmişdir. Vətən müharibəsinin beşinci günü könüllü cəbhəyə yollanmışdır.

Suallarımın hər birinə qürur hissi ilə cavab verən Nicatın ürək sözlərini, vətən sevgisini oxuculara olduğu kimi çatdırmaq istərdim: ***"Artıq sentyabrın 30-da mən cəbhəyə yollanacağım günü öyrəndim. Uşaqlıqdan həsrətində olduğum torpaqlara doğru gedəcəyəm. Deməli, sabah oktyabrın birindən mən də Qarabağımızın azadlığı uğrunda başlayan bu savaşlarda iştirak edəcəyəm. Həmin gün keçirdiyim sevinc və həyəcan hissini sözlə ifadə etmək çətindir. Düşünürdüm ki, xalqımızın uzun illərdən bəri gözlədiyi qələbə sevincini onlara yaşada biləcəyikmi? Şükürlər olsun ki, bu möhtəşəm qələbədə mənim də az da olsa, payım var.***

***Kiçik yaşlarımdan "Qeyrətim bayrağımdır, ürəyim Azərbaycanım" ideologiyası ilə böyümüşəm. Vətənimizin, əsgərlərimizin nə qədər çətin və məsuliyyətli bir sınaq qarşısında olduğunu görürdüm. Bütün bu hadisələrə laqeyd qala bilməzdim. Sosial şəbəkələrdən ağır döyüşləri izləmək, cəbhədən gələn xəbərləri izləmək mənə əzab verirdi. Bütün bunlara laqeyd qala bilməzdim. Belə bir çətin zamanda kənara çəkilməkdənsə, ya şəhid , ya qazi, ya da qalib olmağı üstün tutdum. 24 il torpağına ayaq basdığım, suyunu içdiyim Vətən mənə doğmalardan doğma olduğu üçün səhəri həyəcanla gözlədim. Oktyabrın 1-də böyük bir sevinc hissi ilə bir an belə, tərəddüd etmədən Vətənin müdafiəsinə yollandım".***

Qarabağı görməyən gənc nəslin Qarabağ sevgisi bir müəllim kimi məni çox ruhlandırır. Çünki artıq 30 ilə yaxındır ki, Qarabağı görməyən gənc nəsil formalaşmışdır. Bəzən düşünürdüm ki, şagirdlərimizə, övladlarımıza Vətəni yetərincə sevdirə bilmişikmi? Qarabağı, Şuşanı görməyən gənc nəslə onun mədəniyyətini, tarixini, keçmişini çatdıra bilmişikmi? Bu haqq savaşı onu göstərdi ki, gənc nəslə vətən məhəbbəti aşılaya bilmişik.

Nicatın valideynləri övladlarına nümunə olmuşdular. Atası Sərdar Eyvazov Birinci Qarabağ müharibəsi veteranıdır. Vətəni qorumağı, onun uğrunda döyüşməyi elə, ilk növbədə, atasından öyrənmişdi. Düşməndən qisas almaq hissini, nifrət hissini də elə atası yaratmışdı onda. Anası Nəsibə Eyvazovanı da şuşalılar bir vətənpərvər xanım kimi yaxşı tanıyırlar. O, qəhrəmanlıq nümunəsi göstərmişdi. Şuşanın işğalı zamanı direktoru olduğu Ü.Hacıbəyovun ev-muzeyindəki bütün eksponatları öz şəxsi vəsaiti hesabına Bakıya gətirməyə nail olmuşdu. Dahi bəstəkar Üzeyir bəyin heç bir şəxsi əşyasının düşmən əlinə keçməsinə imkan verməmişdi. Ümumilli lider Heydər Əliyev onun bu fədakarlığını yüksək qiymətləndirmiş, daim nəzarətdə saxlamışdır. Belə bir ailədə böyümüş Nicat başqa cür də ola bilməzdi.

Bəli, yüksək vətənpərvərlik hissinin yaranmasında məktəblə yanaşı, valideynlərin də rolu böyükdür. Nə yaxşı ki, hər bir Azərbaycan övladının qəlbi Vətənə məhəbbət hissi ilə döyünür. Elə buna görə də xalqımız bir yumruq kimi birləşib, torpaqlarımızı özümüzə qaytardı, onu girovluqdan azad edərək düşmənə tutarlı cavab verdi.

Nicatın qəlbində olan yurd sevgisi, həsrət qaldığımız torpaqları görmək arzusu o qədər güclüdür ki. Döyüşlər haqqında danışanda o özünü sanki Qarabağda hiss edirdi. Nicatın ən böyük istəyi döyüşə-döyüşə doğma Şuşasına qədər getmək idi.

Müsahibə zamanı Nicat tez-tez bu fikirləri təkrar edirdi: ***"Şuşamızı görmək arzusu gündən-günə daha çox alovlanırdı. Axı mən doğma torpağımdan uzaqda olsam da, hər zaman özümü şuşalı kimi hiss etmişəm. Dahilər yurdu, qədim tarixi olan Şuşa mənim***

***doğma yurdum olduğuna görə həmişə iftixar hissi keçirmişəm. Ata-baba yurdumu görmək, onun havasını dərindən nəfəsimə çəkməkdən ötrü çox tələsirdim. Elə bilirdim ki, Şuşaya ayağım dəyən gün ən xoşbəxt insan olacağam. Allaha şükürlər olsun ki, doğma torpağımı gördüm, daha sonra yaralandım. Qərara almışam, tezliklə sağalım və gələcək həyatımı Şuşada davam etdirim."***

Nicatın hər kəlməsində, hər cümləsində kədər qarışıq bir sevinc hissi vardı. Yaralandığı üçün təəssüf hissi keçirən qəhrəmanım Şuşa uğrunda döyüşlərdə sona qədər iştirak edə bilmədiyi üçün kədərlənirdi. Bəli, o, yaralandığı üçün, sağlamlığına xətər dəydiyi üçün məyus olmurdu. Öz canından çox sevdiyi Vətəninin taleyi üçün məyus olurdu. Nicatın döyüş haqqında olan xatirələrinin hər birindən sanki Vətən boylanırdı. Yurd həsrəti ilə döyünən ürəyin çırpıntıları hiss olunurdu. Nicat Füzuli uğrunda gedən döyüşlərdən danışarkən çox təsirlənirdi. Oxucunu duyğulandıran məqamlarla dolu olan qəhrəmanımın ürək çırpıntılarını olduğu kimi nəzərinizə çatdırmaq istərdim: ***"Füzuli rayonu uğrunda gedən döyüşlər yaddaşıma daha çox həkk olunub. Mənfur düşmən müharibə olacağını əvvəlcədən bildiyi üçün bir çox mövqelərdə istehkamlar yaratmışdı. Düşmən özü də bizim o maneələri dəf edəcəyimizə inanmırdı. Oktyabr ayının 11-dən 15-nə qədər Qaraxanbəyli kəndində heç bir zaman unutmayacağım şiddətli və amansız döyüşlər oldu. Belə ağır döyüşlərdə ilk dəfə iştirak etdiyim üçün döyüş olduğu kimi gözlərimin qarşısında canlanır. Lakin bu döyüşdə şəhid olmuş silahdaşlarımı xatırlamaq mənə çox ağırdı.***

***Çox təəssüf ki, döyüşçü yoldaşlarımdan şəhid olanlar çox oldu. Xüsusi igidliyi ilə seçilən Hacıəhməd Hacıəhmədli iki dəfə yaralanmışdı. Qaxın Zərnə kəndindən olan Hacıəhməd haqqında qəhrəmanlıq dastanı yazılacaq igidlərimizdən idi. İki dəfə yaralanmasına baxmayaraq, sağalandan sonra yenidən döyüşlərə qatılmışdı. O, həm gözündən, həm də ayağından yara almışdı. Mərmi yağışı altında qalan 8 yaralı hərbçi yoldaşını döyüş mey-***

*danından çıxararaq həyatlarını xilas etmişdi. 15 günlük məzuniyyətdən imtina etmişdi. Vətəni darda qoyub məzuniyyətə getmək istəməmişdi. Son döyüşü noyabrın 7-də Şuşa ətrafında olub. Elə burda da şəhidlik zirvəsinə çatmışdı. Yaxın dostlarımdan olan könüllü əskər, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmiş Telman Nadir oğlu Abışev da Şuşa uğrunda döyüşlərdə şəhid oldu. Son damla qanlarına qədər vuruşmuş döyüşçü yoldaşlarımdan Şahin Tahirli, Vüqar Sadıqov, Elnur İsmayılov və başqaları da şəhidlik zirvəsinə yüksəlmişlər. Şəhid dostlarımın əziz xatirəsi həmişə qəlbimdə yaşayacaq.*

*Müharibədə münasibətlər daha fərqli olur, daha sürətli yaranır. Cəbhəyə yollandığım ilk günlər idi. 17 nəfər Şuşa könüllüsü Füzulidə atəşə məruz qaldıq. İlk sınağımız idi. O çətin anda hər kəs bir-birinə sığınmışdı. Ən qəribəsi o idi ki, mərmi yerə yaxınlaşdıqca hər kəs öz yanındakı yoldaşına sığınır, onu qorumağa çalışırdı. Qısa müddətdə tanıdığın bir yoldaşını öz canın bahasına qorumağa çalışmaqdan daha təsirli bir hadisə yaşamamışam. Bu müharibədə səngərdə döyüşən qardaşlarımızın, tibb xidməti göstərən həkimlərimizin, hər bir maddi və mənəvi ehtiyacımızı qarşılamağa çalışan və bacaran ürəyiaçıq xalqımızın, evdə, küçədə, bir sözlə, hər yerdə əsgərlərimiz üçün dua edənlərin yaratdığı vəhdət bizə qələbə qazandırdı. 30 ildə ilk dəfə qələbəyə inandıq. İnanmaq isə qələbənin yarısı demək idi. Hər bir döyüş qələbəmizlə yekunlaşdığı üçün bütün döyüşlər yaddaşımda iz buraxıb. Lakin şəxsi hisslərimi nəzərə alaraq fikir bildirsəm, Şuşaya gedən yol mənim üçün həyəcanlı və sevinc dolu anlar yaşatdı. Xüsusilə, noyabrın 4-də Daşaltı kəndinin azad olunmasında iştirak edən yeganə bölmənin tərkibində olmaq məni sevindirirdi. İllər sonra həsrətində olduğum Şuşa torpağıma ayaq basan ilk Vətən oğullarından biri olmaq məndə fərəh hissi yaradırdı. Göz yaşlarıma hakim ola bilmədiyim həmin anı unuda bilmirəm. Bir şuşalı kimi hamıdan əvvəl Şuşada olmaq və döyüşlərdə iştirak etmək hissini sözlə ifadə edə bilmirəm. Şəhərin girişinə 1300 metr qalmış yaralandım. Aldığım güllə yarası ayağımdan olduğu üçün*

***çox təəssüfləndim. Mənə böyük təəssüf hissi yaşadan bu güllə yarası kaş ki, ayağımdan olmayaydı. Əgər qolumdan yaralansaydım, mütləq Şuşaya qədər gedəcəkdim. Məni sarsıdan bu qəfil güllə yarasını almasaydım, şəhərə daxil olmaq mənə də qismət olacaqdı. Həsrətində olduğum Şuşamın özünü görə bilməsəm də, uca dağlarını, meşələrini, nağmələrdə eşitdiyim dumanlı Şuşamızın saf havasını acgözlüklə nəfəsimə çəkdim. Həyatımda heç vaxt belə kövrək hisslər yaşamamışdım."***

Nicat yaralandıqdan sonra döyüşə davam edə bilməsə də, ürəyini sanki Şuşada qoyub, əməliyyat olunmaq üçün döyüş meydanından çıxmağa məcbur olur. Əməliyyatdan əvvəl verdiyi müsahibə televiziya ilə yayımlanmışdı. Bu müsahibə yaralı bir əsgərin əməliyyatqabağı qürurverici hissləri idi. O, sevinclə deyirdi: ***"Allaha qurban olum! Arzuma çatdım. Döyüşə-döyüşə Şuşaya qədər gələ bildim. İndi Şuşada ola bilməsəm də, döyüşçü dostlarım ordadırlar. Atama söz vermişdim ki, Şuşanı azad edəndən sonra gəlib sizinlə birlikdə Şuşaya gedərik. Sağalandan sonra tezliklə atamı və anamı Şuşaya aparacağam."***

Könüllü olaraq Füzulidən başladığı döyüş yolunu Şuşadakı qələbəmizə qədər davam etdirən qazimiz noyabrın 7-də Şuşa ərazisində özünün dediyi kimi, öz doğma Şuşasında düşmən gülləsinə tuş gələrək yaralı vəziyyətdə 13 saatköməksiz qalmışdı.

Lakin nə düşmən gülləsi, nə yaralı vəziyyətdə köməksiz qalması, nə də sağlamlığında yaranan problemlər onu narahat etmirdi. Nicatı narahat edən Şuşa döyüşləri zamanı sona qədər vuruşa bilməməsi idi. Əməliyyatdan əvvəl nə qədər qürurlu idi Nicat. Bu qürur ona çox yaraşırdı. Uşaqlıqdan bəri arzuladığı istəyinə qovuşduğu üçün qüruru daha da artmışdı. Həm də atasına verdiyi sözü yerinə yetirmişdi. Axı o, ata-anasının əlindən tutub, onları Şuşaya aparmağa söz vermişdi...

Nicat Eyvazlı müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəsur döyüşçü", "Füzulinin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Qubadlının azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## Rahib Əkbər oğlu Məmmədov
## Xuda Əkbər oğlu Məmmədov




Xalqı ucaldan Vətənə olan sevgisidir. Övladlarının qanı tökülən torpaq Vətəndir. Öz bayrağı, müstəqilliyi, milli dəyərləri, himni və dövlət sərhədləri olan torpaq Vətəndir. Vətən külli-kainatdır. Vətən gözlərimizin bəbəklərindən boylanan həsrət üfüqlərindədir. Hara baxsan, onu görəcəksən. Vətən adi torpaq deyil. O torpaq Vətəndir ki, uğrunda övladları özünü qurban edib. O torpaq Vətəndir ki, üstündə düşmənlə mübarizə aparılıb, zəfər qazanılıb. Xalq Vətənini qoruyursa, o xalqın gələcəyi olur, o xalqın Vətəni olur. Xalqımız bu şərəfə nail olub. Ulularımız Vətəni qoruyubsa, biz də Vətəni qorumalıyıq. Mübariz olmayan, geri çəkilən xalqın yurdu əsarətdə olar. Mübarizə olmasa, Vətən də olmaz. Vətəni sevmək ən böyük mərdlikdir. Vətən bizim doğulduğumuz, sığındığımız yerdir. Babalarımızın sığındığı yer olub, övladlarımızın sığındığı yerdir. Gələcək nəsillərimizin də sığındığı yer olmalıdır.

**Elimsən, Vətənimsən,**
**Aldığım nəfəsimsən,**
**Ən şərəfli səsimsən,**
**Vətən, doymaram səndən.**

**Torpağını öpərəm,**
**Çiçəkləri səpərəm,**

**Ürəyimə təpərəm,**
**Vətən, doymaram səndən.**

**Sellərə dönüb daşsam,**
**Məcramdan çıxıb aşsam,**
**Gözümdə hələ yaşsan,**
**Vətən, doymaram səndən.**

Vətəndən doymaq olarmı? Vətəndən doymaq, yaşamamaq deməkdir. Düşmənlə üz-üzə qalan oğulların da səndən doymadılar. Yolunda hər çətinliyə dözdülər. Yağışında islandılar, soyuğunda, qarında səngərlərdə gecələdilər. Amma Vətən məhəbbəti ilə qızındılar. Şaxtadan qırov bağlayan kirpikləri arasından Vətənə boylandılar. Vətən keşikçisi, Vətən xilaskarı oldular! Səngərlərdə gecələyib, səhəri düşmənə hücumla açan igidlərimiz! Əsirlikdə qalan Vətən eşqi ilə silahlandınız. Yağı caynağından xilas etdiyiniz torpaqların üstündə yatdınız. Dağını, daşını qucaqladınız. Doğma torpağın qoxusunu aldıqca, torpaqdan güc aldınız. Girov torpaqlar nəvazişinizdən sevinirdi. Vətən torpağı sizi özünə çəkirdi. Başınız üzərindən keçən güllələrə məhəl qoymurdunuz. Yağını torpaqlarınızdan uzaqlaşdırdıqca irəli atılırdınız. Vətən havasını sinənizə çəkdikcə rahat nəfəs alırdınız. Vətəndən doymurdunuz Rahib və Xuda Məmmədov qardaşları kimi. Hər iki qardaş könüllü olaraq Vətən müharibəsinə yollandılar. Əsirlikdə olan Vətən eşqi ilə silahlandılar.

Rahib Əkbər oğlu Məmmədov 1991-ci il noyabrın 5-də Şuşa rayonunun Malıbəyli kəndində anadan olub. 2006-cı ildə Malıbəyli kənd 2 nömrəli məktəbinin 9-cu sinfini bitirib, 5 nömrəli peşə litseyində təhsilini davam etdirib. 2009-cu ildə Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmət borcunu yerinə yetirmək üçün yola düşüb. Bir müddət hərbi xidmət borcunu Goranboy rayonu ərazisində yerinə yetirib. Sonra isə Murovdağın Tərtər rayonu ərazisində davam etdirib.

Suallarıma böyük qardaş Rahib cavab verirdi: ***"2020-ci ilin sentyabrın 28-də qardaşım Xuda ilə birlikdə Vətən müharibəsində könüllü iştirak etmək üçün Şuşa rayon Hərbi Komissarlığına müra-***

*ciət etdik. Oktyabrın 1-də Şuşa rayon Hərbi Komissarlığından bizə zəng gəldi. Elə həmin gün bizi Ağcabədiyə göndərdilər. Burdan isə bizi Füzuli istiqamətində gedən döyüşlərə yola saldılar. Füzulidəki hərbi hissədə əsgərlərdən bir neçə nəfərini kəşfiyyata göndərmək üçün seçirdilər. Mən və dostum Səlahəddin kəşfiyyatçı kimi xidmət etməyə razılıq verdik. Qardaşım da mənimlə birlikdə kəşfiyyata getmək istədiyini bildirdi. Bizi kəşfiyyat üçün seçən zabit, general-mayor Mais Bərxudarovun müavini idi. O, iki qardaşın birlikdə kəşfiyyata göndərilməsinə etiraz etdi. Könüllülərdən ibarət on nəfər kəşfiyyatçı seçildi. Mən də onların içərisində idim. Beləliklə, Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçıları ilə birlikdə Cəbrayılın bir kəndinə əməliyyata göndərildik. Bir neçə gündən sonra bizə tapşırılan əməliyyatı uğurla yerinə yetirdik və geri qayıtdıq. Mən geri qayıdanda qardaşım başqa hərbi hissəyə göndərilmişdi. Əlaqə saxlamaq da mümkün olmadı. Sonralar xəbər tuta bildim ki, o, Cəbrayıl istiqamətdə gedən döyüşlərə qatılıb. Buna görə də, mən qardaşımı daha görə bilmədim.*

*Füzuli istiqamətində gedən savaşlardan sonra isə Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etdim. Mən böyük şərəf duydum ki, Qubadlı döyüşlərində çox hörmət etdiyimiz general-mayor Mais Bərxudarovla birlikdə eyni yüksəklik uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Biz bu döyüşlərdə M.Bərxudarovun verdiyi tapşırıqları həvəslə yerinə yetirirdik. Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru, 2016-cı ilin Aprel döyüşləri və 2020-ci ilin Vətən müharibəsinin komandanlarından biri olan Mais Bərxudarovla birlikdə döyüşlərdə iştirak etmək məni daha da qürurlandırırdı."*

Əsgərlərinin yanında olan generalda nə qədər böyük Vətən sevgisi var. Generalı ilə bir səngərdə vuruşan əsgərdə nə qədər böyük ruh yüksəkliyi var. Belə övladları olan Vətəni təslim etmək olarmı? Hələ Vətən müharibəsindən əvvəl general Polad Həşimovun əsgərləri ilə birgə vuruşan zaman şəhid olması cəmiyyətdə böyük əks-səda yaratdı. Bir qığılcıma bənd olan xalq intiqam hissi ilə alovlandı. Elə o gündən də düşmənə tutarlı cavab vermək istəyən Azərbay-

can xalqı ayağa qalxdı. Vətən oğulları könüllü olaraq səfərbər oldular. 44 günlük Vətən müharibəsində misilsiz hünər göstərdilər. Döyüşdə əsgərlər həmişə zabitinə görə ölümü gözə alsa belə, öndə gedir. Əmr verilən kimi irəli atılırlar. Amma generalı öndə gedən əsgərlər nə qədər xoşbəxtdirlər. Belə bir xalqı məhv etmək olmaz!

Vətən müharibəsi dövründə döyüşçülərin fəxrlə danışdığı general Mais Bərxudarov haqqında oxucularımıza qısaca məlumat verməyi özümə borc bildim.

2016-cı il Aprel döyüşləri zamanı korpus komandiri, polkovnik M.Bərxudarov müharibə başlayan kimi əsgərlərə qoşularaq birbaşa döyüşlərdə iştirak edib. Lələtəpə yüksəkliyini azadetmə əməliyyatına şəxsən rəhbərlik edib. Məhdud sayda əsgər və zabitləri ilə düşmənin çoxsaylı qüvvələrini məhv edib. Döyüşlərdə onun tankı öndə getdiyi üçün bütün şəxsi heyət qəhrəmanlıqla döyüşüb. Ali Baş Komandan İlham Əliyevin sərancamı ilə Lələtəpə yüksəkliyinin azad olunması uğrunda gedən döyüşlərində düşmənə sarsıdıcı zərbə endirən Mais Bərxudarova general-mayor rütbəsi verilmişdi. Vaxtilə o, Ulu Öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdi. Bu ordeni ona şəxsən Heydər Əliyev təqdim etmişdi. Eyni zamanda üçotaqlı ev də hədiyyə olunmuşdu. Lakin M.Bərxudarov Ulu Öndərə təşəkkürünü bildirərək deyir: "Cənab Prezident, Ali Baş Komandan! Sizin bizə verdiyiniz istənilən ad, titul və hədiyyələr müqəddəsdir, şərəflidir. Lakin mənə bağışladığınız o evi tabeçiliyimdə olan və döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş hərbi qulluqçunun ailəsinə bağışlamağınızı xahiş edirəm. Mən birtəhər evsiz yaşayaram. Amma onların evləri yoxdur."

Xalqını, Vətənini sonsuz məhəbbətlə sevən belə sadə, təvazökar bir generalla çiyin-çiyinə vuruşmaq əsgərlər üçün böyük şərəfdir.

Elə Rahib də Qubadlı döyüşlərində generalla eyni yüksəkliyin fəth edilməsi uğrunda döyüşlərdə iştirak etməyindən fəxrlə danışırdı. Daha sonra Rahib Qubadlı döyüşlərində necə yaralanmasından danışdı:

***"Oktyabrın 20-də Qubadlı döyüşləri zamanı yaralandım. Qolumdan beş qəlpə yarası aldım. Məni Füzuli qospitalına çatdırdılar. Əməliyyat olunaraq elə həmin gün qolumda olan qəlpələrdən dördü çıxarıldı. Qəlpələrdən biri isə hələ qolumdadır. Həkimlər onu çıxarmağı məsləhət bilmədilər. Çünki həmin qəlpənin çıxarılması ifliclə nəticələnə bilər. Müalicə olunduqdan sonra yenidən döyüşlərə qatılmaq arzusunda idim. Ən böyük arzum Şuşa uğrunda döyüşlərdə iştirak etmək idi. Lakin məhdud yararlı olduğum üçün Şuşa döyüşlərində iştirak etməyimə icazə verilmədi. Şəhər azad olunduqdan sonra hərbi xidmətimi davam etdirmək üçün Şuşaya göndərildim. Şuşada olduğum günlərin sevincini bu gün də unuda bilmirəm. Noyabr ayının 18-dən dekabrın 10-na qədər Şuşada mühafizə zolağında hərbi xidmətimi davam etdirdim. Şuşada olduğum günlərdə qardaşımın da mənimlə birlikdə olmağını çox istəyirdim. O, başqa istiqamətlərdə döyüşə qatıldığı üçün biz bir-birimizi görə bilmədik. Sonuncu dəfə onunla əlaqə saxlayanda Laçına doğru irəlilədiyi barədə məlumat aldım."***

Müsahibə zamanı Rahib nə qədər ətraflı danışmağı üstün tutsa da, qardaşı Xuda isə bir neçə cümlə ilə fikrini tamamladı.

Xuda Əkbər oğlu Məmmədov 1996-cı il mayın 28-də şuşalı ailəsində anadan olub. 2011-ci ildə Şuşa rayon 2 nömrəli Malıbəyli kənd orta məktəbini bitirib.

Vətən müharibəsi başlayanda könüllü olaraq Şuşa rayon Hərbi Komissarlığına müraciət edib. Oktyabrın 1-də döyüşlərə yola düşüb. Döyüş yolu Füzulidən başlayaraq Laçın dəhlizinə qədər davam edib.

Rahib Məmmədov müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəsur döyüşçü", "Cəbrayılın azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Qubadlının azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

Xuda Məmmədov müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəbrayılın azad edilməsinə görə", "Qubadlının azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## Bəhruz Etibar oğlu Məmmədov



Vətənsizlik məkansızlıqdır. Bəşəri düşüncənin dayaq nöqtəsi deyərdim ki, Vətəndir. Hara getsən də, ürəyinin dərin guşəsində Vətən adlı inildəyən bir milli səs var. Hər yandan səni çağıran bir ün var. Bu, milli ruhun ünüdür. İnsan Vətən yolunu azarsa, bu səs onu rahat buraxmaz. Vətən yolunu azanlar özgə yollarda yad kimi dolaşar. Hər birimiz Vətənin əbədi var olması üçün ona dönməliyik. Ən böyük nemət elə Vətəndir. Onu kiməsə bağışlamaq mümkün deyil. Vətən sahibsiz olmaz. Vətən oğulsuz, qızsız olmaz. Vətənə dönmək və onu sevmək, onu yaşatmaq, qurmaq, ona yenidən həyat vermək hər bir Vətən övladının qanındadır. Vətən bağrına vurulan yaraları övladları heç vaxt unuda bilməz. İllər ötsə də, yeni nəsillər gəlsə də, intiqam hissi sönməz, əksinə, alovlanar. Yeni nəsillərin qəlbində alışıb-yanan intiqam hissi onları rahat buraxmaz. Elə bu intiqam hissi də bizi qələbəyə gətirdi. Qələbə sevincini dada bildik. Qələbəni bizə dadızdıran, bizə qələbə sevinci yaşadan igidlərimiz! Azərbaycanımızı gözü yaşlı qoymadınız. Xalqımız Vətən həsrəti ilə ömür boyu ağlar, xəcalətli qala bilməzdi. Bu qədim, ulu xalq məğlubiyyətlə barışa bilməzdi.

**Sellərə dönmədi elin göz yaşı,**
**Tökülən qan ilə yuduq hər daşı.**
**Sonraya qalmadı bu haqq savaşı,**
**Xalqım, dik tut sən başını, ağlama!**
**Tök gözünün son yaşını, ağlama!**

**Oğulların şəhidliyi seçsə də,**
**Anaların oğul dərdi çəksə də,**
**Ataların qəmdən belin büksə də,**
**İçindəki fəryadı boğ, ağlama!**
**Günəş olub, yenidən doğ, ağlama!**

**Vətən oğlu, Vətən qızı, ağlama!**
**Tanrı sevməz inamsızı, ağlama!**

Bəli, ağlamağı xalqımıza yaraşdırmayan igidlərimiz onun göz yaşını birdəfəlik silmək istədi. Vətənin hər daşını tökülən qanları ilə yudular. VƏTƏN DAŞI OLDU İGİDLƏRİMİZ. Belə igidləri olan xalqımız, başını uca tutdu. Dərdə əyilmədi, kədərə sınmadı. Analar nə qədər dərdli olsalar da, başlarını dik tutdular. Həcər qeyrətli, Nigar ürəkli analarımız oğullarına dayaq oldular. İgidlərinin arxasınca su atdı analar. Qürurlu bir kədərlə arxasına boylandı atalar. Ərənlərimiz də əsirlikdə qalan Vətəni xilas etmək üçün silahlandılar, döyüşə yollandılar. Vətən eşqi ilə döyüşə yollanan belə oğullardan biri də qazi Bəhruz Məmmədovdur.

Bəhruz Etibar oğlu Məmmədov 1990-cı il iyunun 3-də Şuşa şəhərində anadan olub. 1997-2008-ci illərdə Bakıda yerləşən Şuşa 1 nömrəli tam orta məktəbində təhsil alıb. 2008-ci ildə həqiqi hərbi xidmətə yollanıb.

2020-ci il oktyabrın 9-da o, könüllü olaraq Vətən uğrunda döyüşlərə yola düşdü. Qarabağı azad etmək uğrunda mübarizəyə qatıldığı üçün sonsuz qürur hissi keçirirdi. İlk döyüş yolu Füzulidən başlamışdı. Bəhruz Füzuli döyüşlərini yaddaşına həkk edilən ən çətin döyüşlərdən biri kimi xatırlayır: ***"Füzuli meşələrində çətin döyüşlərdən biri idi. Düşmən tankları bir neçə istiqamətdən hücuma keçmişdi. Minomyot və snayperlərdən açılan atəşlər bizim irəli getməyimizə mane olurdu. Füzuli döyüşləri ağır artilleriya döyüşləri idi. Döyüşçülərimizin döyüş əzmi yüksək olsa da, çıxılmaz vəziyyətdə idik. Meşədə mövqe tutduğumuz üçün çıxış yolunu itirmişdik. İrəliləmək üçün hansı istiqamətə gedəcəyimizi***

*dəqiq bilmirdik. Elə buna görə də, itkilərimiz çox oldu. Düşmən yüksəklikdə mövqe tutmuşdu. Onlardan fərqli olaraq mövqeyimiz əməliyyatı uğurla başa vurmaq üçün əlverişli deyildi. Bu döyüşdə xeyli şəhidimiz olsa da, döyüşə-döyüşə onları döyüş meydanından çıxarmağa çalışırdıq. İlqar adlı döyüşçü yoldaşımla birlikdə 23 şəhidi döyüş meydanından çiynimizdə çıxartdıq. Biz irəlilədikcə şəhidlərimizi və yaralılarımızı döyüş meydanında qoymurduq. Bu çətin vəziyyətdən çıxacağımıza ümid etmirdik. Amma döyüş əzmimiz yüksək idi. Füzuli uğrunda döyüşlər yaddaşıma ona görə həkk olunub ki, ilk döyüşüm olduğu üçün böyük gərginliklər yaşamışdım. Şükürlər olsun ki, bu döyüşü uğurla başa vura bildik. Füzuli döyüşlərindən sonra Cəbrayıl uğrunda döyüşlərdə iştirak etdim. Burda yaralandım. Döyüş meydanından təxliyə olunub qospitala yerləşdirildim.*

*Bir müddət qospitalda müalicə aldım. Tezliklə sağalacağımı və döyüşlərə qayıdacağım günü səbrsizliklə gözləyirdim. Döyüşləri yarımçıq tərk etmək istəmirdim. Axı ən böyük istəyim Şuşa uğrunda döyüşlərdə iştirak etmək idi. Sağalandan sonra yenidən döyüşlərə qayıtdım. Sonrakı döyüş yolum Laçın dəhlizi və Şuşa uğrunda döyüşlərdən keçdi. Şuşa uğrunda döyüşlərə qatılacağım üçün qürurlanırdım. Bir neçə uğurlu əməliyyatlarda iştirak etdim. Uğurla nəticələnən döyüşlər ümidimi daha da artırırdı. Tezliklə doğma Şuşama çatacağım günü gözləyirdim. Ordumuzun yenilməzliyini gördükcə və azad etdiyimiz torpaqlarımızda bayrağımız ucaldıqca qələbəmizə inam hissim daha da artırdı.*

*Döyüşlərin birində mühasirəyə düşdük. Üç nəfər döyüşçü yoldaşımla birlikdə mühasirədə qaldıq. Demək olar ki, həm ərzağımız, həm də sursatımız tükənmişdi. Hava dumanlı idi. Biz balaca bir kolun arxasında gizlənmişdik. Ətrafımızda düşmənlərin olduğunu bilirdik. Yalnız bir qumbaramız qalmışdı. Əgər düşmən bizə yaxınlaşarsa, qumbaranı partlatmaqla özümüzlə birgə düşməni də məhv etmək*

***fikrimiz var idi. Bir sözlə, hər an ölümlə üz-üzə idik. Üç gün kolun dibində tərpənmədən, ac-susuz qaldıq. Əgər tərpənsək, düşmən bizi görərdi. Hava yağışlı olduğu üçün çox çətin anlar yaşadıq. Xoşbəxtlikdən, xüsusi təyinatlılarımız bizi xilas etdilər. Tərpənmədən bir yerdə qaldığımız üçün hərəkət edə bilmirdik. Ona görə də xüsusi təyinatlı döyüşçülər bizi çiyinlərində apardılar.***

***Bütün bu çətinliklər bizi ruhdan salmırdı. Ona görə ki, bütün döyüşçülər bir amal uğrunda vuruşurdu. Düşmənə qalib gəlmək və Qarabağımızı azad etmək! Bir şuşalı kimi Şuşa uğrunda döyüşlərdə iştirak etməyi özümə şərəf bilirdim. Və bu, mənə qismət oldu. Şuşaya çatanda keçirdiyim hissləri sözlə ifadə edə bilmirəm. Şuşalı dostum Rahib Allahverdiyev ilə birlikdə əyilib torpağı öpdüyümüz anlar həyatımın ən xoşbəxt anları idi. Şuşada keçirdiyim o xoşbəxt günlərin təsirindən hələ bu gün də ayrıla bilmirəm. Hələ uşaqlıqdan bəri həsrətlə gözlədiyim gün gəlib-çatmışdı. İnana bilmirdim. Bu qələbə bizə bütün çətinlikləri unutdurdu. Hər bir döyüşçünün qəlbində Vətənə böyük məhəbbət vardı. Girovluqda olan torpaqlarımızı azad etmək, parçalanmış Vətəni birləşdirmək üçün hər bir döyüşçü rəşadətlə vuruşurdu. Şuşanın azad olunması isə hər bir Vətən övladının üzünü güldürdü".***

Qəhrəman əsgərimizin dayısı Qarabağ Azadlıq Təşkilatının üzvü Şünasi Babayev Bəhruz haqqında iftixar hissi ilə danışdı. Bəhruz Məmmədov özü də QAT-ın gənc üzvüdür. O, döyüşlərin birində yaralansa da, müalicə olunduqdan sonra yenidən döyüşlərə atılan igidlərimizdəndir. Valideynləri və digər ailə üzvləri də Bəhruz haqqında fəxrlə danışırdılar. Onlar qeyd edirlər ki, Bəhruz bu döyüşlərə böyük inamla qatılmışdı. Xalqımızın birliyinə və qələbə ilə geri dönəcəyinə inanırdı.

Vətən harayına çatan, dərdinə şərik olan oğullar, Vətən dərdinə dözə bilməyib, ayağa qalxdınız. Qədim bir xalqın

qürurunu tapdanmağa qoymadınız. Ata-babalarımızın qürurunu özünə qaytardınız. Qürurlu bir millətə çevrildik. Bu, bizə yetər. Azərbaycan xalqının ağlar gözlərini sevindirdiniz. Vətən torpağı üstündə yatan igidlər, Vətən torpağından güc aldınız. Xalqımızın sarsılmaz birliyi qarşısında düşmən diz çökdü. Azərbaycanın şanlı tarixini yazdınız.

**Vətənə şöhrət-şan verdi,**
**Yarasından qan da verdi,**
**Öz canından can da verdi,**
**Vətən torpağında bitən oğullar,**
**Vətən harayına yetən oğullar!**

**Haqqdan yaranmışdı nur əməliniz,**
**Vətənin əlindən tutdu əliniz,**
**Tanrı dərgahındaymış təməliniz,**
**Qanlarıyla Vətən yazan oğullar,**
**Düşməninə məzar qazan oğullar.**

**Torpağı sevdiniz, torpaqlaşdınız,**
**Bayrağı sevdiniz, bayraqlaşdınız,**
**Vətəni sevdiniz, qardaşlaşdınız,**
**Vətənləşən, torpaqlaşan oğullar,**
**Bütövləşən, bayraqlaşan oğullar.**

# Ülvi Səbuhi oğlu Rüstəmli



Vətən elin evidir, elin dayağıdır. Əgər yurd yerimiz varsa, güman yerimiz də var, dayağımız da var. Vətən torpağı şirin olduğu kimi, Vətənin tüstüsü də şirindir. Ağac olan yerdə budaq da sınar. Vətənin varsa, yolunda qurban gedən övladların da olacaq. Axı Vətən bizə borclu deyil, biz Vətənə borcluyuq.

Vətəndə olmayanda könlümüzdən, xəyalımızdan, xatirələrimizdən Vətən keçir. Vətən təkcə torpaq, yurd-yuva deyil. Vətən dəyişmir, Vətən qocalmır, Vətən köhnəlmir, Vətən satılmır. O, əbədidir.

**Əzəl ünvanımızsan,**
**Damarda qanımızsan,**
**Azərbaycanımızsan,**
**Vətən, doymaram səndən.**

**Yolunda yanan şamam,**
**Səninlə arzu, kamam,**
**Səndən ayrı qalmaram,**
**Vətən, doymaram səndən.**

Heç bir sevgi Vətən sevgisinə çata bilmədi. Ən ülvi hissimiz, ən həssas duyğumuz Vətən oldu. Bu, nə möcüzədir, bu, nə sirdir? ***VƏTƏNİN ÖMRÜNÜ UZATMAQ ÜÇÜN, VƏTƏNİ YAŞATMAQ ÜÇÜN HƏR KƏS ÖMRÜNDƏN PAY VERMƏK İSTƏ-***

***YİRDİ.*** Oğulların ömürlərini Vətənin ömrünə calamaq üçün ölümün gözünə dik baxdılar. ***ÖVLADLARIN ÖZ ÖMÜRLƏRİNİ SƏNİN ÖMRÜNƏ CALAMAQ İSTƏYİRDİ, VƏTƏN!...***

Vətən sevgisi lazım gələndə həyatını, sahib olduğun hər şeyi Vətən yolunda düşünmədən fəda edə bilmək duyğusunun təcəssümüdür. Məqamı gələndə Vətən üçün döyüşmək də bu sevginin bir təzahürüdür. Unutmamalıyıq ki, biz Vətən uğrunda qanları ilə dastan yazanların, şəhid verən bir millətin övladlarıyıq. Vətənpərvər insanda fədakarlıq, məğlubedilməzlik hissi yaradır. Apardığı mübarizədə inam hissini gücləndirir. Bəşər övladının, hər bir xalqın Vətənə olan sevgisi onu ucaldır. Xalqımız Vətənə olan sevgisi ilə bir daha ucaldı və bu şərəfə nail oldu. ***MÜBARİZƏ OLMASA, VƏTƏN DƏ OLMAZ.*** Vətən göylərində əcdadlarımızın ruhu dolaşır. Ona görə də, Vətənə sahiblik haqqımız var. Vətəndə bir ovuc torpaq olmağın özü də xoşbəxtlikdir. Həmişə bu fikirləri nəsildən-nəsilə ötürən ata-babalarımızın sözündə nə qədər dərin hikmət varmış... ***ƏN BÖYÜK MƏRDLİK VƏTƏNİ SEVMƏKDİR.***

Vətənpərvərlik böyük məfhumdur. Vətənpərvər insanın ürəyi, nəbzi Vətənlə döyünür. Vətən sevgisi əzəli və əbədi qəlb odudur. Bu od daim alışıb-yanır, sönməzdir.

Vətən sevgisinə köklənən insan Vətəni bütün qəlbi ilə sevir, onun azadlığı və istiqlaliyyəti uğrunda canını qurban verməyə hazır olur. Sanki dünyanın gücü onun qollarına toplanır. Göy üzünün nuru, işığı onun qəlbinə, zehninə dolur. Özünü Vətənin vətəndaşı sayan hər kəs Vətən dərdinə laqeyd qala bilmir. Vətənpərvərlik hissi insanda fədakarlıq, qəhrəmanlıq, məğlubedilməzlik hissi yaradır. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyur.

Bəli! Tarix boyu xalqımız Vətəni qorumağa hər an hazır olan igid oğullar yetişdirib. Hər bir azərbaycanlı öz qəhrəmanlarını tanımalı, onların keçdiyi döyüş yolunu bilməlidir. Nəsillər nəsilləri əvəzləyir, qəhrəmanlıq tariximizə yeni səhifələr yazılır.

Azərbaycan xalqının igid oğulları xalqımızın vətənpərlik, qəhrəmanlıq əzmini bir daha sübut etdilər. Qəhrəman oğullarımız Qa-

rabağımızı ana Vətənə qovuşdurdular. İllərlə tökülən qanların qisası alındı. Axı Vətən övladlarını haraylayırdı. Vətənin səsi gəlirdi sanki... Ana Vətəndən ayrı düşən Qarabağımızı xilas etmək üçün xalqımız ayağa qalxdı. Vətənin dar günündə Vətənin harayına çatmaq üçün oğulları səfərbər oldular. Ülvi Rüstəmli də Vətənin harayına çatan oğullardan biridir.

Ülvi Səbuhi oğlu Rüstəmli 1996-cı ildə Bakıda şuşalı ailəsində anadan olub. 2014-cü ildə Bakıdakı 286 nömrəli tam orta məktəbi bitirib. Həmin ilin oktyabrında hərbi xidmətə yollanıb. Hərbi xidmətinin başa çatmasına bir neçə gün qalmış Aprel döyüşləri başlayır. Ülvi həmin döyüşlərdə iştirak edir. O, Lələtəpə yüksəliyi uğrunda gedən döyüşlərdə fəallıq göstərir. 2020-ci ilin oktyabrın 1-də döyüşlərdə iştirak etmək üçün könüllü olaraq Şuşa rayon Hərbi Komissarlığına müraciət edib. Elə həmin gün döyüşlərə yola düşüb. Döyüşlər haqqında Ülvi özü belə danışır:

"Torpağı işğalda olan hər kəs kimi mən də düşmənə nifrət hissi ilə böyümüşəm. Hələ əsgərlikdə olarkən, Aprel döyüşlərində əlimə silah alıb döyüşlərdə iştirak edəndə düşünürdüm ki, kaş, bütün torpaqları belə azad edə biləydik. İlk döyüş yolum Füzuli istiqamətində olub. Oktyabrın 1-dən başlayaraq Füzulidə gedən ağır döyüşlərdə iştirak etdim. Bu döyüşlər ağır artilleriya döyüşləri idi. Düşməm iri çaplı artilleriya silahlarından hücuma keçdiyi üçün itkilərimiz də çox olurdu. Döyüş yoldaşlarımın yanımda şəhid olması mənə ağır təsir edirdi. Ona görə də, bu döyüşlər ən çətin döyüşlər kimi hafizəmdə qalıb. Hər şeyi gözə almışdım. Bilirdim ki, getdiyim bu şərəfli yolda qələbə də var, şəhidlik də. Bir neçə gün belə ağır döyüşlər davam etdi. Demək olar ki, qorxu hissi məndən uzaqlaşmışdı. Qisas almaq hissi daha da güclənmişdi. Elə hiss edirdim ki, itirdiyimiz hər bir döyüşçü yoldaşlarımın əvəzinə döyüşürəm. Azad etdiyimiz torpaqlara ayaq basdıqca fərəhlənirdik. Elə bil ki, gücümüzün üstünə güc gəlirdi. Xocavənd döyüşlərində də bu hissləri yaşamışdım. Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə şəhid və yaralılarımız çox oldu. Yaralananlardan biri də mən idim. Kəllə-beyin travması almışdım. Fü-

zuli qospitalına yerləşdirildim. Burda qolunu, ayağını itirən qardaşlarımı görəndə düşmənə olan qəzəbim bir az da artdı. 12 gün müalicə aldıqdan sonra yenidən döyüşlərə yollandım. Sonrakı döyüşlərim isə Qubadlı istiqamətində oldu. Qubadlıya gedən yüksəkliklər demək olar ki, alınmışdı. Hər bir döyüşdə döyüşçü yoldaşlarımız bir-birinə arxa-dayaq olurdular. Aclığa da, susuzluğa da dözürdük. Bəzən elə olurdu ki, günlərlə suya həsrət qalırdıq. Hətta elə olurdu ki, yarpağın üstünə düşən şeh damcısı ilə susuzluğumuza çarə tapırdıq. Bir hadisəni heç unuda bilmirəm. Hamının suya ehtiyacı olduğu bir vaxtda tağım komandirimiz, şəhid leytenant Rəşad Rəhimovun su qabında azca su qalmışdı. O, 8 nəfər döyüşçü arasında suyunu böldü. Özünə isə su saxlamadı. Biz suyu içdikdən sonra özümüzə gəldik və yolumuza davam etdik. Hər çətinliyə dözdük, amma yolumuzdan dönmədik. Şəhid leytenant R.Rəhimovun döyüşçülərinə olan qayğısı həmişə xatirəmdə qalacaq.

Noyabrın 2-də artıq biz Çanaqçı kəndinə çatdıq. Şuşaya doğru irəliləyirdik. Bilirdik ki, bu yollar bizi Şuşaya aparır. Sevindiyimdən həmin torpaqları necə öpürdüm... Nəhayət, Daşaltı kəndinə gəlib-çatdıq. Daşaltı döyüşlərində düşmənlə üz-üzə idik. Elə buna görə də itkilərimiz və yaralılarımız çox oldu. Şuşalı dostum Nicat Eyvazlı da bu döyüşlərdə yaralandı. Döyüş əməliyyatlarının çətin olmasına baxmayaraq, hamıda qələbəyə inam hissi var idi. Döyüşə-döyüşə Şuşaya qədər getdik. Bir şuşalı kimi Şuşaya ilk ayaq basanlardan olduğum üçün iftixar hissi keçirirdim. Şuşadakı ata-baba evimizə getmək isə başqa bir fəxr hissi, başqa bir duyğu idi. Ata-baba evimiz Çölqala məhəlləsində idi. Evimizi özüm tanımadığım üçün bizimlə qonşu olan və döyüşlərdə bir döyüşçü kimi iştirak edən Səməd Məhərrəmov məni evimizə apardı. S.Məhərrəmov hal-hazırda Şuşa rayonunun polis rəisidir.

Ülvi tabor komandiri, şəhid kapitan Surxay Noçuyev haqqında xatirələrini böyük təəssüf hissi ilə xatırlayırdı: "Komandirimiz bizim üçün həm döyüş yoldaşı, həm də böyük qardaş idi. Döyüş zamanı özü irəli atılırdı. Döyüşçülərə tərəf çevrilib "ardımca!"- deyərək özü hamıdan irəlidə gedirdi. Noyabrın 8-də Daşaltı döyüş-

lərində qəhrəmancasına şəhid oldu. Vətən müharibəsinin ilk günü ikinci övladı dünyaya gəlmişdi. Hələ üzünü görməmişdi. Həmişə xatirəsi qəlbimdə yaşayacaq".

Ülvi şəhid zabitimiz Surxay Noçuyev haqqında o qədər təsirli danışırdı ki... Bir neçə gün əvvəl Azad Qaradərəlinin "Noçuyev taktikası" adlı hekayəsini oxumuşdum. Eyni zamanda atasının və qardaşının onun vətənpərvərliyindən bəhs edən çıxışlarını dinləmişdim. Zabitimizin qəhrəmanlıq dolu həyatı ilə yaxından tanış idim. Onun haqqında bəzi məlumatları oxuculara çatdırmaq elə yerinə düşər:

Surxay Noçuyev Zəngilanın Məmmədbəyli kəndində dünyaya göz açmışdı. Nə yaxşı ki, şəhid olmamışdan əvvəl doğma kəndi uğrunda gedən döyüşlərdə iştirak etmiş və kəndlərinin azadlığına sevinmişdi. "Noçuyev taktikası" Füzulidən Zəngilana, ordan Qubadlıya, ordan da Şuşaya qədər döyüş yolu keçəndə yarandı. Bu taktikanın iki istiqaməti vardı: ***"Birincisi, atışın sərrast olmalıdır, çalışıb ilk gülldə düşməni vurmalısan ki, o səni vurmağa macal tapmasın. İkincisi özünü və ətrafını qorumalısan".*** O, bu taktikasına sona qədər əməl etmişdi. Daşaltını alıb sıldırım qayalarla Şuşaya qalxanda heç bir yaralını, şəhidi qoyub getməmişdilər. Bütün döyüşçülər bir-birinə qarşı son dərəcə diqqətli idilər. Düşmən səngərinə girəndə də komandir öndə idi. Döyüşçüləri ilə düşmənlə əlbəyaxa döyüşəndə də öndə idi. Hücuma keçən və Şuşa uğrunda döyüşən əsgərlərini qorumaq üçün yenə öndə idi. Şuşanın girəcəyində isə bir işıq dirəyinin arxasında daldalanaraq düşmənə aramsız atəş açıb, hücuma keçən əsgərlərini qoruyub və elə orda da vurulub. Amma əsgərlərini qoruyub. Son nəfəsdə də öz taktikasına əməl edib. Ən böyük arzusu Şuşanın azad olunmasını görmək idi...

Bir dəfə əsgərlərinin qarşısında belə bir sərt çıxış etdi: ***"İllərdir ki, biz hamının yanında başı aşağıyıq. Otuz ildir torpağımız erməni quldurlarının tapdağındadır! Mən qarabağlı olduğuma görə demirəm. Bu gün onsuz da, bütün Azərbaycan qarabağlıdır. Əlli milyonluq dünya azərbaycanlıları da qarabağlıdır!... Hər il***

***fevralın 26-da mən bəlkə neçə dəfə ölüb-dirilirəm. Qisas gününü gözləyirəm! Axı biz əsgərik, Vətəni dardan qurtara bilərik!... İndiyə qədər belə bir imkanımz yox idi. Amma indi bu imkan var. Bax, qarşımızda şərəfli bir yol var: "ya şəhid olacaqsan, ya qazi! Mən istəyirəm ki, hamımız qazi və qalib olaq. Amma bilirsiniz ki, bunların ikisindən də uca şəhidlik zirvəsi var! Kimə qismət olacaq, bilmək olmaz... Amma hamınızdan xahiş edirəm, son dərəcə diqqətli olun! Bu, həm də əmrdir! Ölmək olmaz! ŞUŞANI AZAD ETMƏDƏN HEÇ KİMƏ ÖLMƏYƏ İCAZƏ VERMİRƏM!"***

Bu çıxışdan sonra əsgərləri ilə birlikdə dağın dibində alaqaranlıqda dizlərinin üstündə yemək yeyirlər. Üzünü əsgərlərinə tutaraq qayğıkeşliklə deyir: ***"Möhkəm yeyin. Bəlkə, bu, bizim rahat yeyəcəyimiz son yeməyimizdir. Allah qoysa, bir də Şuşada yeyəcəyik. Bax, uşaqlar, mən sizin komandirinizəm, amma burda sizinlə bir ailə kimiyik. Şəbəkə olmadığı üçün ailənizlə də danışa bilmirsiniz. Bu, bizi daha da doğmalaşdırır. Bəlkə, bu, da taleyin qismətidir. Çalışın ki, vurulmayın. Əgər vurulsanız, yaxınlığınızdakı yoldaşınıza xəbər verin ki, sizi qoyub getməsin. Vurulan yoldaşınızı, yaxud şəhid olan qardaşınızı qəti qoyub getmək olmaz".***

Bəli, o, Şuşaya çatmağa çox tələsirdi. Üzü yuxarı dağlara qalxanda da öndə idi, düşmən səngərinə girəndə də. Axı o, 30 ilin qisasını düşməndən alırdı. Əfsuslar olsun ki, Şuşanın girəcəyinə qədər gələ bildi. Tam azad olunmasını görmədi. Müharibənin bitməsinə bir gün yox, yarım gün qalmış şəhidlik şərbətini içdi.

Şərəfli həyat yolu keçmiş, xalqına məhəbbət, tabeliyində olan əsgərlərinə qayğıkeşlik göstərən belə zabitlərimiz öz ölümləri ilə ölümsüzlüyə qovuşdular. Azərbaycan xalqı onları daim sevgi və ehtiramla yad edəcək. Ülvi öz komandirini xatırladığı kimi...

Ülvi Rüstəmli müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəsur döyüşçü", "Füzulinin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Qubadlının azad edilməsinə görə" "Şuşanın azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## Orman Ələddin oğlu Vəliyev




Azərbaycanımızın hər yeri Vətəndir. Amma anadan olduğumuz, qoynunda böyüdüyümüz balaca məhəlləmiz, kəndimiz, şəhərimiz işğal altında qalanda biz o balaca Vətənimiz üçün darıxdıq. Vətəndə olmayanda könlümüzdən, xatirələrimizdən, xəyallarımızdan keçən o balaca Vətənimiz üçün qəribsəyirdik. Uşaqlıq xatirələrimizlə dolu olan Vətəni istəyirdik. Anamızın Vətənini, böyüdüyümüz Vətəni istəyirdik.

**Nədənsə heç bilmirəm,**
**Bilmirəm nədən olur,**
**Ürəyim darıxanda**
**Hər tərəf Vətən olur.**

Vətən, yollarını görürdüm. Dağın, daşın gözlərim önündə canlanırdı. Sanki gül-çiçəyinin ətrini duyurdum. Yuxularımda səni görürdüm, Vətən! Neçə illərdi cənnət Qarabağımız qan gölünə dönmüşdü. Bu qədər dərdlərin içində büzüşmüşdük, kiçilmişdik. Dərdlər gündən-günə qəlbimizi sıxırdı. Biz böyüdükcə dərdlərimiz də böyüyürdü, Vətən dərdimiz... Biz böyüdükcə böyüyən dərdlərimiz. Dərd torumuzun içində kiçilirdik.

**Qəlbimdə cücərən kədər**
**Hər gün bir qarış boy atdı**
**Nə dincəldi, nə də yatdı,**
**Boyu lap boyuma çatdı.**

Amma düşmən sona qədər bizi hiylə toruna sala bilmədi. Yaralarımız soyumadı, köhnəlmədi. Yaralarımız soyumaq istəsə də, gənc bir şəhid qanı o yaraya yenidən od vurdu. Vətənə bir ovuc torpaq olmaq istəyən nənə-babalarımızın sözündə nə qədər dərin hikmət varmış... Vətən, torpağına qarışaydım, qürbətdə qalmayaydım. Ulularımızdan, böyüklərimizdən bu sözləri eşidə-eşidə Vətəni sevmişik. Elə bu Vətən sevgisinin gücü ilə Qarabağımıza qovuşa bildik. Bu ilahi sevginin gücü bizi Qarabağımıza daha da yaxınlaşdırdı. Qarabağdan uzaqda yaşayan qarabağlılar bu həsrətə dözə bilməzdilər. Sanki uzaqdan bir səs bizi çağırırdı. Bu səs Qarabağımızı bizə əmanət qoyub gedən ulularımızın harayı, narahat ruhların fəryadı idi. Bu səs o torpaqlarda şəhid olan ruhların səsi, ruhların fəryadı idi. İgidlərimiz bu fəryadları, bu ah-naləni yerdə qoya bilməzdilər. Vətən məhəbbəti ilə döyünən qəlbinizlə silahlandınız, igidlər. Vətənin ah-naləsinə dözə bilməyən igidlər. Düşmənə olan sonsuz nifrətinizlə silahlandınız. Həsrətlə bizə boylanan Vətənə baxdıqca ürəyinizdən qanlar keçdi. Vətən adlı dünyamızın bir küncündən həsrətlə bizə boylanan Qarabağımız qəm-qüssədən yük bağlamışdı. Bu ağır dərd yükünü, nisgil yükünü çiyinlərində qaldırmağa cəsarəti olan igidlər. Belə cəsarətli igidlərdən biri də Orman Vəliyev idi.

Orman Ələddin oğlu Vəliyev 1989-cu il mayın 21-də Şuşa rayonunun Malıbəyli kəndində anadan olub. 1992-ci ildə mənfur düşmənlər Şuşanı işğal edəndən sonra doğma yurd-yuvasından didərgin düşərək ailəsi ilə bərabər Bakıda məskunlaşıb. 1995-2006-cı illərdə Bakıda yerləşən Şuşa şəhər 1 nömrəli tam orta məktəbi bitirib. 2006-cı ildə Odlar Yurdu Universitetinin mühəndis iqtisadiyyatı və idarəetmə fakültə-

sinə qəbul olub. 2010-cu ildə universiteti bitirib və elə həmin il həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmətini ön cəbhədə çəkib. 2011-ci ildə ordudan təxris olunub.

Vətən müharibəsində keçdiyi döyüş yolu haqqında Orman özü belə danışdı: ***"Vətən müharibəsinin ilk günündən könüllü olaraq ön cəbhəyə yollandım. Döyüşlərin fəal iştirakçısı olmuşam. Füzuli, Cəbrayıl və Xocavənd istiqamətində gedən döyüşlərdə şərəflə döyüşmüşəm. Xocavənd rayonunda bir erməni hərbi hissəsini cəmi 25 nəfərlə ələ keçirmişdik. Döyüşçü yoldaşlarımla birlikdə həmin hərbi hissədəki düşmən bayrağını endirib, üçrəngli bayrağımızı dalğalandıranda keçirdiyim xoş hissləri heç vaxt unutmaram. Mən həm döyüşçü, həm də sanitar təlimatçı idim. Ona görə də müharibədə mənim aldığım mənəvi yaralar daha çox olub. Demək olar ki, cəbhədə şəhid olan döyüşçü yoldaşlarımın hamısı qollarım üstündə can verib. Dostum, əsgər Aqşin Ağayevin şəhid olması mənə çox ağır təsir etmişdi. Komandirimiz, kapitan Nəcəf Şikarovun qələbədən sonra şəhid olması məni çox sarsıtmışdı. Yaralılarımıza ilkin tibbi yardımı mən göstərmişəm. Noyabrın 3-də Xocavənd rayonunda düşmən tankının açdığı atəş nəticəsində müxtəlif dərəcəli qəlpə yaraları almışam və həmçinin baş-beyin silkələnməsi keçirmişəm. Elə həmin gün də, Xocavənd rayonunda üçtərəfli mühasirəyə düşdük. İki gün mühasirədə qaldıq. Xoşbəxtlikdən, üçüncü gün ətrafa duman çökdü. Nəticədə mühasirədən çıxa bildik. Uzun müddət müalicə almışam. Hal-hazırda normal həyatıma qayıtmışam. Yaralandığım üçün Şuşa uğrunda döyüşlərdə iştirak edə bilmədim. Lakin döyüşə-döyüşə Şuşaya qədər getmək ən böyük arzum idi. Həmin günü həsrətlə gözləyirdim. Bir şuşalı kimi Şuşanı görmədiyim üçün təəssüf hissi keçirirəm. Bu döyüşlərdə iştirak edə bilməsəm də, noyabrın 8-də qəhrəman ordumuz tərəfindən Şuşanın azad olunması xəbərini eşidəndə uşaq kimi sevinirdim."***

Ormanın hörmətlə xatırladığı Vətənə sədaqətlə xidmət edən Vətənin zabit oğlu, "Qarabağ" ordenli şəhidimiz Nəcəf Şikarov haqqında yazmaq, bu qəhrəmanımızı xatırlamaq yerinə düşər. Kapitan Şikarov ordumuzun qələbə qazanmasına heç zaman şübhə etməyən əsl zabit olub. Əsgərləri onu vətənpərvər, torpağına bağlı bir hərbçi kimi xatırlayır. O, Füzuli və Xocavənd istiqamətində gedən döyüşlərdə qərargah rəisi kimi əsgərləri ilə birgə düşmənin başına od ələmişdi. Şəhid kapitanımız Şuşaya qədər şərəfli döyüş yolu keçmişdir. N.Şikarov mühasirəyə düşmüş əsgər, zabit yoldaşlarını xilas etmək üçün özü sürünərək düşmən səngərinə girmiş, əvvəlcə iki ermənini silahla, üçüncüsünü isə əlbəyaxa döyüşdə boğaraq məhv etmişdir. Bu, əsl igidlik nümunəsi idi. Şuşa azad olunduqdan sonra və anasının doğum günündə onun şəhid olması hamını sarsıtmışdı. Şəhidimizin iki körpə balası əmanət qalıb.

Zəfər məşəlini yandırmaq üçün qığılcımdan doğan alova döndü igidlərimizin hər biri. Haqq səsləri ilə düşməni susduran oğullar Qarabağımıza – Şuşamıza sevinc ələdi. Orman da bir Vətən oğlu kimi belə oğullardan biri oldu

Orman Vəliyev müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəsur döyüşçü", "Füzulinin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir.

## Elvin Aqil oğlu Məmmədov



Hər qarışı dəyərli VƏTƏN! Canımız Vətən. ***VƏTƏN BİZİM RUHUMUZ, VƏTƏN BİZİM QANIMIZDIR.*** Vətənimiz Azərbaycanın şanlı, şərəfli tarixi keçmişi, bu günü və işıqlı gələcəyi hər birimizi düşündürür. Axı Azərbaycanımız çətin sınaqlardan keçərək bu günümüzə qədər keşməkeşli yollardan, ağır sınaqlardan keçmişdir. Yurdumuzun bağrı zaman-zaman yadelli işğalçılar tərəfindən dəlik-deşik olmuş, istilalara və talanlara məruz qalmışdır. Əsrlər boyu Azərbaycanımız yaralanmış və sızıldayan yaralarını sağaltmaq üçün övladlarından yardım istəmişdi. Param-parça edilərək bir tərəfi şimal, o biri tərəfi cənub olaraq ikiyə bölünmüş Vətənim. Qarabağ yarası da dərdlərinin üstünə gəldi. İllərlə sənin azadlığını gözləyən övladların isti qucağına sığındı, Vətən! Vətən həsrətinin sazağından üşüyənləri isindirmək üçün övladlarının bəzilərini qoynuna aldın. Torpağına qovuşdular. Siz qeyrətinizlə, cəsarətinizlə sübut etdiniz ki, qorxmaz, igid, sözün döyüş meydanlarında deyən cəngavərlərdir Azərbaycan oğulları. Cəsur və mərd oğulların səni bu dərd içərisində üzülməyə, sınmağa, əyilməyə qoymadı, Vətən! ***GÖZÜMÜZÜN NURU, QƏLBİMİZİN QÜRURU OLDUN, VƏTƏN!***

**Gözümün nurunda sən,**
**Qəlbim qürurunda sən,**
**Elin uğurunda sən.**
**Sən mənimsən, Vətənim,**
**Təsəllimsən, Vətənim!**

**Sən ki varsan, hünərəm,**
**Sənsiz şam tək sönərəm,**
**Torpağına dönərəm.**
**Sən mənimsən, Vətənim,**
**Təsəllimsən, Vətənim!**

Bəli, Vətəndən uzaqlarda olsaq da, Vətənlə təsəlli tapdıq. Qəlbimizdə yuva salan Vətən bizi hünərli etdi. Vətəndən ayrı dözə bilərdikmi? Uzun illərin Vətən həsrətini çəkən böyüklərimizin torpaq həsrətinə ürəkləri dözmədi. Çoxları Qarabağsız rahatlıq tapa bilmədi. Dünyalarını vaxtsız dəyişdilər. İgidlərimiz ata-babalarımızın yurd həsrətinə son qoymaq üçün yumruq kimi birləşdilər. Ərənlərimiz, cəsarətli oğullarımız Vətən yolunda ayaqlarını, qollarını itirməklərinə heç də təəssüflənmədilər. Ona təəssüf etdilər ki, Vətən üçün sona qədər yararlı ola bilmədilər. Elvin də Daşaltıda ağır yaralanaraq Şuşa döyüşlərində iştirak edə bilmədiyi üçün təəssüflənirdi. “Axı nə üçün Şuşanın bir addımlığında yaralandım? Axı nə üçün Şuşa uğrunda gedən döyüşlərə qoşula bilmədim?”

Oğullarımız Vətən yolunda sona qədər döyüşməyi özlərinə borc bilirdilər. Vətəni dərdli görmək istəməyən oğullardan biri də Elvin Məmmədov idi.

Elvin Aqil oğlu Məmmədov 1986-cı ildə Şuşa şəhərində anadan olmuşdur. 1993-2003-cü illərdə Bakı şəhəri, Biləcəri qəsəbəsindəki tam orta məktəbdə təhsil almışdır. 2003-2007-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin inzibati idarəetmə fakultəsini bitirib. 2007-2009-cu illərdə Yevlax hərbi polisində xidmət edib. 2009-cu ildən 2015-ci ilə

qədər Azərbaycan Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzində xilasedici vəzifəsində işləyib. 2020-ci ildə Tovuz hadisələri zamanı könüllü olaraq Şuşa rayon Hərbi Komissarlığına müraciət edib. Oktyabr ayının 1-də döyüşlərə cəlb olunub.

Elvin müsahibəsinə Şuşa rayon Hərbi Komissarlığından özü ilə birlikdə 18 nəfər könüllü yoldaşı ilə birlikdə cəbhəyə necə yollandığından başladı:

***"Biz Şuşa rayon Hərbi Komissarlığından 18 nəfər könüllü döyüşçü yola düşdük. Demək olar ki, bir həftə şuşalı döyüşçü yoldaşlarımla birlikdə vuruşdum. Onlarda olan vətənpərvərlik o qədər güclü idi ki... Hər birimizdə böyük ruh yüksəkliyi vardı. İlk döyüş yolum Füzuli istiqamətində oldu. Oktyabrın 8-də Füzulidə güclü artilleriya hücumuna məruz qaldıq. Mərmi atılan zaman heç kəs özünü düşünmür, döyüşçü yoldaşını qorumaq üçün fədakarlıq göstərirdi. Top mərmiləri düşdükcə bir-birimizi çağırırdıq. Ağır artilleriya hücumundan qorunmaq üçün bizə əvvəlcədən göstərilmiş sığınacaqlarda qoruna bildik. Şükürlər olsun ki, biz bu ağır döyüşdən sağ-salamat çıxdıq. Bir həftədən sonra isə ayrı-ayrı döyüş bölgələrinə göndərildik. Həmin şuşalı döyüşçülərdən beş nəfəri – Ülvi Rüstəmli, Nicat Eyvazlı, Faiq Məmmədli, Fərid Quliyev və Araz Rəhimov ilə birlikdə eyni hərbi hissədə döyüş yolu keçdik. Füzulidən Daşaltı kəndinə qədər keçdiyim döyüş yolu o qədər də asan olmadı. Xocavənddən Daşaltıya gedərkən yağışlı bir gündə dağlardan keçib gedirdik. Həmin gecə səhərə qədər yağış yağdı. Lakin biz Daşaltıya yolumuza davam edirdik. Səhər saat 6-da Daşaltı kəndinə çatdıq. Saatlarla yağışın altında qaldığımız günlər, torpağın üstündə yatdığımız gecələri xatırladıqca düşünürəm ki, bu qədər əzmkarlıq və dözümün olmasını nə ilə izah etmək olar? Məncə, Vətənə qovuşmaq, torpaqları azad etmək arzusu bizə bu dözümü verirdi. Uğrunda döyüşüb azad etdiyimiz torpaqlara ayaq basdıqca bütün çətinlikləri unu-***

***durduq. Elə bil ki, bir aza da güc toplayırdıq. Gücümüz daha da artırdı. Bu hissləri gərək yaşayasan. Mərmilər atıldıqca, bir tərəfdən qorxu hissi keçirdikcə digər tərəfdən qorxmazlıq hissi yaranmışdı. Qorxmazlıq, cəsurluq nümunəsi olan tabor komandirimiz, mayor Elçin Takuzadə bizə əsl örnək idi. Komandirimizin düzgün taktikası nəticəsində biz Daşaltı əməliyyatından sağ-salamat çıxa bildik. Daşaltı döyüşlərində mən, Nicat Eyvazlı və Faiq Məmmədli eyni istiqamətdə döyüşürdük. Digər istiqamətdə isə şuşalı yoldaşlarımdan Araz Rəhimov və Ülvi Rüstəmli də döyüşürdü. Bu döyüşdə Nicat yaralandı. Bir qədər sonra yaxın məsafəyə düşən minomyot zərbəsindən mən də yaralanaraq huşumu itirdim. Döyüşçü yoldaşlarım məni döyüş meydanından çıxartdılar. Füzülinin Əhmədbəyli kəndindəki qospitala yerləşdirildim. Bir müddət burda ilkin yardım aldıqdan sonra Bakıya qospitala gətirildim. Təəssüflər olsun ki, noyabrın 3-ü mənim sonuncu döyüşüm oldu. Şuşanın yaxınlığında yaralanmağım mənə çox pis təsir etdi. Yaralanmasaydım, yəqin ki, noyabrın 8-də mən də uşaqlıqdan bəri arzusunda olduğum Şuşa torpağına ayaq basan igid oğulların sırasında olardım. Amma onunla təsəlli tapıram ki, Şuşanın gözəl mənzərəli Daşaltı kəndini, dağlar qoynunda yerləşən Şuşa şəhərini uzaqdan da olsa görə bildim. Daşaltı çayını, Topxana meşəsini görə bildim. Doğma Vətənimin saf havasını nəfəsimə çəkə bildim. Noyabrın 8-də Şuşanın azad olunması xəbərini qospitalda eşitdim. Bu xəbər mənə bütün çətin əməliyyatları və ağır yaralarımı unutdurdu”.***

Elvin tabor komandiri, mayor Elçin Takuzadə haqqında ağız dolusu danışırdı. Daşaltı əməliyyatında xüsusi şücaət göstərmiş mayor Elçin Takuzadə haqqında oxucularımıza məlumat verməyi özümə borc bildim. İlk döyüşlərinə Qaraxanbəyli kəndindən başlayıb, Füzuli rayonunun bir neçə kəndində rəhbərlik etdiyi taborla birlikdə zəfər çalaraq həmin yerləri işğaldan azad edib. Şuşa şəhərinin alınması üçün giriş

qapı rolunu oynayan, strateji əhəmiyyət daşıyan Daşaltı kəndinin alınması qəhrəman döyüşçü, mayor Elçin Takuzadəyə tapşırılmışdı. Bir neçə dəfə ağır yaralansa da, döyüşü israrla davam etdirir. Məhz onun rəhbərliyi ilə son dərəcədə çətin relyefdə yerləşən Daşaltı kəndi noyabrın 4-də işğaldan azad edildi. Mayor Elçin Takuzadənin rəhbərlik etdiyi tabor Daşaltıya ilk daxil olan tabordur. Daşaltı əməliyyatı məhz belə igid oğullarımızın sayəsində uğurla nəticələndi. Məhz buna görə də mayor Elçin Takuzadə "Daşaltı fatehi" adını almışdı.

Hünər meydanında tükənməz cəsarəti, mərdliyi ilə tarix yazan qeyrətli oğullarımız! Vətənin hər daşına, qeyrət yaddaşına tarix yazdınız. Yurdumuzda qalibiyyət Günəşi parladı. Bu qələbədə Elvin Məmmədovun da payı oldu.

Elvin Məmmədov müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəsur döyüşçü", "Füzulinin azad edilməsinə görə", "Qubadlının azad edilməsinə görə", "Şuşanın azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

# Araz Ələmşah oğlu Rəhimov



VƏTƏN şəhid ruhlarının torpaqlarımıza hopan qan yaddaşından başlayır.- VƏTƏN sərhədlərimizin üstündə nigaran dolaşan əziz ruhlarımızdan başlayır. Vətən gənc şəhid analarının qara kəlağayılarının sərhədlərimiz üzərində yellənən uclarından başlayır. ***VƏTƏN QAZİLƏRİMİZİN CAN PARÇALARININ VƏTƏN TORPAQLARINA QARIŞIB VƏTƏNLƏŞƏN ADINDAN BAŞLAYIR.*** Vətən şəhid övladlarının nisgilli baxışlarının dikildiyi sərhəd dirəklərindən başlayır. Vətən sərhədləri ürəyimizin iç damarlarıdır. Onları möhkəm səddlərlə qurmaq gərəkdir. Ürəyimiz Vətən. ***VƏTƏN ÜRƏYİMİZİN DAMARIDIRSA, ÜRƏYİMİZ VƏTƏNİ QORUYAQ.*** Bəs deyirlər, Vətən sərhəddən başlayır. Vətən sərhədsiz olmaz. Amma neçə illərdi Vətənimiz öz sərhədindən başlaya bilmir.

***Sərhəddən başlasa kiçik olardı,***
***Zəngəzur, Göyçəsiz qalıb solardı,***
***Təbrizin gözləri yaşla dolardı,***
***Zəngəzur, Göyçədən başlayır Vətən,***
***Dərbənddən, Təbrizdən başlayır Vətən.***

Öz torpaqları ilə sərhəd Vətənim! Təbrizi, Zəngəzuru, İrəvanı, Göyçəsi, Dərbəndi sərhədindən kənarda qalan Vətən. Bu

dərdlərimiz azmış kimi, hələ Qarabağ dərdi də dərdlərimiz üstünə gəlmişdi. İgidlərimiz Qarabağ dərdimizin də bu dərdlərin üstünə gəlməsinə dözə bilmədilər. Oğullarımız birdəfəlik əlac etmək üçün ayağa qalxdılar. Vətənimiz neçə illərdi ki, öz əzəli sərhədlərindən başlaya bilmir. Çox kiçilib, daralıb sərhədləri Vətənimizin. Hər bir Vətən oğlu sinəsini hərbə meydan etdi və "Vətən sərhədləri məndən keçir" – dedilər.

***Vətən sərhədləri sinəmdən keçir,***
***Sərhəddən yox, Vətən bil, məndən keçir.***

***Qorqudun sazından başlanır Vətən,***
***Dərdli Arazımdan başlanır Vətən,***
***Şəhid məzarından başlanır Vətən,***
***Həm məndən, həm səndən başlanır Vətən,***
***Ürəyin telindən başlanır Vətən.***

***Xəlil Ulutürkdən başlanır Vətən,***
***Arazın dərdini ölüncə çəkən***
***Məmməd Arazından başlanır Vətən,***
***Şuşada gülündən başlanır Vətən,***
***Xarı bülbülündən başlanır Vətən!***

Bəli, Şuşada xarı bülbülündən başlanır Vətən! Qarabağsız qalan Vətənim öz Qarabağına, Şuşasına, xarı bülbülünə qovuşdu. Qarabağımızı Vətənə qovuşduran igidlər. Bizi qarabağlı etdiyiniz üçün sizə borcluyuq. Qarabağda sönmüş ocaqlarımızı yandıran oğullar. Vətən dərdinə əlac etdiniz. Kədərimizə, dərdimizə sevinc qatdınız, kədərimizdə qürur yaşatdınız. Qəm yaşlarımızı qurutdunuz. İllərlə qəm tökən gözlərimizdən sevinc yaşları axıtdınız. Hər biriniz qəhrəmansınız. Belə igid oğullardan biri də Araz Rəhimovdur.

Araz Ələmşah oğlu Rəhimov 1988-ci il aprelin 29-da Bərdə rayonunda şuşalı ailəsində anadan olub. 1994-cü ildə Telman Qurbanov adına Bərdə rayonu Otuzikilər kənd məktəbinin birin-

ci sinfinə daxil olub. 2000-ci ildə imtahan verərək Bakı şəhərində yerləşən fizika, riyaziyyat və informatika təmayüllü litseyə qəbul olunub. 2004-cu ildə akademik Z.Əliyeva adına Bərdə rayon 8 nömrəli orta məktəbi bitirib. 2005-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) iqtisadiyyat, beynəxalq iqtisadi münasibətlər və menecment fakültəsinə daxil olub. 2009-cu ildə həmin akademiyanı "İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi" ixtisasının bakalavr dərəcəsini bitirib. 2009-cu il iyulun 2-də hərbi xidmətə çağırılıb. Xidməti borcunu ön cəbhədə atıcı kimi yerinə yetirib. 2010-cu il iyulun 1-də əsgəri xidmətini başa vurub.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinə könüllü olaraq qoşulub. Dekabrın 9-na qədər döyüş yolu keçib. Döyüşlərin ilk günündən son gününə qədər baş atıcı kimi iştirak edib. Füzulidən Şuşaya qədər uzun bir döyüş yolu keçib.

Keçdiyi ağır döyüş yolları haqqında Araz Rəhimov belə danışır: ***"Sentyabr ayının 27-dən Şuşa rayon Hərbi Komissarlığına müraciət etsəm də, oktyabrın 1-nə qədər komissarlıqdan cavab gəlmədi. Dörd gün ərzində ürəyim müharibədə iştirak etmək, ön cəbhədə olmaq arzusu ilə döyünürdü. Nəhayət, oktyabrın 1-də Şuşa rayon Hərbi Komissarlığından mənə zəng gəldi. Elə həmin gün də cəbhəyə yola düşdüm. Bir neçə gün Ağcəbədidə əsgərlərin toplanma mərkəzində qaldıqdan sonra bizi Füzulinin Şükürbəyli kəndinə göndərdilər. Burda bölgü aparıldı. Təsadüfən bölgü zamanı on il əvvəl xidmət etdiyim hərbi hissəyə düşdüm. Qəribə hisslər yaşayırdım. Bir vaxtlar əsgəri olduğum hərbi hissədən döyüşə qatılırdım. Qaraxanbəyli istiqamətində bir neçə döyüşdə iştirak etdim. Bölük komandirimiz Amil Hüseynovun komandanlığı altında ağır və məsuliyyətli bir döyüşün iştirakçısı oldum. Bu döyüşdə qalib gəldik. Mövqelərimizi təhvil verib, geri qayıdanda əvvəlki döyüşdə həlak olmuş şəhidimizlə qarşılaşdım. Onun nəşini döyüş meydanından çıxardım. Bu hadisəni unuda bilmirəm. İlk dəfə hücuma keçdiyimiz***

*anlarda çətinliklər çəkirdim. Amma vətənpərvərlik hissi güclü olduğundan demək olar ki, qorxu hissi yox idi. Bütün döyüşlər boyu qadağa olsa da, hərəkətlərimə maneçilik törətdiyindən dəbilqə və güllə keçirməyən jiletsiz vuruşurdum. Füzuli və Hadrut istiqamətində vuruşduqdan sonra bir gün Tuğ kəndində gecələdik. Daha sonra Çaxmaq meşəsində mövqe tutduq. Bölük komandirimiz Amil Hüseynov döyüşdən əvvəl fikirlərini bizimlə bölüşdü. Şuşa uğrunda döyüşün əhəmiyyətindən və çətinliyindən danışdı. Qələbə qazanacağımız halda strateji əhəmiyyətli qədim qalamız Şuşanı düşməndən azad edəciydik. Digər tərəfdən də komandirimiz bu əməliyyatın çətinliyini, itkilərsiz, mümkünsüz olduğunu da bizə bildirdi. Qeyd elədi ki, bizə könüllü şəkildə döyüşə qatılmaq istəyənlər lazımdır. Təbii ki, mən də könüllü şəkildə qarşıya çıxdım. Döyüş yoldaşlarım dörd övlad atası olduğumdan məni döyüşlərə aparmamağı komandirdən xahiş etdilər. Komandirin də məni döyüşlərə aparması ürəyindən deyildi. Amil Hüseynov bizimçün qardaş, bizə ruh verən, döyüşlərdəki uğurumuzun memarı olan şəxs idi. Məhz onun zəkası, düzgün döyüş tapşırıqları sayəsində qələbələr qazanmış, eyni zamnda böyük itkilərdən də xilas olmuşduq. Komandirimizin məni döyüşə aparmamaq istəməməsinə sərt şəkildə reaksiya verdim. Bildirdim ki, məni döyüşə aparmaq istəməyən zabiti özüm güllələyəcəm. Bunu dediyim anda kimsə arxadan qolumdan yapışdı. Tanımadığım daha yüksək rütbəli zabit idi. Sonra bildim ki, korpusun cinayət işlərinə baxan hüquqşünasıdır. Mənə dedi ki, özünü təqdim et. Özümü təqdim etdikdən sonra bildirdi ki, döyüşə getməyi çox istəyirsən? Dedim, əlbəttə, istəyirəm. Yenə sual verdi ki, belə təhlükəli bir döyüşdə iştirak etməyi arzulayırsan? Dedim ki, dədəsinin yarımçıq işini tamamlamaq hər oğula qismət olmur. Bu cür tarixi şans əlimə düşüb. Əlini çiynimə qoydu və alnımdan öpərək dedi ki, sənin kimi düşünənlərimiz çoxdursa, biz Şuşanı azad edəciyik.*

*Daşaltı əməliyyatı çox ağır döyüş oldu. Bölüyümüzün çox hissəsi şəhid və qazi oldu. Bölük komandirimiz yaralandı. Şü-*

***kür ki, indi sağdır. Bütün uğurlarımıza görə bölük komandirimiz Amil Hüseynova borcluyuq. Komandirimizin ağlı və zəkası sayəsində ən ağır əməliyyatdan uğurla çıxa bilmişik. Demək olar ki, dostlarımızın əksəriyyəti burda şəhid oldu. Bu haqda danışmaq mənə çətindir, çox çətindir. Gizirimiz Kərimli Əhmədin və Göyçaydan Qüdrət adlı əsgər yoldaşımızın yanımda şəhid olmasını heç unuda bilmirəm. İlkin adlı yaralı əsgərimizlə iki gün meşədə qaldıq. Bölük komandirimizin yaralanması, çoxlu şəhid və yaralılarımızın olması demək olar ki, bölüyüyümüzün parçalanmasına səbəb oldu. Yaralı əsgərimizə kömək etmək lazım idi. Buna görə də başqa bölüklərdən kömək üçün axtarışa çıxdım. Kömək gəldi və yaralı əsgərimizi götürdük. Daşaltıda bir gün gecələyəndən sonra Şuşaya qalxdıq. Nə qədər itkilərimiz olsa da, bütün əməliyyatlara gülə-gülə qatılırdıq. Hamı çalışırdı ki, öndə getsin. Heç kim döyüşdən yayınmırdı. Hamı çalışırdı ki, düşmənə ilk zərbəni özü vursun. Laçın yolunu nəzarətdə saxlayan təpənin azad edilməsi uğrundakı əməliyyat son döyüşümüz oldu. Təəssüf ki, burda şəhid və yaralılarımız çox oldu. Yaralı və şəhidlərimizin qanı bahasına biz o torpaqları azad etdik. Laçın yolu tam nəzarətə götürüldü."***

Vətən üçün, el üçün, torpaq üçün yanan oğullar! Vətənin azadlığı, gələcəyi uğrunda döyüşmək hər birinizin amalı oldu. Bu çətin yoldan dönmədiniz. El yolunda şam kimi yanaraq Vətənin xilaskarı oldunuz. Nə təhlükə, nə ölüm sizi qorxutmadı. Vətən sevgisi işığı ilə yol gedən ərənlərimiz! Mətinliyiniz, mübarizliyiniz sizin silahınız oldu. Araz da öz cəsarəti, mübarizliyi ilə seçilən oğullardan idi.

Araz Rəhimov müharibə meydanlarında göstərdiyi şücaətə görə "Füzulinin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə" və "Qubadlının azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## Yasin Məhəddin oğlu İbrahimov



Ruhumuzun nisgili ***VƏTƏN!*** Dərdimizə məlhəm ***VƏTƏN!*** Sevginə bələnib həsrətinlə yaşasaq da, sənə qovuşacağımız günün vüsalını son qoyulacağı günə çox ümid edirdik. Həyatımızın özü ***VƏTƏN!*** Ürəyimizin bir parçası ***VƏTƏN!***

Tarix öz səhifələrində bütün hadisələri, bütün insanları saxlaya bilmir. Amma qəhrəmanlıq dolu həyatı olan igidlərin adı tarixin səhifələrində əbədi qalır. Vətən müharibəsində iştirak edən, düşmənə qarşı cəsarətlə vuruşan igidlərimizin hər biri tarixin səhifəsində əbədi qalacaq. İllərdir ki, yolları üzümüzə bağlı qalan Vətənə gedə bilmədiyimiz üçün həsrətdən qovrulurduq. Yuxularımızda, xatirələrimizdə hər gün Vətənə gedib-gəlirdik. Vətənsizlik bizi yandırıb-yaxırdı. Ürəyimizə süzülən saf qanımız kimi heç ürəyimizdən çıxmadın, Vətən! Amma inanırdıq sənə qovuşacağımız günə, Vətən! Gedə bilmədiyimiz Vətəni düşündükcə qəlbimiz alovlanırdı. Bu həsrət alovu oğullarımızın da qəlbini yandırırdı. İnanırdıq ki, ərənlərimiz səni düşmən əsarətindən xilas edəcək. Elə igidlərimiz də sənin həsrətini çox çəkirdilər. Öz ayağını itirən qazi Vətəni ayağa qaldırdı. Öz qolunu itirən oğul Vətənin qolundan tutdu.

## *KÖNLÜMÜZ YAMAN İSTƏYİRDİ SƏNİ, VƏTƏN!*

**Səni elə arzulayırdıq, Vətən,**
**Çəmənlərdə çiçək kimi.**
**Bulaqların başındakı**
**O həsrətli ürək kimi.**
**Səni elə istəyirdik**
**Dərələrdə çaylaq kimi,**
**Zirvələrin qucağında**
**Yaşıllaşan yaylaq kimi.**
**Sənə elə can atırdıq**
**Kamandan çıxan ox kimi...**

Gözümüzə kədər çökürdü. Üzümüz utanırdı sənə gedən yollara baxdıqca, Vətən!

Yasin Məhəddin oğlu İbrahimov 1990-cı il iyulun 16-da Şuşa şəhərində anadan olub. Məlum hadisələrdən sonra ailəsi Ağcəbədi rayonunda məskunlaşıb. 1996-2008-ci illərdə Ağcəbədi rayon 1 nömrəli tam orta məktəbi bitirib. Elə həmin il hərbi xidmətə yollanıb. "Murovdağ postu" adlanan yerdə xidmət edib. Vətən müharibəsi başlayanda hərbi xidmətə yollanmaq üçün Şuşa rayon Hərbi Komissarlığına müraciət edib. 2020-ci il oktyabrın 1-də döyüşlərə yola düşüb.

Döyüşlər haqqında Yasin özü belə danışdı: ***"Döyüşlərin ilk günündən həmlə əməliyyat taborunda xidmətə başladım. İlk döyüş yolum Füzulidən başladı. Cəbrayıl, Xocavənd, Hadrut və Şuşaya qədər uzun döyüş yolu keçdim. Füzuli rayonunun Qarakollu kəndində gedən ağır döyüşlərdə iştirak etmişəm. İştirak etdiyim bütün döyüşlər yaddaşımda qalıb. Lakin Füzuli rayonunun Qarakollu və Şuşanın Daşaltı kəndindəki ağır döyüşlər yaddaşıma daha çox həkk olunub. Bu çətinlikləri dilə gətirib danışmaq belə, istəmirəm. Həmin döyüşlərdə itkilərimiz çox olmuşdu. Hələ də gözümün qarşısındadır, heç vaxt unuda bilmirəm. Ona görə də, o döyüşlər***

***haqqında heç nə danışa bilməyəcəyəm. Oktyabr ayının 9-da başımdan yaralandım. Güllə alnımı siyirmişdi. Yaralanan gün pusquya düşmüşdük. Çətinliklə olsa da, pusqudan çıxa bildik. Elə burdaca ilkin yardım aldım, başımı sarıdılar. Qospitala getmək istəmədim. Döyüşləri davam etdirmək istəyirdim. Şəhid olmuş döyüşçü yoldaşlarımın əvəzinə də döyüşmək istəyirdim. Döyüş bitəndən sonra qospitala yerləşdirildim. Kəllə-beyin silkələnməsi aldığım barədə həkimlər mənə məlumat verdilər.***

***Atam Məhəddin İbrahimov Birinci Qarabağ müharibəsində vuruşub. O, Şuşa və Laçında döyüş yolu keçib.***

***Tabeliyində olan hərbi qulluqçuların yaxın dostu, cəsur komandirimiz mayor Ziya Kazımov haqqında da danışmaq istəyirəm. Komandirimiz Ziya Kazımov həmlə taborumuzun döyünən ürəyi idi. Deyərdim ki, komandirimizin peşəkarlığı və səyi nəticəsində biz daha çox itkilər vermədik. Çox ağır döyüşlərdən uğurla çıxa bildik.”***

Mayor Ziya Kazımovun xidmətləri barədə oxucularımıza bir az da məlumat vermək istərdim. Mayor Kazımovun rəhbərlik etdiyi hərbi hissə Hadruta daxil olan ilk hərbi hissələrdən olub. Hadrut uğrunda döyüşlərdə həmlə taborunun komandiri Ziya Kazımovun xidmətləri böyük olmuşdur. Cəbrayıl, Füzuli, Hadrut, Şuşa uğrunda döyüşlərdə böyük şücaət göstərib. Cəbrayıl yolunun üzərində yerləşən, düşmən üçün xüsusi əhəmiyyətli mövqe hesab olunan ərazinin və Arazboyundakı mühüm mövqelərin ələ keçirilməsinə rəhbərlik edib. Horadiz və Nüzgar kəndləri istiqamətində düşmənin möhkəmləndirilmiş mövqelərinin bir günə darmadağın edilməsi əməliyyatında böyük rolu olub. Bir çox kəndlərin düşməndən azad edilməsini və mühüm əhəmiyyətli yolların ordumuzun nəzarətində saxlanılmasını təmin edib. 44 günlük müharibə ərzində Ziya Kazımov düşmənin yüzlərlə canlı qüvvəsi və texnikasını məhv etmişdir. Onun rəhbərlik etdiyi

hərbi hissə Şuşanın azad edilməsində də fərqlənib. Şuşa azad olunduqdan bir gün sonra noyabrın 9-da yaralanıb.

Bəli, Vətən oğullarının hər biri – zabitlərimiz, gizirlərimiz, əsgərlərimiz, bir sözlə, rütbəsindən asılı olmayaraq bütün igidlərimiz Vətən müharibəsində bir yumruq kimi birləşməyi bacardılar. Vətəni işıqlı sabaha aparmaq üçün əzmlə döyüşdülər, şəhid, qazi olmağı özlərinə şərəf bildilər.

Yasin İbrahimov müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəsur döyüşçü", "Füzulinin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şuşanın azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## Sәlahәddin Azay oğlu Mirzәliyev



İnsan mәnәviyyatını zәnginlәşdirәn mühüm әxlaqı keyfiyyәtlәrdәn biri dә Vәtәn sevgisidir. Vәtәni sevmәk sadәcә torpağını sevmәk deyil, Vәtәnin daşını, havasını, suyunu müqәddәs bilәrәk, bütün varlığı ilә ona bağlanmaqdır. ***ӘGӘR VӘTӘNİMİZİN HİMNİ OXUNANDA GÖZLӘRİMİZ YAŞARIRSA, O YAŞ ÖZÜ VӘTӘN SEVGİSİDİR.*** Analarımızın laylası qәlbimizi kövrәldirsә, bu kövrәklik Vәtәn sevgisidir. Vәtәn sevgisi әn pak sevgidir. Soykökümüzlә, keçmişimizlә sәnә bağlıyıq, Vәtәn! Vәtәnә bağlılıq vәtәnpәrvәrliklә sәciyyәlәnir. Vәtәnә bağlılıq mәnsub olduğun xalqa bağlılıqdır. Әgәr mәnsub olduğun xalqın varlığı ilә fәxr edirsәnsә, onun mәhәbbәtini bir mәşәl kimi öz qәlbindә yandırırsansa, onun dәrdini öz dәrdin bilәcәksәn, onun uğrunda hәmişә mübarizә aparacaqsan. Vәtәnlә bağlı belә bir kәlamı xatırlatmaq yerinә düşәrdi: ***"Vәtәn xalqın hәm beşiyi, hәm qidası, hәm anası, hәm dә son mәnzilidir"***.

Qarabağımızı azad edәn oğullarımız vәtәn mәhәbbәtini bir mәşәl kimi qәlblәrindә yandırdılar. Vәtәn cәfakeşi olan rәşadәtli oğullarımız hünәr meydanına atıldılar.

***Ərənlərin tarix yazdı daşına,***
***Ellər həsəd qədim, ulu yaşına,***
***Can, ay Vətən, dolanaram başına,***
***Qara bulud yollarından çəkildi,***
***Gülüstana yenə güllər əkildi.***

Vətəninin, xalqının azadlığı uğrunda mübarizəyə qalxan Vətən oğullarının hər birinin həyat amalı "Öncə Vətən!" oldu. Öncə Vətən, xalq və sonra özünü düşünürsənsə, bu Vətənin layiqli övladısan. Səlahəddin Mirzəliyev də Vətənin belə oğullarından oldu.

Səlahəddin Azay oğlu Mirzəliyev 1992-ci il martın 3-də Ağcabədidə şuşalı ailəsində anadan olub. 1998-2009-cu illərdə Şuşa rayon Malıbəyli kənd 2 nömrəli orta məktəbdə təhsil alıb. 2010-cu ildə həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmətini Daşkəsən rayonunun Kəlbəcərlə sərhəd hissəsində yerinə yetirib.

Səlahəddin döyüş yolu haqqında ətraflı danışdı: ***"2020-ci il oktyabrın 1-də könüllü olaraq Vətən müharibəsinə yola düşdüm. İlk döyüş yolum Cəbrayıl istiqamətindən başladı. Cəbrayılın kəndləri uğrunda gedən döyüşlərin hamısında iştirak etmişəm. Adını unutduğum kəndlərin birinin alınması uğrunda ölüm-dirim savaşımız daha çox yaddaşımda qalıb. Ağır döyüşlərdən sonra kəndi ala bildik. Düşməndən azad etdiyimiz kəndi təhvil vermək üçün müdafiə birliyini gözləyirdik. Demək olar ki, iki gün həmin kəndin dağlarında yatdıq. Artıq yeməyimiz və suyumuz tükənmişdi. Nəhayət, müdafiə birliyi gəldi və biz kəndi təhvil verdik. Yenidən sürsat və ərzağımızı toplayaraq digər döyüş tapşırığımızı yerinə yetirmək üçün yola düşdük. Cəbrayılın başqa bir istiqamətinə gəldik. Gəldiyimiz yerdə ermənilərin hərbi hissəsi var idi. Bizdən əvvəl bu ərazidə ağır döyüşlər olmuşdu. İgid oğullarımız xeyli düşmən əsgərini məhv etmişdi. Biz ora çatanda artıq gecə idi. Həmin hərbi hissədə gecələməli idik. Çox yorğun olduğumuz üçün, hətta yemək yeməmiş yatma-***

***ğa qərar verdik. Hərbi hissənin otaqları və ətrafı düşmən cəsədləri ilə dolu idi. Buna görə də nə qədər yorğun olsaq da yata bilmirdik. Lakin az da olsa, yatıb-dincəlmək lazım idi. Çünki səhər tezdən döyüş bölgəsinə piyada yola düşməli idik. Nəhayət, səhər açıldı və biz yola düzəldik. Yol boyu qarşımıza çıxan və pərən-pərən düşmüş, çaşqın vəziyyətdə qalmış düşmən qüvvələri ilə qarşılaşırdıq. Düşmən əsgərləri öz bölüklərindən ayrı düşdüyü üçün onlarla döyüşmək asan idi. Yol boyu onlarla düşmən əsgərini gəbərtdik. Ətrafa qaranlıq çökəndən sonra gizlincə mövqelərimizi tutduq və səhərin açılmasını gözlədik. Lakin digər bir mövqedə düşmən əsgərlərinin səsini eşidirdik. Dillərini başa düşməsək də, qışqırtılarından, əsəbi halda bir-birləri ilə danışıqlarından hiss edirdik ki, çaşqın vəziyyətdədirlər. Səhər açılan kimi komandirin əmri ilə həmin mövqeyə hücum etdik. Qısa müddət ərzində bu döyüşdə qalib gəldik. Düşmən əsgərləri döyüşə girmədən qorxuya düşüb qaçırdılar. Çünki düşmənin daxilində, yerləşdiyi mövqenin lap yaxınlığında olacağımıza inanmamışdılar. Bizi öz yanlarında görən düşmən vahiməyə düşmüşdü. Artıq kəndə daxil olduq, hər tərəfi yoxladıq. Kənddə heç kim qalmamışdı. İki hərbi maşın, ağır mərmilər və digər sürsatları qoyub qaçmışdılar. Bir neçə günün yorğunluğundan sonra həmin günü kənddə rahat gecələdik və istirahət etdik. Biz artıq əmr almışdıq ki, səhəri gün Qubadlı uğrunda döyüşlərdə iştirak etməli idik. Düşmənə tutarlı cavab vermək üçün yaxşı istirahət etmək və güc toplamaq lazım idi. “ƏSGƏR MARŞINDA OLDUĞU KİMİ YASTIĞMIZ VƏTƏN DAŞI, YORĞANIMIZ QAR İDİ.” Bu sözlər mənə o qədər doğma gəlirdi ki... Azad etdiyimiz Vətən torpağında istirahət etmək bütün yorğuluğumuzu çıxartdı. VƏTƏN DAŞINA BAŞ QOYMAQ NƏ QƏDƏR XOŞ İDİ. Səhəri gün döyüşlərə qatılmaq üçün Qubadlı istiqamətinə gedən yolla piyada yola düşdük. Maşınla getmək təhlükəli idi. Düşmən bizi görə bilərdi. Nə qədər ehtiyatlı hərəkət et-***

*sək də, düşmən bizim hərəkət istiqamətimizi müəyyən etmişdi. Minomyot və ağır artilleriya qurğuları vasitəsilə atəş açmağa başladılar. Demək olar ki, atəş səsləri dayanmadan gecəyə qədər davam etdi. Belə vəziyyətdə biz atəş açmırdıq və özümüzü qorumağa çalışırdıq. Buna baxmayaraq, kəşfiyyat qrup komandirimiz və iki əsgərimiz yaralandı. Mərmilər yağış kimi yağırdı. Yanımızda o qədər partlayışlar olurdu ki, bir-birimizi eşidə bilmirdik. Amma Allah bizə güc verirdi. Nə aclıq hiss edirdik, nə də yorğunluq. Fürsət düşdükcə isə irəliləyirdik. Artıq düşmən mövqelərinə yaxınlaşmışdıq. Üç qrup şəklində fərqli istiqamətlərdən hərəkət edirdik. Gecə sakitlik çökdü. Səhərə kimi mövqe tutduq və sübh tezdən döyüşə girdik. Ağır döyüş başladı. Düşmən bizdən nə qədər çox olsa da, bizdə ruh yüksəkliyi vardı. Düşmənə gələn köməyin qaçdığını gördükdə ruh yüksəkliyimiz daha da artırdı. Düşmən geri çəkilirdi. Kömək üçün gələn maşınlara minib qaçırdılar. Birinci həmlə etdiyimiz kənd artıq boşalmışdı. Qarşımızda gedən tankçımız, xalam oğlu Ramil Vəliyev idi. Düşmənin bir tankını, bir hərbi və üç minik maşınını zərərsizləşdirmişdi. İrəlilədikcə qarşımıza çıxan düşmən əsgərini vururduq, təslim olanları isə əsir götürürdük. Əsir götürdüyümüz düşmən əsgərlərini isə arxamızca gələn qruplara verirdik. Düşmən xeyli geri çəkilsə də, artilleriyadan atəşlərinin ardı-arası kəsilmirdi. Elə bir vəziyyətə düşmüşdük ki, həm döyüşürdük, həm də gələn mərmilərdən qorunmağa çalışırdıq. Snayperçi olduğum üçün təpədə müşahidə aparırdım. Qəflətən tank əleyhinə raketin üstümüzə gəldiyini gördüm. Xoşbəxtlikdən, raket başımız üstündən keçib, arxamızdakı hündür dağa dəydi. Amma təhlükəli olsa da, yenə də irəli getmək üçün fürsət axtarırdıq. Xeyli məsafəni irəlilədik. Təəssüflər olsun ki, ikinci raketdən yayına bilmədim. Raket zərbəsinin təzyiqi məni irəli tulladı. Başımda çox güclü ağrı hiss etdim. Ayağa durmaq istədim, dizlərimin ağrısından qalxa bilmədim. Yarım saata qədər gözlə-*

*dim. Bir müddət döyüşçü yoldaşlarımın danışıqlarını da eşidə bilmirdim. Əlimlə işarə etdim ki, vəziyyətim yaxşıdır, amma dizlərim ağrayır. Çətinliklə olsa da, piyada getməyə davam etdim. Artıq digər kəndə yaxınlaşırdıq. Həmin kənddə mövqe tutub səhərə qədər gözləməyə məcbur idik. Gecə ayaqlarımdakı ağrılar şiddətləndi. Döyüşçü yoldaşım məni çiyninə alıb, tibbi maşına qədər apardı. Məni qospitala yerləşdirdilər. Üç gün qospitalda müalicə aldım. Artıq yavaş-yavaş yeriyə bilirdim. Döyüşə qayıtmaq istəyirdim. Dördüncü gün də məni qospitalda saxladılar. Mən təkidlə döyüşə qayıtdım. Döyüşçü yoldaşlarımdan ayrılmaq istəmirdim. Öz hərbi hissəmizə gələndə başqa bir əsgərin məni əvəz etdiyini gördüm. Könüllü olduğum üçün məni başqa bir qrupa göndərdilər. Ayağımdakı ağrılara görə müdafiə qrupuna göndərmişdilər. Amma öz istəyimlə yenidən hücum qrupuna qoşuldum.*

*Döyüşə gəldiyim ilk günlərdən könüllü olaraq kəşfiyyat qrupuna qoşulmuşdum. General-mayor Mais Bərxudarovun müavini könüllülərdən ibarət kəşfiyyat qrupu seçirdi. Yaxın dostum Rahib Məmmədovla birlikdə on nəfərlik kəşfiyyat qrupuna seçildik. Cəbrayıl və Qubadlı istiqamətlərində bir çox kəşfiyyat əməliyyatlarında iştirak etmişəm. Demək olar ki, bütün kəşfiyyat əməliyyatlarımız uğurla keçdi. Kəşfiyyatçı kimi görəcəyimiz əsas iş kəşfiyyatçı dili ilə desək "gecələr düşmən mövqelərinə sızırdıq, səhəri gün isə topladığımız məlumatlar əsasında döyüşlərə girirdik". Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçıları ilə birlikdə mən də dəfələrlə kəşfiyyat qrupunun əməliyyatlarında iştirak etdim.*

*Bir şuşalı kimi Şuşa döyüşlərində iştirak etməyi çox arzulayırdım. Təəssüflər olsun ki, Şuşada ola bilmədim. Noyabrın 8-də Qubadlının Gorusla sərhəd hissəsində gedən şiddətli döyüşlərdə ağır yaralandım. 22 nəfər döyüşçü ilə düşmənin üç tağımı üz-üzə dayanmışdıq. Üç istiqamətdən bizə hücum etmişdilər. Əsgərlərimiz altı nəfərlik qrupa ay-*

***rıldı və mövqe tutduq. Çətinliklə üz-üzə olsaq da, geri çəkilmədik. Bu döyüşdə altı yaralı və iki şəhid verdik. Amma düşməni mövqelərimizə yaxınlaşmağa qoymadıq. Bizə kömək gəldikdən sonra düşmən geri çəkildi.***

***Vətən müharibəsinin ilk günündən son gününə qədər döyüşlərdə iştirak etdim. Qələbəmizdə az da olsa, mənim də payım olduğu üçün qürurluyam".***

Səlahəddin Mirzəliyev müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəsur döyüşçü", "Füzulinin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə" "Xocavəndin azad edilməsinə görə", "Qubadlının azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

# Asim Ayaz oğlu Cəfərov

Ürəyimizn bir parçası ***VƏTƏN!*** Həyatımızın, yaşamağımızın özü ***VƏTƏN!*** Ocağından dağılan bir ovuc külük, ***VƏTƏN!*** Ocağımızdan uzaqlara səpələnmişik. Qoynuna gəlmək üçün neçə illərdi həsrətdən için-için qovruluruq.

**Vətən, ocağında dağılan külük,**
**Sənsiz solub-saralmış gülük.**



Biz Qarabağımızdan uzaqda olmasaq da, amma Vətən bizim ürəyimizdə, qanımızda, gözlərimizin içində idi. Hara baxırdıqsa, sanki Vətəni görürdük. Görən gözümüz, vuran ürəyimiz Vətən! Bu neçə ildə hara baxırdıqsa sənin dağını, daşını, çaylarını, çəmənliklərini görürdük, səsini eşidirdik. Vətənsiz insan küləyin sovurub apardığı ota bənzəyir. Vətəndən uzaqda qalan insan xoşbəxtliyini tapa bilməz. Nə qədər axtarsa da, tapa bilməz. Həyatının sonuna qədər zəlil qalar, arzuları kor qalar Vətənsiz insanın. Vətəndən uzaq düşən insanın baxışından kədər yağar. Ürəyi yaralı qalar. Ölənə qədər sağalmaz bu yara, Vətən yarası. Sağalmaz dərd, Vətən dərdi.

**Ürəyimizin başına adını yazdıq Vətən,**
**Dağlarına, daşlarına sarıldıq Vətən.**
**Sənə qovuşmaq üçün.**
**Baş qoyduq torpağına,**
**Nəfəsimizə səni çəkmək üçün,**
**Səni qoxuladıq Vətən.**

Bəzən hiss edirdik ki, kimsə bizi Vətənə səsləyir. Kimsə bizi özümüzə qayıtmağa səsləyir. Bu səs ulularımızın, ata-babalarımızın, el ağsaqqallarımızın, el ağbirçəklərimizin səsi idi. Bizi rahat buraxmayan bu səs keçmişimizin səsi idi. Milli hissimizin, milli qürurumuzun səsi idi bu səs. Elə igidlərimiz də bu səsi qəlblərinin səsi kimi hər addımlarında eşidirdilər. Rahatlıq tapa bilmirdi igidlərimiz. Doğma yurda dönmək, əsir torpaqlarımızı yağı caynağından xilas etmək üçün hər an hazır idilər. Həsrətlə Vətənin xilasını gözləyən oğullardan biri də Asim Cəfərov idi. Vətənin dar günündə əlinə silah alıb, düşmənə layiqli cavab verəcəyi günü o da çoxdan gözləyirdi.

Asim Ayaz oğlu Cəfərov 1991-ci il sentyabrın 9-da Şuşa rayonunun Malıbəyli kəndində anadan olub. Orta məktəb təhsilini 1997-2008-ci illərdə Bakının Zuğulba yaşayış məntəqəsində alıb. Hərbi xidmətini 2009-2011-ci ildə Naxçıvan Muxtar Respublikasında yerinə yetirib.

Vətən müharibəsində yadda qalan hadisələri Asim Cəfərov belə xatırladı:

***“2020-ci il oktyabrın 15-də Şuşa rayon Hərbi Komissarlığı tərəfindən cəbhəyə çağrıldım. Döyüşdə iştirak etdiyim müddət ərzində döyüşçü yoldaşlarım ilə birlikdə böyük ruh yüksəkliyi ilə vuruşurduq. Füzuli, Xocavənd və Şuşa istiqamətində gedən döyüşlərdə fəal iştirak etmişəm.***

***Ən ağır döyüşlərdən biri Füzulinin azadlığı uğrunda döyüşlər oldu. Bu döyüşlərdə uğurlarımız olsa da, itkilərimiz də çox oldu. Lakin Şuşakənd uğrunda gedən döyüşlər yaddaşımda daha ağır iz salıb. Hafizəmdən heç zaman çıxmayan bu döyüşdə ağır sarsıntılar keçirmişəm. Şuşakənd düşmənin ən mühüm strateji postlarından biri idi. Bizdən əvvəlki heyət düşmənə ağır zərbə endirərək postu düşməndən azad etmişdi. Ona görə də, nəyin bahasına olursa-olsun, belə strateji əhəmiyyət kəsb edən postu tərk etməməli idik. Bu postun alınması zamanı çoxlu sayda şəhid və yaralılarımız***

*olmuşdu. Noyabrın 1-dən 6-na qədər, yəni, altı gün düşmən mühasirəsində qaldıq. Mərmi başımızdan yağış kimi tökülürdü. Minomyot mərmilərinin ardı-arası kəsilmədiyi üçün mühasirəni yarmaq imkanımız yox idi. Bu döyüşdə Habil Əliyev, Soltan Xasməmmədov, Sübhan Hacıyev və digər döyüşçü yoldaşlarım yaralandılar. Noyabrın 7-də mühasirədən çıxa bildik. Bizə köməyə gələn digər bölüyün döyüşçüləri düşmənə ağır zərbələr endirərək bizi mühasirədən azad edə bildilər. Noyabrın 6-da Şuşakənd istiqamətində düşmənin açdığı artilleriya atəşi nəticəsində kürəyimdən yaralanmışam. Yaralandığım üçün Şuşa döyüşlərində iştirak edə bilmədim. Amma uzaqdan Şuşanı görürdüm. Hər baxanda gözlərim yaşarırdı. Şuşaya qalxan yolları, azad olunmuş torpaqları öpdüm və özümdə təskinlik tapdım. Düşündüm ki, bir zamanlar ata-anamın qucağında bu torpaqlardan didərgin düşmüşəm. İndi isə həmin torpaqları azad etməyə gəlmişəm.*

*Noyabrın 7-də komandirimiz, kapitan Ülvi Hüseynov şəhid oldu. Çox mərd, ürəkli, əsgərlərə qardaş kimi yanaşan komandir idi. Mən və bölüyümüzün əsgərlərinin çoxu heç vaxt unutmayacağımız komandirimiz Ülvi Hüseynova borcluyuq. Döyüşlərdə qazandığımız bir çox uğurlardan sonra komandirimizin şəhid olmağı mənə ağır təsir etmişdi. Şuşanın azad olunmasına bir gün qalmış komandirimizin şəhid olması məni çox sarsıtdı. Axı Şuşanı azad görə bilmək onun ən böyük arzusu idi. Bu arzunun ürəyində qalması hər birimizi çox sarsıtdı. Unudulmazsan, əziz komandirimiz!"*

Cəsur və igid zabit Ülvi Hüseynov haqqında oxuculara məlumat verməyi özümə borc bildim. Əsgərlərinin və döyüş yoldaşlarının dilindən komandirləri haqqında yalnız xoş xatirələr eşidirik. Ülvi Hüseynov Şuşa uğrunda əlbəyaxa döyüşlərin fəal iştirakçısı olmuşdur. O, döyüşə-döyüşə arzusunda olduğu Şuşaya qovuşur. Kapitan Hüseynov qələbəyə bir gün qalmış Şuşa uğrunda gedən döyüşlərdə yaralı əsgərlərini xi-

las edərkən düşmən snayperinə tuş gəlir. Şəhid olmamışdan bir gün əvvəl 43 nəfər yaralı döyüşçü yoldaşını təkbaşına arxa təminat bölmələrinə çatdırmışdı. Şəhid kapitanımız böyük şücaət göstərərək düşmənin 15 ədəd hərbi texnikasını ələ keçirib, ordumuza təhvil vermişdi. Kapitan Hüseynov Füzuli, Hadrut, Cəbrayıl, Qubadlı, Zəngilan istiqamətindəki döyüşlərdə də düşmənin hərbi texnikasına və canlı qüvvəsinə ağır zərbələr endirmişdi. O, həmişə şəxsi heyətdən öndə gedərmiş və təhlükə sovuşduqdan sonra əsgərlərini ardınca çağırarmış. Bu dəfə də belə olur. Azad olunmuş yüksəklik düşməndən tam təmizlənir və əsgərlər həmin yüksəklikdə mövqe tuturlar. Ülvi isə digər təpəyə doğru yenə də tək!.. Elə bu yüksəklikdə də arzuladığı zirvəyə yüksəlir. "Qarabağ" ordeni ilə təltif edilir.

Qazimizin dayısı Nadir Kərimov tibb xidməti polkovnikleytenantıdır. Vətən müharibəsi başlayan gündən Cəbrayıl, Qubadlı, Zəngilan və Laçın istiqamətində döyüşlərin iştirakçısı olmuşdur. Hal-hazırda xidmətini davam etdirir. Digər dayısı Ayaz Kərimov isə Birinci Qarabağ döyüşləri iştirakçısı və müharibə veteranıdır.

Xalqımız həmişə gələcək nəsillər qarşısında igid oğullarımızın şücaəti ilə öyünüblər. Elinə-obasına bağlı igidlərimiz yenə də ənənəyə sadiq qalaraq Qarabağımızı düşməndən xilas etmək üçün birləşdilər. Vətən müharibəsində igidlərimizin göstərdiyi qəhrəmanlıqlar bir daha onu sübut etdi ki, oğullarımız öz tarixi keçmişlərini unutmayıblar. Vətən sevgisi ilə alışıb-yanan oğullar heç vaxt Vətəni darda qoymazlar.

Asim Cəfərov müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəbrayılın azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## Eminbəy İlham oğlu Səfərov



İlk beşiyimiz, Anamız Vətən! Yanan odumuz, ocağımız Vətən! Od ürəkli, od nəfəsli diyarımız. Ümid yerimiz, nurlu sabahımız, Vətən! Tarix boyu yanan ocağından, sərvətindən qonşularına pay verdin, Vətən! Amma neçə illərdi ki, ocaq yerlərini ot basmışdı. Ata-baba torpaqların bir yanıqlı bayatıya dönüb, sinəmizdə köz-köz olmuşdu. Yağı caynağında inləyən torpaqlarımız cadar-cadar olmuş, sərhədlərimiz daralmışdı. Əcdadlarımızın doğulduğu torpağı görmədən qürbətdə həsrətdən boğulan övladların sənə qovuşmaq üçün nələr etmədilər ki... Amma nə qədər əzilsən də, ***ƏYİLMƏYƏN VÜQARIMIZ OLDUN, AZƏRBAYCANIM!*** Tarixlərə neçə-neçə qurbanlar versən də, torpaqların illərlə əsirlikdə qalsa da, ayağa qalxdın, sınmadın, doğma yurdum! Nə yaxşı ki, sönmüş ocaqlarını yenidən alovlandıra bildin. Sənə zəfər yaraşır, qədim diyarım! Ərənlərin bu zəfəri sənə yaşatdı, ***TÜRK ELİM, OĞUZ YURDUM!*** Azadlıq sənin haqqındır.

***Sən ey Oğuz elim, ey ulu türküm,***
***Qazan xanın yurdu basılmaz türküm,***

***Xalqım deyirdi ki, ağırdır yüküm,***
***Bu yükü millətim daşıya bilməz,***
***Qarabağ dustaqda yaşaya bilməz.***

***ƏZƏMƏTİ, VÜQARI İLƏ SEÇİLƏN, BƏNZƏRİ OLMAYAN AZƏRBAYCANIM!*** Ərənlərin səni əsirlikdə qoya bilməzdi. ***VÜQARINA, DƏYANƏTİNƏ, SOY-KÖKÜNƏ YARAŞMAZDI ƏSARƏT.*** Sanıram ki, Yer üzündə sənə çatan məmləkət tanımıram. Ana yurdum Azərbaycan keşməkeşli tarix yaşayıb. Bu gün də Vətənimin üzərindən qara buludlar çəkilməmişdi. Azərbaycanımızın qəlbi neçə illərdi ki, Qarabağ dərdi ilə yaralıydı. ***QƏDİM MƏMLƏKƏTİMİZİN TARİXİ MÜRƏKKƏBLƏ DEYİL, QANLA YAZILMIŞDI.*** Anamız Tomris bir qılınc zərbəsi ilə düşmənin başını kəsəndə dünya heyran qaldı türk qadınının hünərinə, igidliyinə. Bəli, bu torpaq özünə layiq mərd oğullar, qızlar yetirib. Əsrlər keçsə də, onların adı xalqımızın daş yaddaşında əbədi iz buraxmış, gələcək nəsillərə örnək olmuşdur. Bu gün öz keçmişi ilə, Cavanşiri, Babəki, Xətayisi, Cavad xanı, Xiyabanisi və daha neçə-neçə igid oğlu və qızı ilə fəxr edir Azərbaycan. Vətən müharibəsində onların yolunu davam etdirən milli qəhrəman Şükür Həmidov, cəsur kəşfiyyatçı polkovnik-leytenant Həmdəm Ağayev, “Kobra” ləqəbli artilleriya polkovnik-leytenantı Xeyrulla İbrahimov, qəhrəman komandir, polkovnik-leytenant Nail Orucov, erməni generalını boğaraq öldürən cəsur Vətən oğlu Cəbrayıl Dövlətzadə və Şuşada qurban kəsmək arzusu ilə döyüşlərə qatılan polkovnik-leytenant Vidadi Xəlilov kimi igidlərimiz şərəfli döyüş yolu keçərək ölməzliyə qovuşdular.

***Tarixin özü tək qocasan, Vətən,***
***Zirvələrdən uca, ucasan, Vətən,***
***İgid oğullarını qucasan Vətən,***
***Səni qucaqladı ər oğulların,***
***Qoynuna sığındı nər oğulların.***

Azərbaycan xalqı vətənpərvər övladlarını həmişə qəlbində yaşatmış, onları heç vaxt unutmamış, adlarını öz tarixində, mədəniyyətində, ədəbiyyatında əbədiləşdirmişdir. Xalqımızın dayaq və güvənc yeri olan ordumuzda şərəflə xidmət edən mərd oğullarımız Qarabağ uğrunda gedən döyüşlərdə bir daha sübut etdilər ki, Vətən torpaqlarının müdafiəsi naminə canından keçməyə hazır olan fədakar igidlərimiz var.

Qarabağ savaşına könüllü olaraq qoşulan vətənpərvər oğullarımızdan biri də Eminbəy Səfərovdur.

Eminbəy İlham oğlu Səfərov 1987-ci il iyunun 11-də Şuşa şəhərində anadan olub. 1994-2005-ci illərdə Bakıdakı Y.Kovalyov adına 229 nömrəli tam orta məktəbdə təhsil alıb. 2006-2007-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi xidmət borcunu yerinə yetirib. 2007-2012-ci illərdə Azərbaycan Bədən Tərbiyəsi Akdemiyasında qiyabi təhsil alıb. 2014-2018-ci illərdə Vətəndən kənarda yaşayıb.

Müsahibim döyüşlərə necə qatılması ilə bağlı sualımı belə cavablandırdı: ***"2020-ci il sentyabrın 10-da könüllü olaraq Şuşa hərbi komissarlığına müraciət etdim. Torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qoşulmağı çoxdan arzulayırdım. Atam Səfərov İlham Məhərrəm oğlu Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuşdu. O, 1992-ci ildə Şuşadan necə didərgin düşməyimiz və xalqımızın başına gətirilən müsibətlərdən tez-tez danışırdı. Düşməndən intiqam almaq hissi məni bir an rahat buraxmırdı.***

***... Oktyabr ayının 1-dən döyüşlərə yola düşdüm. Füzuli, Cəbrayıl, Qubadlı, Laçın istiqamətində gedən döyüşlərdə ön cəbhədə fəal iştirak etmişəm. İlk günlər Füzuli rayonunun Şükürbəyli kəndində yerləşmişdik. Burda olarkən minomyot, top və qradlardan atılan atəş səslərini daha yaxın məsafədən eşidirdik. Demək olar ki, hər gün ərzində fasiləsiz ağır artilleriya atəşlərinə məruz qalırdıq. Artilleriya mərmiləri yerləşdiyimiz kazarmanın ətrafına düşürdü. Belə hallar tez-tez baş veririrdi. Başımıza yağdırılan mərmilərə baxma-***

*yaraq, hamıda böyük ruh yüksəkliyi var idi. Şükürbəyli kəndindəki döyüşlərdən sonra biz bölünərək ayrı-ayrı istiqamətlərdə döyüşlərə cəlb olunduq. Düşmənin qurduğu istehkamları demək olar ki, darmadağın etmişdik. İrəlilədiyimiz hər qarış torpağımız bizə nə qədər doğma gəlirdi. Füzulinin kəndlərini azad etdikcə öz qüvvəmizə inanırdıq və qələbə əzmimiz daha da güclənirdi. Füzulidəki ağır döyüşləri başa vurduqdan sonra Cəbrayıla doğru irəliləməyə başladıq. Cəbrayılda da çətinliklərlə üzləşdik. Füzulidəki istehkamları darmadağın etmək nə qədər çətinlik törətmişdisə, Cəbrayıl yüksəklikləri uğrunda döyüşlər də bir o qədər çətin oldu. Çünki mənfur düşmən əraziyə bələd olduğuna görə mövqelərimizi sərrast atəşlə vura bilirdilər. Buna görə də, bu döyüşlərdə xeyli itki verdik. Yanımda şəhid olan və yaralananlar oldu. Demək olar ki, təxliyyə qrupları bizim arxamızca hərəkət edirdi. Nəhayət, ağır keçən döyüşlərdən sonra Cəbrayılın üç yüksəkliyini ələ keçirə bildik və rahat nəfəs aldıq. Həmin yüksəkliklərdə düşmən 360 dərəcəlik kameralar yerləşdirdiyi üçün koordinatlarımızı asanlıqla müəyyən edib, mövqelərimizi atəşə tuta bilirdilər. Artıq Cəbrayılın sonuncu kəndi və Qubadlının Körpüqırağı deyilən ərazisinə qədər irəliləmişdik. Döyüşün çətinliyi bizi qorxutmurdu. Çünki bu günü çoxdan gözləyirdik. Cəbrayılın kəndlərini ələ keçirdikcə şahidi olduğumuz mənzərələr bizi sarsıdırdı. Bizim kəndlərimizdə məskunlaşan düşmənlər evlərimizdə sanki öz evləri kimi yaşayırdılar. Canlarını götürüb qaçan düşmən bilməli idi ki, nə vaxtsa evin sahibləri gələcək. Evdə öz əşyalarını, ərzaqlarını qoyub qaçan düşmənin halına heç də acımırdıq. Birinci Qarabağ müharibəsində bizə yaşatdıqları zülmlər öz başlarına gəlirdi. Cəbrayıl döyüşlərindən sonra Qubadlının Muradxanlı və Xanlıq kəndlərinin azad olunmasında fəal iştirak etdim. Azad edilmiş hər bir kəndə ayaq basanda sonsuz sevinc yaşayırdıq. Döyüşdə iştirak etdiyimiz hər günümüz nə qədər çətin olsa da, bir o qədər də şərəfli*

***idi. Bu şərəfli günləri mənə yaşatdığı üçün Allahıma şükür edirəm. Hələ hərbi xidmətdə olan illərdə də düşmənlə üz-üzə olmuşam. Daşkəsəndə yerləşən hərbi hissədə "Koroğlu postu" və "Ömər postu" adlanan yerlərdə xidmət etmişəm. Həmin yerlər çox təhlükəli idi. Tez-tez atəşkəs pozulurdu. Düşmənə cavab atəşi verilməsində fəal iştirak edirdim. Xidmət etdiyim hərbi hissə cəbhə bölgəsində yerləşdiyi üçün elə o vaxtdan da çətin sınaqlardan keçmişəm.***

***Artıq Laçın dəhlizinə doğru irəliləyirdik. Meşələrdən keçdiyimiz yollar çətinlik törətsə də, irəliyə doğru atdığımız hər addım bizə qürur verirdi. Suqovuşan və Sofuyan kəndlərində gedən döyüşlərdən sonra Laçın dəhlizinin müəyyən bir hissəsini nəzarətə götürmüşdük. Artıq dəhlizin nəzarətini və mühafizəsini təşkil edirdik".***

Digər döyüşçülər kimi Eminbəy də əsgərlərlə çiyin-çiyinə vuruşan yüksək rütbəli zabitlərimiz haqqında ağızdolusu danışırdı. Xalqına bağlı, belə vətənpərvər oğullarımızdan biri də Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin polkovniki, Vətən müharibəsi şəhidi Həmid Şükürovdur. O, öz əsgərləri ilə birlikdə döyüşdə misilsiz qəhrəmanlıq göstərmişdi. Hələ Aprel döyüşlərində Cəbrayıl rayonunda yerləşən Lələtəpə strateji yüksəkliyinin alınması zamanı fərqlənmiş, döyüşlərdə göstərdiyi şəxsi igidliyinə görə Azərbaycanın Milli Qəhrəmanı adını almışdı. Həmin döyüşlərdə "yenilməz Ohanyan səddi" adlanan müdafiə xətti qırx dəqiqə ərzində darmadağın edilmişdi. Onun ən böyük arzusu işğal altındakı torpaqlarımızı, eləcədə də doğma Qubadlı rayonunu işğaldan azad etmək olmuşdu. H.Şükürov Qubadlının bəzi kəndlərinin azad edilməsi əməliyyatlarında iştirak edib. Oktyabrın 22-də Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Onun qanı anadan olduğu və həmişə can atdığı doğma Qubadlı torpağına tökülmüşdü. O, müsahibələrinin birində demişdi: ***"Mən hərbi litseydə oxuyanda Şuşa şəhərinin işğal olunması xəbərini eşitdim.***

***Hətta bir neçə tələbə dostlarımla litseyi icazəsiz tərk edib, qatarla cəbhəyə yollandıq. Təəssüf edirdim ki, kaş peşəkar bir zabit kimi döyüşlərdə iştirak edə biləydim. Bildiyiniz kimi, həmin dövrlərdə bizim döyüşən cəsur oğullarımız var idi. Lakin onları idarə edən kifayət qədər peşəkar zabitlərimiz yox idi. Nə yaxşı ki, artıq ordumuz formalaşdı və peşəkar zabitlər yetişdi. Əsgər görürdü ki, onunla yanaşı polkovniklər də irəliləyir, ona görə də hər biri düşmənin üzərinə qartal kimi şığıyırdı".***

İkinci Qarabağ müharibəsində polkovnik Şükür Həmidov artıq peşəkar hərbçi kimi yetişmişdi. Hələ Birinci Qarabağ müharibəsində tələbə kimi döyüşlərə qatılmaq istəyəndə "kaş peşəkar zabit kimi döyüşə qatıla biləydim" arzusunu gerçəkləşdirmişdi. Doğrudan da, İkinci Qarabağ müharibəsində qələbəmizi məhz peşəkar hərbçilərimizin sayəsində qazandıq. Müsahibə aldığım hər bir əsgər xüsusilə vurğulayırdı ki, yüksək rütbəli zabitlərin bizimlə çiyin-çiyinə döyüşməsi ruh yüksəkliyimizə səbəb olurdu. İftixarla deyə bilərik ki, peşəkar zabitlərimizin döyüş meydanlarında şücaəti qələbəmizin rəhni oldu.

Eminbəy Səfərov döyüş meydanlarında əsgərlərlə birgə döyüşən general-mayor, 2016-cı il Aprel döyüşləri və 2020-ci ilin Vətən müharibəsinin komandirlərindən biri Mais Bərxudarov, polkovnik, İkinci Qarabağ müharibəsi qəhrəmanlarından və Şuşanın azadlığı uğrunda döyüşən komandirlərdən biri Tehran Mənsimov, general-mayor, Birinci Qarabağ müharibəsinin və Aprel döyüşlərinin iştirakçısı Ənvər Əfəndiyev haqqında da ürək dolusu danışırdı. Məhz Ə.Əfəndiyevin rəhbərliyi etdiyi hərbi birləşmə Cəbrayıl-Laçın istiqamətlərdə 20-dən çox yaşayış məntəqəsinin azad edilməsində mühüm rol oynamışdı.

Baş çavuş Eminbəy Səfərov belə yüksək rütbəli, vətənpərvər hərbçilərlə birlikdə döyüşlərə qatıldığı üçün qürur hissi keçirirdi.

Bəli, bir Azərbaycan vətəndaşı kimi hər birimiz qürur hissi keçiririk ki, döyüş zamanı müdafiənin ön xəttində "döyüşə yalnız əsgərlər gedir" fikrini alt-üst edən yüksək rütbəli zabitlərimiz var. Onlar sübut etdi ki, Azərbaycan ordusunda generallar da əsgərlərlə bir cərgədə, ön sırada düşmənə qarşı döyüşür. Düşmənlə üz-üzə gələndə nə vəzifə, nə rütbə gözə görünməməlidir. Biz qürur hissi keçiririk ki, əsgər qayğılarını fədakar ata sevgisi ilə həll edən, səngərdə əsgərlə birlikdə şəhid olan general Polad Həşimov kimi əsgər kazarmasını, səngəri öz evi, əsgərləri isə öz övladı bilən general rütbəli hərbçilərimiz var. Döyüşən əsgərlər isə onlardan nümunə götürdükləri üçün zəfər qazana bilirlər. Vətənə sədaqətlə xidmət edən yüksək rütbəli zabitlərimizin müsəlləh əsgər olması sayəsində Vətən polad sütunlar üzərində qüdrətli olar.

Baş çavuş Eminbəy İlham oğlu Səfərov müharibə meydanlarında göstərdiyi şücaətə görə "Laçının azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

# Faiq Xəyyam oğlu Məmmədli




Qalibiyyət yolunun şərəfli Vətən oğulları! Torpağı Vətən edənlər, torpağı sevindirənlər! Qisasımızı düşməndə qoymayanlar! Qürur və şərəfimizi bizə qaytaranlar! Bizi həsrətində, arzusunda olduğumuz ellərimizə qovuşduranlar!

Qarabağı görməyən oğullarımızda nə qədər Vətən sevgisi varmış, ilahi!... İllər ötsə də, yaddaşlar təzələnsə də, Qarabağımızın yaraları qaysaq bağlamadı, köhnəlmədi. Vətən bağrına vurulan Vətən yaraları gündən-günə təzələndi. Yaddaşlar kütləşmədi. Əksinə, qəlbimizdə pöhrələndi, körpələrimizin də qəlbində cücərib boy atdı dərdlərimiz. Bu otuz il boyu lap boyumuza çatdı Qarabağ dərdlərimizin. Amma igidlərimiz Vətəni dərdli görmək istəmədilər. Ərənlərimiz birləşib, bir yumruq oldular. Vətən bağrına sancılan xəncəri çəkib çıxartdılar, düşmən bağrına sancdılar. Vətəndən güc alıb, Vətənə dayaq oldu igidlərimiz.

***Torpağa kök salıb torpaq oldular,***
***Göylərə ucalan bayraq oldular,***
***Vətəndən güc alıb dayaq oldular,***
***Sərhəddə dağ kimi bitən oğullar,***
***Yurdunda yurd kimi Vətən oğullar.***

Xalqımızın köksündə taxt quran igidlərimiz! Dərdə ağlamayan, dərdə sinəsini sipər edən igidlərimiz. Vətənə olan sevginiz o qədər alovlandı ki, Şuşanın sıldırımlı qayalarını,

dağlarını aşıb, yağı üstünə getdiniz, düşmən üstünə atıldınız. VƏTƏN OLDUNUZ. VƏTƏN SİZSİNİZ, ÇÜNKİ VƏTƏN SİZİN ÜRƏYİNİZDƏDİR. Düşməndən öz gözəlliklərini gizlədən Şuşamız, düşmənə boz üzünü göstərən Şuşamız. Səni xilas edən oğulların gələndə sevindinmi? Aç gözəlliklərini, Vətən, övladların gəlir. Al qoynuna övladlarını, Vətən! Yenə də Cıdır düzündə al-əlvan güllərdən xalı sərilsin. Aç qoynunu övladların gəlir, Vətən!

***Ey dahi Üzeyirin anası Şuşa,***
***Qərinələr boyu sən azad yaşa,***
***Qədimliyin hopub torpağa, daşa,***
***Aç qolunu, biz gəlirik qoynuna,***
***Övladların qoy sarılsın boynuna.***

Ən böyük lütfü bizə Qarabağımızı işğaldan təmizləməklə, Şuşanı azad etməklə müzəffər ordumuz, igid oğullarımız yaşatdı. İllərlə portretini cızdığımız bir xoşbəxtliyi 44 gündə bizə yaşadan oğullarımız.

Vətən qəlbində taxt quran, Vətəni sevindirən, bizə xoşbəxtlik yaşadan belə mərd oğullardan biri də Faiq Məmmədlidir.

Faiq Xəyyam oğlu Məmmədli 1993-cü il oktyabrın 13-də Bakıda şuşalı ailəsində anadan olub. 1999-cu ildə Bakıda yerləşən Xocalı rayon 2 nömrəli tam orta məktəbə daxil olub və 2008-ci ildə 9-cu sinfi bitirib. Sonra Cəmşid Naxçıvanski adına hərbi litseyə daxil olub. 2011-2013-cü illərdə H. Əliyev adına Ali Hərbi Akademiyada təhsil alıb. 2013-2014-cü illərdə həqiqi hərbi xidmətdə olub, könüllü olaraq Mübariz İbrahimov postunda xidmət edib. Xidməti xasiyyətnaməsində deyilir: ***"Əsgər Faiq Xəyyam oğlu Məmmədli xidmət etdiyi müddət ərzində özünü nizam-intizamlı, bacarıqlı bir əsgər kimi göstərmişdir. Komandirlər tərəfindən ona verilmiş əmr və tapşırıqları vaxtında yerinə yetirir. Hərbi xidmətə münasibəti yaxşıdır və xidməti vəzifələri layiqincə yerinə yetirməyə səy göstərir. Hərbi nizamnamənin tələblərini bilir***

***və ona öyrədilənləri yaxşı mənimsəyir. Komandir və rəislər tərəfindən ona tutulan iradlardan vaxtında və düzgün nəticə çıxarır. Komandirlərə hörmət göstərir. Hərbi xidmətin çətinliklərinə qarşı dözümlüdür. Öz silahını yaxşı öyrənir.”***

2020-ci ilin iyul hadisələrində general Polad Həşimovun şəhid olması onu çox sarsıtmışdı. Ertəsi gün generalın cənazəsi Sumqayıta gətirilməmiş Şuşa Hərbi Komissarlığına gəlmiş və könüllü olaraq səfərbərliyə yazılmışdı. Demək olar ki, o, qeydiyyatdan keçən ilk könüllülərdən olmuşdu. Sentyabrın 27-də, müharibə başlayan gün döyüşlərə qatılmaqla bağlı çağırış zəngi oldu. Oktyabrın 1-də o, döyüşlərə qatılmaq üçün yola düşdü.

Müsahibim yol boyu xalqımızın əsgərlərə olan böyük sevgisindən və inamından fərəhlə danışırdı: ***“Xalqın bu birliyi, bizə olan inamı əsgərlərimizə ruh verirdi. Hər birimiz söz verdik ki, belə xalqın oğulları düşmənə tutarlı cavab verməlidir. Doğrudan da, istənilən ölkədə müharibə başlayanda insanlar qorxu və təlaş içində olurlar. Xalqımız isə öz oğullarını bu müharibəyə sevinə-sevinə yola salırdı. Çünki bu, xalqın haqq savaşı, haqq davası idi. Düşməndən intiqam almaq üçün hamı birləşmişdi. Yol boyu bizə gülə-gülə əl edən, sevinən insanları görürdük. Hətta maşını saxlayıb, bizə əsgər payı verən ataları, anaları görürdük. Hamı bizi öz oğulları kimi qarşılayırdı. Azərbaycan xalqının Vətəninə, əsgərinə olan bu sevgisi bizi böyük qələbəyə aparırdı.***

***İlk döyüşüm Füzuli istiqamətində oldu. Bu döyüşlər ağır artilleriya döyüşləri idi. Sonu necə olacağı məlum olmayan gərgin anlar yaşayırdım.***

***Daşaltı döyüşü də ən ağır döyüş kimi hafizəmdə qalıb. Dağlıq relyef bizə çətinlik gətirirdi. Bu döyüşdə dəfələrlə pusquya düşdük. Daşaltının girişində elə ilk hücumda 19 yaşlı Şahin Tahirlinin şəhid olması mənə ağır təsir etdi. Güllə onun gözündən dəymiş və bir andaca öldürmüşdü. Güllə və qəlpə yarası alan hərbçilərimizə kömək edə bilir-***

*dik. Təəssüflər olsun ki, bu əsgərimizi xilas edə bilmədik. Hava yağışlı olduğu üçün çətinliklərimiz də çox idi. Hər anda bizi ölüm gözləyirdi. Daşaltı döyüşləri ona görə çətin oldu ki, Şuşaya doğru döyüşə-döyüşə getməli və yolu açmalı idik. Çətin döyüş olsa da, düşməni geri oturda bildik. Düşmənin saysız həmlələri bizi qorxutmurdu. Şuşaya daxil olmaq üçün Laçın koridorunu tutmaq lazım idi. Bir sözlə, yolu kəsməli idi. Bundan sonra xüsusi təyinatlılar gəlməli idilər. Daşaltıdan Şuşaya qədər yolu qət etmək üçün bir neçə gecəni burda gecələməli olduq. Daşaltıda qaldığımız günlər daha riskli idi. Çünki düşmənlə üz-üzə idik. Yağış yağdığından torpaq palçıq idi. Gecələmək üçün qaranlıqda əlimizlə yoxlayaraq quru yer axtarırdıq. Əlimizin altında sal daşlar olduğunu gördük və gecəni həmin daşların üstündə keçirdik. Səhər açılanda gördük ki, bura erməni qəbiristanlığı imiş. Beləliklə, Daşaltıdan Şuşaya qədər keçdiyimiz döyüş yolları nə qədər əziyyətli olsa da, vətənə doğru getdiyimiz üçün heç bir çətinlik bizi ruhdan salmırdı. Bilirdik ki, biz Şuşaya getməli və orda mövqe tutmalıyıq. Nəhayət, biz tapşırığı yerinə yetirə bildik. Demək olar ki, artıq Şuşa qalasının dibində idik. Əfsuslar olsun ki, Şuşaya çatandan sonra bir çox igid oğullarımızı itirdik. Hacıəhməd Hacıəhmədli və Telman Abışovu itirməyimiz mənə çox təsir etdi. Deyərdim ki, bu oğulların hər biri bir cəngavər, hər biri bir dastan idi. Döyüşçülərimiz yaralansalar da, döyüşü davam etdirirdilər. Yaralılara ilk yardımı özümüz edə bilirdik. Gizirimiz Səid Muradov yarasını sarımağa kömək etdim və o, döyüşlərə davam etdi. Pərviz Hüseynov isə özü öz yarasını sarıdı. Məqsədi o idi ki, döyüşlərə davam etsin. Bir sözlə, yaralılar da ilk tibbi yardımı aldıqdan sonra böyük həvəslə döyüşə davam edirdilər."*

Faiq döyüşçü yoldaşlarının adını iftixar hissi ilə çəkirdi və qeyd edirdi ki, hər bir döyüşçü bir amal uğrunda vuruşurdu. Müqəddəs Şuşamızı azad etmək. Döyüş yoldaşları barədə if-

tixar hissi ilə danışan Faiq belə bir təsirli anı da bizimlə bölüşdü: ***“Noyabrın 1-də hücum əməliyyatı olacağı barədə məlumat aldıq. Lakin hansı istiqamətə, hələ məlum deyildi. Həmin gecə belə bir yuxu gördüm. Qalanın daşlarını qucaqlayıb öpürəm. Sanki şəkillərdə gördüyüm o əzəmətli Şuşa da canlanıb mənimlə danışır. Doğrudan da, səhəri gün Daşaltı-Şuşa istiqamətində hücum əmri verildi. Noyabrın 2-dən 8-nə qədər Şuşa əməliyyatına başladıq. Demək olar ki, nə aclıq, nə də susuzluq hissi bizi ruhdan salmırdı. Bəzən meşədə kolların üstündə qarşımıza çıxan böyürtkən yeməklə susuzluğumuzu yatıra bilirdik.”***

Doğrudan da, Faiqin yuxusu çin çıxdı. Faiq əsrlərin şahidi qala divarlarını öpdü. Ulularımızın yadigarı olan bu qədim divarlar sanki onunla dil açıb danışırdı. Bir anlıq elə bildi ki, Pənahəli xanın şad ruhu, ulu babalarımızın sevincək ruhu Şuşa qalasının üzərində dolaşdı. Bax, beləcə, Şuşanın azad nəfəs aldığına, ulularımızın ruhunun sevindiyinə görə Faiq də çox sevinirdi. Sonra isə sevincini bölüşmək üçün ata-baba yurdlarına, ocaq yerlərinə, Surxay babasının evini görməyə tələsdi. Nənə və babasının dilindən eşitdiyi evlərini görmək üçün tələsdi. Heç vaxt görmədiyi evlərinə girmək hissi onda fərqli bir həyəcan yaradırdı. Budur, artıq Faiq babasının illərdi xatirələrində canlandırdığı evindədir. Evə daxil olur və sevincli səslə sanki babası ilə danışır: ***“Ruhun şad olsun, Surxay babam! Şuşa həsrəti ilə dünyasını dəyişmiş babam və nənəm! Artıq Şuşanız azaddır! Mən gəlmişəm, baba! Evimizə gəlmişəm. Sənin öz əllərinlə tikdiyin evinə gəlmişəm. Bu evin divarlarında görünənlər hamısı sənin öz əl işlərindi. Nəvən gəlib, baba! Evin yiyəsi gəlib. Bu evin yiyələri bizik. Biz də gəlmişik. Babam dünyasını Şuşanı görmədən dəyişsə də, onun nəvələri nəslinin davamçıları kimi öz yurdlarına qayıdacaq. Həmişə babamın, nənəmin dilindən eşitdiyim və xəyalımda canlandırdığım evimizdəyəm. Şükürlər olsun.”***

Bu sözləri böyük qürur və sevinc hissi ilə söyləyən Faiq evin iri qapıları üzərində bu nəsildən, bu yurddan olan bütün oğulların adlarını yazdı. Sanki bu hərəkəti ilə o, düşmənə xəbər göndərdi ki, 28 il öz ata-baba yurdlarında yaşaya bilməsələr də, nəslin davamçıları artıb, çoxalıb və yenidən yurdlarına qayıdırlar. Faiqin müdrikcəsinə düşünülmüş bu hərəkəti nə qədər böyük məna kəsb edirdi. Bu müdrikcəsinə düşünülmüş hərəkəti ilə o, düşməni mənəvi cəhətdən sarsıtdı. Keçmişinə bağlı olan bir xalq gələcəyə də inamla gedər. Düşmən bizi sarsıda bilməz. Nəsillər davam edəcək, Qarabağda yurd-yuvası olanlar ata-baba yurdlarına dönəcək. Yurd yerlərimiz rahat nəfəs alacaq. Yenidən Qarabağ gülüstana çevriləcək.

Şuşa azad olunan gündən, yəni, noyabrın 8-dən dekabrın 27-ə qədər Faiq Şuşada xidmətini davam etdirdi. Bir aydan çox müddətdə Şuşada xoşbəxt günlərini, Şuşalı günlərini yaşadı. Dekabrın 27-də xidmətini başa vurub qələbə sevinci ilə Bakıya qayıtdı. Elə həmin gün Şəhidlər xiyabanına gedərək əsgər salamı verdi və onların ruhu qarşısında baş əydi: ***"Sizin qisasınızı aldıq. Qarabağımızı qaytardıq. İşğaldan azad olunmuş torpaqlarımızın hər qarışı siz şəhidlərin qanı ilə suvarılıb. Ona görə də, o torpaqlar müqəddəsdir. Qanınızla suvarılan Vətən torpağını göz bəbəyimiz kimi qoruyacağıq. Şəhidlər ölməz! Daim qəlbimizdə yaşayacaqsınız."*** Daha sonra isə baba və nənəsinin məzarlarını ziyarət etməyə getdi. O, babasının məzarı qarşısında dayanıb, əsgər salamı verərək dedi: ***"Gözün aydın olsun, baba! Mən doğma Şuşadan gəlmişəm, Vətənimizin azad olunması uğrunda vuruşmuşam. Axı bu, sənin arzun idi. Sən mənim hərbçi olmağımı çox arzulayırdın. Mən hərbçi oldum və həsrətində olduğun doğma Şuşanın azadlığı uğrunda döyüşlərdə iştirak etdim. Mən sənin arzunu yerinə yetirdim."***

Bəli, biz Qarabağımızı azad etdik, evimizi azad etdik! Biz keçmişimizi özümüzə qaytardıq, evimizi özümüzə qaytardıq.

İndi o evləri rəngləmək qalıb. Bu gündən başlayaraq ***BİZ O EVLƏRİ ÜÇRƏNGLİ BAYRAĞIMIZIN RƏNGLƏRİ İLƏ RƏNGLƏYƏCƏYİK, YENİDƏN BƏRPA EDƏCƏYİK!*** Biz keçmişimizi unutmadıq. Keçmişini unudanın gələcəyi olmaz. Nə xoşbəxt xalqıq ki, gənclərimiz də elinə, obasına, keçmişinə bağlıdır. Elə buna görə də biz qalib gəldik.

Füzuli və Qubadlı rayonları uğrundakı döyüş əməliyyatlarında şəxsi şücaət nümayiş etdirdiyinə görə Faiq Xəyyam oğlu Məmmədli "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

# Kamran Kamil oğlu Məmmədov



Vətən – bütöv Azərbaycandır! Azərbaycan dedikdə mərdlik, vətənpərvərlik və saxavət mücəssiməsi olan böyük bir xalq anılır. Vətən borcu vətəndaşlıq borcudur. Vətəndaşlıq borcu insanın yaşadığı torpaqla, Vətənlə bağlıdır.

Vətən sevgisi nədir? İlk baxışda mücərrəd görünən Vətən sevgisi əməllərdə təzahür edir. Vətən naminə yaşamaq, Vətənə məhəbbət onun dar günündə yanında olmaq deməkdir. Vətən torpağı toxunulmazdır. Ən ülvi, saf sevgimizin əvvəli də, sonu da Vətənlə bağlıdır. Vətən böyüdüyün, adət-ənənəsi ilə, tarixi, dini və dili ilə qanına hopan, ömrünün əvvəlindən sonuna qədər yaşadığın əmanət torpaqdır. Sevinci ilə qanadlanıb uçduğun, acısı ilə kədərləndiyin, yaxşısı ilə öyünüb, pis gününü özünə dərd etdiyin yurd Vətəndir. ***BU VƏTƏNİN BÖYÜK, ŞƏRƏFLİ BİR ADI VAR – AZƏRBAYCAN!***

***Damarımda axan qanım,***
***Varlığımsan, necə danım?***
***Səndən iraq çıxar canım,***
***Anam – Azərbaycanım!***

Bəli! Vətən səni qoynunda bəsləyən, isti qucağında yer verən Anadır. Tarix boyu babalarımızın qoruduğu və uyudu-

ğu torpaqdır. Xalqın ən yüksək əxlaqi dəyəri elə Vətən sevgisidir. Vətən övladlarından hünər gözləyir. İnsan dünyaya göz açdığı yurda qırılmaz tellərlə bağlıdır. ***VƏTƏN SEVGİSİ YURDUN BÜTÜN ÖVLADLARINI BİRLƏŞDİRƏN QÜDRƏTLİ BİR STİMULDUR.*** Yurdumuzun övladları bütün varlıqları ilə yurdumuza bağlı olduqlarını bir daha sübut etdilər. Azərbaycan oğulları Vətənin dar günüdə onun əlindən tutdular.

***Vətənin əlindən tutdu əliniz,***
***Şərəf, şan gətirdi saf əməliniz.***
***Vətən xilas oldu dərddən, bəladan,***
***Yallı səsi gəldi qədim Qaladan,***
***Geriyə qaytardıq o şöhrət-şanı,***
***Yağı əllərindən aldıq Şuşanı.***

Vətəndən uzaqlarda yaşasaq da, onu şürumuzda möhürlədik, qəlbimizdə saxladıq. Bəlkə də, doğmalarımızı, əzizlərimizi belə uzun müddət qəlbimizdə yaşada bilməzdik.

Xalqımızı düçar olduğu Qarabağ dərdindən xilas etmək üçün ayağa qalxdı oğullarımız. Vətəni xilas etmək naminə illərlə həsrətindən alışıb-yandığımız, Vətənin ayrılmaz parçası olan qədim ulu torpaqlarımızı azad etmək üçün birləşdi oğullarımız.

Vətənin dar günündə onun əlindən tutan oğullarından biri də Kamran Məmmədovdur.

Kamran Kamil oğlu Məmmədov 2001-ci ildə Bakıda şuşalı ailəsində anadan olmuşdu. 2007-2018-ci illərdə Bakıdakı 214 nömrəli məktəbdə təhsil alıb. 2019-cu ilin oktyabrında Şuşa Hərbi Komissarlığı tərəfindən ordu sıralarına çağrılıb. Gəncə şəhərində N nömrəli hərbi hissədə xidmətə başlayıb. 2020-ci ilin oktyabrın 10-da xidmət etdiyi hərbi hissədən Vətən müharibəsinə döyüşlərə göndərilib. Hal-hazırda əsgəri xidmət borcunu yerinə yetirir.

Əsgəri xidmət dövründə Vətən müharibəsi döyüşlərində iştirak etməsi barədə Kamran özü belə danışdı:

“Vətən müharibəsinin başladığı gün Gəncədə xidmət etdiyim hərbi hissədəki bütün əsgər yoldaşlarımla birlikdə mən də tezliklə müharibəyə yollanacağım günü səbrsizliklə gözləyirdim. Nəhayət, oktyabr ayının 10-da Füzuli istiqamətindəki döyüşlərə yola düşməyimiz barədə məlumat aldıq. Mən elə ilk gündən həmlə taborunda döyüşlərə qatıldım. Qumbaraatan manqa komandiri kimi döyüşlərdə iştirak etdim. Polkovnik-leytenant Şahin Qəhrəmanlının başçılığı altında Füzulidən Laçının Güləbird kəndinə qədər 110 kilometrlik məsafəni piyada qət edərək uzun bir döyüş yolu keçdim. Deməl olar ki, bizim taborumuz piyada ən uzun yol qət edən taborlardan biridir. Piyada getdiyimiz yolları düşməndən yayınmaq üçün bəzən sürünə-sürünə getməli olurduq. Susuzluqdan əziyyət çəksək də, bu çətinliklər bizi sarsıtmırdı. Hər bir döyüşçü bir amal uğrunda vuruşurdu: ***VƏTƏNİ MƏNFUR DÜŞMƏNİN CAYNAĞINDAN AZAD ETMƏK.***

Cəbrayılın, Füzulinin və Qubadlının alınmasında komandiri olduğum manqa öz döyüş ruhu ilə fəallıq göstərirdi. General-mayor Mais Bərxudarovun döyüşlərdə iştirak etməsi isə əsgərlərimizə xüsusi ruh verirdi. Azad etdiyimiz torpaqlarda gəzmək bizi nə qədər sevindirirdi. Bəzən səngərdə, torpağın, qarın üstündə yatırdıq. Amma bu, bizə o qədər xoş gəlirdi ki... Azad olunmuş Vətən torpaqlarından vətənin ətrini duyurduq. Sanki sevinən Vətənin səsini eşidirdik.

Laçın döyüşlərinə qədər keçdiyim Cəbrayıl, Füzuli və Qubadlı uğrunda gedən döyüşlərin hər birində yaralı və şəhidlərimizin olması bizə ağır təsir edirdi. Döyüşün qızğın vaxtları olsa da, mərmi yağışları altında yaralılarımızı və həlak olan yoldaşlarımızı döyüş meydanından çıxarmağı özümüzə borc bilirdik. Laçın uğrunda gedən döyüşlərdə isə polkovnik-leytenant Vidadi Xəlilovun şəhid olması mənə daha ağır təsir etdi. Şəhid komandirimiz Vətən müharibəsi başlanan gündən Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə bizimlə birlikdə iştirak etmişdi. Ko-

mandirimiz həmişə öndə gedirdi. Öz əsgərlərini çox sevirdi. Hərbi xidmətimi başa vurduqdan sonra komandirimin məzarını ziyarət etmək üçün mütləq Göyçaya gedəcəyəm.

Sonuncu döyüş yolum Laçın rayonunun Səfiyan, Fərəcan və Güləbird kəndlərinin alınması uğrunda gedən döyüşlər oldu. Bu döyüşlərdə də həmlə taborumuz öndə gedirdi. Laçının Güləbird kəndindəki döyüşlərdə komandiri olduğum manqa xüsusi fəallıq göstərmişdi. Bir neçə gün idi ki, düşmən bizim yerləşdiyimiz mövqeləri dayanmadan atəşə tuturdu. Biz düşməni susdurmaq üçün onların atəş nöqtələrini müəyyən etməli idik. Şükürlər olsun ki, atəş nöqtələrini dəqiqləşdirdik. Döyüş yoldaşlarımla birlikdə minaatanla düşmənin mövqelərini sərrast atəşlə susdurduq. Komandiri olduğum manqanın xüsusi fədakarlığı sayəsində düşmən qərargahının vurulmasında böyük rolumuz oldu. Qərargahda olan 21 düşmən əsgərini məhv etdik. Bu nailiyyətimə görə hərbi hissə tərəfindən Fəxri fərmanla təltif olundum".

18 yaşlı bir əsgərin təcrübəli bir hərbçi kimi düşmən mövqeləri dəqiq atəşlə susdurması cəsarət və mərdlik nümunəsidir. Kamranın bu igidliyi yüksək qiymətləndirilmişdir. Kamran başda olmaqla onun manqası düşmənin hərbi qərargahını vurmuşdu. Beləliklə, Laçında öz mövqelərini möhkəmləndirmiş və 23 gün ərzində hərbi əməliyyatlarda fəallıq göstərmişdilər. Uzun müddət Laçındakı döyüşlərə qatılan Kamran tezliklə Şuşaya çatacağı günü böyük inam hissi ilə gözləyirdi. Şuşanın dağlarına söykənən Laçın dağları ona o qədər doğma gəlirdi ki... Bəlkə, Laçın dağları ilə Şuşa dağları bir-birinə söykənərək bu illər ərzində dərdlərini birlikdə bölüşmüşdülər. Şuşa azad olunan gün Kamran bu sevinci elə Laçında Laçınla bölüşdü. Axı Şuşanın sevincindən neçə illərdir ki, bir-birinə sığınan Laçına da pay düşürdü.

Kamran məzuniyyətə qalib ordunun qalib əsgəri kimi gəldi. Fevral ayının 10-da məzuniyyətə gələn Kamran doğmaları və onu sevənlər tərəfindən sevinclə qarşılandı.

Orta məktəb məzunu kimi hərbi xidmətə yollanan Kamran qəhrəman Vətən oğlu kimi doğmalarının yanına qayıtdı.

Kamranın anası Rəfiqə xanım müsahibə zamanı oğlu ilə həm qürur duyurdu, həm də kövrəlirdi: "Müharibənin ağır günlərində oğlumla əlaqə saxlaya bilmirdim. Yalnız torpaqlar işğaldan azad olunan gün sevincini mənimlə bölüşmək üçün əlaqə saxlayırdı.

Məzuniyyətə gələndə artıq müharibə bitmişdi. O, kəmərini mənə verib dedi ki, ana bu kəməri yadigar saxla. Bu kəmər neçə-neçə döyüşlər görüb. Çəkmələri isə yanıq-yanıq idi. Oğlum, sözün əsl mənasında, odun-alovun içindən çıxmışdı. Balamın igidliyi ilə fəxr etsəm də, çəkdiyi əziyyətləri gözümün önünə gətirəndə qəhərlənməyə bilmirəm. Amma oğlum qətiyyətlə deyir ki, əgər müharibə olsa, yenə gedərəm. Bilirdim ki, həmlə taborunda olduğu üçün hücum zamanı həmişə öndə olub. Bir neçə dəfə mühasirəyə düşsələr də, xoşbəxtlikdən, mühasirədən çıxa biliblər. Hətta mühasirəyə düşən zaman oğlumun sənədləri də itmişdi. Sonralar əsgərlərimiz sənədləri tapmış və onun qulluq etdiyi hərbi hissəyə təhvil vermişdilər. Şəhid komandir Vidadi Xəlilov Kamranın alnından öpərək demişdi: "Kamran, sən ürəkli oğlansan".

Ananın və oğulun haqqında danışdıqları polkovnik-leytenant Vidadi Xəlilov haqqında oxuculara ətraflı məlumat verməyi özümə borc bildim. V.Xəlilovun ən böyük arzusu Şuşada qurban kəsmək idi. O, ailəsinə demişdi ki, əgər mən şəhid olaramsa, siz mənim Şuşada qurban kəsmək arzumu gerçəkləşdirərsiz.

"Qubadlı fatehi" adı ilə məşhur olan Vidadi Xəlilov Murovdağ zirvəsinin, Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə əsgərləri ilə çiyin-çiyinə vuruşub. Şəhidlərimizin qisasını almaq üçün hər an məqam gözləyirdi. Yüzdən çox düşmən əsgər və zabitini məhv etmişdi. Aprel döyüşləri qəhrəmanı idi. V.Xəlilov noyabrın 1-də Laçının azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub.

Dəfələrlə televiziya ekranlarında, sosial şəbəkələrdə şəhid komandirin ailə üzvlərinin çıxışlarını dinləmişəm. Nə qədər qürurlu danışırlar. Anası çıxışlarının birində deyirdi ki, Mübariz İbrahimov kimi şəhid olmaq oğlumun arzusu idi. Oğlum deyirdi: "Ana görürsənmi Mübariz İbrahimovun anası necə qürurla danışır. Mən də şəhid olsam, sən də elə qürurla danışarsan. Axı mən hərbçiyəm. Sən mənim şəhid olmağımı hər an gözləməlisən. Oğlum şəhid olmağı özünə şərəf bilirdi. O, iki balasını fikirləşmirdi. Həmişə əsgərlərini fikirləşirdi və deyirdi ki, mən əsgərlərimi irəli verib, özüm arxada gedə bilmərəm".

Noyabrın 8-də Şuşa işğaldan azad olunan gün Əminə ananın sevinci hədsiz idi. Şuşa azad edilən gün şəhid oğlunun əvəzinə, əlinə bayraq alıb izdihamlı küçədə sevinən xalqın dəstəsinə qoşularaq bayram edirdi. Bəli, oğlu şəhid olan ana bayram edirdi. Çünki bu, oğlunun arzusu idi. Qarabağda müharibə zamanı tez-tez ailəsi ilə əlaqə saxlayan Vidadi Xəlilov torpaqların işğaldan azad olunması xəbərini ilk olaraq ailəsi ilə bölüşürdü: "Hər şey yaxşı olacaq. Qələbəmizə az qalıb. Ana, qürurlu ol! Biz qalib gələcəyik və üçrəngli bayrağımızı Şuşada dalğalandıracıyıq".

İndi Xəlilovlar ailəsi Şuşaya getməyi səbirsizliklə gözləyirlər. Atası ilə fəxr edən məktəbli qızı Zəhra fəxrlə deyir: "Mən atamla həmişə fəxr edirdim. İndi isə ikiqat fəxr edirəm. Çünki mən şəhid Vidadi Xəlilovun qızıyam. O, Qarabağın azad olunmasını və bu yolda şəhid olmasını arzulamışdı. Artıq arzusuna çatıb. Çünki şəhidlik onun arzusu idi. Ən böyük arzusu isə Şuşanı azad görmək idi".

Ruhun şad olsun, şəhid polkovnikimiz. Sizin haqqınızda xatirələr yazdığım bu gün may ayının 8-nə təsadüf etsə də, xalqımız həmin günü Şuşanın işğal günü kimi qeyd edib kövrəlmədi. 8 may – 28 illik Şuşa həsrətinin nisgilli simvolu kimi bizi yandırıb-yaxmadı. Həmin günü azad Şuşamızda qələbə sevinci yaşandı. Daha həmin gün qaysaq bağlamış yarala-

rımız yenidən qanamadı. Sağaldı yaralarımız. O yaralara sənin kimi igid Azərbaycan oğulları məlhəm qoydular. 8 May gününü işıqlı 8 Noyabr günü əvəzlədi. İlk dəfədir ki, 29 ildən sonra may ayının 8-ni sevinclə qarşıladıq. Sizin ən böyük arzunuz həyata keçdi.

Xalqımız sizin ruhunuzu sevindirəcək. Bütün arzularınız gerçəkləşəcək. Ölümü sevinməyə qoymayacaqlar. Atalıq qayğısı göstərdiyiniz əsgərlərinizin və Azərbaycan xalqının qəlbində daim yaşayacaqsınız.

Kamranın ən böyük arzusu isə hərbi xidmətini başa vurduqdan sonra sevimli komandirinin Göyçaydakı məzarını ziyarət etməkdir. Onun qəhrəman komandirinə deyiləsi çox sözləri var. Axı sevimli komandiri Kamranın gözləri qarşısında şəhid olmuşdu.

"Sən ürəkli oğlansan, Kamran" – deyə qürur duyduğunuz əsgəriniz, doğrudan da, ürəkli imiş. Nə biləydiniz ki, bu sözləri deyəndən bir gün sonra siz şəhid olacaqsınız. Sizi döyüş meydanından elə Kamran özü çıxaracaq. Bu ürəkli əsgəriniz bir şuşalı kimi elə sizin əvəzinizə, Şuşaya da gedəcək. Dediyiniz qurban da elə Şuşada kəsiləcək. Sizin sevimli əsgəriniz Kamranın, bütün sizi sevənlərin və Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqsınız.

Hər kəs Vətən torpağının müqəddəsliyini dərk edir. Hər kəsdə olan vətən borcu, vətən sevgisi kimi ali dəyərlər onu Azərbaycanın hər qarış torpağını qorumaq və sevmək kimi bir məsuliyyətlə üz-üzə qoyur. Kamran da bu məsuliyyətə dərk edərək vətən borcunu layiqincə yerinə yetirdi.

Kamran Məmmədov müharibə meydanlarında göstərdiyi şücaətə görə "Cəbrayılın azad edilməsinə görə", "Zəngilanın azad edilməsinə görə", "Qubadlının azad edilməsinə görə", "Laçının azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## Fərid Əhsən oğlu Quliyev



***Ürəkdə baş VƏTƏNDİR,***
***Ovulan daş VƏTƏNDİR,***
***Vətənçün gözdən axan***
***Bir damla yaş VƏTƏNDİR.***

***Kökü dərindən gələn***
***Qara torpaq VƏTƏNDİR.***
***Saralıb yerə düşən***
***Bircə yarpaq VƏTƏNDİR.***

***Bulaq gözü VƏTƏNDİR,***
***Ocaq közü VƏTƏNDİR.***
***Dilimizdə şipşirin***
***Vətən sözü VƏTƏNDİR.***

***Zaman-zaman talanmış,***
***O bağrı şan VƏTƏNDİR.***
***İllərlə parçalanmış***
***Yarası qan VƏTƏNDİR.***

Vətən dərdinə, onun illərlə ağrıyan yarasına məlhəm olmaq üçün hər bir Vətən oğlu vətənləşdi, hər bir Vətən oğlu torpaq yolunda torpağa dönüb torpaqlaşdı, Vətən yolunda qəhrəmanlıq tarixi yazaraq tarixləşdi. ***VƏTƏNLƏŞƏN, TARİXLƏŞƏN, TORPAQLAŞAN, BÜTÖVLƏŞƏN OĞULLARIMIZ! SİZ, VƏTƏN EŞQİYLƏ DÖYÜNƏN QƏLBİNİZLƏ SİLAHLANDINIZ!*** Əsirlikdə olan yurd yerlərimizin sızıltısına, ah-naləsinə dözə bilməyib, nifrətinizlə silahlandınız. Ata-baba ənənələrini davam etdirən ərənlərimiz əsrlərlə talanan, parçalanan Vətənin səsinə səs verdi, Vətən övladlarından imdad dilədi. Otuz ilə yaxındır ki, Vətənin bir parçası olan yurd yerlərimizə, onun ürəyinin başına vurulan Qarabağ yarasından qan sızırdı. Bu qanı birdəfəlik kəsmək üçün

oğulların ayağa qalxdı, Vətən! Sanki Vətənin səsi gəlirdi. Bu səs sanki dağlardan qopan bir hayqırtı, bir nərilti idi. Bu səs Qarabağı bizə əmanət qoyub-gedən ulularımızın harayı, narahat ruhların fəryadı idi. Vətən boyda ürəyi olan oğullar! Keçmişimizi, qədim Qarabağımızı bizə qaytaran oğullarımız qürur yerimizdir. Bir xalqın dünəni varsa, sabahı da var. Keçmişi varsa, gələcəyi də var. İllərdir ki, aşağı dikilən başımızı göylərə qaldıran oğullar. Başımızı uca, dilimizi uzun, qəddimizi düz, vicdanımızı təmiz edən siz oldunuz, Vətən oğulları! Bizi qürurlu edən igidlərimiz. Qəm-qüssədən yük bağlamışdı xalqımız. Bu ağır yük Qarabağ yükü idi. Xalqın yükünü öz çiyinlərində daşıyan Vətən oğulları. Qarabağın üzünü görməyən, Qarabağı kitablarda oxuyan oğullarımızda yurda qayıdış hissi nə qədər güclü imiş... 28 il əvvəl analarının qucağında bir körpə kimi Vətəndən didərgin düşənlər Qarabağı azad edərək tankların üstündə geri qayıtdılar Vətəndən ötrü qan tökməyə, can verməyə hazır olan oğullar. Axı bu oğullar bilirdilər ki, Vətən dünyasının bir küncündən Qarabağ adlı bir məkan boylanırdı. Boylanırdı ki, övladları onu unutmasın, girovluqdan, əsarətdən xilas etsin. Vətən harayına çatan, onun səsinə səs verən, ürəyi Vətən həsrəti ilə döyünən belə oğullardan biri də Fərid Quliyev idi.

Fərid Əhsən oğlu Quliyev 1989-cu ildə Şuşa şəhərində anadan olub. 2006-cı ildə Yasamal rayonunda yerləşən Şuşa şəhər 1 nömrəli tam orta məktəbi bitirib. Elə həmin il Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olunub. 2010-cu ildə akademiyanı bitirib və hərbi xidmətə yollanıb. O, hərbi xidmət borcunu Tərtər rayonu N nömrəli hərbi hissədə yerinə yetirib. Tovuz hadisələrindən sonra bir çox gənclər kimi o da könüllü olaraq Şuşa rayon Hərbi Komissarlığında qeydiyyatdan keçib. 2020-ci il sentyabrın 27-də yenidən komissarlığa müraciət edib. Bu müraciətdən sonra səbirsizliklə cavab gözləyib. Müharibə başladığı ilk gündən çox həyəcanlı idi. Fərid qisas gününü çoxdan gözləyirdi. Nəha-

yət, sentyabrın 30-da səbirsizliklə gözlədiyi zəng gəldi. Oktyabrın 1-də Vətən uğrunda döyüşlərə yola düşdü. Qarabağı azad etmək uğrunda mübarizəyə qatıldığı üçün iftixar hissi keçirirdi. Fərid müharibənin ilk günlərindən son gününə qədər bu qanlı müharibənin iştirakçısı olmuş canlı şahidlərdəndir. Füzuli, Hadrut, Cəbrayıl, Qubadlı, Daşaltı və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Onun döyüş yolu Şuşaya qədər uzanıb. Müharibənin od-alovundan çıxmış döyüşçü kimi həmin günlərə qayıtmaq onun üçün çox ağır idi. Müsahibə zamanı Fərid suallara cavab verdikcə hiss olunurdu ki, o, qanlı-qadalı, əzablı günlərin acı xatirələrini bir daha yaşamaq istəmir. Düşünürdüm ki, 44 gün ərzində qəhrəmanlıq dastanı yazan igidlərimizin hər biri canlı əfsanədir. Oğullarımız düşmənə qarşı nə qədər amansız olsalar da, təbiətlərində qaya sərtliyi olsa da, bu dəhşətləri açıq surətdə danışmaq istəmirlər. Nədənsə qəhrəmanımız suallara çox qısa cavab verirdi. Müharibənin dəhşətlərini bir daha gözləri önünə gətirmək istəmirdi. Sanki gözləri önündə şəhid olmuş döyüşçü dostlarının ölümünə etiraz edirdi. Lakin bir cümlə ilə, bir sözlə cavablandırdığı sualların cavablarını dolğun və təsirli izah edirdi. Əvvəldən axıra qədər müharibədə iştirak etsə də, doğma Şuşası uğrunda gedən döyüşlər onu daha çox qürurlandırırdı. Müharibə bitəndən bir ay sonra da orda qalmış və illərlə həsrətində olduğu vətənində qalib bir əsgər kimi yaşamaqdan fəxarət hissi keçirmişdi. Azad olunmuş Şuşada yaşamaq ona nə qədər sevinc bəxş edirdi. Burda yaşadığı günlərdə o çox xoşbəxt idi. Axı uşaqlıq arzusu həyata keçmişdi. Şuşanın azad olunmasında onun da payı var idi. Döyüşlərdən sonra Şuşada yaşamaq hissi nə qədər xoş idi. O, Vətən həsrətinin bitdiyinə inana bilmirdi. Uşaqlığını keçirə bilmədiyi doğma yurdunda daha çox qalmaq istəyirdi. Sanki Şuşasız günlərinin əvəzini çıxmaq istəyirdi. Fərid xatırlayırdı ki, hələ noyabrın 1-də Şuşa istiqamətində döyüşlər başlayanda da belə hədsiz sevinc hissi keçirmişdi. Deyirdi ki, şu-

şalı dostum Nicat da mənimlə birlikdə idi. Bizim döyüş yolumuz eyni olmuşdu. Nicat da mənim kimi çox sevinirdi. Hiss edirdim ki, bir şuşalı kimi bizim hisslərimiz daha fərqlidir. Doğma torpağımızda üçrəngli bayrağımızın dalğalanacağı günü səbirsizliklə gözləyirdik. Şuşaya ayaq basanda keçirdiyim hisslər isə tamam başqa hisslər idi, əvəzolunmaz idi. Deyərdim ki, həyatımda heç vaxt belə xoşbəxt olmamışdım. Sanki dünyaya təzədən gəlmişdim. Bəli, bizim qürur hissimiz başqalarından fərqli idi. Həm də mən hələ döyüşlərə yola düşməzdən əvvəl valideynlərimə söz vermişdim ki, mütləq Şuşamızı azad edəcəyik. Söz vermişdim ki, sizə 28 il həsrətində olduğunuz Şuşa torpağını gətirəcəyəm. Məndə böyük inam hissi var idi. Vətənpərvərlik hissi güclü olan xalqımızın qələbəsinə inanırdım. Şükürlər olsun ki, valideynlərimə Şuşa torpağı gətirə bildim.

Könüllü olaraq müharibəyə yola düşəndə Fərid ailə üzvlərindən sevinclə ayrılmışdı. Onlara söz vermişdi ki, siz narahat olmayın, qəhrəman oğullarımızla birgə döyüşə-döyüşə Şuşaya qədər gedəcəyik. Atası Əhsən kişi də oğlu haqqında fəxrlə danışırdı. Deyirdi ki, oğlu bu döyüşlərə o qədər inamla qatılmışdı ki, qələbə ilə geri dönəcəyinə inanırdı.

Elə müsahibə zamanı da Fərid yalnız qələbədən, Şuşa azad olunandan sonra orda yaşadığı günlərdən danışmaq istəyirdi. Şuşanın saf havasından, gözəl təbiətindən, Topxanadan, Daşaltı çayından, Cıdır düzündən danışmaq istəyirdi. Şuşa təbiətinin gözəlliyi haqqında valideynlərindən çox eşitmişdi. Kitablardan oxumuş, filmlərdən izləmişdi. Amma Azərbaycana dahi şəxsiyyətlər bəxş etmiş bu qədim diyarı gözlə görmək başqa bir duyğu idi. Dahi Üzeyirin, Bülbülün, Xanın gəzdiyi torpaqlara ayaq basmaq nə qədər böyük hisslər idi. O narahat ruhları sevindirmək nə qədər xoş idi.

Səninlə fəxr edirik, Fərid. Könüllü olaraq müharibəyə getdin, ağır döyüşlərdə iştirak etdin. Üç yaşında Şuşadan çı-

xan Fərid 28 il sonra 31 yaşında Şuşanın azadlığı uğrunda döyüşlərə qatıldı. Şuşaya ilk daxil olanlardan biri oldu Fərid.

Döyüşçü yoldaşlarının şəhid olmasından danışmaq isə onun üçün çox üzücü idi. Şəhid yoldaşları haqqında verilən suallara qısa cavab verirdi: “Dostlarımdan şəhid olanlar çox oldu.” Şəhid dostları haqqında belə qısa cavab verməklə kifayətlənirdi. Bu qısa cavab altında nələr dayanmırdı? Fəridin keçirdiyi ağır hisslər qısa cavablarından bəlli idi. Ətraflı cavab almaq üçün yenidən sualımı təkrar elədim. Fərid isə cavabında dedi ki, hətta şəhid dostlarımı çiynimdə döyüş meydanından çıxarmışam. O, bu sözləri elə təsirli dedi ki, həmin ağır səhnələr gözlərim qarşısında canlandı. Əlbəttə, çox ağırdır. Bir tərəfdən döyüşçü dostlarının şəhid olması, digər tərəfdən isə onları döyüş meydanından çıxarmaq üçün keçirdiyi həyəcanlar. Döyüş zamanı dostunun şəhid olduğunu görüb sarsılmaq və çiynində onu çıxaran zaman keçirdiyi dəhşətləri yenidən yaşamaq olduqca çətin idi. O özü də ya şəhid, ya da əsir düşməyi göz önünə gətirir. Düşmənə qarşı nə qədər amansız, nə qədər sərt olsalar da, dostları itirdikcə bu sərtlik kövrəkliklə əvəz olunurdu. Bu da müharibənin qanunauyğunluqları idi. Hər bir döyüşçü bunları yaşamağa məcbur idi. Onların hər biri Vətənin müdafiəsi üçün yola düşəndə ölümün gözünə dik baxmışdılar. Dəfələrlə düşmənlə üzüzə qalan igidlər elə döyüşlərin ilk günündən ölümü göz önünə almışdılar. Qardaşı Toğrul da təsdiqləyirdi ki, Fərid müharibənin ağrı-acıları haqqında bizə də danışmaq istəmir. Deyir ki, o əzablı günləri təzədən yaşamaq istəmirəm. Toğrul qardaşı ilə qürur duyduğundan fəxrlə danışırdı. O, müsahibə verdiyi zaman Fərid hələ Şuşada idi. Uşaqlıqdan bəri arzusunda olduğu Şuşada. Toğrul deyirdi ki, Fəridin hal-hazırda Şuşada qaldığı yer doğma ata-baba evlərinə yaxın məsafədə yerləşir. Lakin o öz evlərini tanıya bilməmişdi. Çünki Fərid Şuşadan çıxanda azyaşlı idi. Şuşanı şəkillərdə, video kadrlarda görəndə çox təsirlənirdi. Fəridi yola salanda o mə-

nə dedi ki, işinlə əlaqədar döyüşlərə gedə bilmədiyin üçün təəssüflənmə. Mən sənin də əvəzinə döyüşəcəyəm. Doğrudan da, Fərid sözünün üstündə durdu və Şuşaya qədər döyüşə-döyüşə getdi. ***"Bizim üçün ən böyük mükafatı Fərid verdi"***- deyərək valideynləri sonsuz qürur hissi keçirirdilər.

***"Hansı döyüş yaddaşında ən çətin döyüş kimi qalıb?"***- sualıma Fərid belə cavab verdi: ***"Döyüşlərin hamısı çətin və məsuliyyətli idi. Lakin Füzuli uğrunda Narlıq deyilən ərazidə baş verən döyüşlər hafizəmdə daha çox qalıb. Dayanmadan minomyot və toplardan atılan mərmi qəlpələri yağış kimi başımız üzərindən ələnirdi. Mərmi qəlpələri göz qırpımında döyüşçü yoldaşlarımızı sıradan çıxarırdı. Allaha yalvarırdım ki, şəhid olmaq qismətimdə varsa, bu döyüşdə şəhid olmayım. Heç olmasa, Şuşaya gedib çıxa bilim. Çiyin-çiyinə baş qoyub yatdığımız, bir yerdə yemək yediyimiz döyüşçü yoldaşlarımın çoxunu demək olar ki, itirdim. Daşaltı və Şuşa uğrunda gedən döyüşlər də çox ağır idi. Əvvəlki döyüşlər ağır artilleriya döyüşləri idi. Şuşa və Daşaltıda isə üz-üzə, əlbəyaxa döyüşlər gedirdi. Dostlarım şəhid olduqca düşmənə nifrətim daha da artırdı. Elə buna görə də qisas almaq üçün daha da əzmlə vuruşurduq. Hücum əmri verilən zaman intiqam hissi ilə irəliləyirdik. Daşaltı döyüşlərində də eyni hisslər qəlbimə hakim kəsilmişdi. Kaş, Şuşaya gedib çata biləydim. Çünki sağ qalacağımıza ümidimiz az idi."***

Fərid Xocavənd və Qubadlı istiqamətlərində də çətin döyüş yolu keçdi. O, cəsurluğu ilə seçilirdi. Amma ən böyük arzusu Şuşa uğrunda döyüşlərdə iştirak etmək idi. Fərid üçün bu döyüş nə qədər çətin və ağır olsa da, daxilində bir sevinc hissi də var idi. Çünki döyüşə-döyüşə uşaqlığının xatirələri olan Şuşaya gəlib-çatmışdı.

Nə yaxşı ki, uşaqlıqdan bəri arzusunda olduğun doğma Şuşanın azad olunmasında sənin də payın oldu, Fərid! Sizin kimi igidləri olan bir Vətəndə yaşamaq nə qədər xoşdur. Qarabağsızlıq acısını çox yaşamışdıq. Qarabağımız, Qeyrət qa-

ları Şuşamız azad nəfəs aldı. Şuşada yağan qara baxıb sevinən igidlər, Vətənin qarı da, yağışı da, soyuğu da, əzabı da hər birinizə nə qədər şirin gəlirdi. Elə Fərid kimi. Fərid fəxrlə deyirdi ki, Daşaltıda və meşələrdə nə qədər ac-susuz qalsaq da, ruhdan düşmürdük. Doğma Vətəni tezliklə azad etmək hissi o qədər güclü idi ki... Şuşanın təmiz havası ilə nəfəs almaq nə qədər xoş idi. Fərid də ata yurdunu görüb, nə qədər sevinmişdi. Öz doğma evlərinin qarşısında dayansa da, içəri keçməmişdi. Nədənsə düşünmüşdü ki, kaş, valideynlərim də mənimlə birlikdə evimizə girəydilər. Elə bu arzu, bu hiss onun içəri keçməsinə mane olmuşdu.

Nə gözəl arzudur, Fərid. Nə yaxşı ki, üç yaşında tərk etdiyin evinizi otuz bir yaşında gedib görmək sənə nəsib oldu.

***VƏTƏNİN DAĞINA, DAŞINA, MEŞƏSİNƏ BAXIB, SEVİNƏN OĞULLAR, BU MÜQƏDDƏS TORPAQLARDA YAŞAMAQ SİZƏ HALALDIR.***

Tarixi kitablardan oxuyan oğullar! Bu gün siz özünüz tarixi cəsarətinizlə, Vətənə olan sevginizlə, qanınızla yazdınız. Azərbaycan tarixinin qızıl səhifəsini qızıl hərflərlə yazdınız.

Tarixin bütün dövrlərində mərdliyi, şücaəti ilə seçilən igidlərimiz Vətənin müdafiəsinə qalxmışdılar, yurdumuzun təhlükəsizliyini hər şeydən üstün tutmuşdular. 44 günlük Vətən müharibəsində də sələflərinin yoluna sədaqət göstərən hərbçilərimiz Vətən qarşısındakı borclarını şərəflə yerinə yetirdilər. Otuz il susan igidlərimiz müqəddəs torpaqlarımızı, ulularımızın əmanətini bizə qaytardılar. Müqəddəs torpaqlarımız daha da müqəddəsləşdi. Çünki qazilərimizin canı bahasına, şəhidlərimizin qanı bahasına geri qaytarıldı torpaqlarımız. Xalqımızın yenilməzliyi, birliyi qarşısında diz çökən düşmən məğlub oldu. Qarabağın ən uca zirvəsində-Şuşada ucaltdığınız üçrəngli bayraq sizin mətin əllərinizdə daha da yüksəklərə- zirvələrə qalxdı.

***TÜRKÜN QILINCI İLƏ ALINAN VƏ ŞƏHİDİNİN QANI TÖKÜLƏN TORPAQDA DÜŞMƏNƏ YAŞAMAQ HA-***

***RAMDI! (TÜRKÜN ATA QANUNU).*** Qarabağın Azərbaycanın olduğunu qəhrəmanlıq nümunələri ilə dünyaya sübut etməyə çalışan igidlərimiz, nəsillərə nümunə olan, tarix yazıb, tarixdə yaşayan ərənlərimiz! Bu torpaqlar sizin halal, ulularımızdan əmanət qalan müqəddəs torpaqlarınızdır.

Qəhrəmanlıq nümunəsi göstərən igidlər sırasında Fəridin də adı olduğu üçün o özünü xoşbəxt sayır. Vətən müharibəsində iştirak etmək üçün cəbhəyə könüllü yazılan, Füzulidən Şuşayadək çətin döyüş yolu keçən Fərid Əhsən oğlu Quliyevin igidliyi yüksək qiymətləndirilmişdir.

Füzuli, Xocavənd və Qubadlı rayonlarının işğaldan azad edilməsi uğrunda şəxsi şücaət göstərdiyinə görə Fərid Əhsən oğlu Quliyev "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

## Bəxtiyar Camal oğlu Məhərrəmov



Dünyaya göz açdığımız, nemətini dadıb, suyunu içdiyimiz, sevinci ilə fərəhləndiyimiz, dərdi ilə kədərləndiyimiz, yaxşısı ilə öyündüyümüz, pislərini özümüzə dərd etdiyimiz yurd Vətəndir. Vətənimizin böyük, şərəfli bir adı var – Azərbaycan! Yurd yerimiz, ata-baba ocağımız – Azərbaycan! Doğma Vətənimizə olan sevgimiz, onun təbiətindən, torpağından, havasından, suyundan, daşından tutmuş insanlarına qədər dərin və tükənməz sevgimizdir. Vətənimizin şanlı tarixi keçmişi, bu günü və işıqlı gələcəyi hər birimizə əzizdir. Axı Azərbaycanımız bu günə qədər çətin sınaqlardan keçib-gəlmişdir. Zaman-zaman Azərbaycanımızın sinəsi dağlanmış, yadellilər tərəfindən talanlara məruz qalmışdır. Bir yandan azğın işğalçılar tərəfindən talan olunmuş Azərbaycanımız digər tərəfdən ikiyə bölünmüşdür. Əsrlər boyu gözəl Vətənimiz yaralanmış, sızlamış, bağrı yarılmışdır. Vətənin ağrıyan yarasına məlhəm olmaq üçün Vətən övladları Babək dönməzliyi, Cavanşir cəsarəti, Şah İsmayıl qeyrəti, Cavad xan mərdliyi ilə ayağa qalxdılar. Qarabağ savaşlarında Ramiz Qənbərov, Rizvan Teymurov, Əlif Hacıyev, Tofiq Hüseynov,

Allahverdi Bağırov, Vəzir Orucov, Əliyar Əliyev kimi mübariz oğullarımız vətən çağırışına qeyrətlə səs vermişlər. Qəlbi Qarabağ dərdi ilə yaralı Azərbaycanımızın vətənpərvər övladları bu dərdi çözmək üçün hər an fürsət gözlədilər. Bağrı dəlik-dəlik olan Azərbaycanın yarasını öz əlləri ilə kəsib atan oğullar!

***Vətənə şöhrət-şan verdi,***
***Yarasından qan da verdi,***
***Öz canından can da verdi***
***Vətən torpağında bitən, oğullar,***
***Vətən harayına yetən, oğullar!***

Cəsarətə bürünüb mərdliyini qoruyan oğullar. Soykökünü, birliyini, ərənliyini qoruyan igidlər. Vətən sizə baxıb qürurlandı.

Ürəyi vətən sevgisi ilə döyünən, elinə, obasına bağlı oğullardan biri də Bəxtiyar Camal oğlu Məhərrəmov idi.

Bəxtiyar Camal oğlu Məhərrəmov 1992-ci il aprel ayının 20-də Şuşa rayonunun Göytala kəndində anadan olub. 1999-2010-cu illərdə Ağdam rayonunun Səfərli kənd orta məktəbində təhsil alıb. 2010-cu ilin oktyabrında Şuşa rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılıb. Beyləqanda yerləşən ağır artilleriya briqadasında xidmət edib. 2012-ci ilin aprel ayında ehtiyata buraxılıb. Hərbi xidmətini başa vurduqdan sonra bir vətən oğlu kimi Vətənin keşiyində dayanmaq üçün hərbi xidmətini yenidən davam etdirmək qərarına gəlib. Ordu sıralarından təxris olunduqdan sonra hərbi xidmət sahəsindəki uğurları haqqında və Vətən müharibəsinə könüllü olaraq döyüşlərə qatılması barədə Bəxtiyar özü belə danışdı:

“2014-cü ildə müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi Ağdam rayonunda hərbi xidmətimi davam etdirmişəm. Minaatan komandiri kimi komandirlərin verdiyi əmrləri tapşırıqları vaxtında və dəqiq yerinə yetirmişəm. 2016-cı ilin Aprel döyüşlərində fəal iştirak etmişəm. 2016-cı il düş-

mənin ağır artilleriya ilə atəşi başladı. Düşməni dəqiq cavab atəşi ilə susdururdum. Bir neçə gün ərzində düşmənin canlı qüvvəsini və texnikasını məhv etdiyimə görə çavuş hərbi rütbəsinə layiq görüldüm. 2018-ci ilin mart ayında xidməti müqaviləm başa çatdığına görə ordu sıralarından tərxis olundum. 2020-ci ilin sentyabr ayının 27-də düşmənin təxribatına cavab olaraq əks-hücum əməliyyatlarında iştirak etmək üçün Şuşa Hərbi Komissarlığına müraciət etdim. Oktyabrın 1-də cəbhəyə yola düşdüm. Bölüyünün baş çavuşu kimi döyüşlərə başladım. İlk döyüşüm Cəbrayıl istiqamətində oldu. Düşünürdüm ki, Şuşaya gedən yol Cəbrayıldan keçir. Çətin və ağır anlar yaşasaq da, itkilərimiz və yaralılarımız çox olsa da, Cəbrayılın azad edilməsi sevincimizə səbəb oldu. Mərcanlı uğrunda döyüşlərdə də fəal iştirak etdim. Böyük ruh yüksəkliyi ilə Qubadlı uğrunda döyüşlərə qatıldıq. Qubadlının hər bir kəndi uğrunda gedən döyüşlərdə iştirak etdim. Yenə də düşünürdüm ki, Şuşaya gedən yol Qubadlıdan keçir. Qubadlı işğaldan azad olunduqdan sonra qarşımıza qoyulan missiya Laçın rayonunun Güləbird kəndinə qədər irəliləmək idi. Döyüşlər zamanı ən yaxın dostumu itirdiyim günü heç unuda bilmirəm. Bir gözümdə yaş, bir gözümdə düşmənə nifrət hissi ilə bir addım geri dönmədən irəliləyirdim. Bəzən komandirləri belə, eşitmədən düşməni məhv etmək üçün irəli gedirdim. Yanımdakı döyüşçü yoldaşlarımı itirdiyim anlarda qorxu hissi bilmirdim. Yağış kimi yağan mərmilərə məhəl qoymadan irəliləyirdim. Məqsədim şəhid döyüşçü yoldaşlarımın qisasını almaq idi. Belə də oldu. Beş düşmən əsgərini məhv etdik. Qisas aldığım üçün bir az sakitləşirdim. Güləbird kəndini işğaldan azad etdikdən sonra doğma Şuşamız uğrunda döyüşlərə lap az qalırdı. Şükürlər olsun ki, bu xoşbəxtliyə nail olduq. Şuşanın azad olunması uğrunda döyüşlərdə iştirak etməyi çox arzulayırdım. Sonuncu döyüş yolum Laçın rayonu Güləbird kəndi oldu. Bu kəndin azad olunması əməliyyatı uğurla keçdi. Kəndi azad etməklə N

nömrəli hərbi hissənin irəliləməsinə şərait yaratmalı idik və buna nail olduq. Həmin hərbi hissənin hərbi qulluqçuları Şuşanın işğaldan azad edilməsində böyük xidmət göstərdilər. Doğma Şuşamızın əsarətdən azad olunması uğrunda şəxsən özüm iştirak etməsəm də, Şuşaya qədər uzanan döyüş yolunda mənim az da olsa, payım oldu. Buna görə özümü xoşbəxt sanıram. Uşaqlıqdan bu günə qədər bu arzu ilə yaşamışdım."

Nə yaxşı ki, arzularımız həyata keçdi. Biz Vətəni xilas etməli idik. Vətən bizə borclu deyil, biz Vətənə borcluyuq. Bu vətənpərvərlik arzuları, hər bir insanın daxilindəki duyğulardır. Vətən, torpaq məhəbbəti insanın şəxsi istək və arzularını üstələyir. Hər kəsin ümdə arzusu Vətənin xilası idi. Şükürlər olsun ki, xalqımız öz arzusuna çatdı. Vətən üçün yaşamaq, Vətənin tərəqqisi və inkişafı üçün çalışmaq elə Vətən üçün ölmək qədər şərəflidir.

***Vətənin əlindən tutdu əliniz,***
***Ucaltdı Vətəni hər qələbəniz,***
***Sevgidən alışdı saf ürəyiniz,***
***Vətəndən güc alıb Vətən oldunuz,***
***Yandırdı düşməni Vətən odunuz.***
***Oğullar, oğullar, cəsur oğullar.***

Bəxtiyar Camal oğlu Məhərrəmov Cəbrayıl rayonu uğrundakı döyüş əməliyyatlarında şəxsi şücaət nümayiş etdirdiyi üçün "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

## Ayxan Ceyhun oğlu Əliyev



Vətən bizi çağırır! Vətən dardadır! Nə qədər ağır kəlmələrdir... ***VƏTƏN QANLA ALINAR.*** Vətən satılmaz, amma alınar. Nəyin bahasına olursa-olsun, alınar. Xalq Vətən istiqlaliyyəti, azadlığı uğrunda vuruşar. Bu istiqlaliyyətə qovuşana qədər vuruşar. Vətənin azadlığı insan ruhunun ən gözəl qidasıdır. ***ƏN BÖYÜK ZƏFƏR VƏTƏN ZƏFƏRİDİR.***

***Xətayi nəfəslisən,***
***Babəkin gur səsisən,***
***Üzeyirin Vətənisən***
***Vətən, doymaram səndən.***

***Əsrlər salnaməsi,***
***Dədə Qorqud naməsi,***
***Dilin şirin kəlməsi***
***Vətən, doymaram səndən.***

***Ən şərəfli səsimsən,***
***Harda olsan mənimsən,***
***Qəlbimdə təsəllimsən,***
***Vətən doymaram səndən.***

***ƏN BÖYÜK HÜNƏR VƏTƏN YOLUNDA EDİLƏN HÜNƏRDİR.*** Əbəs yerə babalarımız “Vətən qılıncla alınar” de-

məmişlər. Azərbaycan xalqı 30 il əsarətdə qalan Vətəni qanla aldı. Vətəni zülmətdən çıxardı, işığa bürüdü. Ən böyük xoşbəxtlik Vətənin xoşbəxtliyi, Vətənin azadlığıdır. Qaranlığa bürünən Vətəninə nur saçan igidlərimiz! Vətəni darda qoymadınız. Yurd yerimizi, and yerimizi, səcdəgahımızı bizə qaytardınız. Vətən bağrına vurulan yaraları sağaltdınız. Ulu babalarımızın nəsihətini unutmadınız. Bütov Azərbaycan uğrunda mübarizə aparmış ulu babamız Şah İsmayıl Xətayi gələcək nəsillərə belə vəsiyyət etmişdir: "Vətənin bir ovuc torpağını bir ovuc altundan, dilimizin bir kəlməsini bir ölçü mücəffərdən üstün bildim. Dilimizin və Vətənimizin əbədiyyən yaşaması üçün əlimdən gələni etdim. Atalardan sizə qalan üç əmanəti qoruyun: Vətənimiz, Dilimiz, Qeyrətimiz".

Nə yaxşı ki, ata-babalarımızın qürurunu tapdanmağa qoymadıq. Milli özümüzü qoruya bildik. Milli həmrəy ola bildik. Vətən məhəbbəti xalqımızın milli birliyini, milli həmrəyliyini sübut etdi. Əcdadlarımızın ayaq izi olan Qarabağımıza bayraq sancılması ən böyük zəfərimiz oldu. Harda əcdadlarımızın ayaq izi varsa, orda bayrağımız dalğalanarsa, o bayraq xalqı keçmişinə bağlayar. Böyük xalqın iradəsi qalib gələr. Azərbaycan xalqının milli-mənəvi şüurunun oyanışı elə tarixinə, keçmişinə bağlılıqdır. Xalq öz istiqlaliyyətinin dönməzliyini, əbədiliyini dünyaya sübut etdi. Nə yaxşı ki, istiqlaliyyətimiz uğrunda usanmaz mübarizə apara bildik. Xalqımızın polad iradəsini qırmaq mümkün olmadı. Tariximizi, keçmişimizi, soyumuzu bu xəcalətdən qurtara bildik. Nə yaxşı başımızı uca tuta bildik. Əsarət altında qalan torpaqlarımızı xilas etdik. Bayrağımızı Qarabağda – Şuşa qalasında ucalda bildik. Yoxsa, tarix bizi bağışlamazdı. Yoxsa, bu tarixi ləkəni yuya bilməzdik. Sınmış, tapdanmış qürurumuzla yaşaya bilməzdik. Qələbə sevincini bizə yaşadan igidlər, qələbəni bizə dadızdıran oğullar! Haqqınız ödənilməz. Belə oğullardan biri də Ayxan Əliyevdir.

Ayxan Ceyhun oğlu Əliyev 1997-ci il sentybrın 16-da Bakıda şuşalı ailəsində anadan olub. 2003-2014-cü illərdə Bakıdakı 286 nömrəli tam orta məktəbdə təhsil alıb. Elə həmin il Azərbaycan Texniki Universitetinə daxil olub. 2018-ci ildə universiteti bitirib və Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək üçün ordu sıralarına həqiqi hərbi xidmətə çağırılıb. 2019-cu ildə ordu sıralarından təxris olunub.

***"2020-ci il sentyabr ayının 21-də hərbi təlimlərə çağırılmışam. Sentyabrın 27-dən isə Vətən müharibəsinə könüllü olaraq qatılmışam. İlk döyüş yolum Füzuli və Cəbrayıl rayonlarının azad edilməsi istiqamətində olub. Füzuli və Cəbrayıl rayonunun kəndlərinin, həmçinin Xocavənd rayonunun Hadrut qəsəbəsinin azad edilməsində fəal iştirak etmişəm. Üzərində xüsusi qurğu yerləşən döyüş avtomobilini idarə edirdim. Həmin qurğudan düşmən mövqelərinə sarsıdıcı zərbələr endirirdim. Döyüşlərdə fərqləndiyim üçün N nömrəli hərbi hissənin komandiri tərəfindən Fəxri fərmanla təltif olunmuşam. Ümumiyyətlə, tank briqadasında xidmət edirdim. Hələ sentyabrın 26-da tanklarımızı mərmi ilə yükləyib, qatarlarla ön xəttə salmışdıq. Ayın 27-də saat 4-də biz artıq ön xəttdə idik. Biz ön xəttə çatanda artıq toplar və raketlərdən düşmən istiqamətinə güclü zərbələr endirilirdi. Horadizdən sonra tanklarımız Cəbrayıl və Zəngilan istiqamətində döyüşləri davam etdirirdi. Cəbrayıl, Zəngilan və Qubadlı rayonları azad olunandan sonra biz Alxanlı meşəsində məskunlaşdıq. Döyüşlərimizi bu istiqamətdən davam etdirirdik.***

***Döyüşlər zamanı belə bir hadisənin şahidi oldum. Bu hadisə gecə postu mühafizə edən zaman baş vermişdi. Döyüşçü yoldaşım şuşalı Nicat Əliyevlə birlikdə postda idik. Texnikanı mühafizə edirdik. Yerləşdiyimiz meşənin bir tərəfi boş sahə idi. Qəflətən kolluqdan bir səs gəldi. Biz özümüzü itirmədən Nicatla həmin istiqamətə irəlilədik və kiminsə qaranlıqda qaçdığını hiss etdik. Biz isə onun izi ilə qaçırdıq.***

***Eyni zamanda komandirə də məlumat verdik. Arxasınca qaçsaq da, tuta bilmədik. Onu sağ ələ keçirmək istəyirdik. Atəş açdıq, lakin dayanmadı. Bizdən qabaqda olan döyüşçülərimiz onu zərərsizləşdirə bildilər. Biz öyrəndik ki, erməni kəşfiyyatçısı imiş. Cibindən bizim olduğumuz yerin koordinatları çıxmışdı. Məlum oldu ki, bizim olduğumuz yerin çertyojunu çəkib, özlərinə ötürürmüş. Düşmən kəşfiyyatçısının ötürdüyü məlumata əsasən mövqelərimizi raket zərbəsi ilə vurmağı planlaşdırırmışlar. Ona görə də biz həmin mövqedən uzaqlaşdıq. Əsgərlərimizin ayıq-sayıqlığı nəticəsində düşmən casusunun hiyləsi baş tutmadı. Füzuli rayonunun Kürdmahmudlu kəndinə yola düşəndə əvvəlki mövqeyimiz toplarla atəşə tutuldu. Beləliklə, bütöv bir hərbi hissə faciədən xilas oldu.***

***Təəssüflər olsun ki, tank briqadasında xidmət etdiyim üçün Şuşa döyüşlərində iştirak edə bilmədim. 2021-ci il yanvar ayının 9-da ordudan təxris olundum. 111 gün Vətənimə, xalqıma sədaqətlə qulluq etmişəm."***

Ayxan keçdiyi şərəfli döyüş yolu haqqında qürurla danışırdı. Elə oğullarımızın bu qüruru, sücaəti, xalqımızın yenilməzliyi, birliyi qarşısında diz çökən düşmən məğlub oldu. Qarabağımız, qeyrət qalamız Şuşa azad nəfəs aldı. Bayrağımız oğullarımızn mətin əllərində Qarabağın ən uca zirvəsində ucaldı. Yağı caynağından xilas olan halal torpaqlarımız gözümüzdə bir daha halallaşdı, ilahiləşdi. Şəhidlərimizin qanı tökülən torpaqlar daha da müqəddəsləşdi. Doğrudan da, torpaq qanla qarışanda Vətən olur. Torpaq o zaman Vətənə çevrilir ki, milli ruhla canlanmış olsun. Doğmalarımız bizə nə qədər əziz olsa da, Vətən məhəbbəti onlardan üstün olur. Görkəmli alimimiz Xudu Məmmədovun məşhur kəlamını xatırlatmaq yerinə düşərdi: ***"UŞAQLARA VƏTƏNİ SEVMƏYİ ÖYRƏTMƏYİN! SİZ VƏTƏNİ ONLARA TANIDIN, ÖZLƏRİ SEVƏCƏKLƏR."*** Oğullarımız həsrət qaldıqları Vətəni – Qarabağı yaxşı tanıyırdılar. Tanıdıqları və ürəkdən

sevdikləri Vətəni azad etmək uğrunda mübarizə həyat amalları olmuşdu. Əgər Vətən azaddırsa, sən də azadsan. 30 il susan xalq məğlubiyyəti qəbul edə bilmədi. Yurd həsrəti elə bir ağrılı dərddir ki, hər bir vətən övladının qəlbində məlhəmi tapılmayan yaraya dönmüşdü. Bu yaranı birdəfəlik kəsib atmaq üçün, bu yaraya məlhəm olmaq üçün ayağa qalxdı oğullarımız. Müsahibə aldığım hər bir döyüşçü məğlubiyyəti görməkdənsə, şəhid olmağı üstün tuturdular. Vətənin dar günündə harayına səs vermək qəlbdən gələn bir hökmdür. İgid oğullarımız bunu bir daha sübut etdilər.

***Tarixə yazıldı bu haqq savaşı,***
***Qarabağda qanla yuduq hər daşı,***
***Sellərə dönmədi elin göz yaşı,***
***Ləkəli tarixə məzar qazdınız,***
***Qalibiyyət yoluna zəfər yazdınız.***

***Poladların qanı damarınızda,***
***Əzəməti, gücü vüqarınızda,***
***Şöhrəti, şərəfi amalınızda,***
***Vətəndən güc alıb Vətən oldunuz,***
***Yandırdı düşməni Vətən odunuz.***

Qanları ilə qəhrəmanlıq tariximizə yeni səhifələr yazdı oğullar! Hər bir Azərbaycan vətəndaşı öz qəhrəmanını tanımalı, onların keçdiyi həyat yolunu özlərinə örnək bilməlidirlər.

Ayxan Əliyev döyüşlər zamanı göstərdiyi xidmətlərə görə "Vətən müharibəsi iştirakçısı" medalı və N nömrəli hərbi hissənin Fəxri fərmanı ilə təltif olunmuşdur.

## Nicat Yavər oğlu Sevindiyev



Əbədi ocağımız, Vətənimiz Azərbaycan! Arxamız, dayağımız Vətən. Nəfəsimiz Vətən. Övladların sənə qucaq açdı, sənə sığındı Vətən. Neçə illərdir ki, əsarət altında qalan torpaqların üçün çox darıxmışdıq. Övladların də sənin üçün çox qəribsəmişdi, cənnət Qarabağımız. Vətən nisgili neçə illərdir ki, ürəklərimizi dağlayırdı. Bu nisgili ürəklərimizdə yaşada-yaşada sənə qovuşacağımız günü gözləyirdik, Vətən. Vətən kədərli gözlərimizdə yaşadı. Uzun illərdir ki, Vətənsiz darıxan ürəklərimiz Vətən dərdindən yara bağladı.

***Dərdli ürəklərdə yaşayan Vətən,***
***Kədəri gözlərdə daşıyan Vətən.***

Gözümüzün bəbəklərindən boylanan həsrət üfüqlərində yaşadın, ey Vətən! Qəlbimizin ənginliklərində yaşadın. Axı biz canımız qədər sevdiyimiz Vətəni yana-yana qoyub-gəlmişdik. Elə özümüz də həsrətindən yana-yana qalmışdıq.

Cəsarət mülkünü qəlblərində tikən oğullar bu həsrətə birdəfəlik son qoymaq istədilər. El qeyrəti çəkən oğullar Vətən xilaskarı olmaq üçün sıraya düzüldülər. Düşmənin su çilədiyi ocaqlarımızı yandırmaq üçün bu şərəfli yola çıxdılar. İgidlərimizin dillərində bir şüar vardı: ***“Vətən, sənə canım fəda!”***

İgidlərimiz bu şüarı təkcə dildə söyləmirdilər. ***ANA VƏTƏNİ ANA BİLƏN OĞULLAR ANALARINI QORUYURDULAR.*** Özü yaralı ola-ola yaralı döyüşçü yoldaşına yardım etdiyi üçün şəhid olan igidlər! Nə qədər saf ürəyiniz varmış... Vətən üçün canını fəda etməkdən çəkinməyən igidlər dost yolunda da fədakarlıq etməkdən çəkinmirdilər. Xalqımız isə canını Vətənə fəda edən oğullara arxa-dayaq olmaq üçün arxa cəbhədə sovqatlar göndərməklə rahatlıq tapırdılar. Bir əsgər sovqatının içindən belə bir məktub çıxmışdı: ***"Bağışlayın, gücüm buna çatdı. Halal xoşunuz olsun, yeyin!"*** Bax, budur Vətən naminə xalqın birliyi. Soykökünə, milli ruhuna bağlılıq. Yurda dönmək arzusu, özümüzə qayıtmaq istəyi. Doğulduğumuz Vətəndən uzaqlardayıqsa, o balaca məhəlləmizə əlimiz çatmırsa, deməli, hələ özümüzdə deyilik. Özümüzə qayıtmaq istəyirik. Vətən özümüzük. Özümüzə, kökümüzə qayıtmaq istəyirik. Özümüzə qayıtmağa can atırıqsa, deməli, kökümüzə, soyumuza can atırıq. Vətən sevgisi beşikdən başlayır, məzarda bitir. Anadan olduğumuz Vətən ilk beşiyimizdir. İlk beşiyimizə can atırıq. Belə ruhda böyümüş igidlərimiz də ilk beşiklərinə can atırdılar. Analarının onlara layla çaldıqları o ilk beşiklərinə. İgidlərimizin hər biri Vətən üçün çırpındılar. Qınaq hissi ilə xəcalət hissi bir-birini ittiham etdi. İgidlər xalqımızı xəcalətli qoymaq istəmədilər. Vətən üçün yaşayan, Vətən məhəbbəti ilə ürəkləri çırpınan igidlər Vətənə imdad əlini uzatdılar. Vətənin imdadına çatan oğullardan biri də Nicat Sevindiyevdir.

Nicat Yavər oğlu Sevindiyev 1998-ci ildə Qubada şuşalı ailəsində anadan olub. 2016-cı ildə Bərdə şəhər R.Musayev adına İnteqrasiya təlimli internat tipli gimnaziyanı bitirib. 2017-2018-ci illərdə həqiqi hərbi xidmətdə olub.

Nicat Sevindiyev Vətən müharibəsindəki döyüş yolu haqqında həvəslə danışdı: ***"2020-ci il sentyabrın 15-də atam, mən və qardaşım könüllü olaraq hərbi komissarlığa müraciət etmişik və döyüşlərdə iştirak etmək üçün qeydiyyatdan***

*keçmişik. İlk olaraq mən sentyabrın 30-da Vətən uğrunda döyüşlərə yola düşdüm. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və Xocavənd uğrunda gedən döyüşlərdə fəal iştirak etdim. Atam Birinci Qarabağ müharibəsində iştirak etmişdi. O, Şuşa və Laçın döyüşlərinin fəal iştirakçısı olub. İkinci Qarabağ müharibəsində isə mənimlə birlikdə könüllü olaraq döyüşlərə qatılmış və kəşfiyyatçı kimi öndə getmişdi. Babam Vahid Sevindiyev və əmim Yaşar Sevindiyev 1992-ci ildə Şuşa döyüşlərində şəhid olmuşlar. Şəhid babamın qardaşı Ərşad Sevindiyev 1991-ci ildə Şuşa uğrunda döyüşlərdə şəhid olmuşdu. Bütün bunları bölüşməkdə məqsədim odur ki, ata-babalarım mənə həyatda bir vətənpərvər kimi ən böyük örnəkdirlər. Sevindiyevlər ailəsinin ən kiçik üzvü kimi qürur hissi keçirirəm ki, atam. əmim, babam və babamın qardaşı Birinci Qarabağ müharibəsinin fəal iştirakçısı olublar. Bu gün isə mən bu ənənəni davam etdirərək atamla çiyin-çiyinə Vətən müharibəsində iştirak etmişəm.*

*Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və Xocavənd uğrunda gedən döyüşlərdə fəal iştirak etmişəm. Bu döyüşlərin hər biri çətin idi. Amma Cəbrayıl və Qubadlı uğrunda gedən döyüşlər hafizəmdə ən ağır döyüşlər kimi qalıb. Çünki bu döyüşlərdə əvvəldən sona qədər iştirak etmişəm. Şəhid və yaralılarımızın daha çox olduğu bu döyüşləri heç vaxt unuda bilmərəm. Döyüş əmiliyyatlarının uğurla keçməsində komandirimiz, kapitan Ramin Mehdiyevin xidmətləri əvəzsizdir. Tabeliyində olan əsgərlərinə xüsusi qayğı və diqqətlə yanaşan kapitan Mehdiyevi həmişə xoş xatirələrlə yada salacağam. Belə məsuliyyətli, işinin peşəkarı olan komandirlərimizin əməyi sayəsində Vətən müharibəsində böyük uğurlar qazana bildik.*

*Atəşkəs elan olunduqdan sonra Şuşanın mühafizəsi və müdafiəsinə göndərilmişəm. Bir müddət İsa bulağında və sonra isə Daşaltı kəndində Şuşanın mühafizəsində iştirak etmişəm. Daşaltı kəndindən Şuşaya gedən bir yol vardı.*

***Mən o yoldan keçəndə bir anlıq belə düşündüm ki, Birinci Qarabağ müharibəsində mənim şəhid babam, babamın şəhid qardaşı, şəhid əmim və atam da bir zamanlar bu yoldan keçmişdir. Mən bütün bunları atamın döyüşlər haqqındakı xatirələrindən bilirəm. Onların döyüş yolu haqqında məlumatları atamdan almışam. Həmin yola baxanda bir anlıq belə düşündüm ki, onların qisasını almaq üçün 28 ildən sonra mən də həmin yoldayam. Vətəni qorumaq üçün, Vətəni dardan qurtarmaq üçün yenə həmin yoldayıq. Elə atam da, 28 ildən sonra öz şəhid atasının, əmisinin və qardaşının qisasını almaq üçün döyüş meydanlarındadır. Demək olar ki, döyüşçülərin hər biri azğın düşməndən qisas almaq üçün əzmlə vuruşurdu. Elə buna görə də biz qalib gəldik. Çünki biz öz Vətənimizdə idik, onu xilas etmək üçün vuruşurduq. Döyüşlər zamanı düşmənin qətiyyətsizliyinin şahidi olurduq. Qarabağda döyüşmək istəməyən düşmən çıxış yolunu döyüş meydanlarından qaçmaqda görürdü. Bizim igid oğullar isə düşmənlə üz-üzə əlbəyaxa döyüşlərdə qorxmadan, cəsarətlə irəli atılırdılar. Ona görə ki, bizim məqsədimiz Vətənimizi yağı əsarətindən qurtarmaq idi. On gün ərzində Laçın dəhlizinin mühafizəsində iştirak etmişəm.***

***Azad olunmuş Vətən torpaqlarında yaşamaq və onu mühafizə etmək nə qədər xoş duyğular idi. Səhərlərimi Şuşada, Laçında açmaq məndə o qədər xoş hisslər yaradırdı ki... Uzun illərdir ki həsrətini çəkdiyimiz Vətən torpaqlarında yaşadığım üçün o qədər xoşbəxt idim ki".***

Nicat Sevindiyev müharibə meydanlarında göstərdiyi şücaətə görə "Füzulinin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Qubadlının azad edilməsinə görə" və "Xocavəndin azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

# Kənan Rabil oğlu Abbasov

Ürəyimizlə, qəlbimizlə Vətənə bağlıyıq. Vətən ürəyimizdən başlayır. Vətən sevgisi ilə yanan qəlbimiz Vətən sevgisi ilə yaşayır. ***MƏNDƏN, SƏNDƏN, BİZDƏN,SİZDƏN – HAMIMIZDAN BAŞLANIR VƏTƏN!***

***Dədə Qorqud elim, Babək diyarım,***
***Qələbə soraqlı gəldi baharım.***
***Şərəf, şan gətirdi ər oğulların,***
***Vətən, tarixinə,yaşına qurban,***
***Qədim torpağına, daşına qurban.***



Vətəni şüurumuza möhürləmişik, qəlbimizə yazmışıq. İnsan Vətəndə qürurlu gəzir. Vətənsiz boynubükük qalar. Vətənin dostu da saf olur. Vətənin kədəri də səni o qədər ağrıtmır. Vüqarını, qürurunu itirmirsən Vətəndə. Hara getsək də, ürəyimizin bir guşəsində Vətən adlı bir milli səs var. Ürəyimizin səsidir, milli ruhumuzun, Vətənin səsidir bu səs. İnsan Vətən yolunu unuda bilməz. Vətənimizin əbədi var olması üçün Qarabağımız da əbədi var olmalıdır. İnsan dünyada bir ömür yaşayır. Kimisi Tanrının ona bəxş etdiyi ömür payını mənasız keçirir, kimisi özündən sonra bir iz qoymur, yada düşmür, anılmır. Lakin Vətən üçün yaşayanlar, Vətən sevgisi ilə ürəyi döyünənlər əbədi yaşayırlar. Yaddaşlarda, ürəklərdə əbədiləşir-

lər. Özünü Vətən yolunda fəda edən, Vətən üçün yaşayan igidlər də əbədiyaşar olurlar, unudulmurlar. İgidlərimiz döyüş meydanlarında can verməyi üstün tutdular. Vətən torpağı adi torpaq deyil. İgidlərin qanı ilə suvarılıb bu torpaq. Bəzən qələbəmizə sevinməkdən utanırsan. Axı Qarabağı başına qara bağlayan, gözünün yaşı qurumayan anaların şəhid oğulları azad etdi. Qarabağı döyüş meydanlarında əllərini, ayaqlarını, gözlərini itirən, qulaqları batan, yaddaşını itirən oğullar azad etdi.

Bizi o torpaqlara qaytaran milli ruhumuz oldu. Bizim üçün Qarabağ milli qürur və heysiyyat məsələsidir. Torpaqda kök salıb torpaq olan oğullar qürurumuzu sınmağa qoymadılar. Əli, qolu olmaya-olmaya ***"heyf ki, mən Vətən üçün sona qədər döyüşə bilmədim"*** – deyən oğulların Vətənidir bu Vətən. Ürəyində qəlpə gəzdirən, amma ***"ürəyim sənə qurban, Vətən"*** – deyən oğulların Vətənidir bu Vətən. Öz oğlunun məzarı başında ***"Xocalının qisasını almısan, oğul. Ona görə ağlamıram"*** – deyən anaların Vətənidir bu Vətən. Öz şəhid ərinin, qardaşının cənazəsini çiynində daşıyan mərd qadınların Vətənidir bu Vətən. ***"Vətən torpağı üstündə yatdıqca bizə güc gəlirdi"*** – deyən oğulların Vətənidir Vətənim. Əfsanələşən, heykəlləşən və öz qanı ilə bayrağımızın rənglərinə rəng qatan igidlərin Vətənidir Vətənim. Nəhayət, yumruq kimi birləşən milyonlarla vətənpərvər azərbaycanlıların Vətənidir Vətənim.

Kənan Abbasov da belə vətənpərvər oğullardan biri kimi Vətən müharibəsinə könüllü qoşuldu.

Kənan Rabil oğlu Abbasov 1995-ci il may ayının 5-də Ağdamda şuşalı ailəsində anadan olub. Əslən Şuşanın Xəlfəli kəndindəndir. 2002-2012-ci ilər ərzində 81 nömrəli Ağdam köçkün tam orta məktəbində təhsil alıb. 2013-cü ilin iyul ayında hərbi xidmətə çağrılıb. 2015-ci ilin yanvar ayında hərbi xidmətini başa vurub. 2020-ci il sentyabrın 21-də səfərbərlik hərbi çağırışına qoşulub.

Füzulidən Daşaltı kəndinə qədər uzanan döyüş yolu haqqında Kənan belə danışdı: ***“Sentyabrın 27-də Füzuli döyüşlərinə yola düşmüşəm. Axşam saat 10-da artıq biz Füzuli uğrunda gedən qızğın döyüşlərə qoşulduq. Mən zirehli tankların təmiri taborunda xidmət göstərirdim. Tankları hazır vəziyyətə gətirmək üçün bizi Beyləqan rayonunun Kəbirli meşəsinə göndərdilər. Tankları yükləyib hazır vəziyyətə gətirirdik və komanda gözləyirdik. Oktyabrın 8-nə qədər Füzuli rayonunun kəndləri uğrunda gedən döyüşlərdə iştirak etdik. Füzuli döyüşləri zamanı yanımda yaralanan döyüşçü yoldaşlarımın adlarını çəkmək istəyirəm. Gizir İsgəndərov Kənan, gizir Babayev Elşən, gizir Vəliyev Nahid. Şükürlər olsun ki, yaralı döyüşçülərimizə ilkin tibbi yardım göstərə bildik. Komandirimiz, kapitan Rəşad İbrahimov tabeliyində olan əsgərlərə böyük diqqət göstərirdi. Onun düzgün döyüş taktikası nəticəsində itkilərimiz çox olmurdu. Şəxsi heyətimizlə birlikdə Füzulinin dağlar qoynunda yerləşən Babı kəndində mövqe tutduq. Həmin günün səhəri bizi dörd nəfər şəxsi heyətimizlə birlikdə Cəbrayıl uğrunda döyüşlərə göndərdilər. Cəbrayıl rayonunun Şükürbəyli kəndində gedən qızğın döyüşlərə qoşulduq. Birinci taborun tankları artıq döyüşə girmişdilər. Mikayılov Bəhmən, Məmmədov Nicat, Əliyev Ayxan və mən tankların yüklənməsində və döyüşə hazır vəziyyətə gətirilməsində fəal iştirak etdik. Tank taborumuz Xocavəndin Soyuqbulaq kəndi uğrunda gedən döyüşlərdə də fəal iştirak etdi. Döyüş yolum Şuşanın Daşaltı kəndinə qədər uzandı. Əlbəttə, Şuşa uğrunda gedən döyüşlərdə iştirak etməyi çox arzulayırdım. Lakin tank taborunda xidmət etdiyim üçün Şuşa döyüşlərinə qatıla bilmədim. Şuşa döyüşlərində tanklardan istifadə olunmamışdı.***

***Belə bir hadisəni də xatırlatmaq istəyirəm. Füzulidə T-90 markalı tankımız vurulmuşdu. Tankın şəxsi heyətinin hər üçü həlak olmuşdu. Tankın içərisində həlak olan şəxsi heyət üzvlərini çıxarmaq üçün tanka yaxınlaşdıq. Hadisə ye-***

***rində yalnız bir nəfərin biləyi qalmışdı. Bu hadisə məni çox sarsıtmışdı. Hələ də gözümün qarşısından getmir. Müharibə zamanı belə hadisələrlə çox rastlaşmışam. Bu barədə danışmaq mənə çox çətindir.***

***Atam Rabil Abbasov Birinci Qarabağ müharibəsi döyüşlərinin iştirakçısıdır. Demək olar ki, Qarabağ yaramızdan, Şuşa dərdimizdən hər gün danışmışıq. İşğalda olan torpaqlarımızın xilas olunacağı günü həsrətlə gözləmişəm. Vətən müharibəsi başlayanda çox inandım ki, Vətəni əsarətdən xilas edəcəyimiz gün gəlib-çatdı. Bütün Vətən oğulları Qarabağımızı xilas etmək üçün birləşməliyik. Elə belə də oldu. "Vətən sənə canımız fəda" – deyən igidlər Vətənin azadlığı uğrunda mübarizəyə qalxdılar. Mən də Vətənin azadlığı uğrunda mübarizəyə qoşulduğum üçün qürur hissi keçirirəm. Bu mübarizədə iştirak etmək mənim uşaqlıq arzum idi."***

Kənan Abbasov müharibə meydanlarında göstərdiyi şücaətə görə "Füzulinin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

## Vüsal İlqar oğlu Abdullayev

***Sevgi ümmanımız aşıb-daşırdı,***
***Bu sevginin adı Vətən sevgisi.***
***Vətənsiz bir insan necə yaşardı,***
***İlahi hikmətdi Vətən sevgisi.***



***VƏTƏN! QƏLBİMİZİN SƏSİ, ÜRƏYİMİZİN ÇIRPINTISI.*** Hələ beşikdə çırpınan balaca körpələrimizin ürək döyüntüləri yalnız vətən nəğməsini zümzümə edir. Bu nəğməni hərə bir cür oxuyur. Vətən nəğməsini döyüş harayı, Koroğlu nərəsi, qılınc zərbəsi ilə də oxuyanlar olub. Bulaq pıçıltısı, Nigar vəfası, Həcər sədaqəti ilə oxuyanlar da. Yurdun azadlığı uğrunda canını fəda etməyə hazır olanlar da bu nəğməni başqa cür oxuyublar. İnsan həyata bir dəfə gəlsə də, müdrik bir kəlamda deyildiyi kimi ***"Vətəndə ölməyən iki dəfə ölür".*** Keçmişimizlə gələcəyimiz Vətəndə qovuşur. ***RUHƏN, QƏLBƏN, TƏMƏNNASIZ SEVİLƏN VƏTƏN. V***ətən canımızdan kəsilən can parçasıdır. Vətən torpağı bir candırsa, bölgələri Vətənin can parçalarıdır. Bunlardan hansını kəssən, Vətən yarımcan qalar. Qarabağsız yarımcan qalmışdı Vətən. Vətən ruhumuzun əhatəsindədir. Vətən qəlbimizin geniş ənginliklərindədir. ***VƏTƏN HƏR BİRİMİZDƏN BAŞLAYIR. MƏNİM, SƏNİN, BİZİM, SİZİN – HAMIMIZINDIR VƏTƏN!*** Vətən gözlərimizin bəbəklərindən boylanan həsrət üfüqlərindədir. Vətən

məhəbbəti elə bir duyğudur ki, hər kəs özünü vətənə borclu sayır. Vətənsiz sanki bir parça daş idik. Qara torpağını yaramıza məlhəm bilmişik. Möhnətdə qalan elinə möhtac qalmışdıq. Ləçəkləri qana batmış gülünə, şəhidlərimizin qan izi qalan dağına, daşına həsrət qalmışdıq. Sanki bulud idik, yağa bilmirdik. Sanki şimşək idik, çaxa bilmirdik. Yağı caynağında qəm yeyən Vətənə qovuşmaq üçün ürəyimiz həsrətdən qubar bağlamışdı. Nə yaxşı ki, Vətənsiz gözlərimiz ağlar qalmadı. Gülən gözümüz oldun, Vətən! Dərdli Vətənin üzünü güldürən oğullarımız olmasaydı, nə qədər Vətən həsrəti çəkərdik. Vətən sevgisi ilə böyüdü oğullarımız. Bu sevginin təməli lap uşaqlıqdan qoyuldu. Gözlərini açandan didərgin həyatı yaşayanlar. Qarabağ dərdi ilə ürəyi dərd bağlayanlar, Vətəni azad etmək üçün alışıb-yananlar birləşdilər. Bu həsrətə son qoymaq üçün birləşdilər. Belə oğullardan biri də könüllü olaraq döyüşlərə atılan Vüsal Abdullayev idi.

Vüsal İlqar oğlu Abdullayev 1996-cı il iyunun 13-də İmişli rayonunda şuşalı ailəsində anadan olmuşdu. 2003-2014-cü illərdə İmişli rayon Qaragüvəndikli kənd orta məktəbində təhsil alıb. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək üçün ordu sıralarına həqiqi hərbi xidmətə çağrılıb. Ön xəttdə yerləşən N nömrəli hərbi hissədə xidmət edib.

Torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərə necə qatılması barədə Vüsal belə danışdı:

***"Orduda xidmət etdiyim dövrdə 2016-cı ilin Aprel döyüşləri başladı. Aprel döyüşlərində fəal iştirak etdim. Bu döyüşlər zamanı azad etdiyimiz torpaqlarda müdafiə xəttində xidmət etmişəm. Ordu sıralarından təxris olunana qədər ön xəttdə qulluq etmişəm. Düşmən əsarətindən xilas etdiyimiz torpaqlarımızda xidmət etmək mənə o qədər xoş idi ki... Qarabağımızın bütövlükdə azad olunması elə əsgərlik illərindən ən böyük arzum olmuşdu.***

***Vətən müharibəsi başlayanda bu arzumun gerçəkləşəcəyinə böyük ümid bəsləyirdim. Elə bu ümidlə sentyabrın 28-də Şuşa rayon Hərbi Komissarlığına müraciət etdim. Hərbi komissarlıqdan mənə bildirdilər ki, oktyabrın 1-də könüllü gedənlərin səfərbərlik çağırışına qoşula bilərsiniz. Həmin günü evə sevinclə gəldim. Ailə üzvlərimə bu barədə heç nə deməmişdim. Düşü-***

*nürdüm ki, narahat ola bilərlər. Çünki həmin dövrlər xalqımız böyük təşviş içində idi.*

*Beləliklə, oktyabrın 1-də şuşalı könüllülərlə birlikdə Ağcabədi rayonunda yerləşən döyüşçülərin toplanış mərkəzinə göndərildik. Burdan isə Füzuli istiqamətində gedən döyüşlərə yola düşdük. Füzulidə gedən ağır artilleriya döyüşləri hafizəmdə ən çətin döyüşlər kimi qalıb. Hər birimiz düşünürdük ki, bu döyüşlərdən sağ çıxmaq mümkün olmayacaq. Şükürlər olsun ki, Füzulidə gedən döyüş əməliyyatlarını uğurla başa vura bildik. Füzulidə yerləşdiyimiz hərbi hissənin vurulması və bu təhlükədən xilas olmağımızın özü də bir möcüzə idi. Yerləşdiyimiz hərbi hissə vurulduqdan sonra biz ordan təxliyə olunduq. Səhəri gün biz Qubadlı istiqamətində olan döyüşlərə qatıldıq. Qubadlı döyüşlərinin birində ağır itkilər verdik. Şəhid və yaralılarımızn döyüş meydanlarından çıxarılmasında yaxından iştirak etdim. O qədər qızğın döyüşlər gedirdi ki, yaralı döyüşçülərimizin bəziləri qanaxma nəticəsində həyatlarını itirirdilər. Yüksəklikdə olduğumuz üçün ilk tibbi yardımı vaxtında etmək bəzən mümkün olmurdu. Gözümün qarşısında üç nəfər döyüşçünün güllə yarası nəticəsində olan qanaxmadan həlak olmalarını təəssüf hissi ilə xatırlayıram. Onu da qeyd etmək istəyirəm ki, əbədiyyətə qovuşan şəhidlərimizin hər birinin çöhrəsində nur vardı. İlk baxışda canlı kimi görünürdülər. Nə qədər çətinliklər olsa da, Vətən borcumu yerinə yetirdiyim üçün daxilimdə bir rahatlıq vardı. Qubadlının kəndləri uğrunda gedən döyüşlərdə iştirak etdim. Qubadlı rayonunun düşməndən azad olunduğu gün böyük sevinc hissi yaşadım. Həkəri çayı üzərindəki körpü minalandığı üçün biz çayın içərisi ilə keçməli olduq. Azad olmuş, şırıltı ilə axan Həkəri çayı da sanki bizim kimi sevinirdi.*

*Demək olar ki, döyüş yolum əsasən Qubadlı istiqamətində gedən döyüşlərlə bağlı oldu. Noyabr ayının 8-də Şuşanın işğaldan azad olunması xəbərini elə Qubadlıda eşitdik. Dekabrın 31-də təxris olundum. Böyük qürur hissi ilə qalib ordunun qalib əsgəri kimi evə döndüyüm gün həyatımın ən xoş günü idi. Döyüş yoldaşlarıma deyirdim ki, əgər sağ qalsam yəqin ki, valideynlərim, xüsusən, atam mənimlə fəxr edəcək. Çünki hər bir*

***döyüşdə ölümü göz önünə alırdıq. Buna baxmayaraq, Vətən sevgisi o qədər güclü idi ki, qorxu hissinə qalib gəlirdi.***

***Döyüşə yola düşəndə xəbərsiz getdiyimə baxmayaraq, bilirdim ki, ailədə məni sevinclə qarşılayacaqlar. Məni qarşılayanlar içərisində ilk olaraq atam mənə yaxınlaşdı: "Səninlə fəxr edirəm, oğul! Bu günü uzun illərdi ki, böyük səbirsizliklə gözləyirdim. Şükürlər olsun ki, oğlum döyüşdən qələbə ilə qayıdıb." Xəbərsiz getdiyim üçün düşünürdüm ki, bəlkə, düz hərəkət etməmişəm. Ona görə də atama belə bir sual verdim: "Doğrudanmı mənimlə fəxr edirsən, ata? Əlbəttə, oğul yalnız səninlə deyil, Vətən müharibəsində qəhrəmanlıqla döyüşən bütün igid oğullarımızla fəxr edirəm" – deyərək kövrəldi.***

***Doğma yurdundan didərgin düşmüş bütün qarabağlı ailələr kimi bizim ailədə də Vətən həsrəti, vətən nisgili o qədər güclü idi ki... Nə yaxşı ki, bu gündən sonra ömrümüzə daha şuşalı günlər yazılacaq. Şuşadan bizə torpaq gətirmişdilər. Bir ay keçdikdən sonra həmin torpaq cücərdi, yaşıllaşdı. Şuşa torpağında cücərib baş qaldıran hər bir bitki bizim ailəmizdə böyük sevincə səbəb oldu. Hər səhər duranda Şuşa torpağında cücərən bitkilərə xoşbəxtliklə baxırdıq ki... Bir ovuc torpaq illərdir çəkdiyimiz həsrəti, nisgili unutdurmuşdur."***

Bax, budur Vətən sevgisi, budur torpaq həsrəti. Şuşadan gələn bir ovuc torpağın sevincini yaşayan Vüsalda olan Vətən sevgisi ölçüyəgəlməzdir. Sizin bu sonsuz Vətən sevginiz, torpağa bağlılığınız Qarabağımızı bizə qaytardı.

***Ürək çırpıntısı, qəlblərin səsi,***
***Sonsuz ümmandır Vətən sevgisi.***

Vüsal Abdullayev Qubadlı rayonu uğrundakı döyüş əməliyyatlarında şəxsi şücaət nümayiş etdirdiyinə görə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

## SON SÖZ

Ürəyimdən süzülüb gələn həm kədər, həm sevinc dolu, həm qürur, həm ağrı dolu kəlmələr sıraya düzüldükcə hər birimiz gözlərim önündə canlanırdınız. Sanki hamınız mənə tərəf boylanırdınız, sanki pıçıldayırdınız. Bəs məndən niyə yazmadınız?

Qovrula-qovrula qələmə aldığım sətirlər... Hər sətir arasından boylanan nakam oğullar... Sətirlər arasından qanı axan bir qəlb yarası. Vərəqlərin və sətirlərin arasında bəzən ilişib qalırdım. Ömrünün baharında qalan şəhidlərdən yazanda.

Əziz və dəyərli oxucu! Şuşa şəhidlərinin və qazilərinin şərəfli döyüş yolundan bəhs edən bu kitabı vərəqlədikcə bir daha həmin ağrılı günləri yenidən yaşayacaqsınız.

Nə çətinmiş şəhidlərdən yazmaq. Nə ağır imiş şəhid anası ilə üz-üzə gəlmək... Nə ağrılıymış şəhid balasını dilləndirmək. Nə dəhşətliymiş şəhid sevgilisinin qəmli gözlərinə baxmaq, kədərli xatirələrini eşitmək. Nakam gedən oğulların şəkillərinə baxmaq. Sanki şəkillər danışırlar. Ana oğlu ilə, ata balaları ilə. Belə ağrılarla üz-üzə dayanmaq müəllif üçün nə qədər ağırdır.

Torpağa damcılayan qanınız qanımızı dondurdu... Sizə dəyən güllələr bizim ürəyimizi yaraladı, şəhidlər! Amma axıdılan qanınızın qisası alındı. O tökülən qanlardan Qarabağ torpağında otlar cücərdi, güllər, çiçəklər açdı. Elə sizin qanınızla oyanan torpaqda da ruhunuz əbədi yaşayacaq, şəhidlər! Şəhidlərin qanı hopmuş Vətən torpağı. Bu günə qədər torpağa o qədər qanlar hopmuşdur ki... Birinci Qarabağ müharibəsindən Vətən müharibəsinə qədər. Bütün şəhidlərimizin ruhu bu gün şaddır. Daşaltı faciəsi zamanı qanı o torpağa tökülən oğullarımızın qisası elə Daşaltında alındı.

Şuşamızı azad edən ərənlər müqəddəs himnimizi Şuşanın mərkəzində necə qürurla oxudular. “Şanlı Vətən, şanlı Vətən” kəlmələri belə əzəmətli səslənməmişdi. “Səndən ötrü

can verməyə cümlə hazırız! Səndən ötrü qan tökməyə cümlə qadiriz!" hayqıran ərənlərin gözlərindən qığılcım parıldayırdı. Şəhidlərimizin qisasını alan ərənlərimiz əllərini ürəklərinin üstünə qoyub "Vətən, Vətən!" – deyərək nərə çəkirdilər. Səndən ötrü can verməyə hazır olan "üçrəngli bayrağınla məsud yaşa!" – deyən igidlərin bu bayrağı azad olan torpaqlarda ucaldanda da bax, belə hayqırırdılar. Bu hayqırtı bir zamanlar Qarabağda Vətən uğrunda canlarını fəda edən şəhidlərin ruhlarını da oyandırdı. Həmin anlarda o sevincək ruhlar başınız üzərində gəzirdi, bəlkə. Bu hayqırtı Şuşa uğrunda canlarını fəda edən Azərbaycanın Milli Qəhrəmanları Ramiz Qənbərovun, Rizvan Teymurovun, Nizami Məmmədovun, Sadıq Hüseynovun narahat ruhlarını oyandırdı. Sanki onlar da oyanan torpaqdan, azad Şuşa torpağından baş qaldıraraq səsinizə səs verdilər, "Qisasımızı aldınız! Axı biz bunu çoxdan gözləyirdik" – dedilər. Qarabağ torpağında illərdir ki, uyuyan şəhidlərin narahat ruhları bir-birinə qarışıb, səsinizə səs verdi, ərənlər!

**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**

Möhtəşəm himnimizdə deyildiyi kimi şərəfimizi, namusumuzu, azadlığımızı, bir sözlə, Azərbaycanımızı əbədi qorumağa hazır olan övladların səni sevindirdi, Vətən!

Torpağa daman hər damla qanınız müqəddəsdir, ərənlərimiz!. İşğaldan azad olan o müqəddəs torpaqlardan hər kəs bir ovuc torpaq gətirirdi. O torpağı əlinə alan, qoxulayan hər kəs sevinc göz yaşlarını saxlaya bilmirdi. Axı bu adi torpaq deyildi. O torpaqlarda igid oğullarımızın hər birinin ayaq izi vardı. Vətən boyda ürəyi olan oğullar. Doğma el-obasını azad edərək sevinclə valideynlərinə bir ovuc torpaq gətirən oğulların çoxu heç Qarabağı görməmişdilər.

Qarabağı Sizlər aldınız! Qarabağı döyüş meydanlarında əllərini, ayaqlarını, gözlərini, yaddaşını itirən, kim olduğunu xatırlamayan, dili, qulaqları batan oğullar aldı. Qarabağı yastığı ***VƏTƏN DAŞI*** olan oğullar aldı. Qarabağı başına qara bağlayan, gözünün yaşı qurumayan anaların şəhid oğulları aldı. Qarabağı bir zamanlar analarının qucağına sığınıb gələn, körpə əlləri ilə analarının əllərindən tutan, amma düşmənə nifrət hissi ilə Vətəni tərk etməyə məcbur olan balalarımız aldı. Siz qollarınızı itirdiniz, amma Qarabağın qolundan tutdunuz. Siz qollarınızı itirdiniz, amma Qarabağa qol verdiniz. Ayağınızı itirdiniz, amma o müqəddəs torpaqlara ayaq basmağımıza səbəb oldunuz. Vətəni ayaq üstə qaldırdınız. Azərbaycanın döyünən ürəyi Qarabağ idi. Siz Vətənin ürəyini özünə qaytardınız. Siz əzalarınızı Vətənə bağışladınız. Ürəyinizdə yarımçıq arzularınız qalsa da, ürəyinizi Qarabağa verdiniz. Bu döyüşlərdə qopan qolunu əlinə alıb, irəli gedən oğullar gördük. Əfsanələrdə oxumuşduq belə igidlikləri. Sizlər Qarabağ müharibəsi ilə həmyaşıd idiniz. Qəhrəmanlığın ilk sətirlərini hələ körpəlikdə, orta məktəbin aşağı siniflərindən yaza-yaza, oxuya-oxuya gəldiniz. Saf ürəklərinizə yazdınız gələcəyin qəhrəmanlıq sətirlərini. Xocalı faciəsindən inşa yazanda qəlbinizə yazdınız bu qəhrəmanlıq sətirlərini.

Sizlər böyük bir zəfər tarixi yazdınız. Sizlər əbədiyyət tarixini nəsillərə ötürdünüz. Sizlər Vətən daşı oldunuz. Vətənin dağlarından qopan Vətən daşı oldunuz. Vətən adlı nəğməni sevə-sevə oxudunuz. Sizlərin tale yolunuza işıq saldıqca özüm-özümə utanırdım. Bəs mən Vətəni sizin qədər sevmişəmmi, tərənnüm edə bilmişəmmi?

## DAĞIDILMIŞ ABİDƏNİN FƏRYADI
### *(bir pərdəli dram əsəri)*

Şuşanın Cıdır düzü, səhərdir, hərdən axışan seyrək duman Vaqifin abidəsinin üzərindən keçir. ətrafda bir sakitlik hökm sürür.

**Molla Vəli Vidadinin səsi:**
– Vaqif! Səndən cavab almaq dönüb tilsimə,
Hardasan, cavab ver, mənim səsimə!

**Məzardan səs: (Vaqif)**
– Bu səs tanış səsdir, uzaqdan gəlir,
Vidadi yaşayan Qazaxdan gəlir.

**Molla Vəli Vidadinin səsi:**
Hardasan, cavab ver, mənim səsimə!

**Məzardan səs: (Vaqif)**
– Yox, yox yanılıram, bu ola bilməz,
Şair Vidadinin səsidir bu səs.
Mən səsin səini eşitdim ustad,
Nə yaxşı sən məni eyləmisən yad.
Sağım da, solum da xain erməni,
Çirkin əməlləri öldürür məni.

**Molla Vəli Vidadinin səsi:**
– Sənsiz ömr eləmək, yaşamaq heçdi,
Yazdır, göyümüzdən durnalar keçdi.
Bilirsən, bu dəfə mən necə coşdum?
Qərib durnalara nəğmələr qoşdum.

Göylərdə ah-nalə, fəğan qoparın,
Hələ xəbəri yox bundan çaparın.

Sürbənizi başqa səmtə aparın.
Xain ermənilər vurarlar sizi,
Göydə bircə-bircə qırarlar sizi.

Vaqif, heç vaxt yaddan çıxarma bizi,
Gətir xəyalına deyişməmizi!...
Mehrin, məhəbbətin gəzdi canımda,
Heyif ki, heyif ki, yoxdun yanımda.
Gəlib sən yuxuma girdin o gecə,
Tükəzban xalan da darıxır necə!
Eh, ömrün şaxtası, buzu, qarı var,
Sənə çox səmimi salamları var.
Gördüm ermənilər incidir səni,
Bir dığa xəncərlə yarır sinəni.
Hövlnak ayıldım, yuxudan qalxdım,
Dayanıb nə qədər yollara baxdım.
O gündən ürəyi, qəlbi viranam,
Səndən nigaranam, çox nigaranam.

**Məzardan səs: (Vaqif)**
– Dostum, nə zamandır bağlıdır yollar,
O yolu açacaq igid oğullar.
Yerə, göyə sığmır elin dərdləri,
Mən belə bilməzdim bu namərdləri.
Bağları qırdılar, həddi aşdılar,
Elin namusuna bərk sataşdılar.
Məğzi də, canı da budur sözümün,
Bir az səbrin olsun, bir az dözümün.
Bu yükü millətim daşıya bilməz,
Qarabağ dustaqda yaşaya bilməz.

**Molla Vəli Vidadinin səsi:**
– Bir quşam, elə bil qalmışam dənsiz,
Burada yaşaya bilmərəm sənsiz.

***(Bir erməni generalı, bir neçə əli baltalı, külünglü əsgər abidəni dövrəyə alırlar)***

***Erməni generalı (istehzayla):***
– Bir az əl saxlayın, bir az dayanın,
Vaqif şairidir Azərbaycanın.
Görün, nə qürurla baxır bu hərif!
Külli Qarabağı edirdi tərif.
Qazax mahalından olsa da özü,
Bizim Qarabağdan hər şirin sözü.
"Gözə Qarabağın abi-həyatı,
Nərmə-nazik bayatıdır, bayatı".
Böyük Qarabağı öz təni bilib,
Ən əziz, doğmaca Vətəni bilib.
Mənim sənətkara çox hörmətim var,
Ancaq sizlərə də nəsihətim var.
Mən təkcə demirəm Cıdır düzündə,
Bir türk abidəsi yerin üzündə,
Gərək görünməsin, gərək qalmasın,
Qarabağ elində heç ucalmasın.
Gizlədilsə belə torpağın altda,
Abidə ən böyük şahid həyatda.
Qoy dünya eşitsin külüng səsini,
Dağıdın Vaqifin abidəsini.

**Məzardan səs: (Vaqif)**
(eşidilən səs erməniləri qorxuya və təvişə salır)
– Namərd balaları, durun bir anlıq,
Çirkin əməliniz ancaq nadanlıq.
Atın külüngləri əl saxlayın, əl!
Tarixə ləkədir bu murdar əməl.
Təhqir etsəniz də min dəfə məni,
Axı yaradan var bu abidəni!
Qurub yaradanı sevməyən bir kəs,
İnsanlıq adını daşıya bilməz.

***Səməd Vuğunun səsi:***

– Ey qəlbləri xain, vicdanları dar,
Vaqif böyük insan, böyük sənətkar.

Kim hörmət etmirsə bir sənətkara,
Bəşərin bağrında sağalmaz yara.
Xalqlar dostluğundan yazıbdır hər an
Bizim Axundovla sizin Abodyan.
Caniyə döndünüz neçin hamınız,
Bumu sənətkara ehtiramınız?!
Vaqif əsərimin qəhrəmanıdır,
Mənim şeirimin də ruhu, canıdır.

***Erməni generalı:***
– Səməd Vurğunundu eşidilən səs,
Bu xəbər şairə hardan çatdı bəs?!
Şair qarşısında dilsizəm, lalam,
Mən hərbçi adamam, mən generalam.
Dağıdır, öldürür, alıram qisas,
Erməni xalqına bunlardır əsas.
Əbəs yerə deyil bu qeylü-qallar,
Bizi aldadammaz şirin xəyallar.

***Səməd Vuğunun səsi:***
– Yox, yıxmaq, öldürmək deyil kişilik,
Vəhşilik deyilir buna, vəhşilik.
Ey cənab general, yaxşı bilin siz,
Tarix qarşısında cavabdehsiniz.
Görürəm, o günlər tez gələcəkdir,
Dünya üzünüzə tüpürəcəkdir.
***Erməni generalı:***
– Vurun baltaları, qaldırın, vurun!

***Səməd Vuğunun səsi:***
– Yox, insaf eyləyin, dayanın, durun!

***(Erməni əsgərləri abidəni dağıtmağa başlayırlar)***
Baltaydı, külügdü, bilmirəm nəydi,
Şairin hayqıran qəlbinə dəydi.

***Məzardan səs (Vaqif):***
– Dağıdın, dağıdın məzarımı siz,
Yoxdur ürəyiniz, yoxdur hissiniz.
Görürəm qəlbiniz necə kiçik, dar,
Mən sizi bu qədər bilməzdim qəddar.
Yıxın heykəlimi, dağıdın, yıxın,
Qəbir daşlarının sonuna çıxın.
Xalqın qəlbindəsə heykəlim vardır,
Onu görməyən kor, ya da ki kardır.
Çox mundar olsa da hər əməliniz,
O böyük heykələ çatmaz əliniz.
Səsimi eşitsin qoy bütün ellər,
Hanı tanıdığım qüdrətli əllər?!
İndi kainat da gözlərimdə dar,
Mənə cavab verin, hardadır Eldar!
Vaqifdir yaşayan yenə də darda,
Səsimə cavab ver, hardasan harda?!
Əgər qurtarmasan Vaqifi dardan,
Yoxdur umacağı pərvərdigardan.

***Eldarın səsi:***
– Şair, dinlə məni çoban Eldaram,
Mən sənin yanında həmişə varam.
Hücuma hazıram dəstələrimlə,
Neçə igidimlə, neçə ərimlə.

***Erməni generalı:***
– Ara, qulaq verin, bu səslər hardan,
Gəlib asacaqlar hamını dardan.
Eldarın gücünə gücümüz çatmaz.
Ona qılınc vursan qılınc da batmaz.
Eldarın dəstəsi qalaya yaxın,
Tez olun, tez olun, aradan çıxın!

*(Erməni generalı başda olmaqla əsgərlər qaçmağa başlayırlar. Dağıdılmış abidə yenidən öz yerində bərqərar olur)*

***Eldar görünür:***
– Möhtərəm şairə salamlar olsun,
Bu dünya durduqca o da var olsun!

***Məzardan səs (Vaqif):***
– Səsimi eşitdin, çox sağ ol, Eldar,
Düşmənin yerini dar eyləyin, dar.
Eldar, sözlərimi deyirəm bir də,
Elin qisasını qoymayın yerdə.
Geriyə qaytarın o şöhrət-şanı.
O murdar əllərdən alın Şuşanı!
Ellərin ən yaxın dostu, yarı siz,
Külli Qarabağın xilaskarı siz!

***Eldar:***
– Vaqif, sözlərimə qəlbən inanın,
Doğma Qarabağım Azərbaycanın.
Onun hər qarışı doğma, müqəddəs,
Ürək bədənindən ayrıla bilməz!
Qoy qalxsın göylərə üçrəngli bayraq,
Düşmənə verilməz bir qarış torpaq!
Qalxın, igidlərim, siz Cuma-Cuma,
Üç yandan, dörd yandan keçin hücuma!

*(Cəngi sədaları altında Eldarın dəstələri rəqs edir. Sonra hücum marşı ilə hücum əməliyyatları başlanır).*

***Səs:***
– Dinləyin, bu nə səs, gəlir Qaladan
Qarabağ qurtuldu dərddən , bəladan!...

## Şair Zəlimxan Yaqubun
## "Bu gecə yuxuma girmişdi Şuşam" şeirinə cavab

Ay Zəlimxan Yaqub, gözlərin aydın,
Vətən dərdlərini ömrünə yaydın.

Bu gecə yuxuna girdimi Şuşa,
Arzusu çiçəkli, o gülü qoşa?

Qoy ruhun sevinsin, şad olsun ustad,
Sevindirim səni, qoy eyləyim şad.

Deyirdin yuxuna girmişdi Şuşa,
Dönmüşdü qanadı qırılmış quşa.

"Cabbar ağlayırdı, Xan ağlayırdı,
Qarabağ başdan-başa qan ağlayırdı".

Daha Cabbarla Xan ağlamayacaq,
Zülfünün qəlbi qan bağlamayacaq.

Narahat qalmasın şair Zəlimxan,
Sevindi Sadıqcan, Zakir, Bülbül, Xan.

Üzeyir dühası əbədi, ölməz,
Mir Mövsüm ocağı heç zaman sönməz.

Pənah xan qəzəbdən daha titrəməz,
Seyidin qəlyanı qəmlə "kükrəməz".

Natəvan ah çəkib ağılar deməz,
Tənhalıqdan bezib daha qəm yeməz.

Üzü güləcəkdir Natəvanımın,
Şuşada sevinən ruh-rəvanımın.

Daha alovlanmaz Vaqifin ruhu,
Ərşə qalxmaz göyə naləsi, ahı.

Vidadi Qazaxda qalxıb məzardan,
Şikayət eyləməz belə güzardan

Əlini uzadıb Vaqifə sarı,
Daha azad görər o torpaqları.

Deyər ki, əziz dost, qurtardın dardan,
Yoxdu umacağım pərvərdiyardan.

Mahnı bayramıdır yenə Şuşada,
Şükür bu arzular bizi yaşada.

Cəngi sədaları Cıdır düzündə,
Belə sevinc olmaz heç Yer üzündə.

Topxanaya yayılıbdı səs-səda,
O xoş günlər gəlib düşübdü yada.

Gözü yaşlı deyil sarı bülbülün,
Cıdır düzündəki Xarı bülbülün.

İsa bulağı qan ağlamayacaq,
Kirs dağı uzaqdan yan baxmayacaq.

Şuşaya yayıldı muğamat səsi,
O Xan babamızın gurlu nəfəsi.

Deyirdin qurtarın Şuşanı dardan,
Eşit bu gələn səs bəs gəlir hardan?

İgidlərin səsi gəlir Qaladan,
Şuşamız qurtuldu dərddən, bəladan.

Səsini eşitdi nər igidlərin,
Elin xilaskarı ər igidlərin.

Qalxdı igidlərin hey cuma-cuma,
Dağlara dırmaşdı, keçdi hücuma.

Şuşamız dustaqda yaşayanmazdı,
Bu yükü millətim daşıyanmazdı.

Düşmənə qalmadı müqəddəs torpaq,
Bax, qalxdı göylərə üçrəngli bayraq.

Qoy ruhun sevinsin, şadlıqla dolsun,
Rahat yat, gözlərin qoy aydın olsun.

Vətən, hər qarışın doğma, müqəddəs,
Ürək bədənindən ayrıla bilməz!

Şair sözlərimə qəlbən inanın,
Doğma Qarabağın Azərbaycanın.

Geriyə qaytardıq o şöhrət-şanı,
Yağı əllərindən aldıq Şuşanı.

## *M Ü N D Ə R İ C A T*


Müəllifdən . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .3
Şuşa şəhidləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .15


## ŞUŞALI ŞƏHİDLƏR


Şəhidlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .19
Nurlan Nadir oğlu Həsənov . . . . . . . . . . . . . . . . . . . . . . .21
Əzəmi Əli oğlu Hüseynov . . . . . . . . . . . . . . . . . . . . . . . .29
İsrafil Zülfüqar oğlu İbrahimov . . . . . . . . . . . . . . . . . . .36
Bəxtiyar İlqar oğlu Aslanov . . . . . . . . . . . . . . . . . . . . . .44
Azər Dilafət oğlu Əliyev . . . . . . . . . . . . . . . . . . . . . . . . .51
Dünyamin Ramin oğlu Tağızadə . . . . . . . . . . . . . . . . . . . .58
Pərviz Şakir oğlu Məmmədov . . . . . . . . . . . . . . . . . . . . . .64
Allahverdi Əli oğlu Allahverdiyev . . . . . . . . . . . . . . . . .71
Samir Şamil oğlu Ələkbərli . . . . . . . . . . . . . . . . . . . . . . .78


## ŞƏHİD ŞAGİRDLƏRİM


Yasən Yelmar oğlu Əhmədov . . . . . . . . . . . . . . . . . . . . . .87
Elvin Azim oğlu İsizadə . . . . . . . . . . . . . . . . . . . . . . . . . .98


## VƏTƏN MÜHARİBƏSİNİN
## ŞUŞALI QAZİLƏRİ VƏ İŞTİRAKÇILARI


Səbuhi Salam oğlu Abdullayev . . . . . . . . . . . . . . . . . . . . .105
Hüseyn Elxan oğlu Ələkbərli ("Şuşa qartalı") . . . . . . . . . . .114
Cümşüd Şünasi oğlu Babayev . . . . . . . . . . . . . . . . . . . . . .120
Eldəniz Maarif oğlu Əliyev . . . . . . . . . . . . . . . . . . . . . . .127
Hüseyn Fərman oğlu Cəfərov . . . . . . . . . . . . . . . . . . . . . .135

Nurani Əvəz oğlu Mikayılov . . . . . . . . . . . . . . . . . . . . . . .140
Lətif Əvəz oğlu Mikayılov . . . . . . . . . . . . . . . . . . . . . . . . .146
İsmət Siyavuş oğlu Vəliyev . . . . . . . . . . . . . . . . . . . . . . . .147
İbrahim Məmməd oğlu Məmmədzadə . . . . . . . . . . . . . . . . .152
Nicat Sərdar oğlu Eyvazlı . . . . . . . . . . . . . . . . . . . . . . . . . .157
Rahib Əkbər oğlu Məmmədov, Xuda Əkbər oğlu
Məmmədov . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .164
Bəhruz Etibar oğlu Məmmədov . . . . . . . . . . . . . . . . . . . . . .169
Ülvi Səbuhi oğlu Rüstəmli . . . . . . . . . . . . . . . . . . . . . . . . .174
Orman Ələddin oğlu Vəliyev . . . . . . . . . . . . . . . . . . . . . . . .180
Elvin Aqil oğlu Məmmədov . . . . . . . . . . . . . . . . . . . . . . . . .184
Araz Ələmşah oğlu Rəhimov . . . . . . . . . . . . . . . . . . . . . . . .189
Yasin Məhəddin oğlu İbrahimov . . . . . . . . . . . . . . . . . . . . .194
Səlahəddin Azay oğlu Mirzəliyev . . . . . . . . . . . . . . . . . . . .198
Asim Ayaz oğlu Cəfərov . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .204
Eminbəy İlham oğlu Səfərov . . . . . . . . . . . . . . . . . . . . . . . .208
Faiq Xəyyam oğlu Məmmədli . . . . . . . . . . . . . . . . . . . . . . .215
Kamran Kamil oğlu Məmmədov . . . . . . . . . . . . . . . . . . . . . .222
Fərid Əhsən oğlu Quliyev . . . . . . . . . . . . . . . . . . . . . . . . . .229
Bəxtiyar Camal oğlu Məhərrəmov . . . . . . . . . . . . . . . . . . . .237
Ayxan Ceyhun oğlu Əliyev . . . . . . . . . . . . . . . . . . . . . . . . .241
Nicat Yavər oğlu Sevindiyev . . . . . . . . . . . . . . . . . . . . . . . .246
Kənan Rabil oğlu Abbasov . . . . . . . . . . . . . . . . . . . . . . . . .250
Vüsal İlqar oğlu Abdullayev . . . . . . . . . . . . . . . . . . . . . . . .254
Son söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .258
Dağıdılmış abidənin fəryadı . . . . . . . . . . . . . . . . . . . . . . . .261
Şair Zəlimxan Yaqubun "Bu gecə yuxuma girmişdi Şuşam"
şeirinə cavab . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .267

**Texniki redaktoru Zümrüd QAFARLI,**
**Korrektorları Sona MƏMMƏDLİ, Xatirə İDRİSOVA.**

Yığılmağa verilmiş 11.X.2021.
Çapa imzalanmış 29.XI.2021.
Kağız formatı 84x108 1/32. Şərti çap vərəqi 17.
Fiziki çap vərəqi 16,5. Tirajı 1000. Sifariş 7.

---

«Şuşa» nəşriyyatı, 370146. Bakı, Mətbuat prospekti,
529-cu məhəllə, III mərtəbə, 117-ci otaq.